**Hüseyn Əlizadə (Barış Mərəndli)**

# "21 AZƏR" SOYQIRIMI

## (1946-1947-ci illərdə Cənubi Azərbaycanda kütləvi qırğınlar)

**Bakı - 2017**

*Kitab Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*

*Fars dilindən tərcümə edən:* **Saleh Dostəliyev**

*Elmi redaktorlar:*
**Səməd Bayramzadə**, *tarix üzrə fəlsəfə doktoru*
**Əkrəm Rəhimli (Bije)**, *iqtisad üzrə fəlsəfə doktoru*

**Hüseyn Əlizadə (Barış Mərəndli).**
**“21 Azər” soyqırımı (1946-1947-ci illərdə Cənubi Azərbaycanda kütləvi qırğınlar)”.** Bakı, “Elm və təhsil” nəşriyyatı, 2017, 376 səh.

*Oxuculara təqdim olunan kitab Pəhləvi şah rejimi dövründə İranda öz milli və mədəni hüquqlarını qorumaq uğrunda mübarizəyə qalxmış və Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi ilə 12 dekabr (şəmsi təqvimi ilə “21 Azər” günü) 1945-ci il tarixində Milli Hökuməti qurmuş xalqımıza və onun vətənpərvər övladlarına qarşı 1946-47-ci illərdə rejim tərəfindən soyuqqanlılıqla və qəddarlıqla törədilən kütləvi qırğınlar, qətl və qarətlərin tarixi təhlilinə həsr edilib. Bugünə qədər az məlum olan, elmi ədəbiyyatda kifayət qədər işıqlandırılmayan, sözün əsl mənasında soyqırım mahiyyəti daşıyan bu olaylar haqqında məlumat toplamaq məqsədi ilə müəllif hadisə iştirakçıları və şahidlərinin xatirələrindən, uzun bir dövr ərzində çap edilmiş müxtəlif və çoxlu sayda mətbuat orqanları səhifələrindəki materiallardan, həmin hadisələri əks etdirən gizli hərbi və polis raportlarından, 1941-1946-cı illərdə Cənubi Azərbaycanda milli-demokratik hərəkata həsr edilmiş elmi-tədqiqat əsərlərindən istifadə etmişdir. Kitab tarixçi alimlər, tələbələr və xalqımızın tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

ISBN 978-9952-8312-8-3

©AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2017

*Mir Cəfər Pişəvərinin və*
*soyqırıma məruz qalmış şəhidlərin*
*əziz xatirəsinə ithaf olunur.*

## Güneydəki qanlı hadisələr haqqında kitab

Gələn il erməni daşnak qüvvələrinin 1918-ci ildə Azərbaycan xalqına qarşı törətdikləri soyqırımın 100 illiyi tamam olur. Bu tarix Arazın şimalında və cənubunda – Bakıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Şamaxıda, Göyçayda, Ərəşdə, Salmasda, Urmiyada və vətənimizin digər bölgələrində baş verən qanlı və faciəli hadisələri bir daha yaddaşımızda canlandırmağa, erməni cinayətlərini və vəhşiliklərini ifşa etməyə, xalqımızın verdiyi on minlərlə qurbanların ruhunu ehtiramla anmağa sövq edir. Eyni zamanda, bu hadisə bizi XX yüzillikdə Azərbaycan xalqının başına gələn digər faciələri də yada salmağa, onları tarixi cəhətdən öyrənməyə və onlara mənəvi qiymət verməyə vadar edir. Belə ağrılı, ancaq eyni zamanda bugünədək naməlum qalan milli faciələrimizdən biri Cənubi Azərbaycanda şah rejimi tərəfindən Azərbaycan xalqının azadlıq hərəkatının qan içində boğulması və 1946-1947-ci illərdə soydaşlarımıza qarşı kütləvi qırğınların həyata keçirilməsi hadisələridir. Hüseyn Əlizadənin (Barış Mərəndli) fars dilində qələmə aldığı və ana dilimizə çevrilən bu kitabı məhz qeyd olunan məsələyə həsr edilib və Cənubi Azərbaycanda Pəhləvi rejimi tərəfindən xalqımıza qarşı törədilmiş çoxsaylı vəhşi cinayətlər, zorakılıqlar və kütləvi qırğınlar barədə ətraflı məlumat verir.

1946-cı ilin sentyabrında, Cənubi Azərbaycan milli-demokratik hərəkatının məğlubiyyəti ərəfəsində Tehranda şahın, dövlət və hökumət nümayəndələrinin, ali rütbəli hərbçilərin, o cümlədən

bəzi satqın azərbaycanlı şahpərəst tayfa başçılarının iştirakı ilə keçirilən toplantıda Azərbaycana və Milli hökumətə qarşı hücum planı hazırlanmışdır. Bu toplantıda şah ordusunun hissələri Təbrizə çatana qədər yerlərdəki şahpərəst quldurların əli ilə kütləvi qırğınların, zorakılıq və talanların necə, harada və kimlər tərəfindən icra ediləcəyi öncədən planlaşdırılmışdı. Hücuma keçən hərbi hissə Təbrizdən çox da uzaq olmayan "Şəbli gədiyi" adlı yerdə 24 saatdan çox bir müddətə ləngimişdi və bunun da səbəbi o idi ki, yerlərdəki silahlı şahpərəst quldur dəstələrinə əl-qol açmağa və Azərbaycanı başdan-başa qan dəryasına çevirməyə imkan yaradılsın. Bu qatil dəstələrinin və hərbçilərin cinayətləri nəticəsində on minlərlə azərbaycanlı vəhşiliklə qətlə yetirilmiş, Azərbaycanın azadlığı qan içində boğdurulmuşdu.

Bu hadisələr müəyyən dərəcədə Azərbaycanda, İranda, Avropada, ABŞ-da çap edilmiş bir sıra kitablarda, məqalələrdə, informasiya vasitələrində öz əksini tapmışdır. Ancaq cənubda xalqımızın başına gələn bu qanlı faciənin hələ də bir çox öyrənilməmiş və qaranlıq tərəfi qalmaqdadır. Oxuculara təqdim olunan bu kitab, 1946-1947-ci illərdə Pəhləvi rejimi tərəfindən Cənubi Azərbaycanda törədilmiş qanlı cinayətlərin xeyli dərəcədə işıq üzünə çıxarılmasına yardım edir və yeni, bugünə qədər bilinməyən tarixi məlumatlar təqdim edir.

1946-cı ilin sonunda Azərbaycana daxil olmuş şah orusunun 1947-ci il ərzində azərbaycanlılara qarşı törətdikləri misli görünməmiş soyqırımı əks etdirən və ciddi axtarışların nəticəsində başa gələn bu kitabı əsəb gərginliyi keçirmədən oxumaq mümkün deyil. Əsərini əsl vətənpərvərlik hissi ilə hazırlayan müəllif, soyqırımla əlaqədar faktları toplamaq üçün İranın bir sıra şəhərlərini, bölgə və kəndlərini bir-bir gəzərək, şəhidlik zirvəsinə ucalmış insanlar haqqında yerli sakinlərdən, hadisələrin canlı şahidlərindən, dövrün mətbuat səhifələrindən yetərincə məlumat toplaya-

raq, bu kitabı ərsəyə gətirmişdir. Bu baxımdan kitabın hazırlanmasında yol verilən bəzi texniki qüsurlar müəllifin elmi fədakarlığı və vətəndaşlıq mövqeyi qarşısında olduqca kiçik görünür. Əsərlə tanış olarkən müəllifin tarixi keçmişimizə sıx bağlılığına və xalqımızın aydın gələcəyinə olan inamına şahid oluruq. 70 ildən sonra işıqlandırılmasına ehtiyac duyulan bu qanlı hadisələri gündəmə gətirməkdə məqsəd 25 min nəfərdən çox şəhidimizin müqəddəs ruhlarına dərin hörmətimizi bir daha ifadə etməkdir. Ancaq bununla yanaşı, həm də bu faciəni bugünkü və gələcək nəslin şüur və yaddaşına, təfəkkür və düşüncəsinə həkk etdirmək və beləliklə, gələcəkdə bir daha belə ağrılı hadisələrin xalqımızın taleyində təkrar olunmasına imkan verməməkdir. Fikrimizcə, tariximizin şanlı mübarizə və eyni zamanda acı məğlubiyyət dövrünü canlandıran bu kitaba məhz bu baxış bucağından qiymət verilməlidir.

*“Azərbaycan xalqı firqəmizin və şəhamətli fədailərimizin yalnız Azərbaycana deyil, bütün İrana etdiyi tarixi xidmətləri illərlə, yüz illərlə yad edəcəkdir.”*
(Mir Cəfər Pişəvəri)

# Giriş

Mir Cəfər Pişəvərinin rəhbərliyi altında yaradılmış Azərbaycan Demokrat Firqəsi (partiyası) 21 Azər 1324-cü ildə (12 dekabr 1945) Azərbaycan[1] xalqının milli hökumətinin təşkil edilməsi ilə bağlı on illər boyu daşıdığı röyanı reallığa çevirdi və bu hökumət təşkil edildikdən sonra Azərbaycan cəmiyyətində əsas islahatları həyata keçirdi. Bu hökumət Azərbaycan dilini rəsmi dövlət dili dərəcəsinə yüksəltdi və hakimiyyətdə olduğu illərdə Azərbaycanda mədəniyyət, sosial və iqtisadi sahələrdə islahatları həyata keçirməyə başladı. Bu islahatlar o dövrdə Azərbaycan xalqının bir çox ehtiyaclarına cavab verirdi.

Təəssüflər olsun ki, bu islahatlar mərkəzi hökumətin və onun Azərbaycandakı himayədarlarının ürəyincə deyildi və onlar bu hökumətin həyata keçirdiyi islahatlar yolunda maneələr və böhranlar yaratmağa başladılar. Onlar bütün yollarla bu yeni qurulmuş hökuməti zəiflədib məhv etmək istəyirdilər. Azərbaycan Milli Hökumətinin bir ildən sonra mərkəzi hökumətlə müqavilə imzalamasına və bu müqaviləyə əsasən hər iki tərəfin bu müqavilənin icrasına tərəfdar olmasına baxmayaraq, mərkəzi hökumət yaranmış fürsətdən istifadə edərək 1325-ci ilin azər ayında (dekabr 1946), Azərbaycanın milli bayramı günündə beynəlxalq qüvvələrin, o cümlədən ABŞ və İngiltərənin köməyi və yardımı

[1] Bundan sonra Azərbaycan və Azərbaycan xalqı dedikdə Cənubi Azərbaycan və onun əhalisi nəzərdə tutulacaqdır .

ilə Azərbaycana hücum etdi və Azərbaycanda məqsədli bir soyqırımı həyata keçirtdi. Minlərlə adam dar ağacından asıldı və çoxlu sayda mülki adamlar İranın cənubuna sürgün edildilər. Mərkəzi hökumət eyni zamanda Azərbaycanda bir mədəni soyqırımı da həyata keçirdi. Azərbaycan dilində olan minlərlə kitab şəhərlərin meydanlarında yandırıldı, ana dilində olan məktəblərə od vuruldu. Mərkəzi hökumət Səttarxanı Məşrutənin ildönümündə şəhid etdiyi kimi Azərbaycan Milli Hökumətini də, onun yarandığı gündə yıxdı və vəhşi bir soyqırımı həyata keçirdi. O bunu ona görə etdi ki, bayram sevinci soyqırım acısı və matəmi ilə üst-üstə düşsün və bu günü də Məşrutənin ildönümü kimi yadlardan və xatirələrdən silsin.

Azərbaycan xalqının qəmli 12 dekabr 1946-cı il soyqırım hadisəsi irqçi, aryapərəst tarixçilər və araşdırmaçılar tərəfindən elə təhrif edilmiş və saxtalaşdırılmışdır ki, sanki tarixin toz-torpağı içərisində itmişdir. Hətta, orta məktəblərin müasir İran tarixində Azərbaycan Milli Hökuməti və bu böyük hadisə haqqında “Mir Cəfər Pişəvərinin Azərbaycandakı çaxnaşması” kimi naqis bir cümlə qeyd olunmuş, minlərlə azərbaycanlının şəhid olmasından, minlərlə Azərbaycan türkünün həbs olunması və İranın iqlim şəraiti ağır olan cənub əyalətlərinə sürgün edilmələrindən bir kəlmə belə yazılmamışdır. 1979-cu il islam inqilabından əvvəl Azərbaycan xalqının soyqırım ildönümü bəşəriyyət əleyhinə cinayətin və Azərbaycanda soyqırımın və müharibə cinayətlərinin icraçısı olan Pəhləvi hakimiyyəti tərəfindən Azərbaycan azadlıqsevənlərinin əhval-ruhiyyəsini əzmək məqsədi ilə hər il hərbi parad keçirməklə təntənə ilə bayram edilirdi. Bu bayram ona görə əzəmət və təntənə ilə keçirilirdi ki, şəhidlərin ailələri və mübariz insanlar bu hadisələrin təqsirkarının Azərbaycan Milli Hökuməti olmasına və ordunun doğrudan da Azərbaycanı düşmənlərdən xilas etməsinə inansınlar.

1979-cu il inqilabından sonra bu əzəmətli hadisə haqqında susmaq İslam respublikası hökumətinin mədəniyyət və incəsənət "kargüzarlarının" stratejisinə çevrildi. Lakin Azərbaycan Respublikası istiqlaliyyət əldə etdikdən sonra bu susqunluğa son qoyuldu. Arazın o tayında baş vermiş hadisələrin bu taya təsiri ilə bu sükut muzdlu tarixçilər və araşdırmaçılar tərəfindən pozuldu. Onlar yenidən 1946-cı il dekabr hadisələrini öz baxış bucaqlarından yazmağa başladılar. Onlar Azərbaycan Milli Hökumət rəhbərlərini yolunu azmaqda günahlandırıb, onların xaricilərlə bağlı və ya xarici dövlətlərin alətləri kimi qələmə verdilər. Onların bu təhrif olunmuş tarixçiliyi hətta Azərbaycan millətinin şüurunun alçaldılması və təhqir olunmasına qədər irəlilədi. Onlar hadisələri elə işıqlandırdılar ki, guya o dövrdə Azərbaycan millətinin heç bir iradəsi yox idi və o, özü üçün bir qərar qəbul edə bilmirdi. Bunlardan əlavə, onlar xalqın ən yaxşı övladlarını xaricilərə muzdurluqda və casusluqda ittiham etdilər. Belə bir vəziyyətdə gənc milli fəallar 1945-1946-ci illər hadisələrini yenidən tədqiq edib, araşdırmağa başladılar. Onlar bu hadisələr haqqında axtarışlar aparmaqla bu faciələrin gizli qalmış məqamlarını üzə çıxardılar və anladılar ki, 1945-1946-ci illərdə bu xalqın övladları yalnız öz xalqının müqəddəratını və hüququnu təyin etmək istədiklərinə görə soyqırıma məruz qalmışlar.

Gənc milli fəallar şəmsi tarixi ilə XIV əsrin 70-ci illərindən sonra (miladi tarixi ilə XX əsrin 90-cı illərindən sonra) milli özünüdərketmə yolunda yeni addımlar atdılar, Azərbaycanın müasir tarixinin qaranlıqda qalmış məqamlarına işıq saldılar və nəticədə, "aryapərəst" tarixçilərin, irqçi alimlərin yalanları üzə çıxdı.

1946-cı il dekabrın 12-də Azərbaycan xalqına qarşı edilmiş fiziki və mədəni soyqırım o qədər faciəli və insanı riqqətə gətirən idi ki, hətta soyqırımı həyata keçirənlərin keçmiş himayəçiləri (ABŞ-dan olan hakim Vilyam Duqlas) Azərbaycana səfər etdik-

dən sonra “sanki Azərbaycan xarici ölkənin ordusu tərəfindən işğal olunmuşdur” – deyə etiraf etmişdi.

Bu hadisələrin soyqırım kimi tanınması üçün 1946-cı il dekabrın 12-də baş vermiş hadisələrin bir epizodunu göstərmək kifayətdir ki, XX əsrdə Azərbaycan xalqına qarşı edilmiş qırğın qətiyyətlə bütün tələblərə cavab verən soyqırım hadisəsi kimi təqdim edilsin. Bu, Səmirin kəndinin 17 nəfər silahsız kəndlisinə qarşı törədilmiş cinayətdir. Belə ki, İran ordusunun xəbəri ola-ola hərbçilər onların başını kəsmiş, bədənlərini isə çölə atmışdılar.

Biz bu kitabda çalışmışıq ki, baş vermiş hadisələri, cinayətləri araşdırmaqla 1946-ci ildə dünyanın gözü qarşısında və bəzi azadlıq iddiasında olan dövlətlərin, o cümlədən ABŞ və İngiltərənin himayədarlığı ilə Cənubi Azərbaycanda aşkar şəkildə bir soyqırımın baş verdiyini göstərək. Çünki dünyanın azadlıqsevən insanları bu soyqırımdan xəbərsizdirlər.

Bu əsər yerlərdə əyani olaraq aparılmış bir təhqiqat əsəri deyildir, əksinə məhdud bir kitabxana işidir və bəlkə də çoxlu nöqsanları vardır. Bu nöqsanlar kitab nəşr olunduqdan sonra praktik olaraq aparılacaq bir geniş təhqiqat işi ilə təkmilləşdirilməli, hər bir şəhərdə, hər bir kənddə ordunun və onun yardımçılarının törətdikləri cinayətlər açıqlanmalıdır.

Həmçinin, bu cinayətlərlə bağlı sənədlərin xeyli hissəsinin dövlət arxivlərində hələ də gizli saxlandığını nəzərə alaraq, hər bir Azərbaycan vətəndaşı bu soyqırımın gizli məqamlarına işıq saça biləcək əlindəki hər bir sənədi tədqiqatçılara verməyə çalışmalıdır.

**Hüseyn Əlizadə (Barış Mərəndli)**
*1392-ci il Azər ayının 1-i (22 noyabr 2013-cü il)*

## *I Fəsil*

# CƏNUBİ AZƏRBAYCAN XIX ƏSRİN SONLARINDA VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

### Azərbaycan XIX əsrin sonlarında

Bütün tarix boyu İran ərazisində və onun ətraflarında türk qəbilələri çoxlu sayda məşhur dövlət və imperiyalar yaratmalarına baxmayaraq, Azərbaycan həmişə özünüidarəçilik və istiqlaliyyət düşüncəsini qoruyub saxlaya bilmışdır. Azərbaycan müəyyən həddə qədər mərkəzdə əyləşən şahlardan və imperatorlardan ayrı, müstəqil şəkildə idarə olunmuşdur. Hətta, Məşrutə inqilabı zamanı belə hökumət təşkil etmək, özünüidarəçiliyi yaratmaq və taleyini öz əlinə almaq düşüncələri Azərbaycanın milli fəallarında və ziyalılarında həmişə olmuşdur. Məhəmmədəli şahın Məşrutə konstitusiyasına əlavələri təsdiq etməkdən imtina etməsi və “məşrut” (şərtlənmiş) sözünün “məşru” (qanuni, şəriətə uyğun) sözü ilə əvəz edilməsi haqqındakı qəbul edilə bilməyən təklifləri İranın əksər böyük şəhərlərində, o cümlədən, Tehran və Təbrizdə etirazlara səbəb oldu. Təbrizdə camaat ən çox və ən geniş etirazlarını nümayiş etdirdilər və Kəsrəvinin “İranın Məşrutə tarixi” adlı əsərində göstərildiyi kimi “Təbrizin təxminən 20 min əhalisi and içmişdilər ki, Əsas Qanun dərhal qəbul edilməsə, Azərbaycan İranın tərkibindən çıxacaqdır.”[2] Təbrizdən şaha göndərilmiş bəzi teleqramlara isə “Azərbaycan xalqı” imzası vurulmuşdu. Milli Məclis Şurası Məhəmmədəli şah tərəfindən topa tutulduqdan sonra İranı həyəcanlar və vətəndaş müharibəsi bürüdü. Ən şiddətli həyəcan və müharibə

[2] Əhnəd Kəsrəvi. “İran Məşrutəsinin tarixi”. səh. 305-319.

Təbrizdə baş verdi. Əyalət əncüməni çevriliş xəbərini alan kimi Milli Məclis Şurasının zəif iradəli nümayəndələrini qovaraq, özünü Müvəqqəti Azərbaycan hökuməti elan etdi.[3]

Tarix səhifələrindən göründüyü kimi Azərbaycan xalqı Məşrutə inqilabından əvvəl, həm də sonra paytaxtı Təbriz olmaqla Azərbaycan dövlətinin yaradılması və öz müqəddəratını özü təyin etməsi fikrində və istəyində olmuşdur. Onun bu istəkləri müəyyən həddə qədər Azərbaycanın özünü idarə etmə tələblərinə cavab verən “əyalət və vilayət əncümənləri” (şuraları) adı altında Məşrutə Konstitusiyasında dərc olunmuşdu. Bu maddə Azərbaycan nümayəndələrinin tələbi ilə əsas qanuna daxil edilmişdi. Təəssüflər olsun ki, daxili və xarici əleyhdarlar Azərbaycan xalqının öz torpağına hakim olmaq və öz dövlətini qurmaq haqqındakı arzularına yetişməsinə mane oldular.

## Azərbaycan XX əsrin əvvəllərində.
## Azərbaycan ölkəsindən Azadistan ölkəsinə qədər

Azərbaycanın tarixi və strateji əhəmiyyətini, Avropaya və Qafqaza yaxın olmasını və savadlı insanlara malik olmasını nəzərə alaraq Qacar şahları ona xüsusi əhəmiyyət verirdilər. Qacarların dövründə Təbriz vəliəhdlərin iqamətgahı idi. Azərbaycan Qacar imperatorluğunun ən mühüm vilayətlərindən biri hesab edilirdi. Təqribən demək olardı ki, Qacar şahlarının ölüm-dirimi Azərbaycana bağlı idi və zahirdə olsa belə, Azərbaycan xalqı ilə birlikdə idilər.

Rusiya dövlətinin 1911-ci ilin oktyabr ayında (1290-cı il, aban ayı) Tehran hökumətinə ultimatum göndərməsindən, 2-ci məclis dağıldıqdan və İranın Rusiya və İngiltərə tərəfindən işğalından sonra İranın müxtəlif yerlərində qiyam və üsyanlar baş verdi. O cümlədən, Gilanda və başqa yerlərdə. Belə bir vəziyyətdə demokrat firqəsinin üzvü olan Şeyx Məhəmməd Xiyabani firqəsinin

[3] Yervand Abrahamyan. “İran iki inqilab arasında”. səh.123

Təbrizdəki şöbəsini bərpa etdi və adını Azərbaycan Demokrat Firqəsi qoydu. Şeyx Məhəmməd Xiyabanı tərəfdarları və həmkarlarının köməyi ilə fars və Azərbaycan dillərində "Təcəddüd" qəzetini nəşr etməyə başladı. Şeyx özünün dörd əsas tələbini elan etdi: 1. Torpaqların bölünməsi kimi demokratik islahatların həyata keçirilməsi; 2. Azərbaycan əhalisinin etimadını qazanmış hakimin təyin olunması; 3. Tehranda təcili olaraq milli məclis şurasının təsis olunması; 4. Vətəndaş müharibəsindən sonra yaradılmayan, lakin konstitusiya qanununda nəzərdə tutulmuş vilayət əncümənlərinin yaradılması.

İran ilə İngiltərə arasında 1919-cu il müqaviləsi imzalandıqdan sonra Azərbaycan demokratları Tehran hakimiyyətini ölkəni satmaqda ittiham etdilər və bir daha milli məclisin təşkil olunmasını və respublikanın yaradılmasını tələb etdilər. Onlar Azərbaycan əyaləti əvəzinə Azadistan ölkəsi ifadəsini işlətməklə suverenliyə doğru böyük addımlar atdılar.[4]

Bu yeni yaradılmış respublika mərkəzi hökumətin sui-qəsdləri və kazakların səyləri ilə məhv edildi və Şeyx Məhəmməd Xiyabani 1920-ci ilin avqust ayında (1299 şəhrivər ayı) Təbrizdə şəhid edildi.

Bu dövrdə azərbaycanlı azadlıqsevənlərin səyləri heç olmasa daxili işlərdə Azərbaycan xalqının taleyi ilə bağlı əsas qərarlar verə bilən, biri Rusiyaya, digəri isə Almaniyaya bağlı olan mərkəzdəki siyasətbazların sui-qəsdlərindən uzaqda olan və Azərbaycanın işlərini ən yaxşı tərzdə idarə edə bilən bir respublikanın yaradılmasına yönəlmişdi. Bu səylər həmişə xarici qüvvələrə bağlı olan və mərkəzdə əyləşən siyasətbazların müxalifəti ilə qarşılaşırdı. Nəticədə, Azərbaycan və onun xalqının bütün enerjisi mərkəzin irticaçı və istibdadçı qüvvələrinin sui-qəsdləri ilə boşa çıxırdı.

Məhəmmədəli Katuziyan Şeyx Məhəmməd Xiyabaninin muxtariyyət istəkləri haqqında belə yazırdı: "Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə Azərbaycan demokratlarının öz məqsə-

[4] Yervand Abrahamyan. İran iki inqilab arasında. səh.143.

dinə yetişməyən üsyanı Azərbaycan xalqının qanuni hüququnun (daimi əyalət və vilayət əncümənlərinin olması hüququnun) inkar edilməsinin nəticəsi idi. Lakin, bir çox etiraz edən qərəzsiz, ancaq məlumatsız şərhçilər üsyanın məğlubiyyətindən sonra faciəli şəkildə öldürülən Xiyabanini seperatçı adı ilə ittiham etmişlər. Hər halda, Rza xanın istibdadı bütün cəhətlərdən bu ifadənin ən pis mənasında yalançı modernist və müstəbid millətçi olan şahda mərkəzləşmişdi. O, etnik azlıqları, xüsusilə say cəhətdən çox olan və sosial-iqtisadi cəhətdən ən inkişaf etmiş "etnik azlıq" olan türkdilliləri (azərbaycanlılar nəzərdə tutulur) təhqir etdi.[5]

Bundan əlavə Şeyx Məhəmməd Xiyabaninin qatili olan Müxbirüssəltənə Hidayət məclisdə onu İrana xəyanətdə ittiham edərək, onu öldürməsi ilə fəxr etdiyini söyləmişdi: "Mən xəyanət fikrində olan Xiyabanini öldürməklə İrana ən böyük xidməti göstərdim".[6]

Şeyx Məhəmməd Xiyabani Azərbaycanı öz real mövqeyinə qaytarmağı, Azərbaycanın daxili və mədəniyyət məsələlərinin Azərbaycan xalqının özü tərəfindən seçilmiş adamlara tapşırmağı istəməsinə baxmayaraq təəssüflər olsun ki, istibdad tərəfdarı olan qüvvələr, Azərbaycanın güclənməsini istəməyənlər ona və Azərbaycan Demokrat Firqəsinə öz əsas məqsədlərinə çatmağa imkan vermədilər.

## Azərbaycan Rza şah dövründə

İngilislər tərəfindən Rza şahın hakimiyyətə gətirilməsindən sonra İranda və Azərbaycanda mədəniyyətin və siyasətin boğulması dövrü başlandı. Rza şahın masonlar tərəfindən diktə edilən siyasətinin əsas məqsədi qeyri-fars xalqların dillərinin ləğv edilməsindən və Tehranda mərkəzləşdirilmiş bir fars hökumətinin

[5] Məhəmmədəli Katuziyan. İranın siyasi iqtisadiyyatı. səh. 22.
[6] Yunis Mirvarid. Marağa və ya "Əfrazrud" coğrafi, sosial, iqtisadi və tarixi vəziyyət baxımındam. səh. 849.

yaradılmasından ibarət idi. Rza şah, həmçinin, Azərbaycanda istehsalın dayaqlarını zəiflədilmək yolu ilə onun iqtisadiyyatını da məhv etmək istəyirdi və buna demək olar ki, nail oldu. Bundan əlavə, Rza şahın fars monodilli bir dövlətin yaradılması siyasəti də onun tərəfdarları tərəfindən həyata keçirilməyə başladı. Bütün azadlıqsevənlər həbs edildi və Qəsr zindanında doktor Əhmədi kimilər tərəfindən qətlə yetirildilər. Bir çoxları isə sürgün edildilər.

Rza şah öz hakimiyyətini qurduqdan sonra masonları, o cümlədən Məhəmməd Əli Foruği, doktor Mahmud Əfşar, Rza Hikmət və başqaları kimilərini ətrafına toplayaraq, onların faşist ideyalarını həyata keçirməyə başladı. Masonların həyata keçirdikləri əsas işlərdən biri fars dili akademiyasını yaratmaqdan və qeyri-fars xalqların dillərini məhv etməkdən ibarət oldu. Onlar həmçinin bütün tarixi məkanların adını farscaya çevirdilər və fars dilindəki bir çox türk və ərəb məşəli sözləri fars sözləri ilə əvəz etdilər. Onlar dil və etnos cəhətdən eyniləşmə siyasətini həyata keçirməyə başladılar.

Fars dili akademiyasının rəhbərləri olan Məhəmmədəli Foruği və Vosaqəddövlə çay, su, bulaq kimi sözləri fars sözləri ilə əvəz etməyi tələb etdilər.

Fars dili akademiyası baxımından İranda yaşayan bütün xalqların dili fars dilidir, başqa dillər xaricilərin dilidir və məhv edilməlidirlər. Nəticə etibarı ilə onlar faşistlərdən götürülmüş ideya və məqsədlərini tətbiq etmək istəyirdilər. Onlar türk-Azərbaycan dilinin qadağan edilməsini tələb etdirdilər. Azərbaycan dili və Azərbaycan xalqına qarşı öz faşist fikirləri ilə məşhur olan İrəc Əfşar İranda Azərbaycan dilinin qadağan edilməsini istəyirdi. Azərbaycanın mədəniyyət idarəsinin rəisi Mohseni deyirdi: “Hər kim Azərbaycanca danışarsa, boynuna eşşək noxtası salıb tövlədə bağlasınlar.” Bundan başqa, mədəniyyət şöbəsinin rəisi Zövqi məktəblərdə Azərbaycan dilində danışanlar üçün bir cərimə qutusu qoydurmuşdu. Rza şah hakimiyyəti dövründə yerli xalqların dilində kitab və qəzetlərin nəşr edilməsi qadağan edilmişdi.

Rza şahın hakimiyyəti illəri Azərbaycan tarixinin qaranlıq dövrü idi. Bu dövrdə Azərbaycan xalqının bütün varlığı qarət edildi. Rza şah dövrünün zülmləri o qədər çox idi ki, yalnız sovet ordusu gəldikdən sonra Azərbaycan xalqı rahat nəfəs aldı. Onlar xaricilər olsa da, İrana siyasi və mədəni azadlıqlar gətirdilər və xalq işğal zamanı azadlığın ləzzətini daddı. Qeyri-fars xalqlarını əzmək vasitəsi olan Rza Şah ordusu xarici qoşunlar qarşısında heç bir müqavimət göstərə bilmədi. Əsgərlər paltarlarını soyunub və silahlarını atıb qaçırdılar. Nəticədə, Azərbaycan xalqı işğal dövründə yaranmış azadlıqlardan istifadə edərək, öz siyasi və mədəni tələblərini irəli çəkdi və Tehranda panfarsistlərin şirin röyaları kabusla əvəz edildi.

## Azərbaycan Rza şahın süqutundan sonra

Rza şahın süqutundan dərhal sonra Təbriz azadlıqsevənləri “Azərbaycan cəmiyyəti” adlı bir cəmiyyət yaratdılar və 30.08.1320-ci ildə (21.11.1941) öz ideya və fikirlərini yaymaq üçün “Azərbaycan” adlı qəzet nəşr etməyə başladılar. Qəzetin müdiri Əli Şəbüstəri, baş redaktoru isə İsmayıl Şəms idi. Azərbaycan xalqının haqq danışan dili olan bu qəzet Azərbaycan və fars dillərində olmaqla iki dildə nəşr olunurdu. Bu qəzetin nəşri Rza şah “məktəbinin” müstəmləkəçi tərəfdarlarını məyus və pərişan etdi. Əvəzində “Azərbaycan cəmiyyəti”nin üzərinə töhmət və iftira yağışı yağmağa başladı. Cəmiyyətin rəhbərləri Azərbaycan ilə İranın başqa yerləri arasında nifaq və ayrılıq salmaqda ittiham edildilər. Əlbəttə, dövlət aparatı elə bir vəziyyətdə deyildi ki, qəzetin nəşrini dayandıra bilsin, lakin qəzetin Tehranda və İranın başqa şəhərlərində satışının qarşısını ala bildi.

Rza şahın süqutundan sonra “Azərbaycan cəmiyyəti” ilk dəfə olaraq aktyorlar cəmiyyəti təşkil etdi. Xalq tərəfindən rəğbətlə qarşılanan və Azərbaycan dilində oynanılan tamaşalar səhnəyə gəldi. Azərbaycan cəmiyyəti yalnız altı ay fəaliyyət göstərə bildi.

Gündəlik təzyiqlər, polis təqibləri və irticanın ən görkəmli nümayəndələrindən biri olan Azərbaycan ostandarı (qubernatoru) Fəhiminin sui-qəsdləri cəmiyyətin fəaliyyətini saxlaya və cəmiyyətin orqanı olan qəzeti bağlaya bildilər.”[7]

Bu dövrdə Tehranda və Azərbaycanda çoxlu sayda partiyalar fəaliyyətə başladılar. Şəhid Pişəvəri də, zindandan azad olduqdan sonra Tehranda “Ajir” qəzeti ilə siyasət səhnəsinə və jurnalistikaya qayıtdı. O, “Ajir” qəzetində demokratiyanın şərhi, azadlıq, demokratiyanın qaydaları və dövlətin xalqa tabe olmasının vacibliyi haqqında çoxlu məqalələr çap etdi. Firqələrin belə bir azadlığı dövründə Azərbaycanda “Tudə” firqəsi də, fəaliyyətə başladı. Azərbaycanda millətçi bir qrup olan “fəhlə həmkarlar təşkilatları” da, təşkil olundular. Şəhər və kəndlərin əhalisi bu firqə və təşkilatlara qoşuldular. Mətbuatın və firqələrin belə bir “bahar fəslində” XIV məclis işinə başladı və Mir Cəfər Pişəvəri Azərbaycan xalqının yekdil səsi ilə (15 mindən çox səs) Təbrizdən Azərbaycan xalqının vəkili kimi 1322-ci ildə (1943-cü il) XIV Milli Məclisə nümayəndə seçildi. Azərbaycanlıların etibarnaməsinin yoxlanılmasını gecikdirmiş Azərbaycan əleyhinə olan qüvvələr onun etibarnaməsini qeyri-adi, gizli üsulla qara və ağ möhürlərdən istifadə etməklə 50 səs- üstəgəl bir səs olmaqla 100 səsdən 50 müxalif səs ilə qeyri-qanuni hesab etdilər və onu məclisə buraxmadılar.

Mir Cəfər Pişəvəri Azərbaycana qayıtdı və çoxu Məşrutə inqilabı və Şeyx Məhəmməd Xiyabani zamanında yaxşı mübarizə təcrübəsi keçmiş dostlarının və həmfikirlərinin köməyi ilə qüdrətli bir firqənin əsasını qoydu və 12 Şəhrivər (sentyabr) Bəyannaməsi ilə Azərbaycan Demokrat Firqəsinin yaradılmasını dünyaya elan etdi.

“12 Şəhrivər (3 sentyabr) Bəyannaməsi” Azərbaycan tarixində həssas bir mərhələni təşkil edir. Ondan sonra Azərbaycan azadlıq-

---

[7] Yunis Mirvarid. Marağa və ya “Əfrazrud” coğrafi, sosial, iqtisadi və tarixi vəziyyət baxımındam. səh. 846.

sevənləri vahid bir bəyannamənin adı altında tam səmimi və açıq şəkildə Tehran siyasətbazları ilə söhbət etdilər, onlardan ölkədə demokratiyaya və onun qaydalarına riayət etməyi tələb etdilər. Bu bəyannamədə həmçinin Azərbaycanın türk kimliyi qabardıldı və Azərbaycan dili rəsmi dil kimi tanıdıldı. Azərbaycan dilinə məktəblərdə tədris edilmək üçün qayda-qanunlu və qüdrətli bir dil kimi əhəmiyyət verildi. Bu bəyannamədə həmçinin Azərbaycanın muxtariyyətinə aid də, bənd ayrılmışdı. Bu bənd Tehranda xaricilərə bağlı olan sağyönümlü siyasətçi və ziyalıları bərk narahat etmişdi. Onlar bu bəyannaməyə qarşı şiddətli hücumlar etməyə başladılar. Hər şeydən çox bəyannamənin Azərbaycan xalqının türklüyünü göstərən və Azərbaycana muxtariyyət tələb edən mütərəqqi maddələri irqçilərin əsəbləşməsinə və qəzəbinə səbəb oldu. Onlar türkçülüyə qarşı çıxdılar. Hətta, briqada generalı Derəxşani "Şahbaz" qəzetinin bu məsələ ilə bağlı sualına cavab olaraq demişdi: "Mən bu fikirdəyəm ki, demokrat firqəsinin məramnaməsində iki maddə olmasaydı, İran xalqı onu qəbul edərdi. Bu iki maddənin biri daxili istiqlal, o birisi isə türk dilində danışmaq haqqındakı maddələrdir".[8]

"12 Şəhrivər Bəyannaməsinin" yayılmasından və demokrat firqəsinin təşkilinin elan edilməsindən sonra Azərbaycan xalqı onun mütərəqqi mətni ilə və mətndə mövcud olan müasir baxışları ilə görünməmiş həmrəyliyini bildirdi. Təbəqəsindən, sinfindən, savadlı və ya savadsız, şəhərli yaxud kəndli, ziyalı və ya ruhani olub-olmamasından asılı olmayaraq Azərbaycan xalqı dəstə-dəstə firqəyə qoşuldu. Həmçinin, bəyannamədə əyalət və vilayət əncümənləri (şuraları) haqqında qanunun icrası haqqında maddənin olması, "12 Şəhrivər bəyannaməsinin" ayrılmaz tərkib hissəsi olan Azərbaycan dilinin rəsmi şəkildə tanınması Azərbaycan xalqını azadlıq cəbhəsinin bayrağı altında topladı və onu Azərbaycanın və İranın azad olması və demokratiya uğrunda mübarizəyə çağırdı.

[8] "Şahbaz" qəzeti, avqust 1945.

Azərbaycan öz xalqına addımbaaddım demokratiya və azadlıq dərsi keçdiyi bir halda anti-demokratik və bəşər hüququna qarşı olan, xarici ölkələrdən asılı olan qüvvələr Tehranda Azərbaycan xalqının demokratik və qanunauyğun hərəkatını mühakimə edirdilər. Onlar hər gün demokrat firqəsi rəhbərlərinin modern və demokratik fikirlərinə qarşı hücumlar edir, onlara qarşı mənfi təbliğat aparırdılar. Özlərinin xarici ölkələrə, o cümlədən ABŞ-a, İngiltərəyə və Rusiyaya bağlılıqlarını ört-basdır etmək üçün “Vay İranın halına” şüarlarını işə salmışdılar. Demokrat firqəsinin azadlıqsevən və demokrat rəhbərlərinə qarşı təbliğatda öndə gedənlərdən biri kimi xarici ölkələrlə əlaqələri ilə açıq-aşkar tanınan, İngiltərənin İrandakı nüfuzlu məşhur adamlarından biri olan Seyid Ziyaəddin Təbatəbaini göstərmək olar. Bu cür adamlar özlərini millətçi göstərmək üçün xalqın gözünə kül üfürürdülər və ən pis, ən mənfur iftira və ittihamlarını Azərbaycan demokratlarının rəhbərlərinə tərəf yönəldirdilər. Onlar xanların və ərbabların tərəfində durmuş, azadlıq və demokratiya qarşı çıxmış, mənafeləri təhlükəyə düşmüş və Tehrana qaçmış bəzi azərbaycanlıların köməyi ilə demokrat firqəsi rəhbərlərinin modern fikirlərinə, Azərbaycan xalqının arzularına qarşı mənfi təbliğatlara başladılar. Onlar Tehran qəzetlərinə yalan teleqramlar göndərirdilər. Bu adamlardan biri Təbrizdən Rəhim Zəhtabi Fərd idi. O, Tehranda Seyid Ziyaəddin Təbatəbainin köməyi ilə bu yalan teleqramları qəzetlərdə nəşr etdirirdi. Demokrat firqəsinə və milli hökumətə qarşı təbliğatlar aparırdılar. Tehrana qaçmış və Tehran hakimiyyətinə xidmət edən bəzi azərbaycanlı saray ruhaniləri də Seyid Ziyaəddinin dəstəsinə qoşulmuş və “Azərbaycanın nicatı” cəmiyyətini qurmuşdular. Bu dəstə Azərbaycan xalqının əksər hissəsinin istibdad və müstəmləkə zəncirlərini qırıb, Azərbaycanda demokratik cəmiyyət qurmalarını və öz türk kimlikləri ilə fəxr etmələrini görmək istəmir və buna dözə bilmirdilər. Onlar Azərbaycan xalqının düşmənləri ilə əl-ələ verib, xalqın əzəmətli milli hərəkatını məhv etmək istəyirdilər. Bu

məqsədlə hər gün yeni bir böhran icad edirdilər və Azərbaycanın milli mənafelərini qoruyan milli hökumətə hər gün minlərlə böhtan və yalan yaxırdılar. Azərbaycan xalqı "12 Şəhrivər bəyannaməsi"ni müdafiə edərək, Məşrutə Konstitusiyasının icrasından başqa ayrı bir şey istəmirdi. Azərbaycan xalqı əyalət və vilayət əncümənləri haqqında qanunun icra edilməsini, ana dili və mədəniyyət hüquqlarını tələb edirdi. Bu tələb ana dilində oxuyub, yazmaq istəyən hər bir insanın təbii hüququdur. Lakin bu adamlar bunu başa düşmək istəmirdilər. Onlar özlərini azərbaycanlı adlandıraraq Tehranda "Azərbaycanın nicatı cəmiyyəti" adlı bir qurum yaratsalar da, Azərbaycanın düşmənlərinə xidmət edir və əslində Azərbaycan xalqının düşmənlərinə çevrilmişdilər. Onlar dinə və məzhəbə qəlbən etiqad etməsələr də, din və məzhəb məsələsini ortaya atırdılar. Onlar ərbabların və xanların mənafelərini qoruyaraq Azərbaycan Demokrat Firqəsinə və Azərbaycan xalqına qarşı müharibəyə başladılar. Çünki Azərbaycan Demokrat Firqəsi öz mütərəqqi şüarları və qanun yolu ilə ərbabların və xanların ayaqlarına məhdudiyyət zənciri vurmuşdu. Bu adamlar Azərbaycanın düşmənləri ilə birlikdə olmaları ilə fəxr edirdilər.

Belə adamlardan biri İsmayıl Rəfiyan idi. O, Mərənd şəhərindən qaçmış və Tehranda Azərbaycan Milli Hökumətinə qarşı fəaliyyət göstərirdi. Bu adam İran qəzetinə müsahibəsində deyirdi : "Tehran Azərbaycanın müxtəlif şəhərlərindən bu şəhərdə toplanmış başqa "qeyrətli" azərbaycanlılarla birlikdə mübarizəni davam etdirir. Səfirliyin və Birləşmiş Millətlər Təşkilatı ofisinin qarşısında yığışmağımız bu qəbildən olan işlərimizdəndir".

Azərbaycan Milli Hökumətinin təşkili ilə qeyri-qanuni mənafeləri təhlükəyə düşmüş bu dəstədən olan adamlar əcnəbi dövlətlərlə bağlı olan Azərbaycanın qatı düşmənləri ilə əl-ələ, çiyin-çiyinə verərək, Azərbaycanda itirdikləri mənafelərini qaytarmaq məqsədilə Azərbaycan xalqının milli, dil və bəşəri hüquqlarını inkar edirdilər. Azərbaycandan qaçmış adamların əksəriyyəti milli hökumətin təşkili ilə

"at oynatdıqları" meydanların daraldığını görüb Tehrana pənah aparmış zalım xanlar idilər. Onlar əcnəbi dövlətlərə bağlı olanlarla əməkdaşlıq edir və milli hökumətin devrilməsi yolunda işlər görürdülər. Onlar bu əməlləri ilə Azərbaycan xalqının qatı düşmənlərinə çevrilmişdilər. Özlərini Tehran hakimiyyətinin qucağına atmış bu dəstədən olan azərbaycanlılar Tehranın bəzi saray ruhaniləri ilə birlikdə əlləşib-vuruşurdular ki, demokrat firqəsini anti-din və anti-məzhəb kimi göstərsinlər və azərbaycanlıların dini hisslərinə toxunsunlar. Tehran hökuməti və mənfur Pəhləvi rejimi bu vasitənin effektiv olduğunu görüb, özləri qəlbən islama bağlı olmasalar da, milli hökuməti yıxmaq və öz məqsədlərinə çatmaq üçün dindən istifadə etməyə başladılar. Onlar bu yolda uğur qazandılar.

Milli hökumət qurulduqdan sonra Tehranda hakimiyyətə xidmət etməyə başlamış ruhanilərdən biri də Mir Xas Ərdəbili idi. Mərhum Baba Səfəri özünün "Ərdəbil tarixin keçidində" adlı kitabında bu barədə yazırdı: "Demokrat firqəsinin yaranmasının başlanğıcında mərkəzi hakimiyyət bu yeni hərəkatın zəiflədilməsinə və ya məhv edilməsinə səbəb olacaq bütün imkanlardan istifadə edirdi. Bu məqsədlə ağayi Mir Xası əynindəki libas və boy-buxunu ilə "mücahid alim" kimi qələmə verməyə başladı. Hakimiyyət bütün imkanları ilə onu gücləndirməyə çalışırdı."[9]

Ordunun baş qərargah rəisi Azərbaycandakı 3-cü diviziya komandirinə məsləhət görmüşdü ki, demokratlara qarşı təbliğatda ondan istifadə etsin. Sədrül-əşrəf hökuməti də, özünun 31.06.1324-cu il (22.09.1945-ci il) tarixli 1623 saylı qərarı ilə Seyid Əhməd Mir Xasa ayda 3 min riyal olmaqla 50 ay müddətində 1324 (1945)-cü il büdcəsində 15 min riyal mükafat şəklində pul ayırmışdı.

Baba Səfəri onun Tehrana qaçması haqqında yazırdı: "Firqənin siyasi və inzibati təşkilatlarının formalaşmasından sonra Mir Xas Azərbaycanda qala bilmədi və Tehrana qaçdı. Əvvəlcə dövlət or-

[9] Baba Səfəri. Ərdəbil tarixin keçidində. səh. 103.

qanları tərəfindən onun gəlişi yaxşı qarşılandı. Lakin ondan gözlənilən təsirin dərəcəsi yavaş-yavaş azalmağa başladı və o, Tehranın Sepəh xiyabanında avara-avara gəzişən fərarilərin dəstəsinə qoşuldu. Onlar Azərbaycandan yeni gəlmiş hər kəsdən xəbərlər əldə edirdilər.”[10]

Tehrana qaçmış adamlardan biri də saray axundu Mirzə Hüseyn Vaiz idi. O da, Tehrana qaçmış və firqəyə qarşı böyük təbliğat aparırdı. Mehdi Müctəhidi özünün “Məşrutə əsrində Azərbaycanın görkəmli adamları” kitabında yazırdı: “Mirzə Hüseyn Vaiz Tehrana getdi və “Azərbaycanın nicatı cəmiyyət”inin sədri oldu. “Qaflan kuh”un suqutu günü o, bir dəstə azərbaycanlı ilə Məhəmməd Rza şahın hüzuruna getdi və onu təbrik etdi”[11]

Ərdəbildən Əbdülhüseyn Mənsuri adlı bir nəfər də, Tehrana qaçmış və demokrat firqəsinə qarşı fəaliyyət göstərmişdi. Onun anası “ariyalı cəlladın” Azərbaycana səfəri zamanı Ərdəbildə şahı qarşılamış, bu hərəkəti ilə şahpərəstlərin diqqətini cəlb etmişdi. Siyasi məqsədlərinə çatmaq üçün dindən istifadə edilməsi İranda həmişə effektiv olmuşdur. Məşrutə dövründə də, din və məzhəbdən sui-istifadələr olmuşdu və milli hökumət zamanında da bu iş baş vermişdi. Yervand Abrahamyan özünün “İran iki inqilab arasında” kitabında dindən sui-istifadə edilməsi haqqında belə yazır: “Məşrutə dövründə də, Təbrizin kasıb məhəllələrində ruhanilərin fitvası ilə məşrutəçilər “mürtəd”, “babi” və ya “kafir” adlandırılırdılar. Belə ki, azadlıqsevənlərin əlindən qaçmış hər bir kəs Tehranda antidemokratik və azadlıq əleyhinə olan bir hakimiyyətə xidmət etməyə başlayanda əcnəbilərə bağlı olan şəxslərin əlində alətə çevrilirdilər.”[12] Azadlıqsevənlərin milli hökuməti onlara heç nə etməsə də, onlar məzhəb libasına girib, milli hökumətə qarşı ciddi hücum-

[10] Yenə orada, səh. 103.
[11] Mehdi Müctəhidi. Məşrutə dövründə Azərbaycanın görkəmli adamları. səh.163.
[12] Yervand Abrahamyan. İran iki inqilab arasında.

lar hazırlayırdılar. Din satqını olan və özlərini “zahidlərə” oxşatmış bu irticaçılar dini özlərinin qeyri-qanuni məqsədlərinə yetişmək üçün bir alətə çevirmişdilər. Marağadakı Peyman və Mirzə Həbib, Urmiyada bir “fiqh alimi” və bunlar kimi islamın mahiyyətinə etiqadları olmayan başqa şəxslər Azərbaycan xalqına qarşı müharibəyə qalxmışdılar. Bir çox müasir və demokratik fikirlərə malik olan mütərəqqi ruhanilər demokrat firqəsinin rəhbərlərinə hərtərəfli köməkliklər göstərirdilər. Lakin düşmənlərinin məzhəb libası geyərək əcnəbilərlə məkrli bağlılıqları olan şəxslərlə bədbəxtlik gətirən birliyi və Tehranda xanlarla, onların silahlıları ilə azadlıq qalası olan Azərbaycanı məhv etmək üçün əməkdaşlıq etmələri Azərbaycan tarixinin dolaşıq və qaranlıq səhifəsidir.

İnqilab əleyhinə olan azərbaycanlı qüvvələr dindən sui-istifadə etmələrindən əlavə insanların milli hisslərindən də, sui-istifadə edirdilər. Onlar xalqın qanuni tələblərini təhrif edərək, Azərbaycan xalqının dil və mədəni tələbləri qarşısında millətçilik libasında zahir olurdular. Onlar “Vay İran” şüarları ilə hər gün Tehranda demokrat firqəsinin bəşəri tələblərinə qarşı öz qəzetləri vasitəsi ilə şiddətli təbliğat aparırdılar. Onlar insanların zehinlərini qarışdırır və deyirdilər ki, guya demokrat firqəsi Azərbaycanı İrandan ayırmaq istəyir. Halbuki, demokrat firqəsinin rəhbərlərinin fikirlərini və mütərəqqi ideyalarını araşdıraraq, cürətlə demək olar ki, onların Azərbaycanı İranın başqa əyalətlərdən ayırmaq fikirləri yox idi. Onlar hətta, İranın başqa yerlərində də, demokratik islahatların aparılmasını istəyirdilər. Onlar Azərbaycan xalqının yalnız öz həqiqi nümayəndələri tərəfindən idarə olunmasını istəyirdilər və bundan başqa ayrı bir istəkləri yox idi.

Tehrandakı azadlıq və demokratiya əleyhdarlarının demokrat firqəsinə tutduqları ən böyük irad ondan ibarət idi ki, firqə öz məramnaməsinə Azərbaycan dilində təhsil maddəsini daxil etmişdir. Onlar demokratiya və azadlıq qanunları əsasında hər bir xalqın öz

ana dilində yazıb və oxumaq hüququna dözə bilmirdilər və "12 Şəhrivər bəyannaməsi"nin bu bəndindən yapışaraq demokrat firqəsinə və onun rəhbərlərinə töhmətlər yağdırırdılar. Onlar Tehranın və başqa yerlərin millətçi ruhlu insanlarının hisslərini təhrik edərək, öz təbliğatları ilə Azərbaycan xalqının ilkin və bəşəri hüququnu inkar edirdilər. Təbrizin ən mühüm qəzeti olan "Azərbaycan qəzeti" Azərbaycanın demokratik tələbləri haqqında yazırdı: "Bizim əsas məqsədimiz xalqın ana dilindən istifadə etmək kimi demokratik hüququnun təmin edilməsidir və bu hakimiyyət üçün ən əlverişli imkandır ki, o azərbaycanlıların heç vaxt fars dilli xalq olmadıqlarını və olmamalarını qəbul etsin. Bizim əsas dilimiz və ana dilimiz Azərbaycan dilidir. Biz məktəblərdə, dövlət idarələrində ana dilinin işlənməsi və rəvac tapması üçün əlimizdən gələni edəcəyik. Bizim ana dilimizi məhv etmək istəyənlər öz fikirlərini dəyişdirməlidirlər".[13]

## Azadistandan Azərbaycan Milli Hökumətinə qədər

Əksəriyyəti Məşrutə inqilabının iştirakçılarından ibarət olmuş Şeyx Məhəmməd Xiyabaninin azadlıqsevən tərəfdarları Azərbaycanın inkişafı və rifahının əleyhdarları olan qara qüvvələr tərəfindən qətliam edildikdən sonra Azərbaycan iyirmi ildən çox bir müddətdə Rza şahın və onun fərsiz ostandarlarının çəkmələri altında tapdalandı. Bu dəhşətli dövrdə Azərbaycan xalqı müxtəlif növ faciələrə və müsibətlərə dözməli oldu. Bu dövrdə aclıq, kasıblıq və işsizlik Azərbaycanın varlığına ağır zərbələr vurdu. Mərkəzdən Azərbaycana təyin edilmiş ostandar və valilər Azərbaycan iqtisadiyyatını məhv etməkdən əlavə, öz irqçi xislətlərini də Azərbaycanda üzə çıxartdılar.

Onlar Azərbaycan dilini və mədəniyyətini ən pis şəkildə təhqir edirdilər. Belə ostandarlardan biri Mustofi adında şəxs idi. O,

[13] "Bizim məqsədimiz nədir?" - "Azərbaycan" qəzeti, 1943.

Azərbaycandakı insanların siyahıya alınmasını, eşşəklərin siyahıya alınması adlandırmışdı. Mərkəzdə yaşayan ziyalılar da bu işdə əl-ayağa düşərək, təyin olunmuş ostandar və valilərə Azərbaycan dilini və mədəniyyətini məhv etməkdə “ideoloji” yardım ğöstərirdilər. Bu bədnam ziyalılar Mahmud Əfşar, Abbas İqbal Aştiyani və başqaları idilər. Onlar öz irqçi nəzəriyyələri ilə Azərbaycan dilini həmişəlik olaraq gündəmdən silib məhv etmək üçün azadlıq əleyhinə olan qüvvələrə kömək edirdilər. Mərkəzdə əyləşmiş “nəzəriyyəçilər” tərəfindən fars dilinin icbari olaraq öyrədilməsi planlaşdırılmışdı və Azərbaycan dilinə və azərbaycanlılara kin və nifrət bəsləyən ostandar və valilər bu cür anti-humanist ideyaları Azərbaycanda həyata keçirirdilər.

Bu cür böhtan və təhqirlərlə yanaşı Azərbaycan iqtisadiyyatı mərkəzdə əyləşmiş hökmdarlar tərəfindən qəsdən iflic edilmişdi. Əvvəllər inkişaf baxımından ölkənin irəlidə gedən regionlarından biri olan Azərbaycan Rza şah dövründə fəlakətlə üzləşdi. Təbriz şəhəri bu dövrdə həmişə olduğundan daha tez dağıntılar və kasıblıq günlərini yaşayırdı. “Marağa, Ərazrud” kitabında Azərbaycanın müstəmləkəyə çevrilməsi və Azərbaycana sərmayə qoyuluşları edilməməsi haqqında deyilir: “Təbriz şəhəri 1308 (1929)-ci ildən başlayaraq iki dəfə qarətçilərin hücumlarına məruz qalmışdır. Bir nüsxəsi daxili işlər nazirliyində saxlanılan, digəri isə əlimizdə olan dəqiq statistik məlumatlara əsasən Təbriz camaatına bu hücumlar zamanı 30 milyon riyal məbləğində ziyan dəymişdi. Şahənşah hakimiyyəti yalnız əyləncə yerlərinə getmək üçün nəzərdə tutulmuş Abəli-Amol xüsusi yoluna təxminən 500 milyon riyal pul sərf etmişdi. Lakin Təbriz səddini (selin qarşısını tutmaq üçün) tikmək üçün görün pulu haradan ayırmışdı.! Qulaq asın, sizə ərz edək. Bir çox müzakirələrdən sonra və çoxlu sayda komissiyaların təşkilindən sonra nəhayət, daxili işlər nazirliyi belə qərara gəldi ki, Təbriz şəhrdarlığı (meriyası) selin qarşısını alan bəndi tikmək və çayın ya-

tağını genişləndirmək üçün bankdan müəyyən məbləğ borc alsın və zaman keçdikcə Təbriz şəhrdarlığının gəlirlərindən bankın borcu ödənilməyə başlasın. Başqa sözlə, Təbriz bəndini təbrizlilər tikməli idilər.

Bu qərarın verilməsindən məqsəd bu idi ki, Təbriz şəhrdarlığının gəlirləri uzun illər boyu borcun ödənilməsinə sərf edilsin və şəhərin təmir və təmizlik işləri üçün vəsait olmasın. Təbrizi on il bundan əvvəl görmüş şəxs onun müasir vəziyyətini on il əvvəl ilə müqayisə etsə, təbrizlilərə öz ölkələrinin mərkəzi hakimiyyətindən məyus və ümidsiz qalmalarına və şəhəri bu vəziyyətə salanlara qarşı qəzəblənmələrinə haqq verər. Mərkəzi hakimiyyətin Təbriz bəndini tikməkdən imtina etdiyi həmin dövrdə daxili işlər nazirliyinin otaqlarında planlar cızılırdı. Bu zaman, Mazandaranın kəndlərindən və Savadkuh deyilən yerdə Azərbaycandan yığılmış vergi pullarının hesabına onlarla sementdən olan bəndlər, dəmir betondan olan yüzlərlə körpülər tikilir və bərpa olunurdu. Saatbasaat özəl mülklərin zahiri görünüşləri daha da gözəlləşirdi. Halbuki, Təbrizdə şəhərin ortasından keçən çayın üstündən körpü tikilməsi üçün heç bir tədbir görülmürdü. Kiçik Məşhəd və Amol şəhərləri üçün Avropadan açılıb-bağlanan dəmir körpülər gətirdilər. Azərbaycanın başqa yerləri də bu vəziyyətdə idi....Azərbaycanlılar deyirlər ki, məgər biz vergiləri verməkdən və ya qanunlara riayət etməkdən boyun qaçırmışıq ki, mərkəzi hakimiyyətin gözündən düşmüşük? Şahənşah dövlətinin xəzinəsindən bizə çatası heç nəyimiz yoxdur. Azərbaycanlılar soruşurlar ki, üçüncü və dördüncü dərəcəli ostan nə deməkdir? Nə üçün mənim bədənimi tikə-tikə doğrayırsınız?

Bunu onun üçün edirlər ki, azadlıq və qəhrəmanlıq ocağı olan Təbrizi kiçiltsinlər və gündən-günə varlığını azaltsınlar”.[14]

---

[14] Yunis Mirvarid. Marağa və ya “Əfrazrud” coğrafi, sosial, iqtisadi və tarixi vəziyyət baxımındam. səh. 843-844.

Rza şah diktaturası tərəfindən azadlıqsevənlərin məhv edilməsi, onlarln həbs edilib sürğünə göndərilməsi o qədər şiddətli idi ki, Azərbaycanın mərkəzin qüvvələrinə və diktaturaya qarşı mübarizə etmək üçün artıq qüdrəti qalmamışdı. Azərbaycanın belə acınacaqlı vəziyyətində II Dünya Müharibəsi başlandı. Mərkəzi hakimiyyətin bitərəflik elan etməsinə baxmayaraq, İran müttəfiq qüvvələr tərəfindən hücuma məruz qaldı. Azərbaycan şimaldan rus ordusu tərəfindən və İranın cənub rayonları isə ingilis qoşunları tərəfindən işğal olundu. Rza şah zillət və alçaqlıqla onu hakimiyyətə gətirənlər tərəfindən hakimiyyətdən qovuldu. Azərbaycan və İran işğal altında olduqları bir şəraitdə azərbaycanlılar bir daha azadlığın dadını hiss etdilər. Bu dövrdə qəzetlər və firqələr yarandı, mətbuatın və firqələrin baharı başladı.

## Qatı düşmənlər

“1945-ci ildə Azərbaycan Milli Hökumətinin öz haqqını tələb edən xalq kütlələri və gənclər tərəfindən himayə edilməsi azad fikirli hər bir araşdırıcı tərəfindən təsdiq edilir və bəyənilir”.[15]

Yuxarıda qeyd edilmiş sözlər demokrat firqəsinin əleyhdarlarından biri olmuş bir araşdırmaçı tərəfindən milli hökumət və Azərbaycan xalqının haqlı milli hərəkatı haqqında deyilmişdir. Bəs nə üçün Azərbaycan xalqının haqlı tələbləri onun təbii və insani hüququ olduğu halda, demokrat firqəsi bu tələbləri “12 Şəhrivər bəyanatı”nda elan etdiyi halda bir dəstə adam bu tələblərin ortaya atılması ilə, xüsusən Azərbaycan dilinin rəsmi dil olması ilə, bu dildə tədris edilməsi məsələsinin ortaya atılması ilə bizim qatı düşmənlərimizə çevrilmişdilər?

Bəs bizim qatı düşmənlərimiz kimlərdir? Azərbaycan xalqının qatı düşmənlərinin tərifi demokrat firqəsinin rəhbərliyi tərəfindən belə verilmişdir: “Bizim dilimizi pisləyib, onun bizə təhmil olun-

[15] Mirnəbi Əzizzadə. Muğan düzünün tarixi. səh. 37.

duğunu iddia edənlər bizim qatı düşmənlərimizdir. Ötən yüzilliklərdə Azərbaycanın bir çox düşmənləri bizim dilimizi boğub, məhv etmək istəmişlər. Xoşbəxtlikdən onların hamısı məğlub olmuş və bizim dilimiz yaşamaqdadır”[16].

Azərbaycan Milli Hökumətinin mövcudluğunun bir ili bir çoxlarını üzə çıxartdı. Biz açıq gözlə Azərbaycanın qatı düşmənlərini tanıya bildik Hətta özlərini ziyalı, demokratiya və siyasət dünyasının alimi hesab edənlər öz iç üzlərini göstərdilər. Bu adamlardan biri Azərbaycan dilini dünya ədəbiyyatına malik olmayan bir dil hesab edən Məlikiüşşüəra Bahardır. O, Azərbaycan dilinin kökünü kəsmək üçün müraciətnamələr yazır və onları Azərbaycan xalqına təqdim edirdi. Elə bir xalqa ki, birinci tələb kimi Azərbaycan dilinin tədrisinə qoyulmuş qadağanın götürülməsi məsələsini ortaya qoymuşdu. Baharın ya Azərbaycan ədəbiyyatı haqqında məlumatı olmamış, ya da olmuş, ancaq özünü cahil göstərmək istəmişdir. Çünki, təkcə “Kitabi-lüğətüt türk” kitabını görmək kifayətdir ki, Bahar heç bir əsası olmayan sözlərinin cavabını alsın.

İndi isə Baharın müraciətnaməsinin bir hissəsinə diqqət yetirək: “İndi də gələk yerli ləhcələr və türk dilində tədris məsələsinin üzərinə...Deyirlər ki, ibtidai məktəbin üç ilinin rəsmi dili türk dili olsun. Kaş ki, Azərbaycan xalqı Qafqaz tatarlarının dili əvəzinə heç olmasa Azərbaycanda yaşayan fars dillilərin dilini milli dil kimi yenidən dirildərdilər və biz də razılaşardıq ki, fars dilinin qədim ləhcələrindən biri olan “Azəri” dili xalqın övladları tərəfindən yenidən dirçəlir. Ancaq biz necə xoşluqla razı ola bilərik ki, “ağalar” tatar fatehlərinin xalqa təhmil etdikləri dili bizim əcdadlarımızın dilindən üstün tutsunlar? Heç fikirləşmisinizmi ki, dəri dilinin genişliyi özünün aləmə yayılmış ədəbiyyatı, faydalı kitabları və tarixi şəxsiyyətləri ilə nə qədərdir? Elə indi də sizin həmvətənlər bütün İranda bu dildə danışırlar, Azərbaycan özü də, belə bu dildə heyrətamiz istedadlar meydana çıxarmış və çıxarmaqdadır. Bəs

[16]. “Bizim dilimiz” - “Azərbaycan” qəzeti, 05.09.1945.

necə ola bilər ki, dünyada nə ədəbi keçmişi olan, nə də, görkəmli elm və ədəbiyyat adamları yetişdirmiş və yetişdirən bir dilin arxasınca gedəsiniz?

Əgər dünyada yalnız bir dili seçməyi ixtiyarınıza qoysalar, yaxşı olmazmı ki, bu dil fars dili olsun? Bu dilin böyük cahanşümul mədəniyyəti vardır. Bu dildə çoxlu kitablar yazılmışdır. Bu dili bilməklə öz iranlı qardaşlarınızla bir ölkədə yaşaya bilər və bu ölkənin sərvətlərindən bəhrələnə bilərsiniz...”[17]

Təəssüflər olsun ki, bir çox Tehran ziyalıları və şairləri də, Azərbaycan xalqının dilni, onun mıllı kimlik istəklərini açıq-aşkar təhqir edir, dilə hücumlar etməklə bu dili məhv etmək və Azərbaycan xalqının öz dilini unutmasını istəyirdilər. Onlar azərbaycanlıların fars dilini öyrənmələrini istəyirdilər. Bu işlər elə bir halda edilirdi ki, hələ Nasirəddin şahın dövründə Mirzə Həsən Rüşdiyə Azərbaycanda Azərbaycan dilini “Vətən dili” kitabı vasitəsi ilə tədris edirdi. Bu adamlar Azərbaycan dilinin tədrisinin bu cür keçmişini görmədən Azərbaycan xalqının ən birinci istəyinə təhqirlər yağdırırdılar və Mahmud Əfşar, Abbas İqbal Aştiyani və Arif Qəzvini kimilərin anti-humanist ideyalarını yerinə yetirirdilər. Arif Qəzvini bununla bağlı yazmışdı:

“Zəbanı tork bəraye əz qəfa keşidən əst
Səlah paye in zəban ze məmləkət boridən əst”
(türk dili onu başdan çıxarmaq üçündür.
Yaxşı olar ki, bu dilin kökü məmləkətdən kəsilsin)

Bu cür anti-humanist təfəkkür tərzi təəssüflər olsun ki, paytaxtın əksər ziyalıları və onların Azərbaycandakı muzdlu hamiləri tərəfindən Azərbaycan Milli Hökuməti zamanında əcaib bir tərzdə müdafiə edilirdi. Bu dəstədən olan adamlar öz enerjilərini və qələmlərini aryapərəstlərin ixtiyarına vermişdilər. Onlar Azərbaycan xalqının türk kimliyini və türk dilini təhqir etməyə başladılar və Azərbaycanın qatı düşmənlərinin sırasında yer tutdular.

---

[17] Hüseyn Təqəvi. İranda ictimai hərəkatlar. səh. 92.

## *II Fəsil*

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN YARADILMASI VƏ AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN QURULMASI

### Azərbaycan Demokrat Firqəsinin birinci qurultayı. Demokratiyanın ilk addımları

12 maddədən ibarət olan "12 Şəhrivər bəyannaməsi" nəşr edildikdən sonra Azərbaycan demokratları iti baxışlarla və möhkəm addımlarla əməli şəkildə demokratiya məşqinə tərəf getməyə başladılar və demokratiya ruhunu cəmiyyətin canına yeritdilər. Azərbaycan Demokrat Firqəsinin birinci qurultayı mehr ayının 10-da (2 oktyabrda) Azərbaycanın şəhər və qəsəbələrindən Təbrizə gəlmiş 247 nəfər firqə üzvunun iştirakı ilə təşkil olundu və qurultay 51 maddədən ibarət olan firqənin nizamnaməsini təsdiq etdi. Demokrat firqəsi üzvlərinin belə demokratik və qaydaya salınmış tədbirləri, onların prinsipial və demokratik hərəkətləri Tehrandakı "demokratiya iddiaçılarını" olduqca əsəbiləşdirmişdi. Çünki, demokratiyanın və milli hökumətin yaranması ilə onların qeyri-qanuni mənafeləri təhlükəyə düşürdü.

Bu səbəbdən onlar Azərbaycandakı hamilərini firqənin modern fəaliyyətlərini mənfi əks etdirmək üçün daha çox təhrik edir və bu yolda regionun qarətçi və zalım xanlarından, onların tərəfdarlarından kömək alırdılar. Firqənin prinsipial və qanuni tədbirlərini görməyə dözə bilməyən xanlar Tehrana qaçmışdılar. Onlar Teh-

randakı öz həmfikirləri ilə çalışırdılar ki, Azərbaycan xalqının mənafelərini təmin edən bu müasir hərəkatı rüşeym halında ikən məhv etsinlər. Onlar Azərbaycan xalqının bu milli hərəkatının öz yolunu davam etməsini istəmirdilər. Lakin fiqənin ikinci qurultayı onları daha da məyus etdi.

## Azərbaycan Demokrat Firqəsinin ikinci qurultayı. Demokratiyanın genişlənməsi və onun cəmiyyətin həyatına yayılması

1324-cu il mehr ayının 10-da (1945-ci il oktyabr ayının 2-də) Azərbaycan Demokrat Firqəsinin birinci qurultayı uğurla keçirildikdən sonra demokrat firqəsinin rəhbərləri və üzvləri 1324-cu il aban ayının 29-da (1945-ci il noyabr ayının 20-də) Təbrizin “Şir və Xurşid” salonunda firqənin 2-ci böyük qurultayını keçirdilər. Bu qurultayda 150 min azərbaycanlının nümayəndələri olan 724 nəfər üzv iştirak edirdi. Bu əzəmətli qurultay Səttarxanın qardaşı Hacı Əzim xan tərəfindən açıldı. Çoxlu sayda iclaslar keçirildikdən sonra xalq nümayəndələri milli məclisin təşkil edilməsi haqqında qərarı təsdiq etdilər.

Azərbaycan xalqının tarixində ilk dəfə idi ki, xalq demokratik şəkildə öz vəkillərini seçirdi. Ən uzaq regionlardan tutmuş, cəmiyyətin ən aşağı təbəqələrinədək xalq bərabər şəkildə seçmək və seçilmək hüququ qazanırdı. Şəhərli və kəndli, savadlı və savadsız Azərbaycanda demokratiyanın yaşaması üçün əl-ələ, çiyin-çiyinə verərək, Tehrana demokratiya dərsi verirdilər. Təəccüblüsü bu idi ki, Azərbaycanda demokratiya cəmiyyətdə genişləndikcə, Azərbaycan xalqı hər gün dünənkindən daha çox demokratiyaya yardımlar göstərdikcə ABŞ, İngiltərə və SSRİ-dən asılı olan adamlar Azərbaycan xalqını əvvəlkindən daha çox ittiham edir və Azərbaycan Demokrat Firqəsinin həyata keçirdiyi tədbirlərə iftira, yalan yaxaraq,

hər şeyi əksinə göstərməyə çalışırdılar. Türkçülükdən qorxaraq, türk dilinə və türk kimliyinə qarşı mübarizə aparmağa başlayırdılar. Onlar hər kəsdən kömək gözləyirdilər və xarici ölkələrin köməkliklərindən bəhrələnirdilər. Azərbaycan xalqının azadlığının və demokratiyasının düşmənləri reallıqları təhrif etməklə, həmçinin xanlar və bəzi saray ruhanilərinin köməyi ilə psixoloji müharibə aparır, bütün işləri ilə firqə rəhbərliyi üzvlərini və onlarln demokratik fikirlərini nöqsanlı göstərmək istəyirdilər. Firqə mənsublarının kafir, dinsiz, üsyançı adlandırılması və bu kimi şeylərin hamısı aparılan mənəvi müharibənin atributları idi. Onlar bununla cəmiyyətin şüurunu soyqırımın, bəşəriyyət əleyhinə cinayətin və Azərbaycandakı müharibə cinayətlərinin qəbul edilməsi üçün hazırlayırdılar.

Onlar bu işdə müəyyən qədər uğur qazandılar. Londonda və Vaşinqtondakı hamiləri onların köməyinə gəlmişdilər. Beynəlxalq aləmdə bütün siyasi və diplomatik əlaqələri öz xeyrlərinə işə salmışdılar. Bu səbəbdən idi ki, İran ordusu Azərbaycanda soyqırımı həyata keçirmək üçün Tehranda hazırlıq görürdü. Həm nəzəri, həm praktiki, həm də, psixoloji cəhətdən mətbuat diktaturanın tərəfində durub, təbliğatla məşğul idi. Qərb ordunun ixtiyarına lazımı qədər silah verərək və məşqlər keçirərək, onu Azərbaycana hücum etmək üçün tam hazırlamışdı.

## İran ordusunun Azərbaycanda təslim olması və fədailərin Azərbaycana nəzarət etmələri

Azərbaycan fədailəri Azərbaycan xalqının mənafelərini və demokratiyanın nailiyyətlərini qorumaq üçün əldə silah tutaraq xalqın azadlığı naminə onun düşmənləri qarşısında sinələrini sipər etdilər. Onlar jandarmlara və İran ordusu qüvvələrinə təslim olmağı təklif etdilər. Bəzi şəhərlərdə jandarmeriya və ordu hissələri fədailərlə əməkdaşlıq etməsələr də, Azərbaycanın əksər şəhərlərində, o cümlədən Miyana, Sərab, Ərdəbil, Marağa və s. şəhərlərdə

hərbiçilər və jandarmlar kiçik bir döyüşdən sonra bir-birinin ardınca Azərbaycan xalqının fədailərinə təslim oldular. Fədailər ordu və jandarmeriya hərbiçiləri ilə humanistcəsinə rəftar edirdilər. Əvvəlcə onlara təslim olmağı və xalq qoşununa qoşulmağı təklif edirdilər. Hərbiçilər tərəfindən müqavimət göstərildikdə fədailər yalnız müdafiə olunurdular. Fədailər tərəfindən ordu qüvvələrinin təslim və tərki-silah edilməsi, ən az itkilərlə həyata keçirilirdi. Eyni zamanda Təbriz qarnizonu da müzakirələrdən sonra briqada generalı Derəxşani başda olmaqla 1324-cü il Azər ayının 22-də (1945-ci il dekabr ayının 13-də) qan tökülmədən təslim oldu. İranın müxtəlif yerlərinə getmək istəyən zabitlərə şərait yaradıldı.

Lakin Urmiyadakı vəziyyət irqçi təfəkkürlərə malik olan polkovnik Zəngənənin mövcudluğu ilə tamamilə fərqli idi. Burada fədailərlə ordu arasında şiddətli döyüşlər baş verdi. Polkovnik Zəngənə Urmiyada çoxlu cinayətlər törətdi.

“Keçmiş gələcək yolun çırağıdır ” adlı kitabda Urmiyada polkovnik Zəngənənin törətdiyi cinayətlər haqqında aşağıdakılar yazılmışdır: “Təxminən Azər ayının 25-də (16 dekabr) fədailər tərəfindən Urmiya şəhərinin mühasirəsi başlandı. Demokratlar şəhərdən çıxaraq, şəhər ətrafındakı fədailərə qoşulurdular. Bir kilometr radiusda şəhər və onun ətrafı Zəngənənin əlində idi. Vəziyyətin təhlükəli olduğunu görən Zəngənə bəzi yüksək məqamların məsləhəti ilə insanları qorxutmaq fikrinə düşdü. Öz planını yerinə yetirmək üçün ətrafdakı “Çaharpayı” və “Səngər” kəndlərinə bir neçə tank göndərdi. Bu kəndlərdə 9 nəfər öldürüldü və 11 nəfər yaralandı.

Qeyd etmək lazımdır ki, ölənlərin arasında bir neçə nəfər uşaq, o cümlədən körpə qızlar var idi. Bu əməliyyatda Zəngənənin əldə etdiyi nəticə o oldu ki, beş kəndin əhalisini təxliyə etdilər”.[19]

“Qətl və qırğınları davam edərək jandarmlar başqa cinayətlər də etdilər.

[19] Keçmiş gələcək yolun çırağıdır. səh. 314.

“Torpaqqala” adlı kənddə jandarmlar assuri qardaşlara çox pis təsir etmiş çirkin və nifrət yaradan əməllər törətdilər. Belə ki, jandarmlar bir neçə fədai şəhidini əhalisinin əksəriyyəti assuri olan “Torpaqqala” kəndində faciəli tərzdə tikə-tikə doğradılar. Sonra bu əməlin assurilərin həyəcanına səbəb ola biləcəyindən qorxaraq parçalanmış bədənləri torpağa basdırdılar.”[20]

## Azərbaycan Milli Hökumətinin qurulması

Ordu təslim olduqdan və Azərbaycana nəzarət xalqın fədai övladlarının əlinə keçdikdən sonra firqə rəhbərləri Azərbaycanda Milli Hökuməti qurmağa və onu möhkəmləndirməyə başladılar. Onlar milli hökumətin daha da möhkəmlənməsinə və onun Azərbaycanın bütün bölgələrinə nüfuz edib genişlənməsi yolunda quruculuq işlərinə başladılar. Dövlət quruculuğu demokrat firqəsi rəhbərlərinin icra etdikləri ən mühüm işlərdən biri idi. Çünki dövlət quruculuğunu icra etmədən, Azərbaycan xalqının demokratik istəklərinə cavab vermək istəyən demokrat firqəsi rəhbərlərinin arzularının həyata keçməsi mümkün olmazdı. Firqə rəhbərləri bu iş üçün Azərbaycanın bütün mütəxəssisləri və ziyalılarını öz enerjilərini xalqa xidmətə sərf etməyə çağırdılar. Xalqa xidmət etmək yolu hamının üzünə açılmışdı. Lakin onların bəziləri xəyanət yolunu seçdilər. Bu yol öz xalqına xəyanət yolu idi. Onlar hətta, düşmənin piyada qoşunlarının üzvləri kimi qətl və qarətlərə qurşandılar.

## Milli Hökumət tərəfindən dövlət orqanlarının, siyasi orqanların və parlamentin təsis olunması

Azərbaycan Milli Hökuməti demokratiyanın genişləndirilməsi üçün elə bir quruma möhtac idi ki, xalqın qəlbindən qüdrət almış olsun. Bu qurum xalqdan olsun və xalq üçün olsun. Bu səbəbdən

[20] Keçmiş gələcək yolun çırağıdır. səh. 314.

parlament və ya milli məclis milli hökumət tərəfindən yaradılmış ən mühüm bir siyasi qurum oldu. Xalq birbaşa seçkilər vasitəsi ilə parlamentə onun tələblərini və istəklərini həyata keçirə bilən öz nümayəndələrini seçə bildi. Parlamentə seçilmiş şəxslərin hamısı savadlı və iş bacaran idilər. Azərbaycan parlamentində olan xalqın nümayəndələrini savadsız, dinsiz və sosial dayaqsız hesab edən müstəmləkəçilərin təbliğatlarının əksinə olaraq, parlamentə seçilmiş şəxsiyyətlərin kimliyinə bir nəzər salmaqla Azərbaycan Parlamentinə necə böyük insanların seçildiyini görmək olar.

Cahangir Təfəzzoli Azərbaycan Milli Məclisinin açılışı haqqında xatirələrində yazır: “Demokrat firqəsindən olan nümayəndələr demək olar ki, Azərbaycan xalqının bütün təbəqələrini təmsil edirdilər. Məsələn, Hacı Tağı Vahabzadə mülkədar və tacir idi, Nizamüddövlə Kəfiyi mülkədar və Azərbaycan zadəganlarından idi, Ataş paşa Bayat Makulu İran zadəganı və aristokratlarından idi, hüquqşünas idi və Təbrizin şəhrdarı (meri) olmuşdu. O, həmçinin azərbaycanlıların sevimli və diqqət mərkəzində olan hemyerlilərindən idi. Makulu İqbalüssəltənin oğlu idi. Bu adam İranın dörd yüz il tarixi olan məşhur, dövlətli və zadəgan ailələrindən idi. Milli məclis deputatlarından təxminən üçdə biri yaşı 27 ilə 35 arasında olan gənc insanlar idilər. Bu adamların əksəriyyəti ali təhsilli ziyalılar idilər. Belə ki, Azərbaycan Milli Şura Məclisində təhsil almış cavanların sayı Tehran parlamentindəki savadlı cavanlardan çox idi. Məsələn, məclis deputatlarının içərisindən seçilmiş yerli Azərbaycan hökumətində daxili İşlər naziri, kənd təsərrüfatı naziri və səhiyyə naziri ali savadlı doktorlar idilər, Ədliyyə naziri Yusif Əzima orta savadlı hüquqşünas idi. Başqa hökumət üzvləri də savadlı idilər. Təbrizin nümayəndəsi olan və məclis tərəfindən Azərbaycan Ali Divanının rəisi seçilmiş Qiyamı də İranın savadlı adamlarından sayılırdı.

## Firqə təşkilatlarının formalaşdırırlması

Firqə təşkilatları demokrat firqəsi tərəfindən yaradılmış qurumlar idilər və Azərbaycan Milli Hökumətinə tərəfdar olan adamlar siyasi və firqə təhsili almaq üçün bu təşkilatlara cəlb olunurdular. Onlar burada siyasi işin əsasları ilə tanış olurdular. Doktor İsmayıl Həsənzadə özünün “Mərənddə islam inqilabı” adlı kitabında demokrat firqəsinin firqə təşkilatları haqqında belə yazırdı: “Firqənin təşkilatları aşağıdakı kimi idi: Demokrat firqəsininin firqə üzvlərindən təşkil olunan özəkləri, bir neçə firqə özəyindən bir rayon təşkilatı, bir-neçə rayon təşkilatından yerli firqə komitələri, bir neçə yerli firqə komitəsindən bir vilayət firqə komitəsi, vilayət firqə komitələrindən mərkəzi komitə təşkil olunurdu. Ondan yuxarı isə firqənin ümumi qurultayı çağırılırdı.”[21]

## Hökumət tərkibinin formalaşdırılması

Milli hökumətin planlaşdırma və icra işlərini, o cümlədən rifah, mədəni, iqtisadi və siyasi vəzifələrini həyata keçirmək və nəzərdə tutulmuş başqa işləri yerinə yetirmək üçün bir tərkibə ehtiyacı var idi. Bu məqsədlər üçün bir qüdrətli orqan yaradıldı və şəxsən Pişəvəri bu orqanın sədri seçildi. O, xalqa xidmət etmək üçün nazirləri təyin etdi. Milli hökumətin o zamanda, müharibə və iqtisadi sanksiyalar şəraitində həyata keçirdiyi işlər gələcək nəsillər üçün bir dərs idi. Çünki öz taleyini özü həll etmək istəyən bir xalq bütün şəraitlərdə öz gücünə arxalanıb öz ayaqları üzərində dayana bilər. Azərbaycan Milli Hökumət rəhbərləri xüsusi bir bacarıq və fərasətlə müharibə vəziyyətində olduqları bir il ərzində bütün sahələrdə bu işləri görməyi bacardılar və Azərbaycanı Tehrandan asılı olmayaraq, müstəqil şəkildə idarə etdilər. Bu dövrdə Azərbaycanın rifahı və təhlükəsizliyi İranın başqa yerlərindən üstün idi.

---

[21] İsmayıl Həsənzadə. İslam inqilabı Mərənddə. səh. 224.

## Mədəniyyət və incəsənət qurumları

Tehranda hakim olan müstəmləkəçilik, ayrı-seçkilik və terrorizm ideyalarının daşıyıcıları Rza şahın hakimiyyətə gəlməsindən sonra Azərbaycan dili, mədəniyyəti və incəsənətini inkar və məhv etməyə başladılar. Tehran hakimiyyəti Azərbaycan xalqının mədəniyyətini və onun dilini məhv etmək qərarına gəlmişdi. Bu hakimiyyətin ən böyük düşmənçiliyi Azərbaycan dili və mədəniyyəti ilə idi. Rza şahın diktator olduğu 20 ildə onun ayrı-seçkilik və arxaik düşüncələrə malik olan “ziyalıları” və ya daha doğrusunu desək “ziyalı kimiləri” Rza şaha məsləhət verir və o isə onların məsləhətlərini icra edirdi. Bundan əlavə, bu nəzəriyyələri həyata keçirmək üçün ingilis dövləti və bu dövlətdən asılı olanlar çoxlu səylər göstərirdilər. İngilis hökuməti tərəfindən idarə olunan ingilis casusları Tehranda əyləşmiş “ziyalı kimilərə” layiqli köməklər göstərirdilər.

Milli Hökumət bu zəhərli və anti-humanist ideyalarla mübarizə etmək və bu zərərverici ideyaları Azərbaycan xalqının zehnindən silmək məqsədi ilə tədbirlər görməyə başladı. Bu tədbirlər xalqa öz dəyərli və zəngin keçmişini və Azərbaycan dilini öyrətməkdən və Azərbaycanın zəngin mədəniyyətini yaymaqdan ibarət idi. Buna görə də milli hökumət mədəniyyət obyektlərini yaratmağa başladı.

## Maarif və Mədəniyyət nazirliyinin yaradılması

Milli hökumət milli məclis təşkil edildikdən və demokrat firqəsinin rəhbəri Mir Cəfər Pişəvəri hökumətin sədri və baş nazir təyin edildikdən sonra o, öz hökumətinin tərkibini Milli Məclisə təqdim etdi. Hökumətdə ən mühüm nazirliklərdən biri Maarif nazirliyi idi və Məhəmməd Biriya bu nazirliyin başçısı təyin edildi.

Mədəniyyət nazirliyi gecə-gündüz çalışaraq “Ana dili” kitabını Azərbaycan dilində nəşr etdi. Bu kitabın çap olunması ilə və Azərbaycan dilinin rəsmiləşməsindən sonra təhsilin ana dilində

aparılması ilə mərkəzi hökumətin və onun Azərbaycandakı hamilələrinin qəzəbi daha da coşdu. Çünki, onlar Azərbaycan dilinin düşməni idilər və ayrı-seçkilik təfəkkürünə malik idilər. Azərbaycan dilinin Azərbaycanda dövlət dilinə çevrilməsi onların bütün yalançı təbliğatlarını məhv edirdi və Azərbaycan xalqının müstəmləkəçilərin və istibdad tərəfdarlarının zülmündən xilas olmasına səbəb olurdu. Buna görə də, onlar Azərbaycan dilinə hücumlarını genişləndirdilər.

Həqiqətən də Milli Hökumətin həyata keçirdiyi ən böyük tədbirlərdən biri Azərbaycan dilinin rəsmi dövlət dili elan edilməsi oldu və bu, ayrı-seçkilik təfəkkürü sahiblərinin böyük məyusluğuna səbəb oldu.

Birinci və ikinci siniflər üçün kitablar mədəniyyət nazirliyinin nəşriyyatı tərəfindən çap olundu. Bu kitablar ərəb əlifbası ilə, lakin Azərbaycan dilində yazılmışdı. Bu kitablar hökumətin sərəncamı və mədəniyyət nazirliyinin sərəncamı ilə çap olunmuşdu. Bu sərəncamda Azərbaycan dilinin rəsmi dövlət dili olması və onun bütün işlərdə, o cümlədən təhsildə, idarələrdə, rəsmi yazışmalarda, ordunun fərmanlarında və s. işlədilməsi qeyd edilirdi. Hökumətin bu qərarının mətni aşağıdakı kimidir:

1. Bu gündən başlayaraq Azərbaycan dili rəsmi dövlət dili elan edilir. Bütün dövlət qərarları və bildirişləri, ordu fərmanları və qanun layihələri mütləq Azərbaycan dilində olmalıdır.

2. Bütün dövlət, milli, ticarət və ictimai idarələri öz işlərinə aid olan mətnləri Azərbaycan dilində yazmalıdırlar. Bu dildə yazılmamış bütün sənədlər və dəftərlər rəsmi hesab edilməyəcəkdir.

3. Məhkəmə işləri Azərbaycan dilində aparılmalıdır. Azərbaycan dilini bilməyən adamlara tərcüməçi təyin olunacaqdır.

4. Bütün dövlət idarələrinin və ticarət obyektlərinin giriş qapılarındakı tablolar mütləq Azərbaycan dilində olmalıdır.

5. Azərbaycanda yaşayan başqa xalqların öz işlərini öz ana dilində aparmaq hüququ vardır. Lakin, onlar rəsmi yazılarını və bildirişlərini rəsmi dövlət dili olan Azərbaycan dilində və ya öz xalqının dilində nəşr etməlidirlər.

6. Azərbaycanda yaşayan kiçik xalqların - azlıqların özəl məktəblərində onların ana dilləri ilə yanaşı Azərbaycan dilinin tədrisi icbaridir.

7. Milli hökumətin maarif nazirliyinin dərslərin Azərbaycan dilində keçirilməsi haqqında qərarını nəzərə alaraq, onun yerinə yetirilməsi bütün qadın və kişi müəllimlərə bir milli vəzifə kimi tapşırılır.

*Azərbaycan Milli Hökumətinin*
*Baş naziri Mir Cəfər Pişəvəri*[22]

Azərbaycan dilinin Azərbaycanda rəsmiləşməsi ilk dəfə milli hökumət zamanında baş verdi və bu milli hökumətin iftixarlı işlərindən biri idi. Bu iş Azərbaycan türk kimliyinin xalq tərəfindən lazım olan səviyyədə qəbul edilməsinə səbəb oldu. Azərbaycan milləti özünün türklüyünə qayıtdı və onunla fəxr etməyə başladı.

Azərbaycan dilinin rəsmiləşməsi Tehranda mərkəzi hakimiyyətin və əcnəbilərdən asılı olanların azərbaycanlılara qarşı hücumlarının çoxalmasına səbəb oldu. Onlar milli hökumətə qarşı şantajlarını artırdılar. Bu məsələ onların Azərbaycan dilinə nə qədər kin və nifrət bəsləmələrini və onun rəsmiləşməsinə dözə bilmədiklərini göstərdi. Onlar top və tüfənglərin gücü ilə Azərbaycan dilini məhv etmək və fars dilini zorla Azərbaycan xalqına təhmil etmək istəyirdilər.

## Dövlət Universitetin təsis edilməsi

22 xordad 1325-ci il tarixində (12 iyun 1946-cı il) Təbrizdə universitet təsis olundu və həmin ildə tibb, kənd təsərrüfatı və pedaqogika ixtisasları üzrə tələbə qəbul edildi. Bu universitetin laboratoriya və kitabxanası var idi. İran ordusunun vəhşicəsinə hücumundan sonra laboratoriya və kitabxana dağıdılıb qarət edildi. Şəhər polis

[22] “Azərbaycan” qəzeti, No 96, 9.01.1946

idarəsinin Azərbaycan Universitetinin ordunun hücumundan sonra qarət edilməsi haqqında gizli hesabatı aşağıdakı kimi idi: "17 isfənd 1325-ci il (8 mart 1947-ci il) cari ayın 6-da saat 18:30-da İranın vəhdət firqəsinin təxminən 250 nəfər üzvü keçmiş "Qrand Hotel"in salonunda həftəlik məruzəni eşitmək üçün toplaşmışdılar və Zərrinebaf özünün Azərbaycana səfəri haqqında hesabat verdi. O, bildirdi ki, Azərbaycanın vəziyyəti insanlara dövlət işlərinin təhmil edilməsi və rüşvət almaq baxımından çox pisləşmişdir. Dövlət məmurları Azərbaycana gəldikləri ilk andan demokrat firqəsi dövründə idarələrdə olan bütün avadanlıqları qarət etdilər. Xüsusən, son zamanlar demokrat firqəsinin Sovet İttifaqından aldığı universitetin tibb fakültəsinin laboratoriya avadanlıqları məhv edilmiş və onların harada olduğu məlum deyildir. Tələbələr açıq şəkildə bildirirlər ki, dövlət qulluqçuları Azərbaycana gəlməmişdən əvvəl bütün laboratoriya avadanlığı yerində idi. Lakin indi aydın deyildir ki, mədəniyyət idarəsi rəhbərləri onları hara aparmışlar"[23]. Universitetin, digər mədəniyyət, incəsənət və elmi müəssisələrin təsis edilməsi sübut edir ki, Azərbaycan Milli Hökuməti sivil bir dövlət idi və bütün sahələrdə Azərbaycan xalqını modern bir dünyaya qovuşdurmaq istəyirdi.

## Mətbuat orqanları:

### *1. Qəzetlər*

Milli Hökumətin hakimiyyətə gəlməsi ilə qəzet və mətbuat nəşri xeyli gücləndi. Azad qəzetlərin nəşri 1941-ci il avqust ayından başlasa da, milli hökumət dövrü mətbuatın baharına çevrildi. Bu dövrdə mətbuatın xüsusiyyətlərindən biri o oldu ki, mətbu orqanlarının əksəriyyəti Azərbaycan dilində nəşr edilməyə başladı. Bu qəzetlərdən aşağıdakıları göstərmək olar:

[23] Tehran polisinin gizli raportları (1937-1945-ci illər). II cild, səh. 259-260.

– “Azərbaycan” qəzeti
– “Şəfəq” qəzeti
– “Günəş” qəzeti
– “Mədəniyyət” qəzeti
– “Yumruq” qəzeti
– “Demokrat” qəzeti
– “Yeni Şərq” qəzeti

**2. *“Danışır Təbriz” radiosu***

Təbriz radiosu 26.01.1325-ci ildə (15.04.1946) sınaq şəklində və 6.02.1325-ci ildə isə (27.04.1946) rəsmi şəkildə işə başladı. Təbriz radiosu səsini yaydığı bütün aylar ərzində Azərbaycan xalqına daha çox məlumat çatdırmaq istəyirdi.

Cənab Məhərrəmli Təbriz radiosunun açılması ilə bağlı belə yazırdı: “Milli hökumətin baş nazirinin müavini cənab Mir Qasım Çeşmazər radionun direktoru təyin edildi. Aprel ayının 7-dən başlayaraq Təbriz radiosu davamlı şəkildə öz verilişlərini yaymağa başladı. Bu hadisə Azərbaycan xalqının milli-azadlıq hərəkatı tarixində unudulmaz bir hadisə idi. Azadlığın ləzzətini dadmış Azərbaycanın qeyrətli xalqı hər gün saat 15-dən sonra Təbriz radiosuna qulaq asmağa başlayırdılar. İlk günlərdə bu radio öz verilişlərini 310 metr uzunluqda 2,5-3 saat yayırdı. Həmin dövrdə radio aparatlarının az olması və maddi imkanların aşağı olması səbəbinə bütün evlərdə radioqəbuledici yox idi. Bu çatışmamazlığı aradan qaldırmaq üçün Təbriz küçələrinin ayrı-ayrı yerlərində səsgücləndiricilər qurulmuşdu. Radionun verilişləri başlayanda əhali dəstə-dəstə bu səsgücləndiricilərin ətrafına yığışırdılar və Təbriz radiosuna qulaq asırdılar.

O dövrlərdə Təbriz Tehrandan sonra İranın radio ötürücüləri quraşdırılmış ikinci ən böyük şəhəri idi və Təbriz radiosunun gücü Tehran radiosunun gücündən 6 dəfə çox idi. Tehran radiosundan fərqli olaraq Təbriz radiosu qısa dalğalarda da veriliş yaya bilirdi.

Təbriz radiosunun veriliş yaymağa başlaması fövqəladə bir hadisəyə çevrildi. Xalq bu tarixi hadisəni sevinclə qarşıladı və bu hadisə hər bir azərbaycanlının həyatında unudulmaz bir gün kimi həkk olundu.[24] Təbriz radiosu özünün informasiya çatdırma qabiliyyətini artırmaq məqsədilə qeyri- Azərbaycan dillərində də xəbərlər yayırdı. Bu barədə cənab Məhərrəmli özünün Təbriz radiosu haqqındakı kitabında yazır: "Təbriz radiosu Azərbaycan dilindən başqa fars, rus, fransız və ərəb dilində də xəbərlər yayırdı. [25]"

İran ordusunun Azərbaycana hücumundan sonra bu radionun səsi kəsildi və dili dəyişdi. Məhərrəmli bu barədə belə yazır: "Xalqın bu səsi, yəni Təbriz radiosu ordunun hücumundan sonra qarətçi qüvvələr tərəfindən işğal olundu. İndi bu radio başqa dildə və başqa üsulda danışır."[26]

İşğaldan sonra Təbriz radiosunun idarə olunması haqqında "Atəş" qəzeti belə yazırdı: "Dünəndən başlayaraq təbliğat idarəsi və Təbriz radiosu Mənuçöhr İrani, polkovnik-leytenanat Kuşan və Kənanidən ibarət komissiya tərəfindən idarə olunur."[27]

## Milli ordunun yaradılması

Azadlığın və milli hakimiyyətin qorunmasının əsas şərtlərindən biri kimi Azərbaycan Milli Hökuməti milli ordunu təşkili etdi. Ordunun yaradılması 1324-cu il Bəhmən ayının 18-də (7.02.1946) elan edildi və təşkil olunmağa başlandı. Xalq Ordusu Nazirliyi yaşı çatmış insanları orduya çağırmağa başladl.

Şəhid Pişəvəri xalq qoşunu haqqında məqaləsində yazırdı: "Azadlığı yalnız nizami və silahlanmış ordunun gücü ilə qorumaq olar.

Buna görə də demokrat firqəsi və hökumət silah götürə bilən bütün azərbaycanlıları xalq qoşununun sıralarına dəvət edir. Bizim

[24] Məhərrəmli. Təbrizin səsi. səh. 29.
[25] Yenə orada, səh.29.
[26] Yenə orada, səh.28.
[27] Yenə orada, səh.45.

Milli Məclisin milli ordunun təşkil olunması haqqında qəbul etdiyi qanunun icrası zamanı artıq yetişmişdir.”[28]

Milli Ordu təşkil olunmamışından qabaq intizam və qayda-qanunun təmin edilməsi vəzifəsi fədailərin öhdəsində idi. Fədailər əsasən könüllülərdən və firqə üzvlərindən təşkil olunmuşdular və hər şəhərdə bir fədai komandiri var idi.

1324-cü il bəhmən ayının 6-da (26.01.1946) milli ordunun təşkil olunmasından sonra milli hökumət fədailərin işini bitmiş hesab etdi və onlara “21 Azər “medalları verildi.

Azərbaycan Milli Ordusu türk orduları və türk imperiyalarının ordularının quruluşu əsasında yaradılmışdı. Orduda dərəcələr də türklərin ordusundakı kimi idi. Bu barədə doktor Həsənzadə özünün “İslam inqilabı Mərənddə” kitabında belə yazır: “Fədailərin quruluşu on-on prinsipi əsasında idi və türk-monqol qoşunlarından miras qalmışdı: onbaşı, yüzbaşı və min başı”[29]

Azərbaycan Milli Ordusunun hissələrinin adları da (terminlər) Türkiyə və türk ordularından götürülmüşdü. Yəni tabor, general, kolonel, (polkovnik) nayib (serjant), baş qərargah terminləri işlədilirdi.

İrəc Zövqi Azərbaycan Milli Ordusunun quruluşu haqqında belə yazır: “Bu ordu suvari, nəqliyyat, rabitə, piyada batalyonlarından, artilleriya polkundan və rabitə rotasından ibarət idi”[30]

## Hərbi təlim məktəblərinin yaradılması

Milli hökumət zabit kadrlarının hazırlanması və milli ordunun hərbi hazırlığını təmin etmək üçün hərbi məktəblər təsis etdi. Bu məktəblərə “Hərb əfsərlik məktəbi” deyilirdi. Hərbi məktəblərə rəhbərliyi polkovnik Pənahiyan öhdəsinə götürmüşdü.

[28] Yenə orada, səh.26.
[29] İsmayıl Həsənzadə. İslam inqilabı Mərənddə. I cild.
[30] İrəc Zövqi. İran və dünya ölkələri II dünya müharibəsində. III cild.

Milli hökumət həmçinin orta hərbi məktəb və polis kadrları hazırlayan polis məktəbi təsis etdi. Bu məktəblərdə şəhərlərdə asayişi qorumaq üçün lazım olan qüvvələr hazırlanırdılar. “İran mətbuatının sənədlərində” hərbi məktəblər haqqında belə yazılmışdır:

“ Milli hökumət özünün hərbi və asayiş kadrlarını hazırlamaq üçün isfənd (fevral-mart) ayında Təbrizdə ali hərbi və ali polis məktəbləri açdı.”

Azərbaycan Ordusu “Babəklərdən” (könüllülər), “Qızılbaşlardan” (nizami ordu əsgərləri) və fədailərdən (kənd sakinləri olan könüllü qüvvələr) ibarət idi. Fədailər demokrat firqəsinin təsis olunduğu gündən firqə ilə idilər və hər bir şəhərdə - “fədai komitələri” mövcud idi.

## Kino, musiqi, teatr və incəsənətin inkişafı

Milli Hökuməti qətiyyətlə incəsənət, ədəbiyyat və musiqi hökuməti adlandırmaq olar. Cünki, milli hakimiyyətin gəldiyi hər bir yerdə bir mədəniyyət və incəsənət mərkəzi açılırdı. Bu ona görə edilirdi ki, əhali öz bərbad olmuş keçmiş mədəniyyətindən xəbərdar olsun və əsl Azərbaycan incəsənəti və mədəniyyətini tanısın.

Teatr sənəti milli hökumət zamanı daha çox inkişaf etdi. Çünki, teatrın Təbrizdə uzun bir tarixi var idi. Xeyli miqdarda artist şimali Azərbaycanda və Qafqazda teatr təhsili görüb Təbrizə gəlmişdir. Məsələn, Hacızadə. O, Tiflisdə teatr və səhnə təhsili almışdı və milli hökumət təşkil edildikdən sonra görkəmli bir sənətkara çevrilmişdi. Bu artist satirik komediyalarda iştirak edərək, Azərbaycan xalqının zehnini, şüurunu və gözünü açırdı.

Bu dövrdə musiqinin inkişafını da inkar etmək olmaz. İlk dəfə olaraq milli musiqi orkestri Təbrizdə işə başladı. Həmçinin, bütün şəhərlərdə yerli musiqi və rəqs ansamblları təşkil olunurdu.

Milli Hökumət mədəniyyət və incəsənət mərkəzlərinin yaradılmasını özünün əsas vəzifələrindən biri hesab edirdi. Qərara alınmışdı ki, hər bir şəhərdə bir kinoteatr açılsın. Lakin, təəssüflər olsun ki, mərkəzi hakimiyyət ordusunun hücumu səbəbinə bu mədəniyyət və incəsənət mərkəzlərinin yaradılması yarımçıq qaldı.

Demokrat firqəsinin mədəni işləri haqqında Zəncanda çıxan “Xandəniha” jurnalı belə yazırdı: “Demokratlar mədəniyyətə xüsusi əhəmiyyət verirdilər. Onların savadsızların savadlandırılması ilə bağlı fəaliyyətləri alqışlanmalıdır. Mədəniyyət müəssisələrinin, klubların yaradılması, teatr və musiqi ittifaqlarının təsis edilməsi və Zəncanda kinoteatrın açılması kimi işləri yarımçıq qalsa da, xüsusilə qeyd olunmalıdır. Kinoteatrın qış zalının tikintisi qurtarmaq üzrə idi. Kinoteatrın ərazisi şəhrdarlığa (meriyaya) aid idi. İndi Allah bilir, mövcud hökumət bu yarımçıq qalmış bina ilə bağlı hansı tədbiri görəcəkdir”.[32]

## “Axtarış” – Azərbaycan Milli Hökumətinin təhlükəsizlik orqanı olmuşdur

Azərbaycan Milli Hökuməti terrorun və çaxnaşmaların qarşısını almaq, Azərbaycan xalqının təhlükəsizliyini və asayişini qorumaq məqsədilə öz diyarının təhlükəsizlik təşkilatını təsis etmişdi. Hər bir şəhərdə vilayət komitələrində “Axtarış”ın məsul adamları işləyirdilər. Bu təşkilatı yaradanlar İran ordusundan ayrılmış mayor Rəzmara və Hüseyn Ciddi idilər.

## Nəzmiyə, yaxud şəhər polisi

Şəhərlərdə intizam və asayiş yaratmaq üçün Azərbaycan Milli Hökuməti nəzmiyə və ya polis adlandırılan bir orqan yaratdı.

---

[32] “Xandəniha” jurnalı, No 31, 7 dekabr 1946.

## Milli Hökumətin xidmətləri və iqtisadi islahatları

Milli hökumət qurulub formalaşdıqdan sonra söz verdiyi planları həyata keçirməyə başladı. Bu planları yerinə yetirmək üçün mədəniyyət sahəsində islahatlardan başqa, Azərbaycan xalqının rahatlığını təmin etmək üçün iqtisadiyyat və rifah sahəsində də islahatların icrasına başlandı.

Bu islahatların ən başlıcası torpaq islahatı idi. Bu islahat kəndliləri mülkədarların zülmündən azad edirdi. Azərbaycan kəndliləri və əkinçiləri milli hökumətdən əvvəl gecə-gündüz çalışmalarına baxmayaraq, heç nə əldə etmirdilər. Əkinçinin özü və ailəsi qazandıqlarını mülkədarlara verirdilər. Etiraz etdikdə ya xanın zindanına salınır, ya da, heyvanlarla birlikdə tövlədə bağlanırdılar. Milli hökumət qurulmamışdan əvvəl Azərbaycanda ərbablar, xanlar və mübaşirlər kəndlilərə qarşı qeyri-insani rəftar edirdilər. Ərbablar və mübaşirlər kəndliləri hörmətdən salır və onların namusuna təcavüz edirdilər. Hətta, Ərdəşir Avanısyan adlı bir nəfər öz xatirələrində yazır ki, Kondinin mülkədarı Cəmşid İsfəndiyari xan kəndlilərin üstünə od töküb, onları yandırmışdı.

Belə bir vəziyyətdə milli hökumət bu cür orta əsrlərə xas olan qeyri-insani münasibətlərə son qoymaq qərarına gəldi. Bu münasibətlər irqçi hakimlər və Tehrandakı mərkəzi hakimiyyət tərəfindən himayə edilirdi və bu iyrənc davranışlara qarşı sükut edirdilər.

Milli hökumət qəti əzmlə torpaq islahatını həyata keçirməyə başladı və müvafiq mütəxəssislərin və kifayət qədər təcrübənin olmaması səbəbinə bəlkə də bu işdə bəzi səhvlərə yol verdi. Lakin, milli hökumətin ərbab ilə kəndli arasındakı qeyri-insani münasibətlərin aradan qaldırılmasından ibarət olan əsas niyyəti reallaşdı. Milli hökumətin o zaman həyata keçirdiyi işin Orta Şərq tarixində analoqu yox idi. Azərbaycan Milli Hökuməti torpaq və kəndli məsələsinin həllini proqramının 11-ci və 12-ci maddələrində nəzərdə tutmuşdu.

“11-ci maddə” - Kəndlilər və ərbablar arasında ixtilafları aradan qaldırmaq məqsədi ilə tərəflərin razılığına riayət etməklə yeni qanun layihəsi hazırlansın və bu yolla kəndli və ərbab məsələsi həll edilsin.

“12-ci maddə” - Gündən-günə artan işsizliyin qarşısını almaq məqsədilə kənd və şəhərlərdəki dövlət torpaqları təcili olaraq kəndlilər arasında bölüşdürülsün. Həmçinin, Azərbaycanı tərk etmiş və xaricdən Azərbaycana və onun milli muxtariyyətinə qarşı təbliğatla məşğul olan adamlara məxsus torpaqlar zəbt edilsin və kəndlilər torpaq və ev-eşik sahibi olsunlar.[34]

Torpaq islahatı ilə bağlı milli hökumətin həyata keçirdiyi tədbirlər kəndlilərin quldan azad insana çevrilməsinə səbəb oldu. Milli hökumət tərəfindən hazırlanmış “əmlakın kəndlilər arasında bölüşdürməsi haqqındakı əsasnamə”də aşağıdakılar öz əksini tapmışdı:

“Maddə 1 - Kənd təsərrüfatı, ədliyyə, maliyyə və daxili işlər nazirliklərinin hərəsindən bir nəfər və vilayət, yaxud yerli əncümənin nümayəndəsi olmaqla 5 nəfərlik komissiya və ya blok təşkil edilsin. Komissiya üzvlərindən hər biri növbə ilə komissiyanın rəhbəri ola bilər.

Qeyd: Sərhədlərin təyin edilməsi üçün sənədlərin qeydiyyatı idarəsinin kartoqrafiya və reodeziya şöbəsi bu komissiyanın ixtiyarına verilir.

Maddə 2 - Müvafiq qanun və əsasnamələrin dəqiq icrası üçün bu qanunun şamil edildiyi hər bir kənddə mütəxəssis və etibarlı insanlardan ibarət beş nəfərlik köməkçi komissiyalar təşkil olunsun.

Maddə 3 - Köməkçi komissiyaların vəzifəsi əvvəlcədən hazırlanmış aşağıdakı məlumatları əsas komissiyaya təqdim etməkdən etməkdən ibarətdir:

a) əkilən və xam torpaqların sahəsi.

b) bağların sahəsi və xarakteristikası.

c) tingliklərin və meşələrin sahəsi.

[34] “Azərbaycan” qazeti, 13.12.1945.

d) kənddəki əkinçilərin və əkinçiliklə məşğul olmayanların sayı, kasıb və yoxsulluq üzündən kəndi tərk edib, ətraf şəhərlərə köçənlərin siyahısı, əkinçilər tərəfindən istifadə edilən torpaqların sayı və sahəsi və cütlərin (kotan və öküz) sayı.

e) onlar haqqında ətraflı məlumat.

ə) Kəndlərdə mövcud olan və bölünməz olan ümumi istifadədə olan təsisatların (məs. hamamların, dükanların, ərbab karvansaray-larının, ərbabların imarətləri və bağlarının, yağ fabriklərinin və s.) ətaflı xarakteristikaları.

Maddə 4 - Torpaq bölgüsünə başlamamışdan əvvəl, ümumi istifadədə olan təsisatların məs. xəstəxanaların, məktəblərin və s. tikilməsi üçün kənddə müəyyən miqdarda torpaq ayrılmalıdır.

Maddə 5 - Altı hissəsi dövlətə aid olan dövlət torpaqlarındakı kəndlər həmin kəndin bütün ailələri arasında bərabər şəkildə ailələrin sayı nəzərə alınmaqla bölünməlidir.

Əlavə No1. Hər bir kəndliyə aid tikililər (evləri, şəxsi bağları) bölünməzdir və kəndlinin özünə məxsusdur. Lakin, kəndin bütün su mənbələri əkin sahələrinin miqdarı nəzərə alınmaqla bütün kəndlilər tərəfindən müştərək şəkildə istifadə olunacaqdır və böyük bağ və meşələrin sahibləri torpaq bölgüsündən sonra müəyyən miqdarda çox əraziyə malik olsalar, ictimai işlərin icrası haqqında qanuna əsasən mülkün artıq payından müəyyən məbləğ ödəyəcəkdir.

Maddə 6 - Torpaqlarının yarısı və ya yarısından çoxu dövlətə, qalanı isə başqa mülkiyyətçiyə aid olan dövlət torpaqları olan kəndlərdə, kəndin dövlətə aid olan torpaq payı, kənddə yaşayan bütün kəndlilər arasında bölünəcəkdir.

Əlavə No 2. Adı çəkilmiş kəndlərin mülkiyyətinin ərbaba aid olan hissəsi də, mülkiyyət vergisi ödəmək şərti ilə həmin kəndin bütün kəndliləri arasında bölünür və istifadə olunur.

Maddə 7 - Bir və ya iki dangı* dövlətə aid olan kəndlərdə dövlət torpaqları yalnız o kəndin kəndliləri arasında, o cümlədən kasıb və əkin torpaqları olmayan kəndlilər arasında bölünəcəkdir.

Maddə 8 - İstər dövlət torpaqları olan kəndlərdə və istərsə də, Azərbaycan xalqının düşmənlərinə aid olan kəndlərdə hər bir kəndlinin torpaq payı ailə üzvlərinin sayı nəzərə alınmaqla 5 hektardan çox və 2 hektardan az olmayacaqdır. Eyni zamanda qeyd edilməlidir ki, hər bir ailə başçısına tabeliyində olan beş yaşından yuxarı hər bir üzvünə görə 1 hektar torpaq əlavə olaraq veriləcəkdir.

Maddə 9 - Kəndlilər torpaq bölgüsü ilə əldə etdiyi torpaqları satmaq, bağışlamaq, icarə vermək hüquqlarına malik deyillər.

Əlavə No 3. Çoxailəli kəndlilər və yaxud işləmək qabiliyyəti olmayan kəndlilər öz əkin sahələrində muzdur fəhlələrdən istifadə edə bilərlər.

Maddə 10 - Kəndlilər onlara verilmiş torpaqlardan və sudan maksimal səmərəli şəkildə istifadə etməli və torpaqlarını abadlaşdırmalıdırlar. Üzürlü səbəb olmadan torpaqlarını əkməyən və lazımı şəkildə abadlaşdırmayan kəndlilərdən kənd komissiyasının təqdimatına əsasən və kənd təsərrüfatı nazirliyinin təsdiq etməsindən sonra torpaq geri alınıb, daha fəal kəndlilərə veriləcəkdir.

Maddə 11 - Kasıb kəndlilərin özlərinə ev tikmələri və onlara verilmiş torpaqları abad etmələri məqsədilə lazım olan tədbirlər görüləcəkdir.

Əlavə No 4. Kənd komissiyaları vəsaitlərin düzgün ödənilməsinə nəzarət edəcəkdir.

Maddə 12 - Kəndlərdə torpaq bölgüsü ildə bir dəfə əhalinin çoxalması və ya azalması nəzərə alınmaqla yenidən baxılıb, həyata keçiriləcəkdir.

Maddə 13 - Yoxsulluq, zülm və başqa səbəblərə görə kəndlərini tərk edən və torpaq bölgüsü haqqında qanuna şamil edilən, lakin

---

* Dang - daşınmaz əmlakın altıda bir (1/6) hissəsi.

şəhərlərdə işləyən, yaxud işsiz olan kəndlilərə xəbər verilməlidir ki, onlar öz kəndlərindəki torpaq bölgüsündə iştirak etsinlər.

Maddə 14 - Müsadirə yolu ilə kəndlilər arasında bölünəcək Azərbaycan xalqının düşmənlərinə aid olan torpaqlar da bu əsasnaməyə şamil edilirlər.

Maddə 15 - Dövlət torpaqlarının və Azərbaycan xalqının düşmənlərinə aid olan torpaqların bölgüsü üçün kəndlərə ezam olunmuş məmurların maaşları kənd təsərrüfatı nazirliyi tərəfindən milli məclisin təsdiqindən sonra Azərbaycan hökuməti tərəfindən ödənilir.

Bu əsasnamə Nazirlər Şurasının 22.11.1324-cü il (11.02.1946) tarixində keçirilmiş 15-ci iclasında təsdiq edilmişdir.

Baş Nazir Pişəvəri.[35]

Milli Hökumətin rəhbərləri çalışırdılar ki, kəndlilər real torpaq payını əldə etsinlər və bu torpaqlardan öz zəhmətlərinin əvəzinimuzdunu alsınlar.

**Bankın təsisi və pul əskinaslarının çap edilməsi**

Xaricilərə bağlı olan Tehrandakı mərkəzi hakimiyyət Azərbaycan Milli Hökumətinə təzyiq göstərmək üçün onun əleyhinə iqtisadi sanksiyalar həyata keçirməyə başladı. Bu məqsədlə İran Milli bankının Azərbaycandakı şöbələrini Tehrana köçürdü. Bundan əlavə, şirkətlərin, tacirlərin və ayrı-ayrı şəxslərin 150 milyon riyal məbləğində olan pulunun ödənilməsi bütün Azərbaycan üzrə təxirə salındı, banklar tərəfindən veksellərin ödənilməsinə imtina edildi. Onlar bu işləri həyata keçirməklə milli hökuməti əhalinin tələbləri ilə üz-üzə qoydular.

Həmçinin Tehran hakimiyyəti göstəriş vermişdi ki, Tehranda və ölkənin başqa yerlərində İranın şimalındakı banklardan gəlmiş pul köçürmələri ödənilməsin. Eyni zamanda azərbaycanlı tacirlərin alış-verişinə böyük təzyiqlər göstərilirdi.

[35] "Azərbaycan" qəzeti, 8.02.1946

Demokrat firqəsiTehranın iqtisadi təhrimi ilə mübarizə aparmaq məqsədilə Azərbaycan bankını təsis etdi və pul əskinasları çap etdi. Pul vahidi kimi türk sözü olan qran təyin edildi. Azərbaycan milli pul vahidləri aşağıdakı kimi idi: 5 qran, 1 tümən, 2 tümən, 5 tümən, 10 tümən, 50 tümən.

Mirzə Abdulla Müctəhidi milli hökumət tərəfindən pul çap edilməsi ilə bağlı xatirələrində belə yazır: “Azərbaycan Milli Hökumətinin buraxdığı xəzinədarlıq sənədləri yavaş-yavaş camaat arasında yayılır və pul şəklini alırdı. İlk günlər çox yayılırdı.

Sonra bir qədər tənəzzül etdi. Camaat arasında alış-veriş edilən məbləğ ilə yenidən yüksəldi. Milli hökumət milli banka icazə vermişdi ki, pul əskinası almaq müqabilində xəzinədarlıq sənədləri verilsin. Dörd gün ərzində milli bank tərəfindən 250 min tümən xəzinədarlıq sənədi satılmışdı. Azərbaycan Milli Hökumətinin tədbirləri içərisində ən çətin, daha çox məharət tələb edən, başqa işlərdən daha çox müvəffəqiyyətə yaxın olan və hökumətin uğurlarının səbəbi olan bu təhlükəli və incə tədbirdə milli hökumət işi həssaslıqla, mütəxəssislərin əməkdaşlığı ilə və planlı şəkildə həyata keçirməyə başladı[36].”

## Bayrağın yaradılması

Azərbaycan fədailərinin ən mühüm işi Azərbaycanın bayrağını yaratmaq oldu. Bu bayraq yalan təbliğatların qarşısını almaq üçün rəsmi mərasimlərdə istifadə olunmasa da, Azərbaycanı sevənlər və Azərbaycan fədailəri qeyri-rəsmi şəkildə bayraqdan istifadə edirdilər. Onlar öz evlərindən onu asırdılar. Təəssüflər olsun ki, indiyə qədər bu bayrağın təsviri ordunun qarəti və işğalı nəticəsində əlimizdə yoxdur. Lakin, “Ettelaat” qəzetinin müxbiri

[36] Mirzə Abdulla Müctəhidi. Azərbaycan böhranı (1945-1946-cı illər). səh. 234.

qəzetin 2.11.1325-ci il tarixli sayında (22.01.1947) bu bayrağın geniş şərhini vermişdi. Qəzetin müxbiri Astaradan yazırdı: “Onlar xüsusi bayraq düzəltmişdilər və bu bayraq tamamilə Qafqaz Azərbaycanının bayrağına oxşayırdı. Hətta, bizim qonşularımızın xüsusi nişanı olan altı güşəli ulduzu da bayraqda əks etdirmişdilər.”[37] Bu bayraq Astara şəhərində görünmüş, orada azadlıqsevənlər tərəfindən istifadə edilmişdi.

[37] “Ettelaat” qəzeti, 22.01.11947.

# *III Fəsil*

# İMPERİALİST QÜVVƏLƏRLƏ BAĞLI TEHRAN HÖKUMƏTİNİN AZƏRBAYCANA QARŞI MÜBARİZƏNİ GÜCLƏNDİRMƏSİ

## Azərbaycanın qanuni tələblərinə qarşı mübarizənin gücləndirilməsi

Azərbaycanda Milli Hökumət qurulduqdan sonra İngiltərə, ABŞ və onların tərəfdarları olan dövlətlər Azərbaycan Milli Hökumətinə qarşı mübarizə üçün səylərini iki dəfə artırdılar. Milli hökumətin mövcud olduğu bir il ərzində İngiltərənin və ABŞ-ın Tehrandakı səfirləri gecə-gündüz öz casusları vasitəsi ilə Azərbaycan Milli Hökumətinə qarşı mübarizə aparırdllar. Tehran hakimiyyəti onların məsləhətlərindən siyasi və hərbi mənfəətlər əldə etməyə çalışırdı. Eyni zamanda İngiltərə və ABŞ dövlətləri Azərbaycan Milli Hökumətini məhv etmək üçün SSRİ ilə bir neçə dəfə müzakirələr aparmışdılar. O cümlədən, 11 sentyabr 1946-cı il tarixli London konfransında, 1945-ci il dekabr tarixli Moskva konfranslarında Azərbaycan Milli Hökumətini məhv etmək üçün SSRİ-yə təzyiq göstərmişdilər ki, öz qoşunlarını geri çəksin. Çünki, beynəlxalq baxımdan o dövrdə milli hökuməti zahirdə himayə edən yeganə dövlət Sovetlər İttifaqı idi.

Qərb dövlətləri düşərgəsi və onların Tehrandakı əlaltıları Sovet İttifaqının ordu hissələrinin Azərbaycanda mövcudluğunu onların Azərbaycana hücum etmələrinə qarşı maneə kimi görürdülər və Azərbaycanda öz məqsədlərini həyata keçirmək üçün Sovet Ordusunun tezliklə Azərbaycandan çəkilməsini istəyirdilər. Halbu-

ki, ABŞ-ın da, İranda hərbi iştirakı var idi və general Şvartskof Tehran hakimiyyətinin jandarm qüvvələrinin başında dururdu. Adı çəkilən dövlətlər beynəlxalq təşkilat və konfranslarda Sovet ordu hissələrinin (bu orduda olanların çoxu bizim Şimali Azərbaycandan olan qardaşlarımız idilər) Azərbaycandan çıxarılmasını israrla tələb edirdilər.

İran hakimiyyəti də, İran, SSRİ və İngiltərə arasındakı 1945-ci ildə imzalanmış üç tərəfli müqaviləyə əsaslanaraq, Sovet İttifaqından Azərbaycanın boşaldılmasını istəyirdi. İranın bu tələbi ABŞ və İngiltərənin istəkləri ilə üst-üstə düşürdü.

Moskvada keçirilən iclas zamanı (Böyük Britaniya, ABŞ və SSRİ xarici İşlər nazirlərinin iclası) ABŞ dövlət katibinin müavini Din Açson ABŞ-ın SSRİ-dəki səfiri Harrimana yazırdı: “İran səfiri xarici işlər nazirliyinə zəng edərək, narahatçılıqla bildirmişdir ki, onun dövləti ölkəsinin şimal ərazilərinin bundan artıq işğal altında qalmasını istəmir. Onlar Azərbaycanın taleyini İrandan ayrı görmürlər və hal-hazırda İranın taleyi yalnız ABŞ-ın köməklərinə bağlıdır.” [38]

ABŞ-ın dövlət katibi Ceyms Birns İran məsələsini Moskva konfransının gündəliyinə daxil etdi. O, Stalin ilə görüşündə demişdi ki, İran SSRİ-dən BMT-yə şikayət edəcəkdir. İlk dəfə idi ki, SSRİ-yə daha çox təzyiq göstərmək üçün belə bir cümlə xarici diplomatın dilindən Tehran məqamlarının dilinə qoyulurdu. Stalin də, Azərbaycanın boşaldılmasını Tehran bəyannaməsində göstərilmiş müəyyən edilmiş vaxtın bitməsinə qədər gecikdiyini bildirdi. Bu məsələ ABŞ, İngiltərə və onlardan asılı olan Tehran hakimiyyətinin nigarançılığına səbəb oldu. Bu fikrə qarşı mübarizə etmək üçün İngiltərənin Xarici İşlər naziri Ernest Bayen üç tərəfli komissiyanın (SSRİ, ABŞ, İngiltərə) təklifini verdi və bildirdi ki, o, ixtilafları nəzərdən keçirmək üçün İrana səfər etməlidir və təklif etdi ki, İran

[38] Cəmil Həsənli. İran Azərbaycanı: Soyuq müharibənin başlanması. səh. 540.

hökuməti İranda yerli hökumətlərin təşkil olunmasını nəzərdə tutsun. Bu məqsədlə ölkənin bəzi əyalətlərində əyalət və vilayət əncümənləri (şuraları) yaradılsın. Milli azlıqların dillərinin dirçəldilməsi və istifadəsi üçün qanun qəbul edilsin. Üç tərəfli komissiyanın təklifləri, İran hakimiyyəti tərəfindən qəbul edilmədi. Lakin, İran hökuməti özünü təzyiqlərdən xilas etmək və İran xalqlarını bir daha aldatmaq üçün sərəncam verdi ki, vaxt itirilmədən əyalət və vilayət əncümənləri təşkil edilsin.

## Azərbaycan Milli Hökuməti haqqında sağyönümlü qəzetlərin uydurmaları

Azərbaycan Milli Hökumətinin hakimiyyətə gəlməsilə Azərbaycanın Tehranın müstəmləkəsi olmasını istəyən irticaçı və sağyönümlü qəzetlər milli hakimiyyətin əleyhinə guya, İranda ərazi bütövlüyünün pozulması haqqında yalanlar yaymağa başladılar. Halbuki, uzun illər idi xalqın nə azadlığı, nə də milli hakimiyyəti var idi. Çünki Rza şah və oğlu xalqın gününü qara etmişdilər. Bu xaricilərə mənsub olan hakimiyyətdə olanlar xalqın qanını şüşələrə töküb içirdilər. Bununla belə, xaricilərə və Tehranda anti-türk qruplara bağlı olan qəzetlər Azərbaycanda milli hökumətin təşkilini İranın milli hakimiyyəti və ərazi bütövlüyünə qarşı təhlükə hesab edir və bu barədə təbliğat aparırdılar. Onlar hər şeyi qara göstərir və Azərbaycan xalqının azadlıqsevənlərinin gözlərinə toz üfürürdülər. Əhməd Səlimi Fərd özünün “Şəbüstər, Təsic və Sofiyanın tarixi və coğrafiyasına bir baxış” adlı kitabında yazır: “O günlərin irticaçı qəzetləri yazırdılar ki, Azərbaycan Demokrat Firqəsi xaricilər tərəfindən yaradılmış qurumdur və qızıl orduya arxalanır. Bu hakimiyyət şimalın neft imtiyazlarını əldə etmək və milli hakimiyyətə, İranın torpaq bütövlüyünə təhlükə yaratmaq üçündür.

Milli hakimiyyətin fəaliyyəti həmişə iki əsas şərtin mövcudluğundan asılı olmuşdur. Bu şərtlərin birinin olmaması milli haki-

miyyətin mövcudluğunu təxirə salır. Bu iki şərt aşağıdakılardan ibarətdir:- millətin olması və xalqın ümumi səsinə və azad iradəsinə arxalanan hökumətin mövcudluğu. İran xalqı Rza şahın hakimiyyəti illərində öz rəyini bildirməkdən məhrum edilmişdi. Rza şahın süqutundan sonra xalqın sevinci bir partlayışa bənzəyirdi. Bunun səbəbi yalnız o idi ki, xalq ölkəsinin işğal olunmasına baxmayaraq, öz fikirlərinin və öz iradəsinin bir hissəsini azad şəkildə bəyan edə bilirdi. Həmin dövrün qəzet yazarlarından soruşmaq lazımdır ki, məgər Rza şahın və onun oğlunun hakimiyyəti ümumi rəyə və azad iradəyə əsaslanırdımı ki, iqtidarın onlardan alınması milli hakimiyyətin məhv olması kimi şərh olunsun?”[39]

## Təhlükəsizlik Şurasında “İran məsələsinin” müzakirəsi

Xaricilər tərəfindən idarə olunan Tehran hakimiyyəti Azərbaycan Milli Hökumətini təzyiq altında saxlamaq üçün İngiltərə və ABŞ-ın göstərişi ilə Cənubi Azərbaycan məsələsini Təhlükəsizlik Şurasında gündəmə gətirdi. Mason qruplarının üzvü olan İranın İngiltərədəki səfiri Həsən Tağızadə Sovet qoşunlarının İrandan çıxarılması məsələsini Birləşmiş Millətlər Təşkilatına çıxardı və 10 yanvar 1945-ci il tarixində Təhlükəsizlik Şurasının Londonda keçirilən iclasında İran məsələsi müzakirə edildi. “İran Azərbaycanı: soyuq müharibənin başlanması” kitabında Azərbaycan məsələsinin Təhlükəsizlik Şurasına çıxarılması və mərkəzi hakimiyyətin ABŞ-a olan ümidləri haqqında belə deyilir: “Tayms” qəzeti özünün dekabr 1945-ci il sayında ABŞ Dövlət Departamentinin Orta Şərq bölməsinin rəisi Herald Moyorun dilindən qeyd edir ki, vəziyyət araşdırıldıqdan sonra belə bir nəticəyə gəlinmişdir ki, İranın ümidi yalnız Amerika Birləşmiş Ştatlarınadır.”[40]

---

[39] Əhməd Səlimifərd. Səbüstər, Təsuc və Sofiyanın tarixinə və coğrafiyasına bir baxış. səh. 184.
[40] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması. səh. 205.

Baş nazir Qəvvam Tehranda hər bir iş üçün xarici diplomatlarla məsləhətləşirdi. Hər bir tədbiri onlarla müzakirə edib, sonra həyata keçirirdi. İran məsələsinin Təhlükəsizlik Şurasına göndərilməsi məsələsini də əvvəlcə ABŞ-ın İrandakı səfiri Muri ilə məsləhətləşmiş, onun razılığı və tövsiyələri alınandan sonra bu addımı atmışdı. ABŞ Təhlükəsizlik Şurasında İran məsələsini dərhal müdafiə etdi. Hətta, SSRİ-nin nümayəndəsi İran məsələsinin Təhlükəsizlik Şurasının iclasından çıxarılmasını təklif etdikdə, ABŞ nümayəndəsi öz etirazını bildirmişdi.

İranın BMT-dəki nümayəndəsi Hüseyn Əla 18 mart 1946-cı ildə ABŞ-ın tövsiyəsi ilə və ABŞ və İngiltərəyə ümid edərək İranın SSRİ-dən şikayətini ikinci dəfə BMT-nin Baş Katibinə təqdim etdi. Onlar bu işlə SSRİ-nin tezliklə öz qoşunlarını Cənubi Azərbaycandan çıxarmasına nail olmaq istəyirdilər. Onlar bu işdə müvəffəqiyyət qazandılar və SSRİ ABŞ-ın atom təhlükəsi səbəbinə qoşunlarını Azərbaycandan çıxarmağa məcbur oldu. "İran-e ma" qəzeti SSRİ-dən Təhlükəsizlik Şurasına şikayətlə bağlı ABŞ-ın mərkəzi hakimiyyətə təzyiqləri haqqında yazırdı: "ABŞ-ın Tehrandakı fövqəladə səfiri İran dövlətinə xəbər vermişdi ki, əgər İran dövləti Təhlükəsizlik Şurasına şikayət etməsə, bu məsələni Təhlükəsizlik Şurasına ABŞ çıxardacaq. Belə olduqda İran dövləti ABŞ dövlətinin köməklərinə ümid bağlamamalıdır."[41]

## Azərbaycan Milli Hökuməti ilə əlaqədar Qəvvamın Tehrandakı Sovet səfiri ilə müzakirələri

Qəvvamın Moskvadakı müzakirələri nəticəsiz qaldıqdan və SSRİ Tehrana yeni səfir təyin etdikdən sonra Tehranda Qəvvam ilə Sadçikov arasında müzakirələrin yeni dövrü başladı. SSRİ Azərbaycan məsələsini İranın daxili işi hesab etdiyinə görə qoşunlarının

[41] "Təhlükəsizlik şurasında İran məsələsi" - "İran-e ma" qəzeti, 22.03.1946.

Azərbaycandan çıxarılması məsələsi ilə bağlı bir tarix müəyyən etməmişdi, lakin qoşunlarının Azərbaycandan çıxarılması ilə bağlı bir yol axtarırdı. Bu yolun axtarışı Qəvvamın Sadçikov ilə Tehrandakı müzakirələrində həyata keçirildi. 1325-ci il 16 fərvərdin (1946-cı il 5 aprel) tarixində cümə günü SSRİ və İran dövlətlərinin birgə bəyannaməsi yayıldı. Bəyannamənin mətni aşağıdakı kimi idi:

İranın baş nazirinin Sovet İttifaqının rəhbərləri ilə Moskvada keçirdiyi müzakirələrdə əldə edilmiş razılaşmaya görə;

1. Qızıl ordunun hissələri 1946-cı il 25 mart tarixindən başlayaraq bir ay yarım ərzində İranın bütün torpaqlarından çıxarılır.

2. Sovet- İran müştərək neft şirkətinin yaradılması və onun şərtləri yeddi ay müddətindən gec olmayaraq təsdiq üçün XV məclisə təqdim edilir.

3. Azərbaycan məsələsi İranın daxili işi olduğuna görə buradakı islahatların icrası qanun əsasında, sülh yolu ilə, və Azərbaycan xalqına qarşı xeyirxahlıq ruhunda dövlət ilə Azərbaycan əhalisi arasında həll ediləcəkdir.

Sadçıkov-Qəvvam razılaşması imzalandıqdan sonra və Tehran hakimiyyəti Sovet qoşunlarının çıxarılması barədə arxayınlığı əldə etdikdən sonra hakimiyyət Azərbaycan Milli Hökuməti ilə müzakirələr aparmaq üçün təşəbbüs etdi. Bu məqsədlə öz nümayəndəsi Fətəli İpəkçiyanı Milli hökumət nümayəndələrini Tehrana dəvət etmək üçün Təbrizə göndərdi. Azərbaycanın nümayəndə heyəti Mir Cəfər Pişəvəri başda olmaqla ordibehişt ayının 8-də (29 aprel) müzakirələr aparmaq üçün Tehrana yola düşdü. Səfər zamanı Azərbaycan nümayəndə heyəti ilə Tehran hökuməti arasında aşağıdakı məsələlər müzakirə edildi.

1. Azərbaycan hökuməti milli muxtariyyətdən imtina edir və Azərbaycan Milli Məclisi əyalət əncümıninə, nazirlər isə idarə rəislərinə çevrilirlər.

2. Azərbaycan dili ilə bağlı nazirlər şurasının qərarının 3-cü maddəsi qəbul edilir.

3. Mərkəzi hakimiyyət Azərbaycandakı hərəkatı İranda demokratiyanın güclənməsi və Məşrutə prinsiplərinin möhkəmlənməsi yolunda demokratik hərəkat kimi tanıyır.

4. Azərbaycan nümayəndə heyəti ərazi vahidləri kimi 3-cü və 4-cü ostanları və Xəmsə ostanını tanıyır. Lakin, Qəvvam dövləti bu fikirdədir ki, ölkənin ərazi bölgüsünə görə Xəmsə Azərbaycana aid deyildir. Bunun üçün bu məsələ XV məclis tərəfindən təsdiq olunmalıdır.

5. Mərkəzi hakimiyyət Azərbaycana ostandar təyin etmək məsələsini əyalət əncüməni ilə razılaşdırmadan həll etməməyi öz vəzifəsi hesab edir.

6. Mərkəzi hakimiyyətin fikrincə hərbi və jandarm qoşunlarının komandaları Tehran tərəfindən təyin edilməlidir. Lakin, bu barədə Azərbaycanın fikri budur ki, hərbi və jandarmeriya qüvvələrinin komandanı əyalət əncüməninin təqdimatı ilə Tehran tərəfindən təsdiq edilməlidir.

7. Azərbaycan dövlət torpaqlarının və Azərbaycan xalqının düşmənlərinə aid mülkiyyətin icra mərhələsində olan bölgüsünü təsdiq və qəbul edilməsini mərkəzi hakimiyyətdən tələb edir və təklif edir ki, bu tədbir bütün ölkədə həyata keçirilsin.

Lakin, mərkəzi hakimiyyət bu fikirdədir ki, dövlət torpaqlarının bölgüsü və onların kəndlilərə verilməsi XV məclis tərəfindən təsdiq edilməlidir. Bu iş hökumətin səlahiyyətləri xaricindədir.

Tehran hakimiyyəti ilə müzakirələr iki həftə davam etdi və Azərbaycan nümayəndələri 23.02.1325-ci il tarixində (13.05.1946) Təbrizə qayıtdılar. Müzakirələr nəticə verməsə də, davam etdirildi.

18.02.1325 (8 may 1946)-cı il tarixində Azərbaycandan Sovet qoşunlarının çıxarılması tam şəkildə başa çatdı. Lakin, Hüseyn Əla ABŞ və İngiltərə dövlətlərinin təhrikilə Azərbaycan məsələsinin Təhlükəsizlik Şurasında müzakirəsini davam etdirirdi.

Tehranda hökumət şurası ordibeheşt ayının 2-də (22 aprel) Azərbaycan ilə Tehran arasında gələcək müzakirələrlə bağlı aşağıdakı qərarı qəbul etdi:

- Nazirlər kabinetinin qərarı və Azərbaycan haqqında bəyanatları 1325-ci il rəbiəs-sani ayında qəbul edilmiş qanun və konstitusiyaya əlavənin 29, 9, 91, 92 və 93-cü əyalət və vilayət əncümənləri haqqındakı maddələri Azərbaycanda aşağıdakı kimi şərh edilib, təsdiq edilsin:

1. Kənd təsərrüfatı, ticarət, sənaye, incəsənət, yerli nəqliyyat, mədəniyyət, səhiyyə, polis, məhkəmə orqanları, prokuratura və maliyyə nəzarəti rəisləri əyalət və vilayət əncümənləri tərəfindən seçiləcəklər rəsmi hökmlər haqqında təlimata uyğun olaraq, Tehranda dövlət tərəfindən təsdiq ediləcəklər.

2. Ostandarın təyini əyalət əncümənlərinin rəyi nəzərə alınmaqla dövlət tərəfindən həyata keçiriləcəkdir. Hərbi və jandarm qüvvələrinin komandanları dövlət tərəfindən təyin ediləcəkdir.

3. Azərbaycanın rəsmi dili İranın başqa nahiyələrində olduğu kimi fars dilidir. Yerli idarələrdəki yazışmalar və məhkəmələrdəki işlər fars və Azərbaycan dillərində həyata keçirilir. Lakin ibtidai məktəbin ilk beş sinfində tədris Azərbaycan dilində icra edilir.

4. Vergi ayırmaları və büdcə vəsaitləri zamanı dövlət Azərbaycan barəsində şəhərlərin abadlaşdırılmasını, mədəniyyət, səhiyyə və s. işlərin yaxşılaşdırılmasını nəzərdə tutacaqdır.

5. Azərbaycanda demokratik təşkilatların və birliklərin fəaliyyəti ölkənin başqa yerlərində olduğu kimi azaddır.

6. Azərbaycan əhalisinə demokrat firqəsində və keçmişdə demokratik hərəkatlarda iştirak etdiklərinə görə heç bir təzyiq göstərilməyəcəkdir.

7. Azərbaycan əhalisinin sayına uyğun olaraq məclisdə onun nümayəndələrinin sayının artırılması haqqında razılıq əldə edilmişdir və XV qanunvericilik orqanının təşkil edilməsinin əvvəlində bu məsələ məclisə təqdim ediləcəkdir. Təsdiq edildikdən sonra nümayəndələrin sayının artırılması həmin seçki dövrü üçün nəzərdə tutulacaqdır.

## Tehran hakimiyyəti ilə Azərbaycan Milli Hökuməti arasında razılaşma

21 xordad 1325-ci il tarixində (11 iyun 1946-cı il) baş nazirin siyasi işlər üzrə müavini Müzəffər Firuzun başçılığı ilə on nəfərlik hərbi-siyasi nümayəndə heyəti Təbrizə gəldi və Tehranda başlamış müzakirələr sonra Təbrizdə davam etdirildi. Bu müzakirələr belə bir razılaşmanın imzalanması ilə tamamlandı. Razılaşmanın mətni aşağıdakı kimidir:

1. Dövlət ilə Azərbaycanın nümayəndələri arasında baş vermiş müzakirələr nəticəsində hər iki tərəfin bəyəndiyi 7 maddədən ibarət 2.02.1325-ci il tarixli (22.04.1946) bəyannamə əsasında fikir mübadiləsindən sonra müvafiq nəzər nöqtələri hasil edildi. Daha mükəmməl tənzim edilmiş adı çəkilən bəyannamənin maddələrini şərh edərək, onların vaxtında icra olunmasına başlanılsın.

2. Dövlətin elan edilmiş bəyannaməsinin birinci maddəsinin məzmunu ilə bağlı təklifinə uyğun olaraq aşağıdakı cümlənin ona əlavə edilməsinə razılıq əldə edildi: maliyyə idarəsinin rəisi də, əyalət əncüməninin təqdimatı ilə dövlət tərəfindən təyin ediləcəkdir.

3. Bəyannamənin 2-ci maddəsində ostandarın təyin edilməsi əyalət əncümənin rəyi nəzərə alınmaqla dövlət tərəfindən həyata keçiriləcəyi qərara alındığına görə adı çəkilən maddənin icra edilməsi məqsədi ilə belə razılıq əldə edildi ki, daxili işlər nazirliyi ostandarı əyalət əncüməninin təqdim etdiyi bir neçə namizəd arasından seçib təyin edilmək üçün rəyini dövlətə təqdim etsin.

4. Azərbaycanda baş vermiş son dəyişiklikləri nəzərə alaraq dövlət seçilmiş və formalaşmış Azərbaycan Milli Məclisini, əyalət əncüməni statusunda tanıyacaqdır və XV məclis (parlament) əyalət və vilayətlər haqqında yeni qanun qəbul etdikdən sonra dövlət tərəfindən yeni təkliflər veriləcəkdir.

5. Azərbaycanda baş vermiş hərəkat və dəyişiklər nəticəsində orduya çağırılmış Azərbaycan silahlı qüvvələri və zabitlərinin tale-

yini təyin etmək məqsədilə bildirilir ki, müqaviləni imzalamaqla onlar İran ordusunun tərkib hissəsi hesab ediləcəklər. Razılıq əldə edildi ki, Qəvvam-üs-səltənə hökumətinin nümayəndələri və Azərbaycanın əyalət əncüməninin nümayəndələrindən ibarət yerlərdə komissiya təşkil edilsin və məsələnin həlli qaydalarını tezliklə hazırlayıb təsdiq edilmək üçün təkliflər versin.

6. Azərbaycanın maliyyə vəziyyətini nəzərə alaraq razılıq əldə edildi ki, Azərbaycanın gəlirlərinin 75%-i ölkə üzrə xərclərin ödənilməsi üçün mərkəzə göndərilsin.

Qeyd No 1. Poçt və teleqraf, gömrük, dəniz yolu, Urmiya gölündəki gəmiçiliyin xərcləri və gəlirləri istisnalıq təşkil edir və adı çəkilən idarələrin xərcləri və gəlirləri tamamilə dövlətin öhdəsində olacaqdır və ona aiddir. Eyni zamanda Azərbaycanın əyalət və vilayət əncümənlərinin, dövlət idarələrinin teleqramları pulsuz göndəriləcəkdir.

Qeyd No 2. Əsas şose yollarının tikintisi və onların təmiri mərkəzi hakimiyyətin öhdəsindədir. İkinci dərəcəli və yerli əhəmiyyətli yolların çəkilməsi və onların təmiri Azərbaycanın əyalət əncüməninin öhdəsində olacaqdır.

Qeyd No 3. Dövlət Azərbaycanın İran məşrutəsinə etdiyi görkəmli xidmətləri və Azərbaycan xalqının demokratiyanın bərqərar edilməsi və azadlıq yolundakı fədakarlıqlarını nəzərə alaraq, Azərbaycanda yerləşən gömrüklərin gəlirlərinin 25%-ni Azərbaycan Universitetinin xərclərinin ödənilməsinə verilməsini qəbul etdi.

7. Dövlət qəbul edir ki, Miyanaya qədər olan dəmiryolunun Təbrizə qədər uzadılması tezliklə başlanılıb başa çatdırılmalıdır. Təbiidir ki, bu işin yerinə yetirilməsində azərbaycanlı fəhlələr və mütəxəssislər üstünlük təşkil edəcəklər.

8. Azərbaycanın orduya daxil olmayan və fədai adlanan könüllü hərbi dəstələri jandarm qüvvələrinə çevrilsinlər. Adı çəkilən hərbi qüvvələrin vəzifəsini müəyyən etmək və komandirləri təyin etmək məqsədi ilə razılıq əldə edildi ki, regionda Qəvvam-üs-səltənə

hökumətinin nümayəndələri və Azərbaycanın əyalət əncüməninin nümayəndələrindən ibarət komissiya təşkil edilsin və tezliklə məsələnin həlli yollarını müəyyənləşdirib, təsdiq üçün təkliflər versinlər.

Qeyd No 4 Son illərdə bəzi əməllərinə görə əmniyənin və jandarmın adı İranın, xüsusən Azərbaycanın ictimai fikrində müxalif və qeyri-münasib hisslər yaratdığını, dövlət başçısının son zamanlar şəxsən bu quruma rəhbərlik etməyə başlamasını və bu idarədə islahatların və qeyri-sağlam ünsürlərdən təmizləmələrin həyata keçiriləcəyini nəzərə alaraq, razılıq əldə edildi ki, əhalinin, xüsusən Azərbaycan əhalisinin jandarmlarla bağlı təklifləri bu qurumun adının dəyişdirilməsi və ona münasib ad seçilməsi ilə bağlı qərar qəbul etmək üçün dövlət başçısına çatdırılsın.

9. Azərbaycanda demokratik hərəkat nəticəsində kəndlilər arasında paylanmış dövlət torpaqları ilə bağlı qərara alındı ki, hökumətin dövlət torpaqlarının kəndlilər və əkinçilər arasında paylanması ilə əsasən razı olduğuna görə dövlət torpaqlarının paylanmasının icrası maneəsiz hesab edilsin və qərar layihəsi birinci növbədə olaraq parlamentə təqdim edilsin. Azərbaycandakı son dəyişikliklər nəticəsində kəndlilər arasında paylanmış qeyri-dövlət torpaqları ilə bağlı razılıq əldə edildi ki, torpaq sahiblərinə dəymiş ziyanın ödənilməsi və ya mülkiyyətin əvəz edilməsi məqsədilə Qəvvam-üs-səltənənin başçılıq etdiyi hökumətin və Azərbaycanın əyalət əncüməninin nümayəndələrindən ibarət komissiya təşkil edilsin. Komissiya təsdiq edilmək üçün məsələnin həlli yollarını hazırlayıb təqdim etsin.

10. Dövlət razılaşır ki, XV məclisin açılması ilə azadlıq və demokratiya prinsipləri əsasında hazırlanmış ümumi, gizli, birbaşa və bərabər səsverməni və qadınların da seçki hüququnu nəzərdə tutan seçki qanunu layihəsi hazırlanacaq və tezliklə qəbul ediləcək. Dövlət həmçinin qəbul edir ki, məclisdə Azərbaycandan olan nümayəndələrin sayını artırmaq məqsədilə (müxtəlif regionların əhalisinin sayına mütənasib olaraq) XI məclisin açılması ilə yeni

qanun layihəsi məclisə təqdim ediləcək. Qanun təsdiq edildikdən sonra seçki vasitəsi ilə nümayəndələrin sayı təyin ediləcəkdir.

11. Azərbaycan əyaləti 3-cü və 4-cü ostandlardan ibarət olacaqdır.

Dövlət razılaşır ki, Azərbaycandakı işləri daha yaxşı icra etmək üçün ostanlardan, (qubernatorlardan) idarə rəislərindən və əyalət əncüməninin rəyasət heyətindən ibarət şura yaradılır və şura əyalət əncüməninin nəzarəti altında fəaliyyət göstərir.

12. 2 ordibeheşt 1325-ci il tarixli (22 aprel 1946) bəyannamənin orta və ali məktəblərin vəzifələrinin təyin edilməsi ilə bağlı yaranmış anlaşılmazlıqla əlaqədar bəyannamənin 3-cü maddəsinə aşağıdakı cümlə əlavə edilsin: - Ali və orta məktəblərdə tədris fars və Azərbaycan dillərində islahatların zamanını və məkanını nəzərə alınmaqla, demokratik ölçülər və yeni mütərəqqi üsullara uyğun olaraq, mədəniyyət nazirliyi tərəfindən hazırlanmış proqramlar əsasında həyata keçiriləcəkdir.

13. Dövlət razılaşır ki, Azərbaycanda yaşayan kürdlər də, bu müqavilənin verdiyi üstünlüklərdən istifadə edərək, dövlət bəyannaməsinin 3-cü maddəsinə uyğun olaraq ibtidai məktəbin beşinci sinfinə qədər öz ana dillərində təhsil almaq hüququna malikdirlər.

Qeyd: - Azərbaycanda yaşayan assuri və ermənilər kimi milli azlıqlar da ibtidai məktəbin 5-ci sinfinə qədər öz dillərində təhsil almaq hüququna malikdirlər.

14. Hökumətin bütün İran üzrə demokratik prinsiplər əsasında şəhər merləri (şəhrdarlarının) haqqında yeni seçki qanununu XV məclisə təklif etmək istədiyini nəzərə alaraq bildirilir ki, qanun qəbul edildikdən sonra həm Azərbaycanda, həm də bütün İranda şəhər əncümənlərinə (Şuralarına) seçkilər keçirilməyə başlanılacaqdır. Yeni qanun qəbul edilənə qədər Azərbaycanın mövcud şəhər əncümənləri öz vəzifələrinin yerinə yetirilməsini davam etdirəcəklər.

15. Bu razılaşma iki nüsxədə tərtib edilərək mübadilə edilir və mərkəzi hökumət ilə Azərbaycanın əyalət əncüməninin təsdiqindən sonra qüvvəyə minir.

*İmzalar:*
*Müzəffər Füruz-Pişəvəri*
*13.06.1946.*

**Firqə rəhbərlərinin səhvləri**

Azərbaycan rəhbərlərinin xoş niyyəti Azərbaycan xalqının başına iş açdı!

Demokrat Firqəsi rəhbərlərinin Tehrandakı xaricilərdən asılı olan bir hökumətlə müzakirələrə daxil olması onların ən böyük səhvi oldu. Tehrandakı siyasətçilərin əksəriyyəti müxtəlif xarici dövlətlərdən asılı idilər və demokratların fikrində olan siyasətçilər onların arasında demək olar ki, yox idi.

İqtidara yetişmələri ilə xarici dövlətlərə borclu olan, bütün işlərdə onlardan məşvərət alan hökumət və şah necə müstəqil və demokrat ola bilərdilər?

Qəvvam hər bir işin icrasını ABŞ və İngiltərə səfirləri ilə müzakirə edirdi və onlardan əmrlər alırdı. Hətta, Təhlükəsizlik Şurasına şikayət də, ABŞ-ın Qəvvama və başqa siyasətçilərə verdiyi plan əsasında idi. Yaşıl işığı yandırdıqdan sonra əcnəbilərdən asılı olan şəxslər Azərbaycan məsələsini Təhlükəsizlik Şurasına çıxarmışdılar. Belə bir vəziyyətdə və şəraitdə bu şəxslərlə müzakirəyə girmək demokrat firqəsi rəhbərlərinin ən böyük səhvi idi. Tehran hakimiyyəti və Tehrandakı siyasətçilər əcnəbilərdən asılı olduqlarına görə etimad ediləsi deyildilər.

Xarici dövlətlərdən asılı olan siyasətçilər etimad olunası şəxslər deyildilər, lakin firqə rəhbərləri xoş niyyətlərini göstərmək üçün xarici ölkələrdən asılı olanlarla müzakirələrə başladılar və müzakirələrdə məğlub oldular. Çünki, Tehran siyasətçiləri Azərbaycanda soyqırım və qırğın törətməkdən başqa ayrı bir şey haqqında fikirləşmirdilər. Onlar hətta etiqad etmədikləri İslam dinindən də insanları

öldürmək üçün sui-istifadə edirdilər. Onlar mürtəce ruhaniləri qırğın və soyqırım törətməyə razı saldılar. Ruhanilər də, ordu cəlladları və bəzi xanlarla əl-ələ verərək Azərbaycan xalqının düşmənlərinə kömək etməyə tələsdilər və xarici düşmənlərlə birləşdilər. Mürtəce ruhanilər hətta, daha irəli gedərək Azərbaycan mübarizlərinin qadınlarına təcavüz fitvasını da verdilər. Bu, təbliğatçıları "islam dini rəhmət dinidir" dedikləri bir dinin tarixində görünməmiş bir şey idi. Lakin, bu din satqınları bu işi etdilər və "arilərin" cəlladları ilə birlikdə onların Azərbaycandakı cinayətlərinə şərik çıxdılar. Məgər yalnız qan tökmək və qan içməkdən başqa heç bir şeyin fikrini etməyən bu şəxslərlə müzakirələr aparmaq ağlabatan ola bilərdimi? Təcavüz və soyqırımdan başqa heç nəyə etiqadları olmayan insanlara inanmaq məntiqi ola bilərmi"?

## Zəncanın verilməsi Azərbaycanın məğlubiyyətinin başlanğıcı

Demokrat firqəsi rəhbərlərinin strateji səhvlərindən biri də, Zəncanın boşaldılması və onun İran ordusuna təhvil verilməsindən ibarət oldu. Çünki, onlar öz əlləri ilə bacı və qardaşlarını "sallaqxanaya" göndərdilər və Zəncanın mübariz adamlarını dişinə qədər silahlanmış ordu, jandarmlar və Zülfüqari məlişələri* qarşısında tək qoydular. Halbuki, Zəncanlı qardaşlarımız və bacılarımız fədakarlığa hazır idilər. Demokrat firqəsinin rəhbərləri Azərbaycanın milli mənafelərini və Azərbaycanın sərhədlərini nəzərə almadan özlərinin bir neçə ay əvvəl əldə etdikləri nailiyyətlərini bir-birinin ardınca əldən verdilər.

Zəncanın əldən verilməsi bütün Azərbaycanın əldən verilməsinə səbəb oldu. Tam qətiyyətlə demək olar ki, Zəncan ilə Xəmsənin boşaldılması haqqında müzakirələrin aparılması əvvəldən səhv idi. Təəssüflər olsun ki, demokrat firqəsinin rəhbərləri bu strateji səhvi etdilər və Azərbaycanın torpaqları barəsində Tehran hakimləri ilə

* məlişə - muzdlu hərbi dəstələr.

müzakirələr apardılar. Nəticədə bütün Azərbaycanı itirdilər. Bu gələcək nəsillərə bir dərs olmalıdır. Biz, torpaq, vətən və milli ölkəmiz barəsində heç kimlə müzakirələr aparmamalıyıq.

Azərbaycanın əyalət əncüməni 20.08.1325-ci il tarixində (11.11.1946) milli ordunun Xəmsədən çıxarılmasını və Xəmsənin mərkəzi hakimiyyətə təhvil verilməsini təsdiq etdi və Zəncanın boşaldılması aban ayının sonuna qədər (20 noyabr) həyata keçirildi. Bu iş milli hökumət ilə Tehran hakimiyyəti arasında əldə edilmiş razılaşma əsasında baş verdi. Kəndlər və qəsəbələr boşaldıqca, Zülfüqari qüvvələri və nizami ordu hissələri bütün kənd və qəsəbələri işğal edərə, qarət edir və Zəncan camaatından intiqam alırdılar. Sağyönümlü qəzetlər onların cinayətlərini əksinə əks edirdilər və öz əməllərini fədailərin boynuna atırdılar. Aban ayının 30-da (20 noyabr) axırıncı fədai dəstəsi öz silahlarını təhvil verdi və Zəncan İran ordusu və xanların silahlı dəstələri tərəfindən işğal olundu. Lakin, fədailərin bir dəstəsi ordunun və Zülfüqari dəstələrinin cinayətlərindən xəbər tutaraq, silahlarını verməkdən imtina etdilər. Onlar Tehran ordusu və məlişələrlə vuruşmağa başladılar və firqə rəhbərlərinə onları tərki-silah edib, qırğına göndərdiklərinə görə öz etirazlarını bildirdilər. Fədailər milli ordu komandirlərinə üz tutaraq fəryad edirdilər: "Qardaşlar silahlarımızı almayın. Bunların şərəf və namusu yoxdur. Onlar cinayətkardırlar. Öz sözlərinə vəfadar deyillər. Onlara inanmayın. Bizi qolu bağlı bu qatillərə təslim etməyin. Qoyun, öz gözəl şəhərimizi müdafiə edək. Bizi qoyun kimi sallaqxanaya göndərməyin. Biz Azərbaycanı mərd kimi qorumağa hazırıq. Bu yolda ya ölək, ya da birdəfəlik azad olaq."[45]

Təəssüflər olsun ki, Zəncanın təslim edilməsi və fədailərin tərki-silah edilməsi mürtəce qüvvələrin və İran ordusunun daha da həyasızlaşmasına səbəb oldu və onlar Zəncanın işğalından sonra bütün Azərbaycanı işğal etmək üçün plan hazırlamağa başladılar.

---

[45] "Mən qana boyanmış Zəncandan gəlirəm" - "Azərbaycan" qəzeti, 29.11.1946.

## Azərbaycanın sərhədləri daxilində Azərbaycanın təhlükəsizliyi məsələsi

Demokrat firqəsi rəhbərlərinin səhvlərindən biri də Azərbaycanın təhlükəsizliyinə yetərincə diqqət verməməklərindən ibarət idi. Təəssüflər olsun ki, Tehran və Təbriz danışıqlarından sonra milli hökumət rəhbərləri özlərinin hücum vəziyyətlərini əldən vermişdilər və müdafiə vəziyyətində durmuşdular. Onlar hücum etmək və Azərbaycanın təhlükəsizliyini Tehranın qəlbinin içərisinə aparmaq əvəzinə, Azərbaycanın təhlükəsizliyini iki ostandın sərhədləri daxilində başa düşdülər.

Bundan əlavə, Tehrandakı müxalif qüvvələrin idarə edilməsi də milli hökumət rəhbərlərinin təhlükəsizlik sahəsində buraxdıqları səhvlərdən idi. Firqə rəhbərləri Azərbaycanın təhlükəsizliyini Tehranın təhlükəsizliyindən asılı etməli idilər. Yəni, Tehranda Azərbaycana qarşı azad şəkildə fəaliyyət göstərən ədbirlər xarici dövlətlərdən asılı olan milli hökumətin müxalifətçilərindən bəzilərini ələ alıb aradan götürülməli idilər. Həmçinin Tehranın bəzi hərbi və siyasi şəxsləri də, ələ alınmalı idilər. Təəssüflər olsun ki, firqə rəhbərləri Azərbaycanın təhlükəsizliyini düzgün başa düşmədilər. Əgər xarici dövlətlərdən asılı olan qüvvələr bilsəydilər ki, Azərbaycana hücum etməklə Tehranda asayiş pozulacaqdır və onların iqtidarı məhv olacaqdır, heç vaxt Azərbaycana hücum etmək fikrinə düşməzdilər.

## Qardaş qırğınının qarşısının alınması əvəzinə soyqırım

Demokrat firqəsi rəhbərlərinin Tehranda xarici dövlətlərdən asılı olan siyasətçilər ilə müzakirələrdəki xoş niyyəti müharibənin və qan tökülməsinin qarşısını almaq üçün idi. Həmçinin, Zəncanın təhvil verilməsi də, Azərbaycan nümayəndə heyətinin İran hakimiyyəti ilə əldə etdiyi razılaşmaya uyğun olaraq qardaş qırğınının qarşısını almaq üçün edildi.

Lakin, qardaş qırğınının qarşısının alınması soyqırımla nəticələndi. Şəhid Pişəvəri azər ayının 4-də (noyabrın 25-də) "Azərbaycan" qəzetində qardaş qırğınının qarşısının alınması barədə yazırdı: "İrticaçıların 6 aylıq hiylələri, aldatmaları və avantüraları vaxt qazanmaq üçün idi. Cənab Qəvvam inkar edə bilməz ki, biz onun məkr və hiylələrini bilmirdik. Lakin, qardaş qırğınının qarşısını almaq üçün böyük güzəştlər etdik."

Milli hökumət rəhbərlərinin Azərbaycan siyasətinin əsasını təşkil edən bu təfəkkürü Tehranda əcnəbi dövlətlərdən asılı olanların Azərbaycanda soyqırım həyata keçirmək üçün planlar hazırladığı bir şəraitdə onların icra etdikləri ən pis iş idi. Onlar Tehranda müxalifətçiləri ələ alıb idarə etmək, Tehranda asayişi pozmaq və xarici dövlətlərdən asılı olan siyasətçilərə və hərbiçi səxslərə hədə gəlmək əvəzinə, qardaş qırğınının qarşısını almaq fikrinə düşmüşdülər. Milli Hökumət rəhbərlərinin belə xoş niyyəti Azərbaycan xalqına baha başa gəldi və Azərbaycanda böyük bir soyqırımın baş tutmasına səbəb oldu.

## Azərbaycandakı soyqırım əmrini kim vermişdir?

### *"Arxalı köpək qurd basar"*[46]

Azərbaycana hücum planı ordu qərargahında İran ordusunun komandanları tərəfindən, o cümlədən general-leytenant Rəzmara tərəfindən hazırlanmışdı. Hücum planı belə idi ki, ordu mühüm hərbi müdafiə səddi olan Qaflankuh dağ ərazilərindən aşıb Miyana şəhərinə çıxmalı idi. Bu iş üçün üç hərbi sütun Zəncan–Təbriz, Təkab-Şahındej və Astara–Ərdəbil oxları üzrə əməliyyatı həyata keçirməli idilər. Azərbaycana hücumun komandanlığını milliyyətcə azərbaycanlı olan vətən satqını polkovnik Haşiminin

[46] Atalar sözü.

öhdəsinə qoymuşdular. Bununla göstərmək istəyirdilər ki, hücumu azərbaycanlının özü idarə edir. Bu da, cinayətkarların işlətdikləri silahlardan biri idi.

Polkovnik Zəngənə Azərbaycana hücum planı barəsində Rəzmara ilə görüşündən sonra Azərbaycana hücum komandanının müavini təyin edilməsinə işarə edərək belə yazırdı:

“Əvvəlcə təsəvvür edirdim ki, mənim Qərbi Azərbaycandakı vəziyyətlə tanışlığım səbəb olmuşdur ki, məni çağırıb, lazım olan məlumatları əldə edirlər. Lakin, general-leytenant Rəzmara dedi ki, siz Azərbaycana hücum etmək üçün seçilmiş sütunun komandan müavini vəzifəsinə təyin edilmişsiniz. Zəncana hərəkət etmək və ezam edilmiş sütuna birləşmək üçün hazırlaşın. Sabah səhər saat 7-də dəmir yol stansiyasında olmalısınız. Qum şəhərindən Tehrana gələn və İsfahandan bir batalyonu daşıyan qatar vasitəsi ilə Zəncana tərəf hərəkət edib, özümüzü Zəncanda sütunn komandirinə təqdim edin. Soruşdum ki, Azərbaycana hücum üçün seçilmiş sütunun komandanı kimdir? Ordunun qərargah rəisi dedi ki, polkovnik Hüseyn Haşimi sütunun komandanıdır və davam edərək söylədi ki, İranın düşmənləri “Azərbaycanın İrandan ayrılmasını Azərbaycan xalqı istəyir”- deyə təbliğatlar apardıqlarına görə və bu təbliğatın əksini dünyaya sübut etmək üçün bir nəfər azərbaycanlı zabiti bu sütuna komandan təyin edərək, ona Azərbaycanı xilas etməyi tapşırmışıq”.[47]

Diviziya generalı Rəzmara bir nəfər professional canini və qatili Azərbaycana hücum sütununa komandan müavini təyin etmişdi ki,o, daha çox adam öldürə bilsin. Çünki, bu kinli polkovnikin Urmiyanın və onun ətraf camaatının 1945-ci ildə qətlə yetirilməsində yaxşı təcrübəsi var idi.

Bu adam həmçinin Azərbaycana hücum əmrinin Məhəmməd

---

[47] Əhməd Zəngənə. Azərbaycana ezamiyyətlərim haqqında xatirələrim. səh. 159-160.

Rza Pəhləvi tərəfindən verilməsi haqqında belə yazır: "Şəhanşah 1325-ci il azər ayının 15-də (1946-cı ilin 6 dekabrında) bir təyyarə ilə Zəncana gəldi. General–leytenant Rəzmara sütun komandanı ilə birlikdə öz hesabatını təqdim etdi. Elə həmin iclasda şahənşah Azərbaycana hücum haqqında tarixi əmrini verdi."[48]

Əhməd Zəngənənin dediyi kimi Məhəmməd Rza Pəhləvi İran ordusunun Azərbaycana hücum etməsi və Azərbaycan xalqının soyqırım edilməsi əmrini vermişdir.Deməli, soyqırımın təşkilatçısı və icraçısı şəxsən Məhməd Rza Pəhləvidir. Azərbaycana hücum sütununu komandanı polkovnik Haşimiyə verilmiş əmrin mətni aşağıdakı kimi idi :

"706-13-9/1325 saylı məktuba və verilmiş çoxlu saylı sərəncamlara uyğun olaraq bir daha xatırladıram ki, əsas işi siz iki cinah sütunları ilə birlikdə icra etməlisiniz və real gözlənilməzlik bu iki sütun vasitəsi ilə icra olunmalıdır.

Qərbdəki sütun ən yaxşı vəzifəni və ən çətin işi öhdəsinə götürmüşdür. Bu sütun imkan daxilində aşağıdakı marşrut üzrə hərəkət etməlidir: Qarasuta-Səngər-Nəğay-Qaravar - Xorsandıq-Qız qalası. Plana əsasın bu sütun Qaflankuh yüksəkliklərini tutmalıdır ki, mərkəzi sütun öz marşrutunu Miyanaya doğru davam edə bilsin. Qərb sütununun tərkibi mərkəzi qərargahdan polkovnik Haşimiyə bu şəkildə bildirilməlidir: - Zülfuqari, Yəmini və əfşar qeyri-hərbi dəstələri, bir süvari alayı, kifayət miqdarda ağır pulemyotlar, minaatanlar və artilleriya onların ixtiyarına verilsin. Bu sütun belə bir düzümlə günəş batanda təcavüzə başlayaraq, irəli getməli və gecə Qaflankuh yüksəkliklərini tutmalıdır."[49]

Başqa bir hərbi sütun Rəşt tərəfdən (Astara-Ərdəbil hissəsi) hərəkət edərək, qiyamçılara şimaldan kömək yolunu kəsməli idi. Hərbi sütundan əlavə vətənpərvər Şahsevən qəbilələri Ərdəbil

[48] Yenə orada, səh. 160.
[49] Zülal Nasir. Keçmişdən keçid. səh. 311.

Xalxal ərazilərində iğtişaşlar yaratmaqla həmin ərazilərdə qiyamçı qüvvələrinin toplaşmasına mane olmalı idilər.

Qaflankuh döyüşünü polkovnik Zəngənə öz xatirələrində belə təsvir edir: “6.09.1325-ci il (27.11.1946-cı il) tarixdə saat 20-də süvari polkovniki Nüsrətulla Bayandurun komandanlığı ilə hücum əməliyyatı başladı. Polkovnik Nüsrətulla Bayandur bir briqada ilə Ərdəbilə tərəf gedib, orada çoxlu cinayətlər törətdi. Doktor Həsən Nəzəri Qazyanı bu hərbi sütun haqqında belə yazır:- Miyana yolu ilə göndərilmiş qüvvələrin komandanı polkovnik Zəngənə əvvəllər Rizaiyyənin (Urmiyanın) komandanı idi və onun qərargah rəisi polkovnik Vərhəram deyilən şəxs idi. Yerli xanların 2 mindən çox tüfənglisi orduya kömək edirdi.”[50]

Göründüyü kimi əcnəbi dövlətlərdən asılı olan qüvvələr yerli xanların silahlı qüvvələri ilə birlikdə Azərbaycanın azadlığının fikrində deyildilər. Onlar qırğın və soyqırım törətmək fikrini edirdilər.

Xosrov Motəzed ABŞ-ın Azərbaycana hücum etməkdə İrana kömək etməsi haqqında özünün “Fövziyə” adlı kitabında belə yazır: “Demokratlar İran ordusunun irəliləməsinin qarşısını ala bilmirdilər. İran təyyarələri (gövdələrinə İran bayrağı və İran hərbi işarələri çəkilmiş üç ABŞ təyyarəsi) onların mövqelərini şiddətlə bombalayırdılar (Motəzed Xosrov. Fövziyə, səh.917-918).

ABŞ qüvvələri hava ilə yanaşı yerdə də fəal idilər. Onlar İran ordusuna və jandarmlara birbaşa kömək edirdilər. Nasir Zülal ABŞ-ın Azərbaycana qarşı müharibədə birbaşa iştirakı haqqında öz kitabında belə yazır: “Zəncan boşaldıqdan sonra böyük ordu və jandarm qüvvələri ABŞ-dan alınmış müasir hərbi sursat və silahlarla amerikalı general Normen Şvartskof və general-leytenant Əli Razmaranın, polkovnik Hüseyn Haşimi və Əbu İshaqinin komandanlığı altında Zəncana daxil olub, cinayətlər törətməyə başladılar.”[51]

[50] Həsən Nəzəri. Qədərsizlərin sonu. səh. 216.
[51] Zülal Nasir. Keçmişdən keçid.

## *IV Fəsil*

# 1946-1947-ci İLLƏRDƏ AZƏRBAYCANDA TÖRƏDİLƏN SOYQIRIMIN BÖLGƏLƏR ÜZRƏ ARAŞDIRILMASI

## *ZƏNCAN*

Zəncanda Demokrat Firqəsi təşkilatı 21.06.1324-cü ildə (12.09.1945) Azərbaycan və fars dillərində bildirişlərin yayılması ilə quruldu. Bu bildirişlərdə əyalət əncüməninin təşkili, tədrisin Azərbaycan dilində aparılması, sənayenin və məktəblərin inkişafı, işsizliklə mübarizə, kəndlilərin ehtiyaclarının təmin olunması, yolların tikilməsi və s. kimi tələblər öz əksini tapmışdı. Zəncan inqilab komitəsi aşağıdakı şəxslərdən təşkil olunmuşdu: Əhməd Səfərçi, Səfərxan Şikarçı, Nəzər Münfərid, Babazadə, Yunis Əlizadə, Əbdülfəzl Raufi (firqə təşkilatı rəhbərinin müavini), Zəncan şəhrdarı (meri), Möhsün Vəzir, Hadi xan Vəzir, İmad Xəmsə Ziyayiha, Bürhanisəltənə Zəncani (Tarımı), Xanedan Vəziri. Bu adamlar Xəmsənin vilayət firqə komitəsinə seçilmişdilər.

### Zəncanda demokrat firqəsinin tərəfdarı və əleyhdarı olan ailələr

Qəcər (Darayi), Əsanlı, Cahanşahlı, Vəziri elləri və Sultani tayfası firqəyə tərəf keçdilər.

Zülfüqari, Əmir Əfsar Kərsəfi, Hidayətxan Yəmini, Yədulla xan Bigdeli və Fətullaxan Bigdeli (ata), Nəsrullaxan Müqəddəm, Əlyar-

xan Səidi, Məcdəssultan Bigdeli, Nasirxan Sarəmi (iranlı), Ələkbər xan Bigdeli, Uryadi xanları, Bahadırxan Sultanın övladları (Qulamhüseyn xan Bahaduri) demokrat firqəsinin əleyhdarları oldular.

Azərbaycanda demokratiyanın inkişafı və möhkəmlənməsi ilə Azərbaycan daxilində iki qrup milli hökumətə qarşı ciddi müxalifətdə durdular. Çünki, demokratiyanın inkişafı və milli hökumətin təşkil olunması ilə onların mənafeləri təhlükəyə düşmüşdü.

Birinci qrupa Tehranda yaşayanlar və yerli xanlar daxil idilər. Azərbaycan Demokrat Firqəsinin həyata keçirdiyi müsbət tədbirlərlə insanlar onların əlindən rahatlıq tapmışdılar.

İkinci qrupa saray ruhaniləri daxil idilər. Demokratiyanın inkişafı və Azərbaycan cəmiyyətində demokratik dəyərlərin genişlənməsi və demokrat firqəsinin iqtisadi-mədəni tədbirləri mürtəce saray ruhanilərinin mənafelərini təhlükəyə salmışdı. Onlar firqəyə qarşı müxalifətə keçdilər. Çünki, saray ruhanilərinin bəziləri özləri feodal və iri torpaq sahibləri idilər. Bu səbəbdən Tehran hakimiyyəti ilə əməkdaşlıq edərək, Azərbaycan Milli Hökumətinə qarşı mübarizəyə başlamlşdılar.

Doktor Məsud Bayatın bu barədə fikri aşağıdakı kimidir: “Zəncanda demokratlara müxalifətdə olan birinci qrup mülkədar və torpaq sahiblərindən ibarət olan dəstə idi. Mülkədarlardan ibarət bu qrupa başlıca olaraq aşağıdakı ailələr daxil idilər: - Zülfüqarilər, Etemad Əminilər, Ziyayilər, Əfşarlar və Bigdelilər.

Onların düşmənçiliyinə səbəb olan amillərdən biri tudəçilərin və demokratların bəzilərinin təhrikilə əkinçilər tərəfindən mülkədar torpaqlarının mənimsənilməsi və bu qrupdan olan adamların torpaqlarının bəzi kəndlərdə bölgüsünün demokratlar tərəfindən həyata keçirilməsi idi. Demokratlar öz mitinqlərində mülkədarlara qarşı söz ilə çoxlu həmlələr edirdilər. Bütün bunlar bu qrupdan olan adamların nigarançılığını daha çox artırırdı.

Mülkədarlar demokratlara qarşı mübarizələrini bir neçə istiqamətdə aşağıdakı kimi qurmuşdular:

1. Seyid Ziyaəddin Təbatəbainin vasitəçiliyi ilə İran Demokrat Fiqəsinin şöbələrinin təşkili və buraya üzvlərin qəbulu.

2. Mərkəzi hakimiyyətə çoxlu sayda məktubların göndərilməsi və firqənin təhrikedici tədbirləri haqqında məlumatların verilməsi.

3. Məsciddə və qubernatorluqda kollektivləşmə ideyalarının tərəfdarlarına qarşı bəstlərin təşkil edilməsi.

4. Demokratlara qarşı mübarizə işlərinin müzakirəsi məqsədi ilə dövlətin bütün quruplar ilə təşkil etdiyi yığıncaqlarda iştirak etmək.

5. Tudəçilər və demokratlara qarşı hərbi tədbirlərin və qarşıdurmaların həyata keçirilməsi.

Tudəçilərin sekulyar əqidələrini və onların mülkiyyətə etiqadın olmaması kimi bəzi fəaliyyətlərini tənqid edən ruhanilər ilk günlərdən onlara qarşı çıxdılar. Ruhanilər Zülfüqarilərin öz evlərinə geri qayıtdıqları zaman mərkəz qüvvələrinin qələbəsindən sonra onları çox səmimi qarşılamışdılar. Onlar öz məruzələrində demokratları “zındıq” adlandırmışdılar. Onlar millilər üzərində qələbəni təsadüfdən məhərrəm ayına düşmüş İmam Hüseyn hərəkatının bərəkəti kimi qələmə vermişdilər.

## Zəncanda Darayilər nəsli

Abdulla Mirzə Dara (Zəncan Darayilərinin əcdadi) Fətəlişah Qacarın 11-ci oğlu idi. 13 yaşında ikən (hicri-qəməri 1224/miladi 1810) Zəncan hakimi təyin edilmişdi və atasının ölümünə qədər bu vəzifədə qaldı. O, hicri-qəməri tarixi ilə 1263-cü (1847-ci) ildə Tehranda dünyadan köçdü. O, alim və şair bir adam idi və şair kimi özünə “Dara” təxəllüsü götürmüşdü. Darayi ailəsi öz familiyasını onun təxəllüsündən götürmüşdü.

Abdulla Mirzə Dara Zəncanın rifahı və abadlığı üçün çox çalışmışdı. Seyid məscidi, Qeysəriyyə bazarı, Şahzadə hamamı və s. onun hakimiyyəti illərində tikilmişdi. Abdulla Mirzənin 30 övladı olmuşdur. Onun beşinci oğlunun adı Xəlilullah idi. O, Əmir Xos-

rov xan Darayinin atası idi. Əmir Xosrov Darayi (Bürhanüssəltənə) Tarım məntəqəsinin kiçik mülkədarlarından idi. O, şair və yazıçı olmaqla həm də, siyasi mübariz idi. Onun təxəllüsü Xosrov, ləqəbi isə Bürhan idi. Xosrov Mirzə Abdulla Mirzənin oğlu, o isə Xəlilullah Mirzənin oğlu idi. Zəncanın böyük xanədanlarından olan müasir Darayilər nəsli onun adı ilə bağlıdır.

Əmir Xosrov Darayi Binarud Tarımda doğulduqdan və məktəbxana da təhsil aldıqdan sonra Zəncana gəldi və orada təhsilini davam etdirdi. Elm və düşüncə adamları ilə tanış oldu və qiymətli biliklər əldə etdi. Cavanlıqda bir neçə il yeni təsis edilən ordunun kadrlarından oldu. Həmçinin iki il yarım Tarım məntəqəsi məhkəməsinin müavini işlədi. (Tarım xüsusi coğrafi və strateji mövqeyə malik yerdir.

Bununla da siyasət sahəsinə qədəm qoydu.

Burada Əli Derami məsələsini də qeyd etməliyik.

Yerli və dövlət nüfuz sahibləri quldurlar və avaraları, şəhər və kənd lümpenlərini yedirtməklə Tarım məntəqəsində və bütün Xəmsədə iğtişaşlar törədirdilər. Belə ki, 1320-ci il şəhrivər ayı (1941-ci il avqust) hadisələrindən sonra yerli satqınlardan olan Əli Derami vasitəsi ilə Tarım məntəqəsində iğtişaşlar törədildi. Nəticədə onunla Xosrov xanın süvariləri arasında qarşıdurma baş verdi.

Əli Deraminin izi Zəncanda və Xəmsədə demokrat firqəsi ilə bağlı hadisələrdə, onun bəxtiyari dəstələri ilə və Zülfüqarilərin seçdikləri adamlarla əməkdaşlıq etməsində, Azərbaycan Milli Hökumətinin məhv edilməsində və Şahənşah ordusu ilə bir yerdə olmasında görünməkdədir. Demokrat firqəsi hakimiyyətinin bitməsindən sonra Əli Derami rəvayətə görə öz kürəkəni və yerli jandarmlar tərəfindən güllələnmişdi.

Xosrov xan Darayi hicri-şəmsi tarixi ilə 1309-1315-ci illərdə (1930-1936) Mirzə İsa Qanunxah Zəncani (Nasirülmülk) tərəfindən “Pərvin-e Xəmsə” adlı qəzet nəşr etdirilməyə başladıqdan son-

ra o, bu qəzetdə Fəzlullah Toğrulxan (Müzəyyənüssəltənə), əllamə Hacı Mirzə Abdulla, Ziyayi Zəncani və Şeyx İbrahim Qızılbaşı ilə birlikdə ədəbi, elmi və ictimai xarakterli məqalələr yazmışdır.

Rza şah süqut etdikdən, Zəncan qızıl ordu tərəfindən işğal edildikdən və siyasi azadlıqlara şərait yarandıqdan sonra Darayi, Sultanı, Asanly və Müqəddəm ailələri əvvəllərdə olduğu kimi Əmir Əfşar, Zülfüqari və başqalarına qarşı müxalif qütbdə yer aldılar.

Öz elmi məqamı və köklü siyasi yönümünə görə Cahanşahlı ailəsi də, rəsmi və qeyri-rəsmi şəkildə azadlığın genişlənməsi məqsədilə tüdə firqəsi və demokratlara tərəf yönləndilər. Xosrov xan Darayi fəhlə təşkilatlarının və kəndli birliklərinin formalaşmasında, İnqilabi qrupların yaradılmasında görkəmli rola malik idi. Bir çox xırda torpaq sahibləri və ziyalılar Darayinin sözü ilə demokrat firqəsinə cəlb olundular. Bu istiqamətdə Darayi ailəsi Burhanın və onun hər biri alim və şair olan övladları - Cahangir, Mənuçöhr, Cahansuz, Behindoxt və Azadə Darayi ilə birlikdə, Sultani nəsli-Rza xan və Əli Sultanilər və başqaları Zülfiqari ailəsinə qarşı öz fiziki iştirakları ilə, başqaları isə silahlarla, silahlı kəndli dəstələrinin təşkil edilməsi ilə mübarizə aparırdılar.

Azərbaycan Milli Hökuməti dövründə Zəncanda Məhəmməd Ezamüssəltənin (Zülfiqarinin) evində və bağında “mədəniyyət evi” açılmışdı. Bu “mədəniyyət evinin” rəhbərliyi və “şairlər məskəni” komitəsinin sədrliyi, məlumatların və yazılmış nəzm və nəşr əsərlərinin yayılması, mübarizə və siyasət tarixinin təbliği, Xəmsənin əsas mülkədarlarına və muzdlu silahlı dəstələrinə qarşı müqavimətin təşkili və cəmiyyətin müxtəlif təbəqələri arasında təbliğat aparmaq işləri Əmir Xosrov xan Darayiyə (Bürhanüssəltənəyə) tapşırılmışdı. Milli Hökumət süqut etdikdən sonra “mədəniyyət evi” dağıdılıb tarixə çevrildi.

Həmin yazıçılardan çoxlu əsərlər, o cümlədən “Şəkəristan” adlı əsər və 27 min beytlik divan qalmışdır. Zəncanın şairlər ustadı bir neçə illik zindan həyatına dözdükdən sonra 1332-ci ilin şəhrivər

ayında (avqust-sentyabr 1953) vəfat etdi və özünün vəsiyyətinə görə doğulduğu və evləndiyi otaqda dəfn olundu. Onun oğlanları İslam inqilabından sonra Tehranda və Zəncanda vəfat etmişlər. Məhəmməd Əmin Azadvətən və Əbdüləlizadə də, Zəncanda demokrat firqə komitəsini yaradanlardan idilər. Məsud Bəyat özünün “Zəncanda İslam inqilabı” kitabında yazır ki, Məhəmməd Əmin Azadvətən və Əbdüləlizadə Zəncanın şəhrdarlığında işləyirdilər və firqə komitəsinin təsis edilməsində aparıcı rola malik idilər.

Həmçinin cənab Büsuq da, demokrat firqəsinin qurultayında Zəncandan nümayəndə seçilmişdi.

## Zəncanda demokratların rəhbərləri

1.Əlizadə; 2.M.B.Qənbəri; 3.Raufi; 4.Bürhanissəltənə; 5.Amirzadə; 6.Səfərxan Cəvahiri; 7.Hadi Vəziri; 8.Mərəndi Övhədi; 9.Cahangir Darayi; 10.Həbibulla Reyhani.

Azərbaycan Milli Məclisində Zəncan nümayəndələri: 1.Mərifət Şəfai; 2.Doktor Cahanşahlı; 3.Hilal Nasiri.

## Zülfiqarilər və Zəncanın inkişaf məsələsi

Zəncanda demokrat firqəsinin şöbəsi təşkil edildikdən sonra Zəncanda mədəniyyətin və iqtisadiyyatın inkişafı yolunda böyük işlər görüldü. Demokrat firqəsi Zəncanda asayişin təmin olunmasında və əsas malların qiymətlərinin nəzarət altına alınmasında yaxşı işlər gördü. Təəssüflər olsun ki, Zülfiqarilər və başqa yerli xanlar Zəncanın qorxulu kabusuna çevrilmişdilər. Onlar Zəncan camaatının həmişə onlara nökər olmasını və onlar üçün işlənməsini istəyirdilər. Onlar Tehrandakı müstəmləkəçilərə öz nökərçiliklərini sübut etmək, Zəncan camaatının zəhmətlərinin nəticəsini Tehrana satıb, özlərinə sərvət toplamaq istəyirdilər.

Azərbaycanda milli hökumətin qurulması Zəncan camaatının istismar olunmasına mane oldu. Tehrandakı istismarçıların və onların Zəncandakı nökərlərinin canına qorxu düşdü. Canına qorxu düşmüş

nəsillərdən biri də Zülfiqarilər nəsli idi. Onlar demokrat firqəsinin təşkil edilməsini öz “imperiyalarının” sonu hesab edirdilər. Bundan əlavə xanların qüdrətlərinin sona yetməsi ilə Zəncan camaatı torpağın və zəhmətlərinin sahibi olurdular. Bu səbəbdən Zülfiqari, Əfşar, Yəmini xanları rahat oturmadılar. Onlar Tehrandakı istismarçıların köməyi ilə milli hökumətin inkişafına mane olmaq üçün tədbirlər görməyə başladılar. O cümlədən, Zülfüqarilər öz sədaqətlərini xarici dövlətlərə, onların Tehrandakı əlaltılarına və Seyid Ziyəddin Təbatəbaiyə sübut etmək üçün Zəncanda İran Demokrat Firqəsinin şöbəsini təşkil etdilər. Professor Cəmil Həsənli demokrat firqəsinə oxşar firqələrin qurulması haqqında belə yazır: “1945-ci ilin payızında ölkənin cənubundan ingilislərin tərəfdarı olan onlarla mürtəce ruhani İranın şimalına ezam edildilər ki, demokrat qrupları arasında təfriqə yaratsınlar və onlara oxşar yeni ffirqələr yaratsınlar. Məsələn, Zəncanda böyük tacir və ingilis tərəfdarı olan Zülfiqari “Zəncan Demokrat Firqəsini” yaratmışdı. Bu firqə Azərbaycanın muxtariyyətinə, məktəblərdə Azərbaycan dininin tədrisinə və bu dilin dövlət idarələrində işlənməsinə qarşı çıxırdı. O həmçinin torpaqların kəndlilər arasında paylanmasına qarşı da çıxırdı.”[53]

## Soyqırımın Zəncandan başlanması

İran silahlı qüvvələrinin Zülfiqari, Yəmini, Əsləhədarbaşi və Əfşar xanlarının qatil və başkəsənləri ilə birlikdə Zəncana daxil olmasıyla Azərbaycanda soyqırım başlandı. Bu əcnəbilərdən asılı olan yad qüvvələr Zəncana daxil olduqları gündən insanları qarət edib öldürməyə və Azərbaycan Milli Hökuməti ilə bağlı olan insanların ailələrinə təcavüz edib, onlara əziyyət verməyə başladılar. İşğalçı qüvvələrin gəlməsi barədə “Azərbaycan” qəzeti belə yazırdı: “Azərbaycan Demokrat Firqəsi tərəfindən Zəncanın boşaldılması ilə eyni vaxtda silahlı və nadan şəxslər, xanlar və Zəncan-

[53] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması. səh. 133.

dan qaçmış başqa adamlar Zəncana daxil olub, ən vəhşi tərzdə fədailəri, demokrat firqəsinin tərəfdarlarını öldürməyə başladılar. Küçələr və keçidlər Məhəmməd Rza şah Pəhləvi rejimin günahsız əleyhdarlarının cəsədləri ilə dolmuşdu. Bu vəziyyəti görənlərin ürəkləri parçalanıb, yanırdı. Bir çox fədailərin və firqə tərəfdarlarının evləri dağıdılıb qarət edildi. Ailə başçıları ailə üzvlərinin gözləri qarşısında əziyyət verildikdən sonra öldürülürdü.”[54]

Bundan əlavə polkovnik Murtuzəvi İran ordusunun Zəncana daxil olmasını belə təsvir edir. “Biz Azər ayının 1-də (noyabrın 22-də) Zəncanı təhvil vermişdik. Axırıncı hərbi sütun axşam saat 5-də Zəncanı tərk etdi və bu barədə müvafiq akt yazıldı. Bu barədə polkovnik Bu İshaqi tərəfindən mərkəzə raport göndərilmişdi. Mən aktın təmiz nüsxəsini imzalamaq üçün Zəncanda qalmağa məcbur oldum. Səhər tezdən azər ayının 2-də (23.11.1946) bir sütun əsgər tanklar və toplarla birlikdə polkovnik Həşiminin komandanlığı altında, iki batalyon mexani gücləndirilmiş jandarm qüvvələri polkovnik Şəqaqinin komandanlığı altında Zəncana daxil olub küçələri, qubernatorluğu, teleqrafxananı, dəmiryol stansiyasını, telefon stansiyasını və şəhər darvazalarını işğal etdilər.

Hərbi qüvvələr və jandarmlar çoxlu nümayişlər keçirdilər və polkovnik Həşimi də, bayırda çıxış etdi. Bu çıxışın nəticəsi kimi hərbi sütunlarla şəhərə daxil olmuş tanınmayan adamlar firqə üzvlərini öldürməyə başladılar. Mən ostandarlığın (vilayət qubernatorluğunun) nümayəndəsi kimi iki dəfə yazılı şəkildə Tehrandan gəlmiş qüvvələrə etirazımı bildirdim. Çünki,birincisi, müqaviləyə əsasən qərara alınmışdı ki, yalnız 300 nəfər jandarm Zəncana ezam olunsun. Halbuki, Azər ayının 2-də (23 noyabr) Zəncan boşaldılandan sonra mexanikləşdirilmiş hərbi qüvvələr, tanklar və toplar şəhərə daxil oldular. İkincisi, onların təhriki və himayəsi ilə şəhərdə qanlı faciələr törədilmişdi. Lakin onlar mək-

[54] “Azərbaycan” qəzeti, 29.11.1946.

tublarıma etina etmədilər. İğtişaşlar səhər tezdən başlamışdı, və gecə saat 1-ə kimi davam etdi. Gecə hərbi hökumət elan edildi.”[55]

## Soyğunçular Zəncanda

İran ordusunun və Zülfüqarilərin muzdlu hərbi dəstələrinin Zəncana daxil olmaları ilə şəhərdə qətl və qarətlər başladı. Milli hökumət tərəfdarı olanların əksəriyyətinin evləri adı çəkilən qüvvələr tərəfindən qarət edildi.

“Xandəniha” jurnalı “Əmid” qəzetinə əsaslanaraq yazırdı: “Zəncan mülkədarlarından olan mənim dostlarımdan biri deyirdi ki, ordu məmurları bir çox kəndlərdə insanların evinə gedir və gözlərinə dəydiyi hər hansı bir qiymətli əşyaya “Zülfiqarilərin evindən oğurlanmışdır”- deyə sahib olurdular.”[56]

“Xandəniha” jurnalı “Rah-e piruzi”(Qələbə yolu) qəzetinə əsaslanıb Zəncanda qarətlər və soyğunçuluqlar haqqında nifrət aşılayan xəbərlər verərək yazırdı: “İran Demokrat Firqəsi namizədlərindən birinin qarət etdiyi xalçalar arasında boğulmuş südəmər bir uşaq tapmışlar.”[57]

Qatarda başqa müxbirlərlə Zəncana gedən “Xandəniha” jurnalının müxbiri davam edərək yazır: “Zəncana üç dayanacaq qalmış Zülfiqarilərin bağlarından birini icarəyə götürmüş şəxsin səsi ucaldı. Gördük ki, bir nəfəri kötəkləyə-kötəkləyə aparırlar. Soruşduq ki, nə xəbərdir? Biri dedi ki, fədaidir. Başqası dedi ki, namussuzluq etmişdir...Sözlər çox idi. Özümüz suallar vermək istəyəndə ətrafımızı tutdular və dedilər ki, bunlar tudəçilərdir. Onlara yenə sual vermək istəyəndə dedilər ki, “olmaz”. Hacı Tağı deyirdi:-“Mənim yanımda bu adamın min tümən girov pul var. Çarəsiz qalıb müxbirlərin yanına gəlmiş qərargah zabitindən xahiş

[55] “Azərbaycan” qəzeti, 25.11.1946.
[56] “Dövlət Məmurları Azərbaycanda nə edirlər” - “Xandəniha” jurnalı, No 52, 18.02.1947.
[57] “Mən qanlı Zəncandan gəlirəm” - “Xandəniha”, No 38, 31.12.1946.

etdim ki, onu bizim ixtiyarımıza girov versin. Araşdırmadan sonra məlum oldu ki, demokratlar Zəncana gəlməmişdən əvvəl adı çəkilən müğənni şəxs bir işi yerinə yetirmək qərarına gəlmişdi. Lakin demokrat firqəsinin gəlməsi və Hacı Tağının getməsi səbəbinə işi yarımçıq qalmışdı. Özü müğənnidir və indi dəmir yol fəhləsidir.Yolun ortasında gözü ona sataşmış Hacı Tağı onu, min tümənin girovçusunu saxlamışdı. Bu bədbəxti dəmir yol gözətçisinə vermək istəyəndə Zülfüqarinin adamları buna mane oldular və dedilər ki, özümüz onu aparacağıq. Onu biri söyə-söyə, digəri isə başına vura-vura çəkib apardılar.[58]”

“Xandəniha”nın müxbiri davam edir: “Əvvəllər gözətçi işləmiş şəhər polis idarəsinin kiçik leytenantı İsmayıl Heydərinin son zamanlar dərəcəsi maaş artırılmadan yüksəldilmişdi və aldığı yaradan əl-ayağı bağlı polis idarəsində yıxılıb qalmışdı. Bu adam firqəyə tərəfdarlıq edən yeganə şəxslərdən idi və deyirdi ki, bu yaramazların çoxu yalan danışırlar. Demokrat firqəsi asayiş, rahatlıq, ucuzluq, azadlıqdan başqa onlar üçün ayrı bir şey gətirməmişdi.Onlar çörəyi öz qiymətinə alırdılar. ”[59]

İran ordusunun və onun hərbi havadarlarının Zəncanda törətdikləri vəhşiliklərin heç yerdə bənzəri yox idi. “Azərbaycan” qəzeti 8 azər 1325-ci il tarixli sayında (29.11.1946) İran ordusunun qətl və qarətləri haqqında belə yazırdı: “Qarətçilər Zəncanda ən azı 200 evi qarət etdilər. Onlar hətta, südəmər körpələrə belə rəhm etmirdilər. Onların başlarını kəsdikdən sonra cəsədlərini futbol topu kimi o tərəf, bu tərəfə atırdılar. Jandarmlar bir 18 yaşlı qızı çil-çılpaq edib, küçələrdə qaçırdırdılar. Yazıq qız öz namusunu qorumaq, ya yorğunluğunu almaq üçün yerə oturanda xəncəri çəkib və ya onun saçlarından tutub ayağa qaldırırdılar. Onu qədər döyürdülər ki, yenidən qaçsın və adamlar ona tamaşa etsinlər.”[60]

---

[58] “Biz Zəncandan gəlirik” - “Xandəniha, No 29, 10.12.1946, səh 4.
[59] “Xandəniha”, No 31, 1.12.1946, səh.8.
[60] “Azərbaycan” qəzeti, 29.11.1946.

## Buğda əvəzinə Zəncana top və tank göndərilməsi

İran ordusu Zəncana göndərilən top və tankların diqqəti cəlb etməməsi üçün bütün hərbi texnikanın və əsgərlərin göndərilməsini taxıl daşıyan qatarlarla həyata keçirirdilər. Bu barədə Hüseyn Təqva özünün “İranda sosial hərəkatlar” adlı kitabında belə yazırdı: “Tehran hökuməti Azər ayının 2-də (23 noyabr) gecə taxıl daşımaq adı ilə buğda daşıyan qatarlarda hərbi qüvvələri, tank və topları Zəncana gətirdi. Onlarla birlikdə Zülfiqarilərin silahlı nökərləri və Zəncandan qaçmış xeyli fahişə və narkomanlar da, qalib kimi şəhərə daxil oldular.

Bir nəfər məsul şəxs bununla bağlı aşağıdakı hesabatı verirdi: “Gecə yarısından sonra Azər ayının birindən ikisinə (noyabrın 22-dən 23-ə) keçən gecə Xorrəmdərə dəmiryolu stansiyası telefon ilə məlumat verdi ki, buğda daşıyan bir qatar Zəncana daxil oldu. Bundan sonra Xorrəmdərənin Zəncan ilə telefon rabitəsi kəsildi. Bu hadisə yol üstündəki bütün dayanacaqlarda təkrar olundu. Qatar Zəncana çatdıqda qatardan buğda əvəzinə əsgər, top, tank boşaldıldı. Zəncana daxil olduqdan sonra hərbi qüvvələrin törətdikləri faciələrin həddi-hesabı yox idi.”[61]

## Mərkəzi hökumətin hərbi təyyarələri Azərbaycan səmasında

Milli hökumət düşmənçiliyin tərk edilməsini elan etməsinə və ikitərəfli razılaşmaya sadiq olmasına baxmayaraq, Tehran hakimiyyəti Azərbaycan xalqını məhv etmək üçün hərbi təyyarələrlə Azərbaycana hücum etdi. Onlar, insanları qoxudub onların gözünün odunu almaq istəyirdilər. “Ettilaat” qəzeti mərkəzi hakimiyyətin hərbi təyyarələrlə hücumu barədə 19 Azər tarixində (10 dekabr) belə yazırdı: “Saat 11-də külək dayandıqdan sonra 9 ədəd hərbi

[61] Hüseyn Təqəvi. İranda ictimai hərəkatlar (sentyabr 1941 – 1953). səh. 16.

təyyarə Qaflankuh ərazisini bombalamağa başladı. Bu təyyarənin hər biri özü ilə iki 50 kiloqramlıq bomba, 8 ədəd 12,5 kq-lıq bomba və 500 ədəd mərmi götürmüşdü.”

## Zəncanın ilk şəhidi ruhani olmuşdur

Ordunun, jandarmların və xanların silahlı dəstələrinin Zəncana daxil olması ilə qətl və qarətlər xüsusilə şiddətləndi. Onlar müdafiəsiz insanları öz evlərində faciəli bir şəkildə qətlə yetirirdilər. İnsanları xilas etməyə gəlmiş ordunun özü insanların canavarına çevrilmişdi. Xanların silahlı dəstələri ordunun onlar üçün yaratdığı şəraitdən istifadə edərək rahatlıqla qətl və qarətləri icra edirdilər. Bir qrup qatil milli hökumətin tərəfdarı olan şeyx Məhəmməd Əli Ali İshaqı şəhid etdi. Ordu və jandarmlar bu cinayətkar qrupların qarşısını almırdılar.

Azərbaycan Demokrat Firqəsi tərəfdarı olan ilk şəhid ruhani Şeyx Məhəmməd Əli Ali İshaq oldu və o, Zəncanda mərkəzi hakimiyyətin himayəsi altında olan qruplar tərəfindən şəhid edildi.

“Keçmiş gələcək yolun çırağıdır” adlı kitabında bu ruhaninin şəhid edilməsi haqqında belə yazılır: “Alçaqlar və qan içənlər onun evinin qapısını sındırdılar. Onu öz evində bıçaqla öldürdülər və meyidini evinin eyvanından yerə atdılar, sonra qarnını yırtdılar, əmmaməsini boğazına bağladılar və yerlə sürüdülər. Şeyxin ölümündən sonra hərbi hakimiyyət onun dəfninə belə icazə vermədi. Şeyx Məhəmməd Əli Ali İshaqın, şəhərin qoca ruhanisinin cəsədi bir gecə küçənin ortasında qaldı. Şeyx Məhəmməd Əli Ali İshaq firqə üzvü deyildi. O, yalnız bir neçə dəfə Zülfiqarinin əleyhinə danışmışdı.”[63]

“Azərbaycan qəzeti bu mütərəqqi ruhaninin şəhid edilməsi haqqında belə yazırdı: “Qatillər onun evinə hücum etməmişdən qabaq, o, evinin pəncərəsindən camaatla danışmış və onlara belə demişdi:- Ey camaat, mənim heç bir təqsirim yoxdur, onlar səbəbsiz məni

[63] “Ettelaat” qəzeti, 17.02.1947.

öldürmək istəyirlər, mən sizin üçün mərsiyə oxuyur, sizinlə camaat namazı qılıram, yetimlərinizə kömək edirəm. Mənim sizin rahatlığınızdan və islamın inkişaf etməsindən başqa heç bir məqsədim yoxdur. Mənim Zülfiqarilərlə heç bir düşmənçiliyim yoxdur. Lakin mənim islami vəzifəm budur ki, onların cinayətlərinə və etdikləri zülmə qarşı etiraz edim.

İnsanlar Şeyxin sözlərini eşitdikdən sonra ağlamağa başladılar, lakin jandarmlar camaatı oradan uzaqlaşdırdılar Şeyx sözünü bitirməmiş onu bıçaqla öldürdülər.”64

Bundan əlavə, “Xandəniha” jurnalı Şeyxin şəhid olmasını aşağıdakı kimi izah edir: “Şeyx Məhəmməd Əli Cümə günü adəti üzrə öz evində çay içib səhər yeməyi yeyirdi. İnsanlar bilirdilər ki, əsgərlər şeyxin evinə girmək istəyirlər. Şeyx ilə ən kiçik haqq-hesabı olan adamlar onun qapısının dalında toplaşmışdılar. Qapını açıb daxil oldular. Şeyxlə üz-üzə gələn kimi bu adamlardan biri Azərbaycan dilində Şeyxə dedi: “Ağa qiyamət günü yetişibdir, ayağa qalx, hesabını ver. Şeyx Məhəmməd Əli bu duzsuz və yersiz zarafatdan əsəbiləşdi və onun bu əməlini tənbeh etmək istəyəndə bıçağın ucu onun qarnına girdi. O, bir ah çəkdi. Məlunlar onu evinin yuxarısına qaldırdılar və şeyxin evinin qapısının qarşısına toplaşmış adamlara dedilər: “Şeyx Məhəmməd Əli sizə nitq söyləmək istəyir. Sonra isə onu yuxarıdan aşağı atdılar. Biçarə Məhəmməd Əli öz siyasi əqidəsinin qurbanı oldu. Onun meyidindən də əl çəkmədilər və ayaqlarına ip bağlayıb küçələrdə gəzdirmək istədilər.”[65]

Sonralar ayətullah dərəcəsinə qədər yüksəlmiş və o zaman ordunun və Zülfiqarilərin cinayətlərini təmizləmək üçün Zəncana gəlmiş Seyid Məhəmməd Taleqani Şeyx Məhəmməd Əli İshaqın şəhid edilməsi haqqında aşağıdakı kimi yazırdı: “Deyirdilər ki, o, Seyid Cəfər Pişəvərinin İmam Hüseyn kimi cəmiyyətin nicatı üçün qiyam etdiyini söyləyirdi. Hər halda onun öldürülməsi haqqında demək istəyəndə səhər dövlət qüvvələri Zəncana daxil oldular.

[65] “Xandəniha” jurnalı, No 3, 07.12.1946.

Xalq əvvəl inanmadı və nümayişə cürət etmədi, bir nəfər qışqırdı: "Yaşasın İran ordusu". Camaat hər tərəfdən yığıldı və sevinclərini bildirdilər. Hərbi komendant fədai başçılarını həbs etdi və onları xalqdan ayırdı. Bu əcəli çatmış Şeyx öz eyvanında dayanmışdı. Camaat hücum etdi və onu vurdu. Bəziləri onu xilas etmək istədi, ancaq bacarmadılar. Onu vurduqdan və bəlkə də öldürdükdən sonra onu eyvandan aşağı atdılar. Lakin araşdırmalara görə o, inqilaba tərəfdar olmaqdan başqa insanları incitməmişdi. Adamların çoxu Azərbaycan demokratlarına bəslədikləri kin səbəbinə və Zülfiqarilərin xatirinə (!) onu öldürdülər. Bu şeyx demokratların tərəfdarı idi."[66]

## Zəncanın şahpərəst ruhanilərinin şəhid din xadimi Al-İshaq haqqında yalanları

Mütərəqqi ruhani Məhəmməd Al-İshaq faciəli şəkildə şəhid edildikdən sonra Zəncanda Zülfüqarilərin köməkçiləri və mürtəce ruhanilər mərkəzi qəzetlərə yazdıqları məktublar vasitəsi ilə ona qara yaxmağa və yalan danışmağa başladılar. Bu xüsusda "Zəncanın ruhani heyəti "adlı bir qrup baş nazirə, qəzetlərə və Tehran radiosuna aşağıdakı məzmunda məktub göndərdi: "Bu bir necə gündə bəzi qəzetlər Təbriz radiosuna əsaslanaraq məlumatlar yaymış və Xoydan olan Şeyx Məhəmməd Əlini ruhani aləminə aid edərək, onu hüccətülislam kimi təqdim etmişlər. Bununla bağlı Zəncanın ruhani heyəti deyilənləri təkzib edib aşağıdakıları bildirir ki, adı çəkilən adam uca hüccətülislam adına malik olmamış və hətta, ruhanilər sırasında olmamışdır. Zəncan ruhanilərinin heyəti: Şeyx Əli Əkbər Zəncani, Məhəmməd Hüseyn Musəvi Qərəvi, Nəcməddin Müctəhidi, Yəhya Mudəhsəf Əhməd Reşvəndi, Hüseyn İbn Məhəmmədi və Abdulla Fəqih"[167].

---

[66] Seyid Mahmud Taleqani. Mənim Zəncandakı müşahidələrim, dekabr 1946 (islam və İran tarixinə aid ixtisaslaşmış saytlardan).
[67] "İslam ayinləri" jurnalı, No 40, 1946, səh. 24.

## Milli Hökumətlə bağlı şahpərəst qəzetlərin yalan təbliğatları. Zəncanda “fahişəliyin geniş yayılması” və Seyid Mahmud Taleqaninin etirafları

Tehrandan idarə edilən və soyqırımı müdafiə edən mürtəce qəzetlər Zülfüqarilərin və İran ordusunun cinayətlərinin üstünü örtmək məqsədi ilə yalan yazmağa başlamışdılar. Onlar Demokrat Firqəsinin Zəncanda iffətsizliyi yaydığını yazaraq, bu yalanla Zəncan camaatının dini hisslərindən sui-istifadə edirdilər. Bu işlə onlar Zəncanda firqə rəhbərlərini biabır edib, sonra öldürmək istəyirdilər. Onlar belə də etdilər. Lakin o zamanlar hüccətülislam olmuş və Qum şəhərində nəşr edilən “İslam ayini” jurnalı ilə əməkdaşlıq edən, İran ordusunun və Zülfuqarilərin cinayətlərini təmizə çıxarmaq üçün Azərbaycana səfər edərək, İran ordusuna müvəffəqiyyətlər arzulamış ayətulla Seyid Mahmud Taleqani sağyönümlü qəzetlərin boş təbliğatları haqqında, Zülfüqarilərin tərəfdarları haqqında və mübariz rəhbərlərin “iffətsizliyi” haqqında belə yazırdı: “Demokratların namussuzluqları haqqında qəti şəkildə bir hadisə baş vermiş olsa belə, düzgün sənəd əldə etmədim. Lakin onlar “mədəniyyət evi” adlı bir ev təsis etmişdilər. Deyirdilər ki, burada apardıqları təbliğatlardan biri hicab əleyhinə idi. Bu səbəbdən bir qrup qızı oraya işə qəbul etmişdilər. Onlar qadın və qızları ora dəvət edib, onlar üçün məruzələr edirdilər. Təbliğatları ilə qadınların orada iştirakı üçün şərait yaradırdılar. Lakin, mənim fikrimcə, insafla etiraf etmək lazımdır ki, sorağını eşitdiyim bütün həyasızlıqlar yayda, cümə günlərinin birində Şəmiranda baş verənlərin ölçüsündə deyildi”.[68]

Bundan əlavə “Xandəniha” jurnalı sağyönümlü qəzetlərin Zəncanla bağlı yalanları haqqında belə yazırdı: “Sağyönümlü müxbir-

[68] Seyid Mahmud Taleqani. Mənim Zəncandakı müşahidələrim, dekabr 1946 (islam və İran tarixinə aid ixtisaslaşmış saytlardan).

lərdən biri dörd nəfərlik bir vaqonda Məşhəddən qayıdan bir nəfər Xəmsəlini sorğu-suala tutmuşdu. Onların "bir neçə aydır ki, Zəncanda olmamışıq"-deməlirinə baxmayaraq, müxbir israrla soruşurdu ki, demokratların törətdikləri faciələr haqqında ona danışsınlar. Bu müxbir onların ad və familiyalarını, yaşadıqları kəndi qeyd etdikdən sonra soruşdu:"Demokratlar hansı namussuzluqları etmişlər?". Onlar azərbaycanca cavab verdilər ki, biz görməmişik. Lakin müxbir heç nə başa düşmədi və Azərbaycan dilini bilmədiyinə görə bir daha soruşdu:"O adamın adı nə idi?" Onlar dedilər – kimin? Müxbir dedi ki, namussuzluq edənin. Bu adamlardan biri müxbirin əl çəkmədiyini görüb, təngə gəldi. O, ayağa durub, Həzrət Abbasa and içdi və dedi: "Allah şahiddir ki, biz görməmişik. Müxbirin bu cür xəbər hazırlamağına mənim gülməyim tutdu və oradan uzaqlaşdım. İndi mən bilmirəm bu müxbir neçə nəfər müsibət çəkmişi və müsibət şahidlərinin adlarını, yaşadıqları yeri və faciənin dəqiq saatını "müəyyənləşdirib", yazmışdır."[69]

Eyni zamanda, İran qəzeti müxbirinin sağyönümlü qəzetlərin fədailərin namussuzluqları haqqında yazdıqları yalanları barədə fikri belə idi: "Demokratların Zəncanda namussuzluqları haqqında sözlər deyirdilər. Bu sözlər həqiqətə oxşamaqdan çox təəccübə səbəb olurdu. Bu sözlər və bəyanatlar Zəncanın görkəmli və hörmətli adamları tərəfindən təsdiq olunmurdu. Ehtimal və gümanlarımız da göstərir ki, bu bəyanatlar düzgün deyidirlər, yalnız qərəzfi xarakter daşıyırlar və əsəbləri təhrik etmək üçün deyilmişdir".[70]

## Demokrat Firqəsinin Zəncandakı fəaliyyəti

Qətiyyətlə demək olar ki, Azərbaycan Milli Hökuməti bir milli, mədəniyyət sevən və Azərbaycanın xalqının milli mənafelərini qoruyan dövlət idi və cəmiyyəti Azərbaycanın ümumi mənafeyinə, ümumi iffət və paklığına qovuşdurmaq üçün mübarizəyə başladığı

[69] "Xandəniha" jurnalı, № 29, 30.11.1946, səh. 4.
[70] "Xandəniha" jurnalı, № 33, 14.12.1946, səh. 22

andan bıçaq çəkib vuruşanlarla, xalqın namusuna təcavüz edənlərlə mübarizəni əsas vəzifələrdən biri elan etmiş və xeyli sayda alçağı, gücündən istifadə edərək xalqın namusuna təcavüz edəni və cinayətlər törədən küçə avarasını həbs etmişdi. Onların bir neçəsini “Molla Am” deyilən yerdə edam etdi. Lakin sağyönümlü qəzetlər, o qəzetlər ki, baş redaktorları ayrı- seçkilik və arxaik təfəkkürlərə malik idilər edam edilmiş avaraları millilər, yəni Tehran hakimiyyətinin tərəfdarları adlandırmışdılar.

Milli hökumət həmçinin fahişəliklə, qadınların özünü satmaları ilə mübarizə üçün yaxşı tədbirlər görmüşdü. Demokrat firqəsinin Zəncanda fahişəliklə mübarizəsi haqqında “İran” qəzetinin müxbiri belə yazırdı: “Deyirdilər ki, demokratlar fahişəliklə ciddi mübarizə aparırdılar. Belə ki, fahişəliyin qarşısı alınmış və sıfır dərəcəsinə enmişdir. Bütün fahişələr Zəncandan çıxıb getmiş, yaxud öz əməllərini tərk etmişdilər. Hətta, ərə də getmişdilər. Bu məsələni çoxları təsdiq edə bilər”.[71]

## Zəncanda Milli Hökumətin mədəni tədbirləri

Mədəniyyət və sənət hökuməti bütün Azərbaycanda çoxlu mədəni tədbirlər həyata keçirmişdi və işinin əsas istiqamətini mədəniyyət və sənət sahəsinə yönəltmişdi. Milli hökumət Azərbaycan xalqının gözünü açmaq, onu milli mədəniyyətinin zəngin keçmişi ilə tanış etmək istəyirdi. Buna görə də milli hökumətin gəldiyi hər yerdə ən azı bir mədəniyyət mərkəzi açılır və tədris mərkəzi işə başlayırdı. Zəncanda kino-teatr açmış və aşağıdakı mədəni tədbirləri həyata keçirmişdilər:

1. Mənuçehr Səid Vəzirinin baş redaktorluğu ilə “Azər” adlı qəzetin çap olunmağa başladı.

2. Mədəniyyət evi açıldı, şairlər məclisi,, tamaşa və musiqi klubu təşkil edildi. Bu mərkəzlərdə sənətkarlar, zövq sahibləri və şair-

[71] “Xandəniha” jurnalı, № 33, 14.12.1946, səh. 21.

lər, musiqiçilər, artist və rəssamlar toplaşaraq öz hünərlərini göstərirdilər.

Şairlər məclisində Zəncandan olan bir neçə şair öz yaradıcılıqları ilə parladılar. Mərhum Məhəmməd Rza Ruhani öz satirik şeirləri ilə, mərhum Hacı Əkbər Zəfərani Azərbaycan dilinə kamil yiyələnməsi ilə, ustad Sənəti, doktor Həkiman və xanım Həkimə Bülluri və başqaları o dövrdə Zəncanın məşhur şair və ədibləri sayılırdılar və bu birliklərdə fəaliyyət göstərirdilər.

İndi, Allah bilir, yeni hökumət bu natamam bina ilə bağlı hansı tədbiri görəcəkdir”.[72]

İran ordusunun qüvvələri və xanların silahlı dəstələri Zəncana daxil olduqdan sonra milli hökumət zamanında həyata keçirilmiş bütün mədəni tədbirləri ləğv etdilər və milli hökumət zamanından heç bir mədəni abidə qalmadı ki, gələcək nəsillər onunla fəxr edə bilsin. “Keçmiş gələcək yolun çırağıdır” kitabında bu barədə aşağıdakıları oxuyuruq: “Jandarmlar, Tehrandan göndərilmiş avara və başkəsənlər hərbi komandanlığın “qətl və qarətlər törətmək, təcavüzlər etmək haqqındakı xüsusi icazəsi”ndən istifadə edərək aşayış və təhlükəsizliyi caamatın əlindən aldılar. Onlar hətta, şəhərin abadlığına və gözəlliyinə də zərər yetirirdilər. O cümlədən, milli hökumət zamanında Zəncanda tikilmiş “Azər” kino-teatrını sökdülər. Hətta, milli hökumət tərəfindən küçələrə döşədilmiş asfaltın bir hissəsini də qazdılar”.[73]

## Zəncan vətənsevərlərinin sürgün və mühacirətdə çətin günləri

Zəncanın işğalından sonra Tehrana və İranın başqa şəhərlərinə sürgün və ya mühacirət etmiş Zəncanlı milli hökumət tərəfdarları Azərbaycanın düşmənləri tərəfindən əzab və əziyyətlərə məruz

[72] “Xandəniha” jurnalı, No 31, 7.12.1946, səh.7.
[73] Keçmiş gələcək yolun çırağıdır. səh. 410.

qalırdılar. Tehran hakimiyyətinin adam satanları öz şəxsi düşmənçilikləri səbəbinə və hakimiyyətə xoşa gəlmək üçün onları Tehranda dövlət məmurlarına satırdılar. Tehran polis idarəsinin 1324-1326-cı illər arasındakı (1945-1947) gizli raportlarında bir dəstə Azərbaycanın düşmənləri haqqında maraqlı məlumatlar vardır. Onların bəziləri aşağıdakılardır:

23 ordibeheşt 1326-cı il (14.05.1947):

Stomatoloji fakültənin tələbəsi Nikxah iddia edir ki, Azərbaycan Demokrat Firqəsinin hakimiyyətdə olduğu dövrdə Cəfər Turabinejad Zəncanın iqtisadiyyat idarəsinin rəisi olmuşdur və xeyli mal mənimsəmişdir. Adı çəkilən Cəfər 1-ci rayonun polis idarəsinə çağırılmışdır. O, izahatında bildirmişdir ki, Zəncanda üç ay müddətində iqtisadiyyat idarəsinin rəisi olmuşdur. Bir müddətdən sonra Təbrizdə onu həbs edib, işini araşdırmışlar. İndi azad olmuşdur və 25 gündür ki, Tehrana gəlmişdir. Adı çəkilən şəxs işi ilə birlikdə informasiya idarəsinə təhvil verilmişdir (səh. 325)

14 esfənd 1325 (5 mart 1947):

Azərbaycandan olan və əttar (aptekçi) işləyən Yusif Əli oğlu 8-ci rayonun polis idarəsinə müraciət etmiş və məlumat vermişdir ki, Süleyman sarayında tacir şagirdi işləyən Rza Məhəmməd oğlu Azərbaycan Demokrat Firqəsinin üzvlərindən olmuşdur. O, demokrat firqəsi hakimiyyətdə olan zaman Zəncan telefonxanasını məndən təhvil almışdır. Polis məmuru adı çəkilən şəxsi tutub gətirmiş və o, informasiya idarəsinə göndərilmişdir.[74]

İki nəfər Tehrana sürgün edildi:

Iki nəfər, yəni Əhməd Azəri və Əsədulla Kamran ordu şəhərə daxil olduqdan sonra Zəncan camaatının şikayəti əsasında işdən

[74] Təfreşi Məcid, Tahir Əhmədi Mahmud. Tehran polisinin gizli raportları (1945-1947), I cild. səh. 261.

çıxardımış və Tehrana sürgün edilmişlərdilər.[75]

Zəncanda geniş həbslər:

Sainqala dayanacağında dəmiryolunun şimal-qərb nahiyəsinin iki işçisi dəmir yolunun polis məmuru ilə birlikdə dəmir yolunun briqadiri Əhməd Kəmərinin evində bir silah və demokrat firqəsinin məktublarından ibarət bir qovluq aşkar etmişlər və Zəncan dəmir-yol polisinə təhvil vermişlər. Müttəhimlər həbsə alınmışlar.[76]

Zəncan, Dey ayının 10-u, (31.12.1946),"Ettelaat" qəzeti:

Demokrat firqəsinin 17-ci hövzəsinin sədri və ciddi demokrat təbliğatçılarından olan Əbülfəzl Əmin Dey ayının 10-da Seyfəli adında dəmirçi tərəfindən həbs edilib polis idarəsinə gətirildi.[77]

Zəncan dey ayının 14-ü (04.01.1947):

Zəncanda cinayətkar demokratlardan biri həbs edildi. Onun adı Mənsur Məhəmmədidir. O, 1324-cü il azər ayının 3-də (24.11.1945) demokrat firqəsinin tərəfinə keçmiş və Zəncan jandarmlarının silahlarını əllərindən almışdı. Bu adamı həbs edən Nəsrulla Zənd adında bir nəfər Zəncan vətəndaşıdır. Cinayətkarı o, şəhər polisinə təhvil vermişdir.[78]

Bürhanüssəltənə adı ilə məşhur Xosrov Darayinin həbsi:

Xosrov Darayi oğlu Cahansuz ilə birlikdə, demokratların zabitlərindən olan Ruhulla Cəfəri, Məhəmməd Səyyari, Hacı Əyabuf və Məhəmməd Kövsər 23 nəfər fədai ilə birlikdə Masulədə həbs olunaraq, Zindana göndərilmişlər.[79]

---

[75] "Ettelaat" qəzeti, 12.12.1946
[76] "Ettelaat" qəzeti, 18.12.1946.
[77] "Ettelaat" qəzeti, 02.12.1946.
[78] "Ettelaat" qəzeti, 05.12.1946.
[79] "Ettelaat" qəzeti, 08.01.1947.

Zəncandakı qəzet müxbiri belə yazır:

Zəncan, dey ayının 25-i (15.01.1947). Bütün bu müddət ərzində sökülmüş su anbarlarında gizlənən, gecələri isə evinə gələn cinayətkarlardan biri Qulam Mühacir dünən həbs edilərək, polis idarəsinə təhvil verilmişdir.

Zəncan dey ayının 28-də (18.01.1947):

Qiyamçıların polisi olmuş Qənbər Mühacir bu gün oğlu və bir nəfər başqa adamla birlikdə adamlar tərəfindən tutularaq, şəhər polis idarəsinə təhvil verilmişlər.[80]

Qulamrza Najdakinin həbs olunması:

“Mədəniyyət” evinin müdiri Qulamrza Najdaki həbs edildi”. (5.11.1325/25.01.1947) “Ettelaat” qəzeti.

Zəncan esfənd ayının 12-si (3 mart 1947):

“Bir müddətdir Tehranda gizlənmiş və “Qız” körpüsünü dağıtmaqda ittiham edilən Həbib Teymurzadə şəhər polis idarəsi məmurları tərəfindən tutularaq, inzibati orqanlara təhvil verilmək üçün sərnişin qatarı ilə Zəncana göndərilmişdir. Əmir Teymurzadə yerli hərbi tribunalda mühakimə olunmaq üçün Miyana şəhərə göndərildi”.[81]

Zəncan xordad ayının 19-u (10 iyun):

Qiyamçıların həmkarlarından biri olan Həbib Reyhani dünən Zəncanın 36-cı kilometrliyində yerləşən Qarabağ adlanan yerdə jandarm məmurları tərəfindən həbs edilib, zindana salınmışdır”.[82]

Azadlıqsevənlərə edam hökmü:

Demokrat firqəsi üzvləri həbs edildikdən sonra İsmayıl Heydəri, Həmzə Quliyev və Qurban Mühacir edam cəzasına məhrum

---

[80] “Ettelaat” qəzeti, 19.01.1947.
[81] “Ettelaat” qəzeti, 06.03.1947.
[82] “Ettelaat” qəzeti, 11.01.1947.

olundular və leytenant Əsgər Təvəkküli isə 5 il müddətinə katorqa işlərinə göndərildi.[83]

Zəncanda hərbi tribunalın qurulması:

1325-ci ilin bəhmən ayında (yanvar-fevral 1947) tribunal təşkil edildi və demokrat firqəsi üzvlərinin və onların köməkçilərinin mühakiməsi başlandı”.[84]

Hərbi- səhra məhkəmələrinin məhkumları:

Dünən hərbi-səhra məhkəməsində mühakimə edilib, həbs edilən 13 nəfəri qatar ilə Tehrana gətirdilər. Bu adamların arasında ömürlük həbs edilən şəxslər də var idi Onlar şəhər polisinin və qubernatorluğun məmurlarının nəzarəti altında Tehran həbsxanasına təhvil verildilər.

“Ettelaat” qəzeti 5 bəhmən 1325-ci il tarixində (25.01.1947) mühakimə edilmiş bir qrup müttəhimlə bağlı verilmiş hökmlər haqqında yazır: - Zəncan hərbi tribunalı bu neçə gündə mühakimə edilən məhkumlarla bağlı hökm vermişdir. Zülfəli Məhəmmədəlizadə, Həsən Əfşari, Ələsgər Quliyev, Heydər Şəddadyan, Novruz Qənbəri, İsmayıl Heydəri edam cəzasına məhkum ediliblər.

Həsən Aşurdel 5 il katorqa cəzasına, Qurban Əli Pur Dəyani 3 il bir nəfərlik kamera həbsinə, Dadaş Şucayi 5 il birnəfərlik kamera həbsinə, Əliqulu Dadaşpur 5 il birnəfərlik kamera həbsinə, Sədulla Rövzayiş 3 il, Mir Yaqubi 1 il islah kaloniyası cəzasına, Əsğər Təvəkküli 5 il katorqa cəzasına, Allahverdi Səlimi sürgün cəzasına, Nüsrətula Qaraxanzadə 6 ay islah koloniyası cəzasına məhkum edilərək qəti hökm oxunmuşdur”.[85]

Qəzet müxbiri Zəncanda:

Zəncan, 5 bəhmən (25.01.1947), Hərbi tribunal Bürhanüssəltənə

---

[83] “Atəş” qəzeti, 08.02.1947.
[84] Bağır Aqili. Məşrutə inqilabından islam inqilabına qədər İran tarixinin xronologiyası, I cild.
[85] “Ettelaat” qəzeti, 04.02.1947.

adı ilə məşhur olan Xosrovu və Hacı Babayevi edam cəzasına məhkum etmişdir. Bürhanüssəltənənin oğlu Cahansuz Darayiyə 10 il, Məhəmməd Sariyə 5 il həbs cəzası müəyyən edilmişdir.[86]

Zəncan bəhmən ayının 13-cü (2.02.1947) qəzet müxbiri xəbər verir:

Apelyasiya məhkəməsi Hüseyn Əzavulu – 5 il, Qurban Pasbanı – 3 il, Dadaş Şücayini – 4 il, Əliqulu Dadaşpuru – ömürlük həbs, Sədulla Urayişi – 5 il, Mir Səməd Pasbanı – 3 ay, Allahverdi Səlimini – 3 il, Qara Xanzadəni – 3 il, İsmayıl Heydərini – edam, Zülfəlini- edam, Heydər Mühaciri – ömürlük həbs, Quliyevi – ömürlük həbs, Hüseyn Əfşarini – ömürlük həbs, Novruz Qəmbərini – ömürlük həbs, Bürhanüssəltənəni – edam, Cahansuz Darayani – 10 il, Ağababayevi – ömürlük həbs, Məhəmməd Səyyarini – 5 il, Yəminini – 5 il həbs cəzalarına məhkum etmişdir.[87]

Qəzet müxbiri Zəncandan xəbər verir. Zəncan 13 bəhmən (02.02.1947):

Beş nəfərin apelyasiya məhkəməsi təşkil olundu. Məhkəmənin hökmü aşağıdakı kimi elan olundu: - Qulam Paşa – edam cəzasına, Hüseyn Xeyrəli – ömürlük həbs cəzasına, Zeynalabdin 18 ay həbs, Qulam Hüseyn və Hüseyn Ramazan – 6 ay, Hacıbaba Xəlili – 1 il həbs cəzasına məhkum edildilər.[88]

## Zəncan şəhidləri

Zəncanın xanzadələrindən biri olan Möhsün Vəziri Zülfüqarilərlə Xatun-kəndi döyüşündə şəhid oldu. “Ettelaat” qəzeti ordu qüvvələri və Zülfüqarilərlə döyüşdə fədailərin şəhidləri haqqında belə yazır:

[86] “Ettelaat” qəzeti, 03.02.1947.
[87] “Ettelaat” qəzeti, 05.02.1947.
[88] “Ettelaat” qəzeti, 07.02.1947.

– Vəzməzya Uya döyüşündə - 4 nəfər fədai öldürüldü.

– Afkənd döyüşündə - 8 nəfər fədai öldürüldü və 11 nəfər yaralandı.

– Fədailərlə Zülfüqarilər arasında Rəcin döyüşündə Əmir Əfşari, Yəmini və Əsləhədarbaşı ilə birlikdə 23 fədai öldürüldü.

“Ettelaat” qəzeti davam edərək yazırdı: “Rəcində köçəri tayfaların atlıları və ordunun qərb cinahının qüvvələri ilə demokratlar arasında şiddətli döyüş baş verdi. Bu döyüş dörd saatdan çox davam etdi və qərb cinahı qüvvələrinin qələbəsi ilə başa çatdı. Bu döyüşdə fədailərdən 23 nəfər qətlə yetirildi. Demokratların zabitlərindən polkovnik Qazi Əsədullahi, kapitan Gül Məhəmmədi və leytenant Rahvər öldürüldülər”.[89]

Xatırlanmalıdır ki, Zəncanla bağlı mövzularda Fərəculla Davudinin yazılarından istifadə edilmişdir.

## *MİYANA*

### Miyana camaatın istismarçılara qarşı mübarizəsi

Miyana şəhərinin Tehranda əyləşmiş istismarçılara qarşı mübarizədə layiqli yeri vardır. Demokrat firqəsi yaradılmamışdan əvvəl Abbasəli Pənbəyi və Qulam Yəhya Danışyan bu şəhərdə mürtəce ideyalara qarşı mübarizə aparmışlar. Hakimiyyətin saray ruhaniləri onlara ölümcül işgəncələr versələr də, onlar istibdad və istismar əleyhinə mübarizə aparmaqdan əl çəkməmiş və Azərbaycanda milli hökumətin qurulması yolunda mübarizələrini davam etdirmişlər.

Miyananın Tehrandakı ingilis casusları ilə, o cümlədən Seyid Ziyəddin Təbatəbai ilə əlaqələri olan, onlarla demokrat firqəsinin azadlıqsevən üzvlərinə qarşı mübarizə etmək üçün əməkdaşlıq edən mürtəce saray ruhaniləri çalışırdılar ki, Azərbaycan xalqı əsarət və

[89] “Ettelaat” qəzeti, 15.02.1947.

qul olmaq boyunduruqlarını aça bilməsin, həmişə qul kimi qalsın və Tehranın xaricilərdən asılı olan siyasətçilərinin xidmətində olsun. Bu qrupdan olan ruhanilər mərkəzdən öz xalqının azadlığını tələb etmək əvəzinə, özləri Azərbaycan xalqının əlini və qolunu kəndirlə bağlayırdılar. Onlar istəmirdilər ki, Azərbaycan öz azadlığı yolunda fəryad qoparıb istismar zəncirlərini qırsın. Belə mürtəce ruhanilərdən biri kimi Mirzə Həsən Ənsarinin adını çəkmək olar. Bu adam İşlaq kəndində Tehran istismarçılarının köməkçiləri ilə əməkdaşlıq edərək, demokrat fiqəsi əleyhinə fəaliyyətlər göstərirdi.

Azərbaycançılıq fəalları Miyanada Tehran tərəfdarlarının təzyiqlərinə baxmayaraq tam ciddiliklə öz işlərini davam etdirirdilər. Milli azadlıqsevənlərin fəaliyyəti xalqın mənafeyinə cavab verirdi. Azadlıqsevənlər öz yorulmaz fəaliyyətləri ilə Miyana əhalisi arasında lazım olan ayıqlığı yarada bildilər və nəhayət Miyananı azadlıq uğrunda mübarizəyə hazırlaya bildilər.

## Miyana istismarçılardan necə azad oldu

25 aban 1324-cü ildə (15 noyabr 1945) Miyana əhalisi şəhərdəki jandarmları tərksilah etdilər və şəhər idarəsini ələ keçirdilər.

Miyanadan Tehrana göndərilmiş teleqramda Miyananın azad olması aşağıdakı kimi təsvir edilmişdi: 22.08.1324-cü ildə (13.11.1945) gecə Qəza əhalisinin bir dəstəsi Miyananın 12 km.də yerləşən Unik kəndində toplaşdılar və onlardan 50 nəfər silahlı adam gecə saat 3-də 2 ədəd yük maşınının qarşısını aldılar. Bir nəfər baytar xidməti gizirini kötəklədikdən sonra silahını əlindən aldılar. Axşamçağı isə mitinq təşkil etdilər. 24 və 25 aban tarixlərində Qara əhalisindən firqə üzvü olan bir dəstə silahlı dövlət məmurlarını tərk-silah edib, dövlət idarələrini tutdular, bütün jandarmları və dəmir yol polislərini tərk-silah etdilər, məmurları isə saxladılar.[90] Tehrana göndərilmiş teleqramda Miyananın azad olunması tarixi Aban ayının 25-i

[90] İran Şahənşah dövlətinin rəsmi qəzeti, No 237, səh. 816-817.

göstərilsə də, Qulam Yəhya Daneşyan öz xatirələrində 1324-cü il Azər ayının 5-ni (26 noyabr 1945) Miyananın azad olunması günü kimi qeyd etmişdir. Qulam Yəhya Daneşyanın xatirələrində Miyananın azad olunması belə təsvir olunmuşdur: “1945-ci il noyabrın 26-da (5 azər 1324) Miyana şəhərini mühasirəyə aldıq. Miyana şəhərində bir qədər əsgər var idi. Bizim qəhrəman fədailərimiz əsgərlərin üzərinə elə bir hücum etdilər ki, onlar təslim olmağa məcbur oldular. Biz əsgərlərə dedik ki, hər kəs vətəninə xidmət etmək istəyirsə, bizim sıralarımıza qoşulsun, istəməyən isə istədiyi yerə gedə bilər. Əlbəttə, biz əsgərlərin bir aylıq maaşlarını ödədik. Əsgərlərin bir hissəsi qaldı, bir hissəsi getdi”.[91]

## Miyanada və Kağızkonanda Demokrat Firqəsinin təşkili

Fədailərin Tehran istismarçılarından azad etdikləri hər bir şəhərdə icra etdikləri birinci iş qarşıda duran vəzifələri həyata keçirmək üçün vilayət firqə komitəsini yaratmaqdan ibarət olurdu. Bu komitə Miyanada Qulam Yəhya Daneşyan tərəfindən yaradıldı. Əkbər Pərəndi özünün “Kağızkonan tarixin keçidində” adlı kitabında Miyanada və Kağızkonanda demokrat firqəsinin təşkil edilməsi haqqında belə yazırdı: “Təbrizdə Azərbaycan Demokrat Firqəsi yaradıldıqdan sonra Qulam Yəhya Daneşyan firqənin yerli komitəsini Miyana şəhərində təsis etdi və Mir Fəfil Məmanini komitənin sədri kimi təqdim etdi. Ona Kağızkonanda da, yerli firqə təşkilatının yaradılmasını tapşırdı. Mir Fazil Kərbəlayi Haşım və Sultanəli Ağkəndi ilə birlikdə Kağızkonana gəldilər. Onlar Came məscidində çıxış etdikdən sonra Kağızkonanda (Kağızçılarda) komitə yaradıldı.

Mir Fazil Ağkənddə yerli firqə komitəsi təşkil ediləndən sonra Toxtamışlı kəndinə yola düşdü. Kağızkonanın xanlarını orada topladı və onlardan tələb etdi ki, əllərində olan dövlət silahlarını

[91] “Demokrat Partiyası Sərabda” - General Qulam Yəhya (1906-2006), Xatirələr. səh. 201.

təhvil versinlər və istəsələr özləri də, komitə firqə təşkilatına daxil olsunlar. Əvvəllər firqəyə müxalifətdə olan Əmir Cəfər Aslani və Hüseynxan Səidli firqəyə daxil oldular. Onlar Xalxalın Kivi rayonuna biri polis rəisi, biri isə rayon başçısı təyin edildilər.

Həmçinin, belə şayiə gəzirdi ki, Aslan Humayun keçmişdə xalqa qarşı etdiklərinin əvəzini ödəmək üçün əmlakının bir hissəsini Miyana Demokrat Firqəsi komitəsinə bağışlamışdı.[92]

## Azərbaycan Milli Məclisində Miyana şəhərindən olan nümayəndələr

Abbasəli Pənbəyi və Hacı Zeynalabdin Rəhimzadə Miyanadan Azərbaycan Milli Məclisinə nümayəndə seçilmişdilər. Abbəsəli Pənbəyi Azərbaycan işğal edildikdən sonra Urmiyada tutularaq şəhid edildi.

## Kağızkonandan qaçmış xanlar Azərbaycan xalqının düşmənlərinin xidmətində

İngilis casusu olan Seyid Ziyaəddin Təbatəbai Azərbaycanın fədailər və xalqın başqa övladları tərəfindən azad olunmasından sonra bütün səylərini öz adamları tərəfindən Azərbaycanda təxribatlar yaratmağa, Azərbaycan rəhbərlərini və xalqın fəal oğullarını aradan götürməyə yönəltdi. Bu məqsədlə o, mərkəzi hökumətin tərəfdarları olan bəzi azərbaycanlılarla Tehranda "Azərbaycanın nicatı cəmiyyəti" adlı bir qurum təşkil etdi. Bu cəmiyyətin fəal üzvlərindən biri ruhani Mirzə Hüseyn Vaiz adında bir şəxs idi. Kağızçılardan qaçmış xanlar da, bu cəmiyyətdə Milli Hökumətə qarşı fəaliyyətlərə başladılar. "Kağızçılar tarixin keçidində" adlı kitabda belə oxuyuruq: "Kağızçılardan olan bir qrup xan Seyid Ziyaəddin Təbatəbainin ətrafında toplaşıb, demokrat firqəsi hökumə-

[92] Əkbər Pərəndi. Kağızkonan tarixin keçidində. səh. 169.

tinə qarşı fəaliyyətlərə başladılar. Bu adamlardan biri də Həsən Midhəd idi”.[93]

## İran ordusu tərəfindən Miyananın işğal olunması

İran ordusu Zəncandan sonra Miyanaya hücum etdi. Şəhər müdafiəçilərini və firqə qüvvələrini məhv etmək üçün ordu ABŞ ordusunun hərbi təyyarələrindən istifadə etdi. Təyyarələr Azərbaycan qüvvələrinin mərkəzlərini bombaladılar. Sonra isə quru qoşunları şəhərə hücuma keçdi. “Ettelaat” qəzeti ordunun necə daxil olması haqqında belə yazırdı: “Bu gün saat 11-də polkovnik-leytenant Məzahirinin komandanlığı ilə şərq hərbi sütunu Miyana əhalisinin sevincləri (!!!) altında şəhərə daxil oldu. Bu hərbi sütun dörd sutka qiyamçılarla vuruşmuşdu. Hacı Seyranda 4 nəfər, Ətcə xalada 12 nəfər, Suleyman bulağında 1 nəfər qətlə yetirilmiş, 70 nəfər yaralanmışdı”.[94]

## Zülfiqarilər və İran ordusu tərəfindən Miyananın qarət edilməsi

İran ordusu tərəfindən Zəncanın işğalı bütün Azərbaycanın işğalı üçün şərait yaratdı və ordu Zəncanın işğalından sonra Miyana şəhərinə hücum etdi. Ordudan irəlidə hərəkət edən Zülfüqarilərin hərbi dəstələrini köməyi ilə Miyana işğal olundu, şəhərdə qətl və qəratlər başladı. Bu barədə “Keçmiş gələcək yolunun çırağıdır” kitabında belə yazılmışdır: “Etimad ediləsi olan gözü ilə görmüş şahidlər şahidlik edirlər ki, Zülfüqarilərin süvariləri Sultan Mahmud Zülfüqarinin komandanlığı altında ordu ilə birlikdə şəhərə daxil oldular. Onlar ordu komandanlığının əmrinə və el başçılarının

[93] Yenə orada, səh. 170.
[94] “Ettelaat” qəzeti, 14.12.1945.

göstərişlərinə əsasən dəstə-dəstə insanların evinə daxil olub, qarət etməyə başlayırdılar".[95]

İran ordusu həmçinin yarı tikili vəziyyətdə olan Miyana kinoteatrını da ələ keçirdi.

## Kağızkonanın Zülfüqarilər, xanlar və İran ordusu tərəfindən işğal olunması

İranın rəhmsiz ordusu işğal etdiyi hər bir yerdə şəhər və kəndlərin qarəti başlayırdı. Kağızçılar da, işğaldan sonra Zülfüqarilər və xanlar tərəfindən qarət edildi. Kağızçıların qarət edilməsi haqqında "Kağızkonan tarixin keçidində" kitabında aşağıdakıları oxuyuruq: "Kağızçılar İran şahənşah ordusu tərəfindən işğal edildikdən sonra onların ardınca Zülfüqarilərin süvariləri Kağızçılara daxil oldular. Onlar fədailərin və onlara bağlı olanların ev və mallarını qarət və talan etməyə başladılar. Onlar əhaliyə bütün zülmləri etdilər. Onlardan sonra qaçmış xanlar Kağızçılara qayıtdılar. Onlar 1325-ci ilin (1946) gəlir vergisini almaqdan əlavə ötən ilin də mülkiyyət gəlirini zor gücü ilə kəndlilərdən aldılar. Kəndlilərə bacardıqları bütün zülm və təhqirləri etdilər".[96]

## Məhəmməd Şikarinin qətlə yetirilməsi

İran ordusu Zülfüqari xanlarının tərəfdarları ilə birlikdə müasir silahlarla Kağızçılara və Miyanaya hücum etdilər. Kağızçı fədailəri bir qədər müqavimət göstərsələr də, lakin əhval-ruhiyyənin olmaması səbəbinə geri oturdular. Bu döyüşlərdə çoxlu miqdarda fədai şəhid oldu. O cümlədən, Məhəmməd Şikari. Əkbər Pərəndi özünün, "Kağızkonan tarixin keçidində" kitabında bu barədə belə ya-

[95] Keçmiş gələcək yolun çırağıdır, səh. 426.
[96] Əkbər Pərəndi. Kağızkonan tarixin keçidində. səh. 147.

zır: “Demokratların geri çəkilmələri zamanı Qızılüzən çayı tərəfdə onlardan bir neçəsi, o cümlədən,Məhəmməd Şikari öldürüldü”.[97]

## Qaniçən mayor Zülfüqarilər ilə birlikdə

Mənşəcə köçəri tayfalardan olan bir nəfər Teymur Bəxtiyar adında zalım və qaniçən mayor Zülfiqarilərlə birlikdə Miyana – Təbriz istiqamətlərində və Marağada çoxlu cinayətlər törətmiş və buna görə polkovnik dərəcəsinə qədər yüksəlmişdi. “Mən və Fərəh Pəhləvi” kitabının müəllifi Bəxtiyar özünün 1325-ci il Azər (noyabr-dekabr 1946) hadisələrindəki iştirakını xırdalıqları ilə aşağıdakı kimi təsvir etmişdir:

“Ordu qüvvələrinin Azərbaycan xalqını məhv etmək üçün Təbrizə və onun ətrafına göndərildiyi “21 Azər” hadisələrində Teymur Bəxtiyar general-leytenant Zərrabinin komandanlığı altında olan batalyonların birinin komandiri idi. O, köçəri olduğundan və bu səbəbdən də cəsarətli və rəhmsiz olduğundan Miyana-Təbriz və Marağa istiqaməti üzrə çoxlu sayda cinayətlər törətmişdir. Demokrat qüvvələrinin təslim olmalarına və şimali Azərbaycana tərəf geri çəkildiklərinə baxmayaraq bu adam müdafiəsiz insanları – kəndli və əkinçiləri demokratlarla əməkdaşlığa görə uydurma ittiham ilə qətliam edirdi. O, öldürdüyü hər kəsi demokratların hesabına qoşurdu. O, xəyali düşmənə yetirdiyi zərərin statistikasını yuxarı qaldırmaq üçün çobanları və əkinçiləri də düşmən adı ilə güllələyirdi.

Bu cinayətlərdə Zülfüqarilər də, mayor Baxtiyarın komandanlığı altında olan qüvvələrə kömək edirdilər. Zülfüqarilər öz torpaqlarının ərazilərini genişləndirmək məqsədilə Bəxtiyarı müdafiəsiz insanları öldürməyə və onları öz tarla və əkinlərindən qovmağa təhrik edirdilər. Necə deyərlər, Bəxtiyar demokrat öldürür, onlar isə öz torpaqlarını genişləndirirdilər. O, bu yürüşlərdə başqaların-

[97] Yenə orada, səh.176.

dan daha çox adamı öldürmüşdü.

O, Tehrana qayıtdıqdan sonra şah tərəfindən mükafatlandırılaraq, polkovnik dərəcəsi aldı. Azərbaycanda tökdüyü qanlara görə qaniçən adı ilə məşhur olan polkovnik Bəxtiyar Kermanşah tank briqadasına komandir təyin edildi ki, öz qəzəbini və qolunun gücünü o regionun qiyamçılarına da nümayiş etdirsin”.[98]

## Miyanaya kollektiv təcavüz

İran ordusu, onun Azərbaycandakı havadarları və yardımçıları işğaldan sonra onlara xəcalət gətirən cinayətlərə əl atdılar və bu işlərlə xarici işğalçıların üzünü ağartdılar. İran ordusu və onun başçıları cinsi təcavüzlərdən azadlıq sevənlərin qadınlarını, firqə tərəfdarlarının övladlarını abırsız etmək üçün istifadə etdilər. Qorxu və dəhşət mühiti yaradıldığından təcavüzlərin bir çoxunun üstü hələ indiyə qədər açılmamışdır. Yaxud, insanlar öz abır-həyasını qorumaq məqsədilə bu barədə fikir söyləməkdən çəkinmişlər. Lakin ilk dəfə kollektiv və qrup halında təcavüz İranda İran ordusu və ordunun tərəfdarları tərəfindən törədilmişdir. Bu barədə “Keçmiş gələcək yolun çırağıdır” kitabında belə yazılmışdır:

“Miyana şəhərində demokrat firqəsinin qadın təşkilatının üzvü olan Əzizə adında hörmətli bir xanımı evindən çıxardıb, şəhər polis idarəsinə apardılar. Şəhər polis idarəsinin qarşısında Allahdan xəbəri olmayan alimə bənzər bir nəfər fətva verdi ki, demokratların canı, malı və namusu halaldır. Buna görə də alçaq və avaralar ordunun himayəsi altında əsir düşmüş bir qadına təcavüz etmək üçün şəhər polis idarəsinin qarşısında növbəyə durmuş və növbə ilə girib, çıxırdılar”.[99]

---

[98] Pəhləvi tarixi, 13-cü cild, səh. 528-529.

[99] Keçmiş gələcək yolun çırağıdır, səh 426.

## Miyananın məşhur şəhidləri

Kapitan Qulam Hüseyn Nasiri. Bu piyada qoşunları kapitanı 1285-ci ildə (1906) Miyanada doğulmuşdu. Demokrat Firqəsinə qoşulduqdan sonra mayor rütbəsinə yüksəldi. O, Təbrizdə Azərbaycan Milli Ordusunun başqa zabitləri ilə birlikdə güllələnmişdir.

## Miyanada edamlar

Miyana. Ordibeheşt ayının 17-18-i (8-9 may 1947), “Ettelaat” qəzeti: “Babur Əjdəri hərbi tribunal məhkəməsində edama məhkum olundu”.[100] “Ettelaat” qəzeti Miyanadakı məhbusların və edam olunanların sayı haqqında belə yazırdı: “Hərbi tribunalın hökmü ilə indiyə qədər qiyamçıların 65 nəfəri həbs edilmiş, məhkəmənin hökmü yerinə yetirilmiş və məhkumlar cəzalarını almışlar”.[101]

# *ƏRDƏBİL*

## Ərdəbilin Milli Hökumət ilə həmrəyliyi

Ərdəbil 1320-ci ilin şəhrivər ayından (1941-ci ilin sentyabrından) sonra nisbi azadlığa malik olan şəhərlərdən biri idi və “mətbuat baharından” o da pay almışdı. “Azərbaycan məsələsi”, dərdini ürəklərində daşıyan Ərdəbil ziyalıları Azərbaycan məsələləri ilə bağlı məqalələri burada yazmağa başladılar.

Demokrat firqəsinin qurulması elan olunduqdan sonra Ərdəbil əhalisi, ziyalılar və siyasətçilər türklərin (azərbaycanlıların) hüquqlarının tərəfdarı olan bu firqəyə qoşuldular. Ərdəbildə Azərbaycan

---

[100] “Ettelaat” qəzeti, 11.12.1947.
[101] “Ettelaat” qəzeti, 21.05.1947.

Demokrat Firqəsinin yerli komitələri yaradılmağa başladı. Professor Cəmil Həsənli Ərdəbildə demokrat firqəsinin yaradılmasının bayram edilməsi haqqında belə yazır: “1945-ci il sentyabr ayının 3-də demokrat firqəsinin yaradılması münasibəti ilə böyük nümayiş keçirildi. Bu nümayişdə əhalinin bütün təbəqələri iştirak edirdi. Nümayişin təşəbbüsçülərindən olan Molla Xəlil İşrağİ əvvəldə elan etmişdi ki, mən Ərdəbil camaatı adından Azərbaycan Demokrat Firqəsinin “doğum gününü” təbrik edirəm və Azərbaycanın istiqlaliyyətini istəyənlərin tərəfindəyəm. Biz öz evimizin ağası olmaq istəyirik”.[102]

Cəmil Həsənli davam edərək, Ərdəbildə demokrat firqəsinin yerli komitələrinin yaradılması haqqında belə yazır: “1945-ci il sentyabr ayının 23-də demokrat firqəsinin Ərdəbil komitəsi formalaşdı. Şəfi komitənin sədri, Covdət, Mir Məsum Kaşani, Mir Murtuza, Məhərrəm Ehsan, Balaş Azəroğlu, Molla Xəlil İşrağİ, doktor Tağızadə və s. müəssislər heyətinin üzvləri seçildilər”.[103]

Azərbaycan müəssislər məclisində Ərdəbildən iştirak edən nümayəndələr aşağıdakı şəxslər idi:

1. Həsən Cövdət (“Cövdət” jurnalının məsul redaktoru).
2. Qüdsi müəllim (ziyalıların nümayəndəsi)
3. Məhəmməd Cəlil (Şahsevənlərdən, Sarıxanbəyli tayfasının ağsaqqalı).
4. Balaş Azəroğlu (Anti-faşist şurasının katibi).

Ərdəbildə Azərbaycan Demokrat Firqəsinin yerli komitəsinin yaradılması, Meşkinşəhərdə və Ərdəbildə hərbi qarnizonların tərksilah edilməsi Tehran hakimiyyətini qorxuya saldı. Hakimiyyət Ərdəbildəki firqə təşkilatını çətinliklərlə üzləşdirmək məqsədilə dindən və şəriətdən sui-istifadə etmək qərarına gəldi. Bu məqsədlə hakimiyyət Ərdəbil ruhanilərini təhrik etməyə başladı və ruhaniləri

[102] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması. səh. 120.
[103] Yenə orada, səh. 119.

demokrat firqəsi ilə mübarizə meydanına göndərdi ki, firqə və onun yerli komitələrini rüşeym halında məhv etsin. Ruhanilər ilk dövrlərdə bir iş görə bilməsələr də, sonralar Azərbaycan İran ordusu tərəfindən işğal olunduqdan sonra Ərdəbil camaatı saray ruhanilərinin firqə əleyhinə apardıqları təbliğat səbəbinə onun ağır əvəzini ödəməli oldular.

Ərdəbildə demokrat firqəsinin təsis olunduğu ilk dövrlərdə İran ordusu və Tehran hakimiyyəti Azərbaycanda Demokrat Firqəsini məhv etmək üçün bütün imkanlardan istifadə edirdilər. Bu səbəblə çox şeydən xəbəri olmayan nadan bir adama ruhani libası geyindirib, firqə ilə döyüşə göndərdilər. Onlar azərbaycanlıların “Molla Puğas” dedikləri Seyid Əhməd Mir Xası milli hökumət ilə mübarizəyə göndərdilər. Baba Səfəri özünün “Ərdəbil tarixin keçidində” adlı kitabında belə yazır: “Azərbaycan Demokrat Firqəsinin yarandığı ilk dövrlərdə mərkəzi hakimiyyət bu hərəkatın zəifləməsinə və ya aradan götürülməsinə səbəb olacaq bütün imkanlardan istifadə etməyə çalışırdı. Buna görə idi ki, hakimiyyət libası və malik olduğu boy-buxununa görə Mir Xası müctəhid alim şəklinə saldı və Mir Xası gücləndirmək üçün bütün imkanlarından istifadə etdi. Ordunun o dövrlərdəki baş qərargah rəisi Azərbaycandakı 2-ci diviziyanın komandanlığına tövsiyə etmişdi ki, demokratlara qarşı təbliğatda ondan istifadə edilsin. Baş nazir isə nazirlər kabinetinin 31.06.1924-cu il (22.09.1945) tarixli iclasının 1623 saylı qərarı ilə Ərdəbilli Seyid Əhməd Mir Xasa büdcədən ayı 5 min riyal olmağa 15 min riyal maaş hədiyyə şəklində 1324-cü (1945-ci) ilin dövlət büdcəsində ödənilməsini nəzərdə tutmuşdu. Bu molla Puğas demokrat firqəsi əleyhinə zəhərli təbliğat aparmaqdan əlavə cihad elan etmişdi. Ərdəbilin böyük tarixçisi Baba Səfəri bu mövzu haqqında özünün “Ərdəbil tarixin keçidində” kitabında belə yazır: “Bu da bir problemdir ki, qədim dərslərdən bir qədərini oxumuş və başına əmmamə qoymuş hər bir nadan və ağılsız başqalarının hətta

namusuna, malına və canına müdaxilə etmək hüququnu özünə verir və bu işləri Allahın və aləmlərin rəhməti adlandırılmış böyük peyğəmbərin adından edir. Sonra da, bu işlərə şəriətin icazə verdiyini elan edir. Lakin o, bunu bilmir ki, islamda mühakimə etmək və hökm vermək ən dəqiq və ən çətin işlərdən biridir və qazı müəyyən edilmiş şərtlərin əldə edilməsinin əhəmiyyətindən əlavə elmi cəhətdən də müctəhid olmalıdır”.[104]

Baş qərargah rəisi Molla Puğasa nəğd pulla köməklərdən əlavə ona Azərbaycan Demokrat Firqəsi ilə mübarizə aparmaq üçün silah da göndərirdi. Ordunun baş komandanı Seyid Əhməd Mir Xası müdafiə etdiyini təkcə sərəncamla məhdudlaşdırmamışdı. O, sonralar general Aryana olmuş polkovnik Mənuçehriyə əmr etmişdi ki, Ərdəbil xanlarının baş xidmətçilərindən birini Tehrana gətirsin. Baş xidmətçi Tehranda baş komandandan pul və silah alaraq öz qüvvələri ilə birlikdə Seyid Əhməd Mir Xasın köməyinə göndərildi”.[2105]

Tehran hakimiyyəti bütün üsullarla Mir Xası qüvvətləndirib, Azərbaycan azadlıqsevənləri ilə mübarizəyə göndərmək istəsə də Mir Xas heç bir iş görə bilmədi və Tehrana qaçıb öz ərbablarının qucağına atıldı. Mərhum Baba Səfəri bu barədə belə yazır: “Firqənin və onun siyasi və idari təşkilatlarının formalaşmasını görən Mir Xas Azərbaycanda qala bilmədi və Tehrana qaçdı. Əvvəlcə onun Tehrana gəlişi dövlət orqanları tərəfindən yaxşı qarşılandı. Lakin, ondan gözlədiklərini ala bilmədiklərinə görə yavaş-yavaş axşamlar Tehranın Sepəh xiyabanında avara-avara gəzən və Azərbaycandan təzə gəlmiş adamlardan xəbərlər toplayan siyasətçilərin zümrəsinə qatıldı”.[106]

Mir Xas Ərdəbili İran ordusu, xanlar və onların yerli tərəfdarları ilə birlikdə Azərbaycanda soyqırım törətdikdən sonra şahın

[104] Ərdəbil tarixin keçidində, 3-cü cild, səh. 102-103.
[105] Keçmiş gələcək yolun çırağıdır. səh. 250.
[106] Ərdəbil tarixin keçidində, səh. 103.

hüzuruna getdi və şah ona nökərçiliyinə görə bir brilyant üzük bağışladı. "Ettelaat" qəzeti bu hadisə haqqında belə yazırdı: "Ağayı Mir Xas Ərdəbili qiyamçılara və Ərdəbildəki demokratlara qarşı mübarizədə göstərdiyi xidmətlərinə görə bu gün səhər saat 10:00-da şahın hüzuruna gəlmək şərəfinə nail oldu və şah tərəfindən bir brilyant üzüklə mükafatlandırıldı".[107]

Həmçinin Mir Mənsur Mənsuri adlı ruhani oğlanları Mir Qulam və Mir Əbdülhüseyn ilə birlikdə Ərdəbildə Mir Xasla əməkdaşlıq edərək mərkəzi hakimiyyətin təhriki ilə demokrat firqəsinə qarşı təbliğatlar aparırdılar. Azərbaycanda milli hökumət qurulduqdan sonra Mir Əbdülhüseyn Tehrana qaçdı. O, Tehranda lazım olan bilikləri və göstərişləri aldıqdan sonra qırğınlar təşkil etmək üçün Azərbaycana göndərildi.

Mir Nəbi Əzizzadə özünün "Muğan düzünün tarixi" kitabında yuxarıda adı çəkilən adamların Azərbaycan xalqını qırmaq üçün Şahsevən tayfaları ilə əməkdaşlıq etmələri haqqında belə yazır: "O, demokrat firqəsinin hakimiyyətinin axırlarında köçəri tayfaların hərbi dəstələri ilə birlikdə əraziyə getdi və fədailərə qarşı müxtəlif döyüşlərdə iştirak etdi".[108]

Qeyd edilməlidir ki, bu iki nəfərin anası 1947-ci ildə şahın Ərdəbilə gəlişi zamanı şahı qarşılayanlar arasında olmuşdur.

## Ərdəbilin qanlı günləri

İran ordusunun Azərbaycana hücum etməsindən sonra avara və başkəsənlər, bəzi xanlar və mülkədarlar firqənin üzvlərinə və tərəfdarlarına qarşı hücumlara başladılar. Onlar rəhmsizcəsinə milli hökumət üzvlərini və tərəfdarlarını qırmağa başladılar. Ərdəbilin tarixində qanlı günlər başladı. Cəmil Həsənli bu barədə "Cənubi

[107] Yenə orada, səh. 103.
[108] Mirnəbi Əzizzadə, Muğan düzünün tarixi, səh. 326.

Azərbaycan və soyuq müharibənin başlanması" kitabında belə yazır: "Yerli irticaçılar və Əmir Mənsur, Xudafəzl Qəhrəman xan və başqaları kimi böyük mülkədarlar fədailərin şəhərdən çıxması xəbərini eşidib İran ordusu gəlməmişdən əvvəl demokrat partiyasının qalıqları ilə haqq-hesabı çürütməyi qərara aldılar. Bu qərarla dekabrın 13-də Ərdəbil demokratlarının qırğını başladı".[3109]

Ərdəbil camaatının qırğınında əli olan şəxslərdən biri də Qafur Məliküttüccari idi. "Ettelaat" qəzeti onun haqqında belə yazırdı: "Ərdəbil diyarında şahsevənlərdən başda 1946-cı il Azər hadisələrində Qafur Məliküttüccarinin əhəmiyyətli iştirakı olmuşdur. O, Ərdəbildə demokratlara qarşı qiyam edib, şəhər polis idarəsinə hücum etmiş ilk şəxslərdən idi".[110]

"Atəş" qəzeti isə Ərdəbilin süqutu və xanların adamlarının Ərdəbildəki cinayətləri haqqında belə hesabat verirdi: "Əldə olunan xəbərlərə görə Ərdəbilin süqutu prosesi aşağıdakı kimi olmuşdu:- Şahsevənlər şəhərə daxil olduqları gün güclü xanlardan biri olan Qasım xan Göyərçinli bir neçə nəfərlə polis idarəsini və zindanı təhvil almaq üçün polis idarəsinə müraciət edir. İdarəyə daxil olduqda demokratlar tərəfindən qapıya qoyulmuş gözətçi Pur Qasım xanı tərksilah edir. Yoldaşları da əmrə tabe olurlar. Bir saatdan sonra bir dəstə adam polis idarəsinə hücum edərək adı çəkilən gözətçini bir neçə nəfərlə birlikdə qətlə yetirirlər. Sarı İsmayıl, ustad Vəli Salmanı da həmin gün öldürdülər. Sonra "Covdət" mətbəəsi yandırıldı. "Yeddi Fərsəxdə" bir nəfər Şahbaz adında adamı da tutub öldürürlər".[111]

Ərdəbildən olan böyük təhqiqatçı Baba Səfəri "Ərdəbil tarixin keçidində" adlı kitabında Ərdəbil qazisi Rəhim Moinin dilindən Tehran hakimiyyətinin havadarlarının cinayətləri və onlar tərəfin-

[109] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması. səh. 525.
[110] "Ettelaat" qəzeti, 09.02.1947.
[111] "Atəş" qəzeti, 28.12.1946.

dən öldürülmüşlərin sayı haqqında belə yazır: “21 Azər günü öldürülənlərin sayı ola bilsin ki, 35 nəfərdən çox idi. Mən Əbdülməlik ilə Mirzə Həbib hamamı arasındakı təxminən 70 metrlik fasilədə üstlərini qar örtmüş üç cəsədi gördüm. Cəsədlərin qarın altından yalnız əlləri və ayaqları görünürdü. Onun dediyinə görə axşam küçə və xiyabanlarda qalmış qətlə yetirilmişlərin cəsədləri itlər tərəfindən parça-parça edilmişdi. Həmin günün səhəri onların cəsədlərini Balıqlı çayının sahilinə topladılar, sonra isə qəbiristanlardan birində dəfn etdilər”.[4112]

Tehran hökuməti Azərbaycanda demokrat firqəsi hakimiyyəti ələ aldıqdan sonra saraya bağlı olan və Azərbaycan xalqının düşmənləri olan ruhanilərdən və dinin özündən çoxlu sui-istifadələr etmişdi. Hakimiyyət çalışmışdı ki, onların bir çoxlarının etdikləri fətva və bəyanatlardan Azərbaycan Milli Hökumətinə qarşı istifadə etsin. Savadsız və dünyadan xəbərsiz olan ruhanilərdən birinin verdiyi fətvalardan biri qətl haqqında idi. Tehran hakimiyyəti bu məsələdən çox məmnun idi. “Qətl” fətvasının mənası bu idi ki, bunlar (demokratlar) – bütün pisliklərin mənbəyidirlər və məhv olmalıdırlar. Mərhum Baba Səfəri Ərdəbilin qanlı günləri haqqında davam edərək belə yazır: “Həmin gün və ondan sonrakı günlərdə başkəsənlərin şüarı “qətl” şüarı idi. Bu başkəsənlərdən biri hətta, yoldan keçən tanımadığı bir adama bu kəlməni demiş olsaydı ən qısa bir zamanda başqaları bilməmiş və tanımamış həmin adamın üzərinə tökülüşürdülər və öz hücumlarından o vaxt əl çəkirdilər ki, bu yazıq insanın cansız bədəni qarın üzərinə yıxılmış olsun. Çox vaxt elə olurdu ki öldürüldükdən sonra adamın kimliyi aşkar olanda günahsız şəhidin qatilləri heç təəssüf belə etmirdilər. Şahidlərdən biri deyirdi ki, birinin soyadı Daraqçı idi və firqənin üzvlərindən hesab edilirdi. Həmin gündə bir başkəsən onun yerinə

[112] Ərdəbil tarixin keçidində, 3-cü cild, səh. 117.

peşəsi daraqçı olan bir adama hücum edib, ağır zərbələr ilə həmin günahsız adamı öldürmüşdü”.[113]

Ağayi Rəhim Moin davam edərək deyirdi: “Qətlə yetirilmişlərin cəsədlərinin çoxluğundan qar həm saf, həm də rəngli idi. Havanın soyuqluğu mənfi 25 dərəcə olduğundan küçə keçidləri möhkəm qırmızı asfalt kimi görünürdü”.[114]

Azərbaycanda soyqırımın və qırğınların tərəfdarı olan anti-Azərbaycan mövqeli “Ettelaat” qəzeti cümə günü 22 azər 1325-ci il (13.12.1946) haqqında yazırdı: “Bu gün səhər insanlar dəstə-dəstə xainlərin və vətən satqınlarının cəzalandırılmasına tamaşa etmək üçün dünya boyda olan vətənpərvər sevincləri ilə birlikdə evlərindən çıxırdılar. “Ərdəbilin saxta qubernatoru Azərbadeqan və polis rəisi Pur Rəsuli qayda-qanunu qorumaq üçün yenicə zabit və serjant dərəcələri verilmiş bir neçə nəfər xain polis nəfərləri ilə birlikdə əllərində tüfəng və tapança küçələrə çıxmışdılar. Birdən gözlənilmədən insan seli firqə vilayət komitəsinə, “Covdət” mətbəəsinə, ticarət evinə, şəhər komitəsinə, Məhəmməd Nəvid İsmayılın və başqa bir neçə nəfərin evlərinə hücum etdilər və axtarışlar nəticəsində ələ keçmiş altı nəfəri öldürdülər.

Xain Şükrulla xan və vətənsiz Goruşlü Vəli öldürülənlər arasında idilər. İnsanlar hissiyyata qapılaraq öldürülmüşlərin ayağına ip bağlayıb küçə və xiyabanlarda gəzdirirdilər.

Əhali gözətçilərin və fədailərin silahlarını ələ keçirib, Qəhrəman adlı bir nəfərin rəhbərliyi ilə şəhər polisi təşkil etdilər”.[115]

“Ettelaat” qəzeti 14 dekabr 1946-cı ildə baş vermiş hadisələr haqqında əlavə olaraq belə yazırdı: “Camaat hərbi qüvvələri gözləyirdilər. Aralarında Məhəmmədağa Məzluminin olduğu 5-6 nəfər xaini qətlə yetirdilər.

---

[113] Ərdəbil tarixin keçidində, səh. 118.
[114] Yenə orada, səh. 118.
[115] “Ettelaat” qəzeti, 11.01.1947.

Demokrat firqəsinin üzvləri olan qubernator və şəhər polis rəisi dekabr ayının 13-dən (22 azər) həbsdə idilər. Dekabr ayının 16-da (25 azər) Xalxal yolu ilə mərkəzi hakimiyyətə tabe olan şəhər əhalisindən və süvarilərdən ibarət təxminən 50 nəfərlik süvari dəstə Ərdəbilə daxil oldular”.[5116]

“Ettelaat” qəzetinin “vətənpərvər” adlandırdığı adamlar əcnəbilərdən asılı olan mərkəzi hakimiyyətin Ərdəbilə göndərdiyi şəxslər idilər. Bu adamlara Azərbaycanın milli mübarizlərini və onların ailələrini qırmaq tapşırılmışdı.

“Ettelaat” qəzetinin müxbiri Ərdəbildə öldürülənlərin sayı haqqında özünün dey ayının 20-si (10.01.1947) tarixli xəbərində aşağıdakıları yazırdı: “İndiyə qədər əldə etdiyim məlumatlara əsasən azər ayının 22-dən 26-sına qədər olan müddətdə (13-16 dekabr) şəhər əhalisindən 42 nəfər demokratı və fədaini şəhərdə daşla, ağacla və tüfənglə öldürmüşlər.

Bu gün axşamçağı şəhər zindanına baş çəkdim. Demokrat və fədai olaraq 30 nəfərin həbs edildiyini gördüm. Bunların arasında ordunun fərari zabitləri olan leytenant Şeyxi, baş leytenant Bəhrami, kiçik leytenant Danışvər, Ərdəbilin qubernatoru Xəlil Azərbaqdan, şəhər polis idarəsinin rəisi Pur Rəsuli və çoxlu cinayətlər etmiş İdris adlı mühacir var idi. Mən onların şəklini çəkdim”.[6117]

İndi isə, qatilləri “vətənpərvər” adlandıran qəzet müxbirinin dey ayının 27-də (16 yanvar) həmin o “vətənpərvərlərin” Təbrizdə törətdikləri cinayətlər və qarətlər haqqındakı hesabatına diqqət yetirək. Müxbir bu hesabatı general-mayor Zərrabiyə göndərmişdi. Müxbir bu hesabatda Ərdəbil camaatının şikayət və dərdlərini Azərbaycandakı hərbi qüvvələrin komandanı general-mayor Zərrabiyə və Azərbaycanın ostandarı Mənsura təqdim etmişdi: “Cənab general-mayor Zərrabi son dərəcə məhəbbət və səmimiyyətlə Astara və Ərdəbildəki müşahidələrim haqqında məndən məlumat istədi. Mən

---

[116] “Ettelaat” qəzeti, 11.01.1947.
[117] “Ettelaat” qəzeti, 12.01.1947.

dedim:- Məntəqə əhalisinin və kənd (el) əhalisinin bir hissəsinin əsas şikayəti bəzi adamların əhalinin malına və canına etdiyi təcavüzdən ibarətdir. Məsələn, Şahsevənli Qəhrəman bəy bir neçə gün bundan qabaq Nir kəndində əhalinin 6 nəfərini namussuzluqda günahlandırıb, Ərdəbilin hərbi orqanlarına xəbər vermədən qətlə yetirmişdir. Həmçinin, dövlətə aid 400 qab yağı Rəsul Bahadır və Məhəmməd Motəmedi adlı şəxslər yağ dəllalı olan Baxşəli vasitəsilə satmışlar. Ərdəbildə ordu ilə əməkdaşlıq edən bir neçə adam son zamanlar Xal-xal maliyyə idarəsinə aid olan 400 min riyalı ələ keçirmişlər. Camaat həmçinin danışır ki, Ərdəbil fəhlə həmkarlar təşkilatının kassasında olan pulları Tağı Vəkili adlı adam götürmüşdür. Bunları sübut edən kifayət qədər sənədlər buraya gəlmiş maliyyə nazirliyinin müfəttişlərindədir. Deyilənə görə, onlar bu barədə Tehrana xəbər verəcəklər. Ümumiyyətlə, Ərdəbil əhalisi Şahsevən tayfalarından olan adamların bu kəndlərdə silah yığmalarından çox narahatdırlar”.[118]

## “Cövdət” mətbəəsinin yandırılması

O dövrün məşhur çap maşınları ilə təchiz edilmiş “Cövdət” mətbəəsi orduya yaxın olan qüvvələr tərəfindən yandırıldı.

## Ərdəbil qırğınlarında bəzi şahsevənlərin rolu

Şahsevən tayfalarının bir hissəsi Ərdəbil və Meskinşəhr ətrafında məskunlaşmışlar. Milli şüurun azlığı və maddi mənafe səbəbinə onların bir hissəsi xaricilərdən asılı olan hakimiyyət ilə əməkdaşlıq etdilər. Rza şahın bir zamanlar onları əzdiyinə baxmayaraq, onlar Tehran hakimiyyətinin yalan təbliğatına uyaraq hakimiyyətin tərəfinə keçmiş və Azərbaycan Milli Hökumətinə qarşı mübarizəyə

[118] “Ettelaat” qəzeti, 19.01.1947.

qalxmışlar. Şahsevənlərin bəzi tayfalarının Azərbaycan Milli Hökuməti ilə əməkdaşlıq etmələrinə, hətta Azərbaycan Milli Məclisinə nümayəndələr göndərmələrinə baxmayaraq, Şahsevən elinin başqa tayfaları Azərbaycan Milli Hökumətinə qarşı müxalifətdə durdular. Onlar Ərdəbildə və başqa şəhərlərdə iğtişaşlar törətməklə regionun asayiş və təhlükəsizliyini pozmaqla məşğuldurlsr.

Onların bəziləri Ərdəbildə qala bilmədikdə və iğtişaş törətmək imkanlarını əldən verdikdə Tehrana getdilər və İran ordusunun köməyi ilə ordudan əvvəl yenidən Ərdəbilə hücum etdilər. Ərdəbildə cinayətlərin çoxunu məhz bu adamlar törətdilər. Hətta, Azərbaycan işğal edildikdən sonra şahsevən tayfa başçıları şahın əlini öpmək üçün Tehrana getmişdilər. “Ettelaat” qəzeti bu barədə belə yazırdı: “Bu gün Şahsevən tayfalarının böyük başçılarından olan ağalar Mir Aslan Hatəm bəy və Fəzlullabəy Təbrizə doğru hərəkət etdilər və Bəyli şahsevən kəndinin başçısı Əli Guşad Məşhədə ziyarətlə şərəfləndi”.[119]

Bundan əlavə ordu qərargahı şahsevənlər barəsində belə bir bəyanat yaymışdı: “İgid Şahsevən tayfalarının bir il yarım ərzində hücumlara və məhrumiyyətlərə fədakarcasına dözmələri başqa tayfalarla qarışdırılmamalıdır. Bu igid və azad insanlar yayda və qışda canlarını dişlərinə tutaraq ölkənin istiqlaliyyətini təhlükəyə salmış avantüristlərlə döyüşmüşlər, onlara müqavimət göstərmiş və çoxlu tələfat vermişlər. Bu adamların əməllərini və etdikləri işləri qızıl xətlə ölkəmizin istiqlal tarixinə yazmaq lazımdır. Hamının orduya ehtiram və sitayiş gözü ilə baxdığı bu gündə igid və dilavər Şahsevən tayfalarını diqqətdən kənarda qoymaq lazım deyildi. Bu tayfa ordu ilə çiyin-çiyinə bütün məhrumiyyətlərə dözmüş, müqavimət göstərmiş, lakin bu tayfanın nəzər və iradəsində heç bir dəyişiklik əmələ gəlməmişdir. Bu igid tayfa, bu qəhrəman adamlar

[119] “Ettelaat” qəzeti, 22.02.1947.

bütün xalq və ölkədə yaşayanlar tərəfindən təqdir və tərif olunmalıdırlar”.[120]

## İran ordusunun Ərdəbilə daxil olması və qırğınların yenidən başlanması

İran ordusu Ərdəbilə daxil olduqdan sonra yenidən xalqın qətliamı başladı. İran ordusunun qarətçiləri şəraiti əlverişli görüb xalqın malını və var-dövlətini qarət etməyə başladılar. Onlara verilmiş icazənamələr qarətçilərin əl-qollarını tamamilə açmışdı. O cümlədən, çoxlu sayda cinayətlər, qarətlər günahsız insanların mühakimə edilmədən və günahları sübut edilmədən öldürülməsi baş alıb getməkdə idi.

Mərhum Baba Səfəri İran ordusunun Ərdəbilə daxil olması haqqında belə yazırdı: “Ordu hissələri 21 azərdən bir həftə sonra Qaflankah tərəfdən Ərdəbilə çatdı. Bu gecikmənin səbəbini zahirdə qışın sərtliyi və qarın çoxluğu ilə əlaqələndirdilər. Lakin, bəzi məlumatlı adamların dediyinə görə yubanma ona görə qəsdən edilmişdi ki, firqə rəhbərləri yerli başkəsənlər tərəfindən cəzalandırılsınlar və mərkəzi hakimiyyət bütün dünyaya “Azərbaycan xalqı firqə və milli hökumətlə razı deyildirlər”- kimi bəyanatını vermək üçün şahidlər əldə etsin (“Ərdəbil tarixin keçidində”, səh. 119)[121]

Mərhum Baba Səfəri davam edərək yazırdı: “Ordunun daxil olması ilə əhali bir daha yeni çətinliklərlə üzləşdi. Meyarı və mənbəyi dəqiq bilinməyən həbslər başladı. Zindan həbs edilənlərlə dolmuşdu. Bir gün əvvəl ordunun gəlməsi münasibəti ilə sevinənlərin çoxu öz şəhərlilərin uydurulmuş və yalan ittihamları ilə həbs olunmuşdular. Bu arada zabitlər və bu işlərdə əli olan başqa adamlar haqqında söz-söhbətlər yayıldı. Müttəhimlərdən və həbs edilənlərdən zorla pul yığılması xəbəri hər yana yayıldı. O

[120] “Ettelaat” qəzeti, 14.12.1946.
[121] Ərdəbil tarixin keçidində, səh. 121.

dövrdən qalmış adamların dediklərinə görə zabitlərin bəzisi bu işdə xüsusi hərislik göstərib əllərindən gələni edirdilər. Təəssüf gətirən hal o idi hərbi sütunun komandiri polkovnik Bayandur da bu məsələdən kənarda qalmamışdı. Onların sözlərinə görə onun tərəfindən bu iş üçün vasitə də, tapılmışdı. Onlar bu vasitəni İbrahimabad məhəlləsində yaşamış və sonralar Gilana köçərək, bu vilayətdən getmiş “ləhzə İsmayılın” adı ilə adlandırmışdılar”.[122]

## “Tehran-e mosəvvər” jurnalının Ərdəbildən xüsusi reportajı

“Tehran-e mosəvvər (Şəkilli Tehran) jurnalı, No 192, cümə günü, 1325-ci ilin 2 isfənd ayı. (21.02.1947), səh.15.

Azərbaycana səfər haqqında reportaj – “Tehran-e mosəvvər” jurnalı kapitan Ədib Əmininin qardaşı Davud Əmininin göndərdiyi reportajı nəşr etmişdir. Həmin reportaj aşağıda olduğu kimi verilir:

“21 azər tarixindən 26-a qədər (12-17 dekabr) hərbi sütun Ərdəbilə daxil olmuşdur. Dursun Xacə tayfasından olan Qəhrəman bəy Yamçı beş gün Ərdəbil polis idarəsinin rəhbəri olmuşdur və təəssüflər olsun ki, avantüristlərin (firqəçilər nəzərdə tutulur) evlərində öz xeyrinə çoxlu qarətlər etmişdir. O cümlədən, avantüristlərdən biri olmuş Sarı adı ilə məşhur İsmayılı tutub, üç gün evində həbsdə saxlamışdır və onun at axurunda gizlətdiyi 50 min tümənlik qızıl və lirəsini ondan alaraq mənimsəmişdir. O, ondan daha 50 min tümən pul alaraq 24 azər günündə onu güllələmişdi”.

Lakin iş elə gətirdi ki, qoşunlar Ərdəbilə daxil olduqdan sonra Qəhrəman bəy Yamçı xidmətlərinə görə general-mayor Bayandur tərəfindən Ərdəbil və Sərab arasındakı kəndləri tərkisilah etmək üzrə məmur təyin edildi. “O, əhalidən yığdığı silahları öz tüfəngçilərinə payladı. O, hətta zorla kəndlərdən pul və atlar da yığmışdı. Hər şeydən pisi o idi ki, ordunun Ərdəbildə yerləşdiyi dey ayının

[122] Yenə orada, səh. 121.

25-də axşam (15 yanvar 1947), sərəncama əsasən heç bir qeyri-hərbi şəxsin başqalarının canına malına və namusuna təcavüz edə bilmədiyi bir vaxtda Qəhrəman bəy Yamçı Nir şəhərində hərbi hakimiyyət elan edərək, kəndlilərdən olan altı nəfəri Niri Baradadi deyilən yerlərdə güllələdi. Yayılan məlumatlara görə qətlə yetirilmişlər avantürist (firqəçi) deyildilər. Ən dəhşətlisi isə o idi ki, onlar mühakiməsiz, məhkəmənin hökmü olmadan güllələnmişdilər. Maraqlı məsələ bu idi ki, Ərdəbildə 6 nəfərin öldürülməsi hərbi general-qubernatorluq və jandarmeriya tərəfindən təhqiq və təqib olunmağa başlamışdır və bu barədə cinayət işi açılmışdır. Lakin bu əməli törədən vətənpərvər kimi Tehrana göndərilmiş və medalla təltif olunmuşdur”.[123]

## Səmərin kəndlərində qətliamlar

Təkcə Ərdəbilin Səmərin kəndlilərinin qətliamı kifayət edir ki, 1325-ci ilin azər ayında (1946-cı il noyabr-dekabr ayında) İran ordusu tərəfindən Azərbaycan xalqının qırılması soyqırımı kimi tanınsın. Belə ki, Səmərin kəndinin 17 sakini İran ordusu Ərdəbilə gəldikdən sonra ordu komandiri general-mayor Bayandurun xəbəri ola-ola Ərdəbildə faciəli şəkildə qətlə yetirildilər. Davud Əmini “Tehrani müsəvvər” jurnalında “Azərbaycan səfərindən ərməğan” adlı yazısında bu qətliam haqqında belə xəbər verirdi: “Dey ayının 14-də (4 yanvar 1947) əvvəlcədən general-mayor Bayandur tərəfindən Ərdəbilin 3 fərsəxliyində yerləşən Səmərin kəndinə göndərilmiş bir nəfər zabit və bir neçə əsgər bu kəndin əhalisinin 40 nəfərini Meiskinşəhr qarnizonunun zabitlərinin və kapitan Əmininin qatilləri adı ilə tutub şəhərə gətirdilər. Bu adamları tutub gətirmiş zabit hərbi qubernator - polkovnik Əminin yanına gedib, tutulmuşların 17 nəfərini öldürməyə icazə istəmişdi. Polkovnik

[123] “Tehran-e mosəvvər” jurnalı, No 192, 21.02.1947, səh.15.

Əmini zabitin dediklərindən bərk təəccüblənərək deyir ki, mənim və sizin hətta bir nəfəri belə öldürmək haqqında hökm verməyə səlahiyyətimiz yoxdur. Məhkəmə təşkil olunmalıdır. Məhkəmədə bu adamların xəyanətkar olmaları sübut olunsa, əlbəttə ki, onlar məhkəmənin hökmü ilə öldürüləcəklər. Bu zabitlər çox israr edirlər ki, hərbi qubernator 17 nəfərin ölüm hökmünü versin. Bundan sonra işin necə baş verməsi məlum deyildir. Zabitlər general-mayor Bayandurun icazəsi iləmi, yoxsa onun icazəsi olmadan bu 17 nəfəri ölkədə mövcud olan qanunlara əks olaraq öldürmüşlər. Onların meyitləri 24 saat yerdə qalmışdı.[1] Hadisə araşdırıldıqdan sonra və məsul adamların çirkin bir iş gördüklərinə və məhbuslarla qanunsuz rəftar etdiklərinə görə Ərdəbil jandarm batalyonunun komandiri kapitan Əfşar və Aslan İsalu dərhal Səmərinə ezam olunmuşlar ki, qətlə yetirilmişlər haqqında cinayət işi düzəltsinlər. Onlar işi elə göstərmək istəmişlər ki, guya bu 17 nəfər əsgərlərin əlindən qaçmaq istəmiş və əsgərlər onları güllə ilə vurmuşlar. Hətta, bu şəxslərin öldürülməsi zamanı mərhum kapitan Ədib Əmininin Mənsur adlı 5 yaşlı oğlu (Ədib Əmini Miskinşəhr qarnizonunda öldürülmüşdü) guya həmin yerdə olmuşdur. Bu məsum və günahsız uşağın əlinə hətta bir xəncər də vermişdilər. Onlar kiçik yaşlı uşağı yalana məcbur etmişdilər. Əgər bu belədirsə, tutulmuşların qaçmağı həqiqətə uyğun deyildir: Kəndlilər briqada komandirinin (general-mayor Bayandurun) əmri ilə qətlə yetirilmişdilər.

Məgər ölkəmizin mövcud qanunları icazə verirmi ki, insanları yalnız guya xatalı olduqlarına görə rəsmi məhkəmədə onların təqsiri sübut edilmədən təhlükəsizliyi və asayişi təmin etməli olan bir orqan tərəfindən qətlə yetirilsinlər? Mən bilmirəm bu məsələləri necə bir-birindən ayırmaq lazımdır. Lakin bu qədər bilirəm ki, general-mayor Bayandur öz şəxsi mənafeyini güdən və cibini doldurmaqdan başqa heç bir fikri olmayan şəxslərin əqidə və fikirlərinə uymuşdur. Bu iş ciddi qəbul edilsə, ordunun rəsmi məhkəmə orqanları tərəfindən araşdırılmalıdır və mütləq

araşdırılacaqdır. Onlar bilməlidirlər ki, Tağı və Haşim, vəkililər və başqa bir neçə nəfər bu cinayətə şərik olmuşlar”.[124]

## Səmərin qətliamı Baba Səfərinin kitabında

Mərhum Baba Səfəri “Ərdəbil tarixin keçidində” adlı kitabında Səmərin qətliamı haqqında belə yazır: “Səmərin kəndindən olan on yeddi nəfəri kollektiv şəkildə güllələbaran etdilər. Bunları günəş batan zaman şəhərin kənarında məşhur “Ağa dəyirmanı” adlanan yerin yaxınlığında sıraya düzdülər və bir-bir onlara qaçmaq əmri verdilər. Fasiləsiz atəşlə onları arxadan vurub edam etdilər. Ərdəbildə özünü, atasını, anasını heç kəsin tanımadığı Rəzzaq adlı quldurun birisi, qırmızı çəkməsində yerləşdirdiyi bıçağı çıxardıb hələ sağ olan bu adamların başlarını kəsdi və bundan sonra “başkəsən Rəzzaq” adı ilə məşhurlaşdı. Bu adamların meyitləri səhərə qədər elə orada qarın üzərində qaldı. Səhər, günəş çıxmamışdan əvvəl onların Səmərindən gəlmiş adamları meyitləri atlarla kəndə aparıb orada dəfn etdilər”.[125]

## Ərdəbildə kütləvi həbslər

İran ordusunun Azərbaycana hücumundan sonra Azərbaycan xalqının mübariz oğullarının çoxu mərkəzi hakimiyyətin və ordunun tərəfdarları tərəfindən Ərdəbildə həbs edildilər. Həbs edilənlərin çoxu mühakiməsiz edam olundular. Onların çoxu küçə və xiyabanlarda Tehran hakimiyyətinin adamları tərəfindən şəhid edildilər. Ərdəbildə olan “Ettelaat” qəzetinin müxbiri Ərdəbildə həbs olunanlar haqqında bu xəbəri qəzetə göndərmişdi: “Fədailərin qərargah rəisinin həbs edilməsi. Ərdəbil fədailərinin qərargahı rəisi Mayor Məsiha Fazeli və ona tabe olanlar və fədailərin siyasi, rəh-

[124] “Tehran-e mosəvvər” jurnalı, No 193, 10.03.1947, səh. 8.
[125] Ərdəbil tarixin keçidində, 3-cü cild, səh. 122.

bəri həbs edilib, zindana təhvil verildilər. Firqə təbliğatçılarından olan və dəftərxana sahibi olan Şeyx Həsən Fazeli hələ gizlənməkdədir”.[126]

“Ərdəbildə daha iki demokrat həbs olundu”.- “Ettelaat” qəzetinin Ərdəbildəki müxbiri. 12 bəhmən (1 fevral) sayı.

Ərdəbil briqadasının komandiri general-mayor Bayandurun yerinə təyin edilmiş Təbrizin hərbi qubernatoru polkovnik Batmanqılınc şəhərə daxil oldu. Onun heyətində olan polkovnik Ənsari müfəttiş vəzifəsində gəlmişdir. Vəkili – poçt, teleqraf və telefon idarəsi rəisi, Əfşar Qasımlı – maliyyə rəisi, Dəvanlı – “Kənd təsərrüfatı bankı”nın rəisi vəzifələrinə təyin olunmuşlar. Polis idarəsi rəisi vəzifəsi çox məsuliyyətli və həssas olduğuna görə polis idarəsinin hələlik rəisi yoxdur. Başqa idarə rəisləri də, hələ gəlməmişylər. Fədailərin qərargah rəisi və Ərdəbilin siyasi rəhbəri Fazeli dünən məmurlar tərəfindən həbs edilmişdir. Adı çəkilən şəxs əvvəllər statistika idarəsinin rəisi olmuşdur.

Şəhər ətrafı firqə komitəsinin sədri və demokratların təbliğat idarəsinin məsul üzvü olan Rəhim Yusifli də həbs olundu.

## Cövdətin Ərdəbildə həbs olunması

Demokrat firqəsinin fəallarından olan və Ərdəbildə “Cövdət” qəzetinin müdiri işləmiş Cövdət və demokratların hakimi olmuş doktor Əli Əkbər Şəfanecat həbs olundular.

## Beş yüz nəfər demokratın zindana salınması

İndiyə qədər təxminən beş yüz nəfər demokrat tutulub, zindana salınmışlar. Hərbi tribunal müttəhimlərin işlərini yoxlamaqla məşğuldur. Lakin hələlik qəti hökm verilməmişdir.[127]

[126] “Ettelaat” qəzeti, 13.02.1947.

## Behşəhrin hərbi tribunalı

Ərdəbil əhalisi başqa şimal şəhərlərində də təqib olunaraq, tutulurdular. Hərbi tribunal Behşəhrdə Ərdəbil əhalisindən iki nəfəri tutaraq, mühakimədən sonra məhkum etmişdir. Bunlar aşağıdakılardır:

1. Məhəmməd Ağazadə. Ərdəbil əhalisindən olan mühacir ölkənin təhlükəsizliyinə qarşı silahlı qiyam cinayəti ilə yeddi il həbs cəzasına məhkum olunmuşdur.

2. Abı Səttar Ərdəbil əhalisindən olan mühacir.[128] Ölkənin təhlükəsizliyinə qarşı silahlı qiyam cinayəti ilə yeddi il həbs cəzasına məhkum edilmişdir.

## Yoxlama komissiyası Ərdəbildə

Azərbaycanda soyqırım başlandıqdan və xeyli insanın həbs edilməsindən sonra hər bir şəhərdə "bir araşdırma komissiyası" təşkil olundu. Bu komissiyaların işi cinayətləri araşdırmaqdan ibarət idi. Ərdəbildə də, şəhərin inanılmış və maarifçi adamlarından ibarət belə bir komissiya yaradılmışdı. Bu barədə Baba Səfəri belə yazır: "Həbs edilənlərin həddindən çox olması insanların şikayət etmələrinə səbəb oldu. Bu səbəbdən şəhər maarif idarəsi tərəfindən bir komissiya təşkil olundu ki, həbs edilmişlərin cəzalarını dərəcələrə, yaxud təbəqələrə bölsünlər. Bu komissiyanın çoxlu iclasları oldu və şikayətlərə baxıldı. Lakin, ümumiyyətlə günahsız şəkildə həbs edilmişlərin düyünə düşmüş məsələsində sürgünə üstünlük verildi və yaranmış şəraitin təsiri altında həbs edilənlər Ərdəbildən sürgünə göndərildilər".[129]

---

[127] Ettelaar" qəzeti, 05.02.1947.
[128] 1930-cu illərdə Şimali Azərbaycandan İrana gəlmiş adamlara "mühacir"deyirdilər.
[129] "Ettelaat" qəzeti, 07.02.1947.

## Ərdəbilin məşhur şəhidləri

Cəlayi Hüseyn İbrahim oğlu Şəmsi tarixi ilə 1282-ci (1903-cü) ildə Ərdəbildə bir pinəçinin ailəsində dünyaya gəlmişdi. O da, başqa həmyaşıdları kimi uşaqlığında və cavanlığının ilk çağlarında şiddətli məhrumiyyətlərlə qarşılaşmışdı. Məhrumiyyətlərə baxmayaraq bir müddət mədrəsədə oxumaq imkanı əldə etmişdi.

Təhsili tərk etdikdən sonra Meşkinşəhrdə kiçik mağaza açmağa məcbur olur və bu yol ilə dolanışıq əldə edirdi. Cəlayi gözəl xəttinə, mətləbi gözəl bəyan etdiyinə görə Meşkinşəhr və ətraf kəndlərin əhalisi arasında qələmi xoş olan insan kimi məşhurlaşır. O, əhalinin dilindən lazım olan məqamlara ərizə və şikayətlər yazırdı və bununla insanların həyat və məişətləri ilə tanış olurdu.

O, insanların dilindən yazdığı şikayət və ərizələrdə xanların və onların mübaşirlərinin qarət və özbaşınalıqlarından söz açırdı. Axırda insanların onun mağazasına tez-tez gediş-gəlişi yerli orqanları şübhəyə saldı. O, Meşkinşəhr polkunun komandiri Hüseyn Xədivi tərəfindən təqib olunaraq, həbs edildi.

O, bir müddət həbsdə qaldıqdan sonra Biləsuvara sürgün edildi. Sürgündə olarkən məktub və şikayətlər yazmaqla həbs və sürgün olunmağına etiraz edir. Lakin yazdıqlarına heç bir cavab almır. O, Biləsuvarda da kəndlilər arasında fəaliyyətə başlayır. Onların vəziyyətləri və məişətləri ilə yaxından tanış olur. 1310-cu ildə (1931-ci ildə) Rza şah qanununun qara maddəsinə əsasən Təbrizdə 8 ay müddətinə həbs edilir. Bundan sonra o, hərbi tribunala göndərilir. Lakin, hərbi tribunalda bəraət qazanır. 1941-ci ildən sonra İran Tudə partiyasına daxil olur və Meşkinşəhr partiya təşkilatının katibi seçilir. 1945-ci ildə demokrat firqəsi təşkil olunduqdan sonra firqə ilə birləşir və “21 Azər hərəkatı”nın ən şüurlu fəallarından birinə çevrilir. Milli Hökumət qurulduqdan sonra onun təcrübəsi və fəaliyyəti nəzərə alınaraq mahal əncüməninin üzvü seçilir. O, eyni

zamanda Meşkinşəhr firqə təşkilatı sədrinin müavini vəzifəsini də öhdəsinə götürür. 1946-cı ildə mərkəz qoşunlarının Meşkinşəhrə daxil olmalarından sonra həbs edilir və nəzarət altında Ərdəbil zindanına göndərilir. Bir müddət taleyi müəyyən edilmədən zindanda qalır. 1947-ci ildə məhkəməyə aparılmaq üçün zindandan çıxarılır. Məhkəməyə gedən yolda o zamankı Milli bağın qarşısında başçıları Rəsul Səmimi adında bir şəxs olan rejimin bir dəstə quldur və başkəsəni tərəfindən Hüseyn Cəlayi qolları bağlı halda və polis məmurlarının gözləri qarşısında öldürülür.

Bu hadisədən sonra Rəsul Səmimini Hüseyn Cəlayini öldürdüyünə görə həbs edirlər. Onu Tehranın cinayət məhkəməsində mühakimə edirlər. Lakin, cinayət məhkəməsi aşağıdakı hökmü verir: “Öldürülən şəxs Hüseyn Cəlayi demokrat təşkilatının sədr müavini idi. Buna görə də qatilin əməlinə göz yummaq olar!”

Məhkəmənin bu hökmü ona səbəb oldu ki, Rəsul Səmimi daha çox cinayətlər törətdi. Onun evlərə və mağazalara etdiyi soyğunçuluq və qarətlər, hətta qarət zamanı əldə etdiyi mallar ona bağışlandı.

Ona yalnız yeddi il həbs cəzası verildi. Bu yeddi illik cəza isə şah tərəfindən əfv olundu”.[130]

Xəlil Azərbadeqan - dara çəkilmiş mübariz:

Xəlil Azərbadeqan (dayı) Urmiya əhalisindən idi. O, firqənin mərkəzi komitəsinin üzvü və Azərbaycan Milli Məclisinin deputatı idi. Bir müddət Marağanın qubernatoru olmuşdu. Marağa kinoteatrı onun təşəbbüsü ilə tikilmişdi. 1946-cı ilin mehr ayında (avqust-sentyabr) Ərdəbil qubernatoru təyin edildi. Ərdəbildə də o, kino-teatrı və Balıqlı çayının üzərindən körpü tikdirməyə başlamışdı. Kəndlərin əksəriyyətində Ərdəbil kəndliləri üçün məktəblər açmışdı. Azərbadeqan edam olundu: “Ərdəbil, 13 fevral. Qiyam-

---

130 Məhəmməd Hidayəti. www.tarikheardabil.blogeta.com
131 “Ettelaat” qəzeti,15.03.1947.

çılar zamanı Ərdəbilin qubernatoru olmuş Azərbadeqan bu gün səhər dar ağacından asıldı”.[131]

Yəhya Şeyxi:

1921-ci ildə Ərdəbildə anadan olmuş və 1946-cı ilin dekabr ayında Xalxal fədailərinin komandiri olmuş Yəhya Şeyxi İran ordusu ilə döyüşlərdə şəhid oldu.

Şahmar Səmədi:

Şahmar Səmədi 1886-cı ildə Ərdəbildə anadan olmuşdu. O, demokrat firqəsinin üzvü idi və Məşrutə hərəkatının, Şeyx Məhəmməd Xiyabani qiyamının iştirakçısı idi. O, “21 Azər” medalı ilə təltif olunmuşdu. İran ordusunun Azərbaycana hücumundan sonra tutularaq Meşkinşəhrdə faciəli şəkildə qətlə yetirilmişdi.

Şərdar Xursa:

Şərdar Xursa 1901-ci ildə Ərdəbilin Yurtçu mahalında Muğanlı kəndində anadan olmuşdu. O, “21 Azər” medalı ilə təltif olunmuşdu və Ərdəbildə edam olunaraq şəhid oldu.

İmanəli Ağaəli oğlu:

İmanəli Ağaəli oğlu 1887-ci ildə Ərdəbildə Ağabağır kəndində anadan olmuşdu. Rza xan dövründə “antifaşist cəmiyyəti”nin üzvü idi. Sonralar Azərbaycan Demokrat Firqəsinin üzvü olmuşdu. O, ənənəvi təbabət mütəxəssisi idi, “21 Azər” medalı ilə təltif olunmuşdu. 53 yaşında şahpərəstlər tərəfindən Ərdəbil şəhərində faciəli şəkildə şəhid edilmişdir.

İsmayıl Həkkak:

Sarı İsmayıl adı ilə məşhur olan İsmayıl Həkkak 1888-ci ildə Ərdəbildə Ağabağır kəndində anadan olmuşdu. “21 Azər” medalı ilə təltif edilmişdi. Xainlər onu faciəli şəkildə öldürmüş və cənazəsini Ərdəbil küçələrində gəzdirmişdilər. O, Muğan və Ərdəbil bələdiyyələrinin üzvü idi.

Səriyyə xanım:

Bu xanım şahsevənlərin qəhrəman qızı idi. Beş gün müqavimət göstərdikdən sonra vədə və xəbərdarlıqlar nəticəsində səngərindən çıxmışdı və namərdcəsinə qətlə yetirilmişdi. Güllələndiyi zaman o, bu sözləri demişdi: "Bu sizin üçün qələbə və zəfər deyildir. Tarix əhd-peymanı pozanları nifrətlə yad edəcəkdir. Adam öldürənlər və canilər bu müamilədən xeyir görməyəcəklər. Azərbaycan övladları mənim intiqamımı alacaqlar. Şəhidlərin qanı ilə suvarılmış azadlıq ağacının meyvələri daha çox olacaqdır."

Seyid Əli Qərəşizadə. Sürgündə şəhadət:

Ərdəbil işğal olunduqdan və minlərlə adam öldürüldükdən sonra "araşdırma komissiyası" qərara aldı ki, bəzi adamları sürgünə göndərsinlər.

Mərhum Baba Səfəri özünün "Ərdəbil tarixin keçidində" kitabında Qorqana sürgün edilmiş cavan fəal haqqında belə yazır: "Bu şəkildə sürgünə göndərilmişlərdən biri də pak və xoş əxlaqlı cavan Seyid Əli Qərəşizadə idi. Onun saatsazlıqla məşğul olan və ailəsini çətinliklə dolandıran qoca atası var idi. O, təhsilini zəhmətlə başa vurmuşdu. Orta məktəbin birinci mərhələsini başa vurduqdan sonra Təbriz pedaqoji məktəbinə qəbul olunmuşdu. Həmin tədris müəssisəsini bitirdikdən sonra təhsilə və mədəniyyətə xidmət etməyə başladı. Bir neçə il Xalxalda müəllim işlədi və nəhayət böyük zəhmətlə Ərdəbilə köçürüldü. Gözəl əxlaqı, mehriban ruhu ona həmkarları arasında böyük hörmət və sevgi qazandırdı. Demokrat partiyası hökuməti qurulduqdan sonra qərara alınmışdı ki, hər bir sinif özünə bir komitə təşkil etsin. Bir neçə nəfəri sədr və katib seçirdilər. Ərdəbil müəllimləri də belə etdilər. Onlar bu cavanı öz komitələrinin sədri seçdilər. Firqə süqut etdikdən sonra "araşdırma komissiyas"ı onu Qorqana sürgün etdi. O, orada xəstələndi və bir müddətdən sonra Tehranda vəfat etdi. Qoca anası bu

ağır itkiyə dözmədi. Qoca atası da nakam cavan oğlunun ölümündən sonra ölüm kədərinə qatıldı. Bu ailə bu şəkildə məhv oldu”.[132]

Başqa şəhidlər:

Əjdər Kərimi, İmran Kərimi və Əmin Kərimi. Bu üç qardaş Ərdəbil kəndlərində xanların köməkçilərinin əli ilə şəhid oldular.

Ərdəbildə Azərbaycanın azadlığının tərəfdarı olan zabitlərin edam edilməsi:

“Ataş” qəzeti 1325-ci il dey ayının 30 tarixində (20.01.1947) Azərbaycanın azadlığının tərəfdarı olan üç zabitin edam olunması haqqında aşağıdakı xəbəri dərc etmişdi: “Ərdəbildən alınan xəbərə görə hərbi tribunal məhkəməsinin hökmü ilə aşağıda adları çəkilən üç nəfər zabit edam olunmuşdurlar. Məhkəmənin hökmü 1325-ci il dey ayının 22-də (12 yanvar 1947) icra olunmuş və məhkumlar güllələnmişlər:

1. Kiçik leytenant İbrahim Söhrabi
2. Leytenant Bəhmən Danişvər
3. Leytenant Yəhya Şeyxi”.[133]

Ömürlük həbsə məhkum olunan:

Ərdəbil–Zabit rütbəsində olan, qiyamçılarla əməkdaşlıq edən və çoxlu sayda qızılbaş tərbiyə edib hazırlayan Ərdəbil briqadasının zabiti Zeynal Xakpur həbs edildikdən sonra Miyana hərbi tribunalında ömürlük həbs cəzasına məhkum edilmişdir”.[134]

---

[132] Ərdəbil tarixin keçidində, səh. 123-124.
[133] “Ataş” qəzeti, 20.01.1947.
[134] “Ettelaat” qəzeti, 10.07.1947.

## Ərdəbilin satılmış ruhaniləri Məhəmməd Rza şahı qarşılayarkən

Azərbaycan mərkəzi hakimiyyət tərəfindən işğal ediləndən sonra 1947-ci ilin iyun ayında müstəmləkəçilər tərəfindən təyin edilmiş şah işğal olunmuş əraziləri görmək üçün Azərbaycana səfər etdi. Bu səfərdə ruhanilər Məhəmməd Rza Pəhləvini qarşılamaqda ən çox canfəşanlıq göstərdilər və bununla da Azərbaycanda soyqırımın həyata keçirilməsinin əsas icraçısı olan adamı çox sevindirdilər. Şahın Ərdəbilə səfəri və onun ruhani alimlər tərəfindən qarşılanması haqqında “Ərdəbil tarixin keçidində” kitabında belə yazılmışdır:

“Şah 15.03.1326-cı ildə (06.06.1947) Ərdəbilə səfər etdi. Səhərisi gün, cümə günü 16.03.1326-cı il tarixdə (07.06.1947) əhalinin müxtəlif təbəqələri şahın görüşünə getdi. Əvvəl üləmalar, sonra isə idarə rəisləri, tacirlər, əsnaf və mülkədarlar, sonra isə Ərdəbil və Xalxalın müxtəlif tayfalarının xanları” onun görüşünə getdilər.”

## *TƏBRİZ*

### Təbrizin unudulmaz günləri

Azərbaycan Demokrat Firqəsi Təbriz qarnizonunun komandiri ilə müzakirələr apardıqdan sonra qarnizonun təslim olması və Azərbaycan Milli Hökumətinin qurulması ilə öz unudulmaz günlərini yaşamağa başladı. Müstəmləkədən azad olmuş bir xalq öz şəhərinin və vətəninin inkişafı və abadlığı üçün bütün işləri edirdi. Küçələrə yüksək bir həvəslə asfalt döşəyirdilər. Azərbaycan dili hər yerdə rəsmi şəkildə işlədilirdi. Bütün məktəblərdə Azərbaycan dilində dərslər keçirilirdi. Musiqi və teatr xeyli inkişaf etmişdi.

Təbriz radiosunda Azərbaycan xalqı üçün sevinc dolu nəğmələr yayılırdı. Həmin günlər və ondan sonrakı bütün günlər Təbriz

əhalisinin unudulmaz günləri idi. Lakin, Tehrandakı müstəmləkəçilər bu unudulmaz günləri pozmaq üçün xarici müstəmləkəçilərin himayəsi ilə planlar hazırlayırdılar. Onlar fəlakət və bədbəxtlikləri yenidən Azərbaycana ərməğan gətirmək, Azərbaycan xalqını yenidən əsarət altına almaq istəyirdilər.

Bir ildən sonra Təbrizin aydın və günəşli günləri qaralmağa başladı. Çünki, Təbrizin üstünü qara buludlar almaq üzrə idi. Azərbaycan xalqının qatilləri və İran ordusu göydən və yerdən olmaqla xaricilərin köməyi ilə Azərbaycana hücuma keçmişdilər.

## Təbriz səmasında qara buludlar

İran ordusunun Azərbaycana hücum edib, minlərlə azərbaycanlını öldürməsi Zəncandan başlasa da, hələ qurtarmamışdı. İran ordusunun minlərlə Zəncanlını öldürüb, oradan Miyana şəhərinə doğru hərəkət etməsi ilə Azərbaycanın ən böyük qalası olan Təbrizin səmasında qara buludlar görünməyə başladı. Bu ordu bir kabus kimi Azərbaycan xalqının şirin yuxularına son qoydu. Baş nazirin və ordu komandirlərinin dediyi kimi, ordu “təhlükəsizliyi qorumağa” gəlsə də Azərbaycan xalqının minlərlə hərbçi və qeyri-hərbçi övladlarını qatliam etdi, Təbrizin və Azərbaycanın tarixinin ən qanlı günlərini yazdı.

İran ordusu seçkilərin keçirilməsinin təhlükəsizliyini təmin etmək adı ilə Azərbaycana gəlsə də, bir xarici ordu kimi Azərbaycan xalqının bütün maddi və mənəvi varlığını qarət və məhv etdi.

Azərbaycanın əyalət əncüməni düşmənçiliyin tərk edilməsini elan etsə də, İran ordusu qabaqcadan çəkilmiş plan əsasında özünü Azərbaycanda prinsipial şəkildə qarət və viranlar törətmək etmək hazırlamışdı və qətl, qırğınları daxili və xarici ağaların əmri ilə ən yaxşı şəkildə yerinə yetirdi.

Azərbaycan özünün xoş niyyətini göstərmək üçün bütün

səylərini etdi. Lakin, paniranistlərdən aldığı cavab atəş və güllə oldu. O zamanlar Azərbaycanın ostandarı vəzifəsini yerinə yetirən doktor Salamulla Cavid tərəfindən Tehrana göndərilmiş teleqramlarda göstərilirdi ki, Azərbaycan xalqı qan tökülməsinin qarşısını almaq üçün əlindən gələn bütün işləri etmişdir.

Lakin müstəmləkəçilərdən asılı olan ordunun Azərbaycanı işğal və qarət etməkdən başqa heç bir məqsədi yox idi. Salamulla Cavid 20.09.1325-ci il tarixində (11 dekabr 1946-ci il) Qəvvama aşağıdakı məzmunda teleqram göndərdimdi: “Çox təcili, cənab baş nazirə teleqram. № 3048. Tam bir təəssüflə bildirirəm ki, bu gün 20.09.1325-ci il (11.12.1946) saat 9-da, əslində 24 saatdan sonra cəbhəyə baxış keçirildi. Həzrəti əşrəfin xəbəri olduğu kimi mən həmişə çalışmışam ki, Azərbaycan məsələsi həzrəti-əşrəfin xoş niyyəti və sülh yolu ilə həll edilsin. Bu gün fürsətdən istifadə edərək ağayı Şəbüstərinin köməyi ilə müvafiq adamların düşmənçiliyi tərk etmələrinə müvəffəq olduq. Bu məsələ cənab Seyf Qaziyə də xəbər verilmişdir. Qan tökülməsinin və qardaş qırğınının qarşısını almaq üçün aidiyyatı olan hərbi hissənin düşmənçiliyi tərk etməsi haqqında əmr verməyinizi xahiş edirəm. Təhlükəsizlik qüvvələrinin gəlişini hazırlamaq üçün Miyanaya getməyimə icazə verin” (Doktor Cavid).

Doktor Cavidin Azərbaycan fədailərini düşmənçilik fəaliyyətlərini dayandırmağa vadar etməsinin əksinə olaraq, İran ordusu guya “təhlükəsizliyi və asayişi” təmin etmək üçün gəlmişdi. Bu ordu Azərbaycan xalqının soyqırımı üçün, onun kimliyini və dilini məhv etmək üçün Azərbaycana hücum etmişdi. Xaricilərdən asılı olan hakimiyyətin əzən qolu adlandırıla bilən İran ordusunun keçdiyi hər bir yerdən qan və göz yaşlarından ibarət çaylar axırdı. Ordu qardaş qırğınının qarşısını almaq üçün heç bir şey etmədi. Onların yeganə fikri-zikri Azərbaycan xalqından intiqam almaq, bu azadlıqsevən və mübariz xalqı, onun türk kimliyini məhv etmək idi. Firqə rəhbərlərinin xaricilərdən asılı olan Tehran hakimiyyətinə etimad göstərmələri və onunla müzakirələr aparmaları onların

etdikləri ən böyük səhv idi. Bu səhv olmamalı idi. Cənab Cavidin Qəvvama göndərdiyi teleqramdan sonra cənab Şəbustəri tərəfindən də ona aşağıdakı məzmunda teleqram göndərildi: “İranın hörmətli baş naziri cənabi-əşrəf Qəvvamüssəltənəyə! Sizin Azərbaycan ostandarı doktor Cavidin ünvanına göndərdiyiniz teleqram bu gün alındıqdan sonra Azərbaycan əyalət əncümənində dərhal fövqəladə iclas çağırıldı. Mənim, doktor Cavidin və əncümənin bəzi xeyirxah üzvlərinin səyləri və istəkləri nəticəsində və Sizin mövcud xoş niyyətiniz nəzərə alınaraq yekdil səslə qərara alındı ki, təhlükəsizlik qüvvələrinin Azərbaycana daxil olmasına ciddiyyətlə heç bir maneəçilik göstərilməsin, anlaşılmazlıq, nəticəsində qardaş qırğını baş verməsin və əziz İranımızın birliyi qorunsun. Bununla da, əyalət əncüməninin boynuna heç bir vicdani məsuliyyət düşməsin. Buna görə də cənab baş nazirin xoş niyyəti və vətənpərvərliyini nəzərə alaraq ondan xahiş edirik ki, Azərbaycandakı təhlükəsizlik qüvvələrinə yalnız sizin əmrlərinizi yerinə yetirmələrini və vəzifələrindən kənar başqa işlər görməmələrini əmr etsin.

Azərbaycan Əyalət Əncüməninin rəisi Şəbüstəri - 20.09.1325 (11.12.1946)

Şəbüstərinin və doktor Cavidin şaha göndərdikləri teleqramlardan sonra “Ettelaat” qəzetinin yazdığına görə baş nazir Qəvvamdan Təbrizə aşağıdakı məzmunda teleqram göndərildi: “Cənab Şəbüstəri və cənab doktor Cavid! Əlahəzrət şahənşahə göndərdiyiniz teleqram şah tərəfindən oxunmuşdur. Nəzərinizə çatdırılır ki, İran ordusunun Azərbaycana daxil olması və yerləşməsinə qarşı hər hansı bir müqavimətin göstərilməməsi haqqındakı qərarınız razılıqla qəbul edilmişdir. Bilməlisiniz ki, İran ordusunun və təhlükəsizlik qüvvələrinin qayda-qanunun və asayişin qorunmasından, insanların rifah və azadlığı üçün şərait yaratmaqdan başqa ayrı bir vəzifəsi yoxdur. Azərbaycan əhalisi özünü ordunun arxasında qorunmuş hesab etməlidir və bilməlidir ki, onların azadlığı və asayişi ölkənin qanunları əsasında qorunur. Bu məqsədlərə yetişmək üçün ciddiyyət göstərən şəxslərin xidmətləri nəzərdən kənarda qalmayacaqdır.”

Qəvvam doktor Cavidə başqa bir teleqram da göndərmişdi. Onun məzmunu aşağıdakı kimidir:

“Cənab Şəbüstəri və cənab doktor Cavid! Göndərdiyiniz teleqramı aldım. Hər hansı bir müqavimət göstərilməməsi haqqındakı tədbirləriniz tərəfimdən razılıqla qarşılandı. Bütün Azərbaycan əhalisi bilməlidir ki, ordunun və dövlət təhlükəsizlik qüvvələrinin göndərilməsinin əhalinin rifahı və asayişini təmin etməkdən, dövlət işlərini yaxşı idarə etməkdən və xüsusilə, seçkilərin azad şəkildə keçirilməsini təmin etməkdən başqa ayrı bir məqsədi yoxdur. Bütün əhalini dövlətin məhəbbət və sevgisinə ümidvar edin və dövlət qanunlarının yerinə yetirilməsində vətənpərvərlik vəzifənizi və məsuliyyətinizi icra edin.

Baş nazir: Əhməd Qəvvam”

## Təbrizdə soyqırımın başlanması

İran ordusu Təbrizə fateh ordu kimi daxil olmaq üçün irticaçı qüvvələri, libasları dəyişdirilmiş jandarmları və Azərbaycandan qaçmış torpaq sahiblərini təşkil edərək, ordu gəlməmişdən qabaq şəhərlərə, o cümlədən Təbrizə göndərmişdi. Onlar ordu gəlməmişdən qabaq şəhərdə qətl və qarətlər törətməli, İran ordusu isə fateh ordu kimi şəhərdə asayişi və qayda-qanunu qorumaq üçün şəhərə daxil olmalı idi.

Cəmil Həsənli bununla bağlı yazır:

“12 dekabr səhəri Təbriz şəhərində iki hakimiyyətlilik əmələ gəlmişdi. Biriya, Şəbüstəri, Firidun İbrahimi kimi firqə rəhbərləri kiçik bir silahlı dəstə ilə şəhərdə qayda-qanun yaratmaq istədilər. Digər tərəfdən dövlətli tacir Əsgər Baqqal, Mohseni, Cəmşid İsfəndiyari kimi iri torpaq sahibləri, Şəğağı Hacı Məhəmməd Səmədzadə, tacir Tağı Beytullahi keçmiş polis və jandarm qüvvələrinin qalıqlarını ətraflarına toplayıb, demokrat firqəsinin qalıqlarını məhv etmək üçün işə başladılar.

Nizami hərbi qüvvələrindən əvvəl irticaçı qüvvələr, feodallar və libaslarını dəyişmiş jandarmlar şəhərə daxil oldular. İran radiosu və mətbuatı zabitlər tərəfindən təşkilatlanmış bu adamları İran millətçiləri adlandırırdılar. Bu qrupların əsas məqsədi Azərbaycanı demokratlardan təmizləməkdən və qalibiyyətli şahənşah ordusunu təntənəli şəkildə qarşılamaqdan ibarət idi. Artıq Təbrizdə və Azərbaycanın digər böyük şəhərlərində qarətlər başlanmışdı.” [135]

Doktor Cavid və Şəbüstəri İran ordusunu qarşılamaq, soyqırımın və dağıntıların qarşısını almaq üçün Basmanca getsələr də, qarşı tərəf onların xoş niyyətləri ilə hesablaşmamış və onlar hörmətsizliklə üzləşmişdilər. İran ordusu 22.09.1325-ci ildə (13.12.1946) axşam saat 6-da Təbriz şəhərinə daxil oldu və fateh bir ordu kimi şəhəri işğal etdi.

Fədai qüvvələrinin düşmənçiliyi və mübarizəni saxlamalarına baxmayaraq bundan sui-istifadə edən Tehran hakimiyyətinin tərəfdarları milli qüvvələri şəhərin hansı yerində rast gəlsələr öldürürdülər.

Cəmil Həsənli “İran Azərbaycanını: soyuq müharibənin başlanması” kitabında İran ordusunun Təbrizə girməsini aşağıdakı kimi şərh edir: “Dekabr ayının 14-də İran qüvvələri Təbrizə daxil oldular. Lakin, qarətlər və terrorlar dayanmadı, əksinə, daha da şiddətləndilər. General Haşimi Krasnıx ilə görüşündə Təbrizdəki Sovet idarələrinin toxunulmazlığına zəmanət verdi və ona dedi ki, seçkilərin təhlükəsiz keçirilməsini təmin etmək üçün ona bütün səlahiyyətlər verilmişdir. Başqa göstərişlər ona verilməmişdir.

Əlbəttə, hərbçilər bu sözləri diqqətə almadan şəhərin sahibi oldular. Əvvəlcədən təşkil olunmuş hərbi səhra məhkəmələri işə başladı. General Zəngənə Təbrizin qubernatoru oldu və çox qısa bir zamanda özünün vəhşi xislətini göstərdi. Bir gün əmr etmişdi ki, bir demokratın körpə uşağını yanar təndirə atsınlar. Təbriz böyük bir hərbi düşərgəyə çevrildi, həbsxanalar doldu. Zindanlarda yeni

[135] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması, səh. 256.

həbs olunmuş demokrat fəalları üçün yer yox idi və demokratları dəstə-dəstə güllələyirdilər. Milli ordunun yüzlərlə zabiti və fədailəri hərbi səhra məhkəməsinin hökmü ilə edam olundular. Bir neçə gün ərzində edam olunanların sayı 3000 nəfəri keçdi. Hər gün onlarla adam aclıqdan və soyuqdan zindanlarda tələf olurdular. Rəhmsiz işgəncələrlə demokratları vadar edirdilər ki, səxsən edam olunmaq xahişi etsinlər. Ordunun Tərbizə girməsindən iki gün sonra əyalət əncümənin rəisi Şəbüstəri və Azərbaycan ostandarı doktor Cavid həbs olundular və Tehrana göndərildilər. Azərbaycanın prokuroru Firudin İbrahimi axırıncı gülləsinə qədər müdafiə olundu. Onun məhkəmədəki mətanəti əfsanəyə çevrildi. O, hakimin “nə üçün rəhbərlərinin əmri ilə bir prokuror kimi insanları öldürürdün” sualına belə cavab verdi:- “Dar ağacından asılan bütün şəxslər Azərbaycanın düşmənləri idilər və onlar Milli Hökumətin iradəsi ilə məhkum və edam edilmişlər. Milli dövlət var idi və yenə də olacaqdır. Mən rəhbərlərdən heç bir göstəriş almamışam. Dövlətin və xalqın iradəsini yerinə yetirmişəm.”

Bir fədai dəstəsi iki sutka Təbrizin Firdovsi mədrəsəsində müqavimət göstərdi. Gülləri qurtardıqda özlərini quyuya atıb öldürdülər, lakin təslim olmadılar. Həmçinin tarixi Ərk qalasında özlərinə səngər qurmuş Azərbaycan ordusunun beş üzvü azadlıq və intiqam şüarları qışqıraraq üç gün döyüşdülər.

General Əzimi və polkovnik Murtəzəvinin başçılığı ilə Milli ordunun 18 nəfər üzvü güllələnməmişdən qabaq “Yaşasın Azərbaycanın azadlığı” deyə qışqırmışdılar. Azərbaycanın yeni təyin edilmiş ostandarı Batmanqılınc elan etmişdi ki, Pişəvərinin tərəfdarı olan, onun firqəsinin üzvü olub onun verdiyi medalları sinəsinə taxan hər bir kəs məhv ediləcəkdir. İran dövlətinin müvafiq orqanlarının qəti tədbirləri nəticəsində qısa bir müddət ərzində səhra məhkəmələrinin ilə 760 nəfər edam edildi və minlərlə adam jandarmlar və İran millətçiləri tərəfindən mühakiməsiz öldürüldülər. Bəzi adamların dediyinə görə öldürülənlərin sayı 3022 nəfər

idi. Təkcə Azərbaycanda 3200 nəfər məhbus var idi. Çoxlu sayda məhbus isə başqa yerlərə göndərilmişdi. Təxminən 8000 nəfər İranın cənubuna sürgün edildilər. Onların əksəriyyəti orada aclıqdan və susuzluqdan məhv oldular.”[137]

### Satılmış cəza dəstələri Təbrizdə

İran ordusu və onun başçıları özlərini Təbriz camaatı tərəfindən öldürülməkdən qorumaq üçün Təbrizə gəlməmişdən əvvəl professional qatilləri və cəza dəstələrini Təbrizə göndərmişdilər. Salamulla Cavid onları altı qrupa bölürdü: “1) Azərbaycan dilini bilən keçmiş çavuş və gizirlər. 2) Azərbaycandan qovulmuş mülkədarların nökər və xidmətçiləri. 3) Azərbaycandan çıxarılmış narkoman və fahişələrin tərəfdarları. 4) Firqənin mütləq məğlub olacağını bilib istaqamətini dəyişmiş və qarşı qüvvələrə birləşmiş bəzi demokratlar.( Onlar həqiqi demokratları tutub işğalçılara təhvil verirdilər). 5) Adam öldürməkdə və qarət etməkdə məşhur olan xanlar və köçərilər. 6) Əvvəlcədən libaslarını dəyişmiş və Azərbaycana gəlmiş ordu və dövlət adamları.

### Təbrizdə matəm, Tehranda bayram

Təbriz şəhəri qan və atəşdə yandığı və şəhərin küçələri azərbaycanlı mübarizlərin cənazələri ilə, zindanlar isə məhbuslarla dolu olduğu bir halda Tehran bayrama və rəqslərə qərq olunmuşdu. Azərbaycan xalqı öldürülərək öz qanının içində çapaladığı bir zamanda və Azərbaycan dilində kitablara od vurulub, yandırıldığı bir vaxtda Tehranda sevinib, rəqs edirdilər və bir-birini təbrik edirdilər. “Ettelaat” qəzeti bununla bağlı yazırdı: “Azərbaycan Demokrat Firqəsinin təslim xəbəri Tehrana yayılan kimi camaat bu xəbərə inana bilmədiyi bir halda və çoxu yeni xəbər əldə etmək

[137] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması, səh 534.

üçün küçələrə tökülmüşdülər. Hamı fövqəladə qəzet və konkret xəbər gözləyirdi. Axşam saat 9-da çap olunmuş və yayılmış fövqəladə “Ettelaat” qəzeti əldən-ələ gəzirdi: Hamı Azərbaycan macərasının çox qan tökülmədən sona çatdığına görə sevinib, şadlıq edirdi. Tehranın kafelərində, restoranlarında və insanların toplaşdığı başqa yerlərdə fövqəladə “Ettelaat” qəzeti insanların əlinə düşən zaman onlarda qəribə hiss və həyəcan yaranırdı. “Kontinental” kafesində bir cavan orkestr çalan yerə qalxıb misilsiz bir hiss və həyəcanla fövqəladə mətni insanlara oxumuşdu. Kafedəkilərin sevinərək, əl çalmaları ucaldıqda orkestr şahənşah himnini çalmışdı. Tehran tamaşaxanasında (teatr nəzərdə tutulur) da, böyük sevinc və həyəcanla fövqəladə “Ettelaat” qəzeti oxundu. Dünən gecə başqa toplantı və yığıncaqlarda da, insanlar Azərbaycan həyacanının sona çatmasını böyük bir sevinclə bir-birinə danışırdılar. Ümumiyyətlə, dövlətin və qəhrəman İran ordusunun bu tədbirini bəyənirdilər.”[138]

“Ettelaat” qəzeti davam edərək yazırdı: “Bütün Tehranı bürümüş sevinc istirahət günü olan dünən özünün ən yüksək həddinə çatmışdı... Küçə və bazarlarda, xiyabanlarda “Yaşasın şah, xainlərə ölüm, yaşasın qəhrəman İran ordusu və xalqı” şüarları yüksəlirdi. Bir il qan içib, sakit oturmuş insanlar qəlblərində olanları dilə gətirirdilər. Onlar xaricilərə pərəstiş edənlərə, xainlərə, İranın düşmənlərinə ölüm arzulayıb, ölkənin vəhdət və istiqlalını istəyirdilər.”[139]

Bundan əlavə “Ettelaat” qəzeti ruhanilərin, tacirlərin və əsnafın (sənətkarların) İran dövlətinə təbrikləri haqqında belə yazırdı: “Dünən səhər 300 nəfərə yaxın Tehranın böyük tacirləri, Zərdüşti və erməni tacirlərinin nümayəndələri xarici işlər nazirliyinin zalında toplaşaraq Azərbaycan probleminin həlli münasibəti ilə öz sevinclərini və təbriklərini, cənab baş nazirə bildirmək istəyirdilər.”[140]

Sənətkarların və saray ruhanilərinin Tehran hakimiyyətinə

[138] “Ettelaat” qəzeti, 12.12.1946.
[139] “Ettelaat” qəzeti. 14.12.1946.
[140] “Ettelaat” qəzeti. 15.12.1946.

təbriklər dediyi və Azərbaycan xalqının qırğınını bayram etdikləri bir halda, onların dövləti və rəhbərləri başqa adamlara və başqa dövlətə - ABŞ dövlətinə təbrik deyirdilər.

Cəmil Həsənli bu məsələ ilə bağlı belə yazır: “Azərbaycanda qələbə çaldıqdan sonra İran hökumət kabinəsi üzvləri və başqa dövlət orqanları rəhbərləri, o cümlədən, maliyyə naziri, mərkəzi bankın direktoru, keçmiş parlament sədri ABŞ- səfərliyinə gedib Azərbaycanı İrana qaytarmaqları münasibəti ilə ABŞ dövlətinə təşəkkürlərini bildirirdilər və şah dekabrın 16-da qeyri-rəsmi bir toplantıda ABŞ-ın böyük köməyini xatırlatmışdı.”[141]

İran ordusu Azərbaycan xalqını və Təbriz əhalisini məhv etməklə yanaşı Azərbaycan xalqının tarixi yaddaşını da, silmək istəyirdi. Bu məqsədlə məktəblərdə və şəhər meydanlarında Azərbaycan dilində olan kitabları və Azərbaycan dilində yazılmış bütün sənədləri yandırmağa başladılar. İran ordusunun Azərbaycanı işğal etdikdən sonra yaydığı bildirişdə Azərbaycan dilindən istifadə qadağan edildi və Azərbaycan dilində olan pasportların məhv edilməsi haqqında sərəncam verildi. Bütün mağazalar Azərbaycan dilində olan adlarını dəyişdirməli, bütün izdivac, əhval və başqa sənədlər fars dilində yazılmalı idi.

## Təbrizdə ana dilində kitabların yandırılması

Tehran hakimiyyətinin Azərbaycan Milli Hökumətinə bəslədiyi kin və nifrətin səbəblərindən biri Azərbaycan dilinin rəsmiləşdirilməsi, digəri isə Azərbaycanın muxtariyyətinin elan olunması idi. Bu iki məsələni bütün Azərbaycan xalqının düşmənləri və şahpərəstlər bütün məruzə və çıxışlarında dilə gətirirdilər. Onlar Azərbaycan dilinə və mədəniyyətinə bəslədikləri nifrət səbəbinə Azərbaycan mədəniyyətinin köklərini və Azərbaycan Milli Hökuməti

[141] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması, səh. 531.

tərəfindən açılmış bütün mədəniyyət mərkəzlərini məhv etmək, beləliklə də, Azərbaycan dili problemindən həmişəlik canlarını qurtarmaq istəyirdilər. Onların bu anti-humanist ideologiyası Azərbaycan dilinin mövcudluğuna dözə bilmirdi. Onlar Azərbaycan dilinin kökünü kəsmək üçün anti-bəşər vəhşi bir işə başladılar. Azərbaycan xalqını və Təbriz mübarizlərini öldürməklə yanaşı Azərbaycan dilində olan bütün kitab və sənədləri də, yandırdılar.

Mehran Baharlı özünün “İfrat fars millətçiliyi və kitabyandırma mərasimi” adlı məqaləsində Təbrizdə və başqa şəhərlərdə Azərbaycan dilində olan kitabların yandırılması haqqında belə yazırdı: “Azərbaycan dilində olan kitabların yandırılması qara 21 Azər günündən sonra başladı. Azər ayının 26-da (17 dekabr) Azərbaycanın İran ordusu tərəfindən işğalından və türk oğlu Pişəvərinin rəhbərliyi altında Azərbaycan Milli Hökümətinin süqutundan sonra bütün kitablar, nəşrlər, yazılar toplanaraq Təbriz şəhərinin bir neçə yerində, həmçinin başqa şəhərlərdə yalnız Azərbaycan dilində olduqlarına görə yandırıldılar. Bu kitab yandırmalarının icraçıları beş gün əvvəl Tehrandan aldıqları əmrə əsasən bir günün ərzində 12 mindən çox azərbaycanlını qətliam etmiş və Azərbaycan şəhərlərində qan selləri axıtmış olan İran dövlətinin və işğalçı İran ordusunun məmurları idilər. Bu tədbirlərin yerinə yetirilməsinin əmri birbaşa Tehrandakı İran hakimiyyəti tərəfindən verilmişdi.

Azərbaycan dilində olan kitabların yandırılması Təbrizlə yanaşı başqa şəhərlərdə də həyata keçirildi. Kitabların yandırılması Təbrizin bir neçə yerində, o cümlədən saat meydanında, Təbriz şəhrdarlığının (meriyasının) qarşısındakı meydanda, müəllimlər kollecində və bir çox məktəblərdə icra olundu.

Həyatda olan və bunların şahidi olmuş şəxslərin dediklərinə görə uşaqları və ibtidai məktəb şagirdlərini sıraya düzüb, onları məcbur edirdilər ki, təhsillərini davam etməyə icazə almaq üçün sonu yanan tonqal ilə bitən çox saylı sıralar təşkil edərək, məktəbdə tapdıqları Azərbaycan dilində olan dərs kitablarını, xüsusilə “Ana

dili” dərsliklərini “Yaşasın şah” deyə-deyə öz əlləri ilə oda atsınlar. Dərs kitablarını oda atmaqdan imtina edən uşaqları ya döyür, ya da ovuclarına od qoyurdular. Azərbaycan dilində olan kitabların yandırılması elə böyük miqyas almışdı ki, qatı tüstü qatlarını saatlarla şəhərin bütün yerlərində görmək olurdu. Həmin gün Təbrizin müəllimlər kollecinin meydanında bir neçə Azərbaycanlı gənc dar ağacından asılmışdı və bəzi iddialara görə bir neçə müəllim diri-diri oda atılmışdı. Təbriz, Urmiya, Zəncan, Ərdəbil və başqa şəhərlərdə bir çox ziyalılar və mübariz insanlar Azərbaycan dilində olan kitablarını təhvil verməkdən imtina etdiklərinə görə ailə üzvləri ilə birlikdə odda yandırılmışdılar. Təbrizdə kitab yandırma faciəsi ilə eyni zamanda yeni təsis edilmiş Azərbaycan Universiteti işğalçı qüvvələr tərəfindən dağıdıldı.”[142]

Bu barədə “Ettelaat” qəzeti də, aşağıdakı başlıqla belə bir xəbər çap etmişdi.

“Azərbaycan dilində olan kitablar yandırıldı. Dünən Firdovsi adına orta məktəbdə şagirdlər və şəhər əhalisi Rizaiyyə (Urmiyanın şah zamanında adı) qəhrəmanı polkovnik Zəngənəyə minnətdarlıq bildirdilər. Dünən şəhər meriyasının qarşısındakı meydanda Azərbaycan dilində olan kitabları yandırdılar.”[143]

Bu anti-humanist və anti-bəşər cinayətlər dünyada yalnız Azərbaycan xalqının düşmənləri tərəfindən icra edilmişdir. Bu cür anti-humanist əməllərə başqa yerlərdə çətin rast gəlmək olar. Mədəniyyət və sivilizasiya iddiasında olan bu adamlar başqa xalqların mədəniyyətini və dilini məhv etmək üçün onların kitablarını yandırırlar ki, onları istismar edib, milli və tarixi yaddaşlarını silsinlər. Cəmil Həsənli kitabların və Azərbaycan mədəniyyət mərkəzlərinin İran ordusunun hamiləri tərəfindən yandırılması haqqında belə yazır: “Bu hadisədən sonra Azərbaycan dilində çap olunmuş dərsliklərin yandırılmasına başlandı. Azərbaycan dilinin öyrənilməsi

[142] M.Baharlı. İfrat fars millətçiliyi.
[143] “Ettelaat” qəzeti, 18.02.1946.

qadağan edildi. Universitet, milli teatr, filarmoniya və muzey bağlandı. Milli hökumət zamanında quraşdırılmış Səttarxanın, Bağır xanın və Xiyabaninin heykəlləri götürüldü.[144]

İndi isə Təbrizdə kitabların yandırılması barədə “Atəş” qəzetinin hesabatını oxuyaq: “Bu gün saat 11.30-da şəhər şəhərdarlığının qarşısındakı meydanda şəhər əhalisinin, paytaxt qəzetlərinin müxbirlərinin, ordu zabitlərinin və dövlət məmurlarının iştirakı ilə Təbriz şəhərinin tələbə və şagirdləri tərəfindən bayram təşkil olunmuşdu. Əvvəlcədən meydanın ortasında böyük tonqal qalamışdılar. Demokrat firqəsinin nəşr etdirdiyi və uşaqlara tədris etmək istədiyi Azərbaycan klassiklərinin kitablarını alqış və “ura” səsləri ilə və “yaşasın əlahəzrət şahənşah”, “yaşasın cənab Qəvvaməssəltənə, “məhv olsun Azərbaycanın düşmənləri və İranın xainləri” – şüarlarının müşayiəti ilə yanan tonqala atdılar.”[145]

“Atəş” qəzetinin hesabatından belə çıxır ki, Azərbaycan dilində olan kitabları müxbirlərin iştirakı ilə yandırmışlar və onlar da “ura” deyə qışqırmışlar. Bu ola bilsin ki, özlərini əhli qələm adlandıran və həqiqətdən başqa ayrı bir şey yazmayacaqlarına söz vermiş müxbirlərin iştirakı ilə baş vermiş birinci kitabyandırma mərasimidir. Lakin, bu əməl o qədər iyrənc və kitabların yandırılması o qədər çirkli bir iş idi ki, dünya azadlıqsevərlərinin çoxu ona inana bilmirdilər. Onlar belə fikirləşirdilər ki, bu Azərbaycan Milli Hökumətinin tərəfdarları tərəfindən aparılan bir təbliğat işidir. Çünki, ordunun, müxbirlərin iştirakı ilə belə bir çirkin əməlin baş verməsi və müxbirlərin bu işi pisləməməsi ağlasığan bir iş deyildi və buna inanmaq olmurdu.

“Ettelaat” qəzeti 3.11.1325-ci ildə (23.01.1947) tarixli baş məqaləsində Türkiyənin “Cümhuriyyət” qəzetinin yazarına üzərində düşünülməli olan bir cavab yazmışdı. Türkiyə yazıçısı kitabların

[144] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması, səh. 528. 529, 530.
[145] “Atəş” qəzeti, 16.12.1946.

yandırılmasına və küçələrin meyitlərlə dolu olmasına inana bilmirdi. Bu baş məqalə olduğu kimi diqqətə çatdırılır. Əvvəlcə “Cümhuriyyət” yazarının baş məqalədə dərc olunmuş və tərcümə edilmiş sözlərini oxuyaq:

Baş məqalənin adı belədir: “Cümhuriyyət” qəzetinin bədbəxt Azərbaycan türklərinə ürəyi yanır”.

Bu gün Azərbaycan demokratları ruslara sığınıblar. Tehran silahlı qüvvələri Təbrizə daxil olmuşdur. Təbriz küçələrinin Azərbaycanın muxtariyyətini istəyən adamların cəsədləri ilə dolu olmasını və ya dərsliklərin yandırılmasını təbliğatın nəticəsi bilib bir tərəfə qoysaq belə, iki həqiqi məsələni diqqətdən kənarda qoya bilmərik. Bunların birincisi hərbi tribunalların həddindən artıq məşğul olmaları və edam hökmlərini verməları, digəri isə, Azərbaycan muxtariyyətinin tərəfdarı olmuş təsisatlardanbiri olan Təbriz radiosunun türkcə danışmamasıdır. Bunların ardınca daha hansı xəbərlər yetişəcəkdir? Türk dili məktəblərdən, məhkəmələrdən və dövlət idarələrindən də çıxarılacaqmı? Məgər deyilənə görə sayı iki mindən çox olan məktəb müəllimləri türkcə tədris etdiklərinə görə hərbi tribunallaramı cəlb olunacaqlar? Məktəblərin farslaşdırılması, mətbəələrin və qəzetlərin bağlanması doğrudurmu? Millətçilərin Azərbaycan dilindəki qəzetlərinin nəşr olunmasına icazə veriləcəkmi?

Bütün sosial-iqtisadi islahatlara bolşevik damğası vurulmuş və bolşevik kolxozlarından heç bir fərqi olmayan xanların hakimiyyəti yenidən bərqərar olmaqdadır. Türkün düşməninin bədxahlığına meydan verilmişdir. Azərbaycanı azərbaycanlılardan boşaltmaq üçün onları karvan şəklində cənuba köçürəcəklər. Yəni, ərəb işğalından sonra tamamilə məhv edilmiş İranı dövlət halına salmış və əsrlərlə İranı idarə etmiş və indi qırmızı bədbəxtçilikdən xilas olmuş bədbəxt Azərbaycan türklərini öz hökumətlərinin əli ilə yeni bir fəlakətə doğrumu sürükləyəcəklər?

Bütün bunları çatdıran xəbəri qəbul etmək təsəvvür edilməzdir. (“Cümhuriyyət qəzeti”)

İndi də “Ettelaat” qəzetinin baş məqalə yazan müəllifinin “Cümhuriyyət” qəzetinin yazarına Azərbaycan dilində kitablarının yandırılması ilə bağlı cavabı:

“Cümhuriyyət qəzetinin yazarının bu şəkildə təhrif və şərh etdiyi Azərbaycan dilində olan dərs kitablarının yandırılması Azərbaycan xalqının fars dilinə olan sevgisinin ən bariz nümunəsidir. Çünki, şagirdlərin özü və hətta,yazarın işarə etdiyi müəllimlərin özləri dövlət qüvvələri Azərbaycana gəlməmişdən əvvəl belə bir işi etmişlər. Ona görə ki, nə müəllimlər, nə də, şagirdlər Pişəvəri tərəfindən onlara təhmil edilən Azərbaycan dilində tədrisə razı deyildirlər. Yazarın qeyd etdiyi həmin iki min müəllim uzun illərdir ki, fars dilində tədris etmişlər və onlar fars dilini Azərbaycanın ziyalı adamları kimi Azərbaycan dilindən yaxşı bilirlər. Bu səbəbdəndir ki, Azərbaycanın savadlı adamları fars dilində olan qəzetlərdən Azərbaycan dilində olan qəzetlərə nisbətən daha yaxşı istifadə edirlər. Azərbaycan dilində olan qəzetlər bir müddət Azərbaycanda nəşr olunsalar da, onların Azərbaycan xalqının istəkləri ilə heç bir əlaqəsi yoxdur.”

Baş məqalə yazanın cavabı ilə bağlı mühakimə sürməyi oxucuların öhdəsinə buraxırıq.

Onu da qeyd etmək lazımdır ki, heç bir siyasi təşkilat bu vəhşi cinayətə etiraz bildirmədi. Yalnız bizim Şimali Azərbaycandakı qardaş və bacılarımız həmişə olduğu kimi əlimizdən tutdular və bizi müdafiə etdilər. Onlar öz canları ilə cinayətə və təcavüzə etiraz etdilər, dünyanın azad insanlarını bu cinayət ilə tanış etdilər. O zaman Paris sülh konfransında iştirak edən Səməd Vurğun yazdığı “Yandırılan kitablar” şeirini oxumaqla Azərbaycan xalqının etirazını dünya xalqlarına çatdırmışdı.

## Təbrizdə qan sel kimi axıdılmış

İran ordusu Təbrizə girdikdən sonra cani və başkəsənlərin, həmçinin zalım xanların əli ilə Təbrizdə qan selləri axmağa başladı. Or-

du qatillərin və mərkəzi hakimiyyət tərəfdarlarının əl-qolunu qətl və cinayətlər törətmək üçün açmışdı. Bu cinayətkarlar İran ordusunun köməyi ilə azadlıqsevənlərin qanını sel kimi tökmüşdülər. “İqdam” qəzeti Təbrizdən xəbər verərək yazırdı: “Piyada keçidləri, arxlar qətlə yetirilmişlərin cəsədləri ilə dolu idi və bütün Təbrizdə qan seli axmaqda idi.

**Qızının gözləri qarşısında atanın öldürülməsi**

İran ordusunun Azərbaycana hücumundan bir neçə gün sonra və bir neçə gün ondan əvvəl şahpərəstlər və Azərbaycan xalqının düşmənləri ordunun himayəsi ilə qırğınlara başlamışdılar və Təbriz əhalisini qırmışdılar. Nasir Zülal bu barədə belə yazır: “Səhər tezdən 1325-ci il 21 azər günü (1946-cı il 12 dekabr) soyuq və tufanlı bir gün idi. Yer qalın qar örtüyü ilə örtülmüşdü. Günəş hələ çıxmamışdı. Bir dəstə şahpərəst və avam insanlar, cəmiyyətin tör-töküntüləri küçə və dalanlara səpələndilər. Onlar şəhərdə qorxu yaratmaq məqsədilə güllələr atmağa başladılar. Bu adamların bir dəstəsi şəhərdə asayiş qüvvələrinin yoxluğundan və şəhərdəki qarışıqlıqdan sui-istifadə edərək kin və düşmənçilik bəslədikləri adamların və Azərbaycan Demokrat Firqəsi üzvlərinin evlərinə soxulub cinayət və dəhşət törədirdilər.”[146]

Belə cinayət növlərindən biri firqə üzvlərini onların ailələrinin gözü qarşısında öldürmək idi. Nasir Zülal bu barədə davam edərək yazır: “Təbrizdə “Xiyaban qapısı” deyilən yerdə şahpərəstlər Böyük və Əkbər adlanan adamların başçılığı ilə zəhmətkeş və xalqa xidmət edən bir adam olan doktor Bağırini güllələyib, öldürdülər. Konka başında bir nəfər firqə üzvünü evindən çıxarıb öldürmək istəyirdilər. Ailəsi Quran gətirmiş və xanımı ləçəyini atmışdı. Lakin bu qatil adamlar qəbul etməmişdilər. Onun 13 yaşlı qızı ayağı yalın soyuqda

[146] Zülal Nasir. Keçmişdən keçid, səh. 330.

atasının arxasınca qaçaraq onun buraxılmasını xahiş edirdi. Lakin onun xahişinə qulaq asmayıb, həmin bu hakimiyyət tələb edən insanlar qızının gözü qarşısında atasını öldürdülər, sonra isə belə bir vəziyyətdə bu kiçik yaşlı qızın namusuna təcavüz etdilər.”

## Azərbaycanın düşmənləri işğalçılıqdan və ordunun Təbrizdəki cinayətlərindən danışırlar

İran ordusunun cinayətləri və bu ordu tərəfindən həyata keçirilən soyqırımı o qədər hədsiz və hüdudsuz olmuşdur ki, hətta onların hamiləri və arxalarında duranlar heyrətlənmişlər.

ABŞ konsulunun müavini Doher Mərkəzi ordunun Azərbaycandakı cəzalandırma əməliyyatı haqqında belə deyir: “Azərbaycanın İranın bir hissəsi sayılmasına baxmayaraq onunla məğlub edilmiş düşmən kimi rəftar edildi.”[147]

Ordunun işğalından sonra Təbrizə getmiş bir ABŞ jurnalisti xalqın öldürülməsi haqqında belə yazırdı: “Mən öz gözümlə gördüm ki, camaat bir nəfər fədaini divarın qarşısında oturtdular və güllə ilə bədənini deşik-deşik etdilər. Sonra bir qadın təpiklə onun başını əzdı.”[148]

Milli hökumət zamanı Tehran rejiminin tərəfdarı olan Tehrandakı Azərbaycan əncüməni Azərbaycanın işğalından bir il sonra şəhər polis idarəsinin gizli raportları əsasında 1326-cı il aban ayının 28-də (20.11.1947) şaha ünvanlanmış belə bir bəyannamə yaydı. Bu bəyannamə üzərində düşünülməli olan məqamlara malik idi.

Bəyannamənin mətni aşağıdakı kimidir:

Tehrandakı Azərbaycan əncüməninin şah tərəfdarı olan üzvlərinin əlahəzrətə ünvanlanmış bəyannaməsi:

---

[147] Həmid Mollazadə. Möhürlənmiş sirlər (Azərbaycan hadisələri haqqında deyilməyənlər), səh. 106.
[148] “Xandəniha” jurnalı, 17.12.1946.

"Azərbaycan demokrat kimilərin və Azərbaycan muxtar hökuməti başçılarının çəkmələri altından xilas olduqdan sonra arxayın idik ki, sevimli şah və İran dövləti Azərbaycanın xilas olması üçün heç bir fədakarlığı əsirgəmədikləri kimi əhrimənlərin caynağından xilas olduqdan sonra da, Azərbaycana rəhm və mehribanlıq göstəriləcək və insanların yaralanmış bədənlərinə məlhəm qoyulacaqlar.

Lakin, təəssüflər olsun ki, bu arzuların və gözləntilərin müqabilində Azərbaycan təzyiqdən, qarət və talançılıqdan, bütün təbəqələrdən olan dövlət məmurlarının zülm və əsarətindən başqa heç nə görmədi. Azərbaycanın və azərbaycanlıların bu bir il ərzində, xüsusən son bir neçə ay ərzində gördükləri təzyiq heç bir dövrdə, hətta demokratların dövründəbelə görünməmişdi."[149]

Həmid Mollazadə "vətənpərvər" adı altında şəhvətpərəstlərin, quldur və başkəsənlərin Təbrizdə törətdikləri cinayətlər haqqında belə yazır: "Qalib ordunun himayə bayrağı altında peşəkar başkəsənlər firqə üzvləri və ya başqa şəkildə firqə ilə əlaqəsi olan adamlarla həmin günlər haqq-hesab çəkdilər. Təbriz şəhərinin müxtəlif yerlərində öldürülənlərin cəsədləri görünürdü. İndiki Taleqanı adına orta məktəbin yeri (Qasım xan qəbirstanlığı) öldürülmüşlərin cəsədləri ilə dolu idi.

Ora ilə üzbəüz qatil və quldurların komandanlıq mərkəzi olan polkovnik Şəğağının evi yerləşirdi. Qarət edilmiş malları və yarımcan olan həbs olunanları ora gətirirdilər."[150]

Azərbaycanın işğalından sonra əvvəlcə polkovnik Batmanqılınc, sonra isə Əli Məncur Azərbaycanın ostandarı oldular. Onlar general polkovnik Şahbəxti ilə birlikdə Təbriz əhalisinin gününü qara etmişdilər. Mənsuru insanlar kinayə ilə "Azərbaycanın sultanı" adlandırırdılar. "Atəş" qəzeti bir ildən sonra nəşr etdirdiyi "Azərbay-

---

[149] Məcid Təbrizi. Polis idarəsinin gizli raportları (1945-1947), I cild, səh. 468.
[150] Həmid Mollazadə. Möhürlənmiş sirlər (Azərbaycan hadisələri haqqında deyilməyənlər), səh. 106.

canın sultanı” adlı məqaləsində belə yazırdı: “Azərbaycanın vəziyyətinin özü bizim dediklərimizin şahididir....Bu insanların artıq ruhu qalmamışdır. İnsanların hamısı məyusdur və hətta İran, yaxud Təbriz radiosuna qulaq asmağa belə meylləri yoxdur. Küçələrdə hər bir kəs başını aşağı salmış vəziyyətdə yol gedir. Heç kəs onların ərizələrinə baxmır. Onların səsi heç bir yerdə əks-səda vermir. Adamların bir-biri ilə söhbət etməyə cürətləri yoxdur. Çünki, Mənsur bir casus orqanı yaratmışdı. Əgər iki nəfər söhbət etsə, onları demokrat adı ilə həbs edirdilər. Ona görə də, camaat arasında deyirlər ki, Azərbaycan xalqını bir gün demokratlar soyurlar, o bir gün isə öz dövlətimizin adamları.....Ümumi amnistiya məsələsinin də nəticəsi olmadı. Məmurlar bu məsələyə diqqət yetirmirlər. Məmurlar gecələr yoxlamaq adı ilə qəflətən camaatın evlərinə soxulurlar. Bu işdən onların məqsədi ya rüşvət almaq, ya da, insanların namusuna tamah salmaqdır. Mühacirət edib, qaçmaq istəyən qız və qadınların çoxu bu rəhmsiz məmurların caynağına düşürdülər.

Ən təəccüblüsü budur ki, teleqrafxana rəisi, günortadan sonra insanların göndərdikləri bütün teleqramların məzmunlarını Mənsura xəbər verirdi. O, icazə verdikdə teleqram göndərilirdi. Beləliklə, Azərbaycan xalqının sözü mərkəzin qulağına çatmırdı. Bir Allah bilir ki, insanlar hansı dərəcədə işgəncə və təzyiq altındadırlar. Çünki, onların ərizələri mərkəzə çatmır. Mənsur da, dövləti saymır. Kinayə ilə ona “Azərbaycan sultanı” adı qoymuşlar. İnsanlar onun şərindən uzaqda qalmaq üçün hər hansı bir fikir söyləməkdən çəkinirlər.”[151]

## Təbriz cinayətkarlarının və başkəsənlərinin adları

[151] Həsam Mustəfəvi. “Azərbaycan sultanı” - “Atəş” qəzeti, 14.03.1947.

1. Sultanəli Şəqaqı (polkovnik); 2. Seyfulla Bağ Miseyi; 3. Mir Şərif; 4) Hacı Ələkbər baqqal. Bu adamlar “vətənpərvər bayrağı” altında toplaşmışdılar.[152]

## Basmancda daha bir cinayət: azadlıqsevənlərin başı nizənin ucunda

Quldur və başkəsənlərin İran ordusunun himayəsi altında törətdikləri cinayətlərin həddi-hüdudu yox idi. Dünyada mövcud olan bütün cinayətləri onlar işğal altında olan Azərbaycanda törətdilər. Belə cinayətlərdən biri də, azadlıqsevənlərin başını kəsib, nizəyə keçirmək idi. Bu cinayəti adətən qədim dövrlərdə işğalçılar məğlub etdikləri xalqlara qarşı edirdilər. Belə bir cinayəti Basmancda xaricilərdən asılı olan işğalçı ordu həyata keçirdi. “Yol” jurnalında bu barədə belə yazılmışdır. “Basmancda Əli Qəhrəmaninin kəsilmiş başını nizəyə keçirdilər və qədim əsrlərdə olduğu kimi bu nizənin ətrafında fırlanıb, rəqs etməyə başladılar.”[153]

Əli Qəhrəmani 1283-cü ildə (1904-cü ildə) Təbrizdə doğulmuşdu. Lahuti qiyamında iştirak etmişdi və “21 Azər” medalı ilə təltif edilmişdi. Milli hökumət zamanı nəqliyyat idarəsinin rəisi olmuşdur.

## Təbrizdə mühacirlərin öldürülməsi və qarətlər

İran ordusu törədilmiş cinayətlərdən özünə bəraət qazandırmaq, mühacirlərin və firqə tərəfdarlarının öldürülməsini Azərbaycan xalqının boynuna atmaq məqsədilə Təbriz şəhərinə girməyi bir qədər gecikdirirdi. Ordunun Təbrizə daxil olmasından sonra qırğınların davam etməsinə baxmayaraq, ordunun özü də, azadlıqsevənlə-

[152] “Yol” jurnalının “21 Azər” haqqında xüsusi buraxılışı, Tehran universitetinin azərbaycanlı tələbələri, səh. 75.
[153] Yenə orada, səh.75.

rin edam və həbs edilməsində iştirak etmişdir. Ümumiyyətlə, ordunun daxil olmasından sonra cinayətlərin ən çoxu ordu tərəfindən törədilmişdi.

Şəhərə daxil olmaqda ordunun gecikməsi və mühacirlərin öldürülməsi haqqında "Ettelaat" qəzetində Azərbaycan hadisələri haqqında belə oxuyuruq:

"Fateh ordunun Təbrizə daxil olması iki gün gecikmişdi. Şahın adamlarının başlıca istəyi və qərarı insanlarla haqq-hesab çəkmək işi idi. O zamanlar indiki Firdovsi adına orta məktəbin yeri Qasımxan qəbirstanlığının yeri idi. Ora ilə üzbəüz polkovnik Şəğağnin evi yerləşirdi. Bu ev silahlı quldurların qərargahı idi. Görürdüm ki, qarət edilmiş ev əşyaları ilə dolu yük maşınlarını orada boşaldırdılar və öldürülmüş insanların cəsədlərini həmin qəbiristanlığa atırdılar. Bir qədər o tərəfdə Göy məscidlə üzbəüz doktor Bağirinin eybəcər hala salınmış lüt-üryan cəsədini piyada səkisinin üzərinə atmışdılar.

Nifrət gətirən səhnələr diqqəti cəlb edirdi. Silahlı bir kişi bir ailənin başçısını qabağına qatmışdı. Onların ardınca ailə başçısının arvadı və uşaqları ağlaya-ağlaya silahlıdan onun bağışlanmasını xahiş edirdilər. Silahlı kişi rəhmsizcəsinə əvvəllər xarabalıq olmuş indiki ticarət evinin yerində bir neçə güllə ilə kişinin nəfəsini kəsdi və ailəni başsız qoydu. Zindan məhbuslarla dolu idi. Xeyli sayda binanı məhbusların saxlama yerlərinə çevirmişdilər. Mühacirlərin öldürülməsini elan etmişdilər. 1938-1939-cu illərdə Rusiyadan gəlmiş hər bir kəsin arxasınca gedib ya ölüsünü, ya da dirisini gətirirdilər."[154]

## "Tehran-e mosəvvər" jurnalının doktor Bağıri düyününü açması

[154] Həmid Mollazadə. Möhürlənmiş sirlər (Azərbaycan hadisələri haqqında deyilməyənlər), səh.100.

[155] "Tehran-e mosəvvər", 16.12.1946.

[156] Ordu generalı Hüseyn Fərdustun xatirələri. səh. 151.

Ordu ilə bir yerdə Təbrizə gəlmiş "Tehran-e mosəvvər" jurnalının müxbiri doktor Beğeri ilə bağlı belə bir açıqlama vermişdi:

"22 azər günü (13 dekabr) doktor Cavid Bostanabadda yerləşən mərkəzi hərbi qüvvələrin komandanı polkovnik Fuladmənd ilə müzakirələr aparmışdır. Demokratik dövrün ostandarı inana bilmədi ki, Təbriz şəhərinin şərəfli əhalisi guya xaricilərin nökəri olan satqın doktor Bagırini əziz İrana xəyanət etdiyinə görə qətlə yetirmiş və boynuna ip bağlayıb, küçələrdə gəzdirmişlər". [155]

## Fərdustun Təbriz haqqında xatirələri

İran ordusunun Azərbaycanı işğal etməsindən sonra Təbrizə səfər etmiş Fərdust öz xatirələrində belə yazır: "Silahlı adamlar Pişəvərinin adamlarını axtarırdılar. Onları evlərindən çıxarıb, edam edirdilər. Küçələrin kənarında edam olunmuşların cəsədləri görünməkdə idi. Təxminən 2000 və ya 3000 nəfəri edam etmişdilər."[156]

Həmçinin Fərdustu müşayiət edən gözətçi ona belə demişdi: "Gözətçinin komandiri Təbrizli idi. Hərbi rütbəsi polkovnik-leytenant ya da mayor idi. Şəhərdə böyük nüfuzu var idi. O, açıq-aşkar mənə demişdi ki, bütün firqəçiləri hətta, onların ailə üzvlərini də tanıyıram. O, bir siyahı hazırlamışdı. Siyahıya əsasən 2000 nəfər adamı güllələmişdilər."[157]

## Uşaqların küçələrdə öldürülməsi

İran ordusunun zabitləri və jandarmlar tərəfindən idarə olunan quldur və başkəsənlər hətta, uşaqlara belə rəhm etmirdilər, onları da öldürürdülər. Əhməd Səlimi Fərd Təbrizin qanlı günləri haqqında belə yazır: "Həyatımın acı xatirələrindən biri budur ki, dövlət qoşunları Azərbaycana daxil olmamışdan əvvəl, o tarixdə mən

[157] Yenə orada, səh. 151.

Təbrizdə idim. Bəzən atamın Firdovsi küçəsindəki ərzaq mağazasında ona kömək edərdim. Biri 12, o biri 15 yaşında olan iki qardaş bizim dükanın qarşısında alver təşkil edib, atvyorka, açar, qıfıl və s. kimi rus alətləri satırdılar. Bir gün başkəsənlər əllərində çomaq tökülüşüb, 15 yaşlı oğlanı bizim heyrət içində olan gözümüzün qarşısında ağacla, kərpic və dəmir parçaları ilə, tüfənglə öldürdülər. Kiçik qardaş gizlənib, xilas oldu. Sonralar eşitdim ki, onların ata və analarını tapıb, həmin vəziyyətdə öldürmüş, evlərini də qarət etmişdilər. Həmin uşağın günahı o olmuşdur ki, atası 1938-1939-cu illərdə Rusiyadan qovulmuş mühacirlərdən idi. Hamısını öldürdülər. Öldürülmüşlərin saysız-hesabsız cəsədləri Firdovsi və Pəhləvi küçələrində bir-birindən bir neçə metr aralıda atılıb, qalmışdı. Cavan vaxtlarında belə bir hadisənin şahidi olmuşam..."[158]

## Cəlal Qarabağlının edam edilməsi

Bəndər Abbasa sürgün edilmiş Cəlal Qarabağlını sonralar mərkəzi dövlət demokratlar tərəfindən tutulmuş polkovnik Zəngənə ilə Təbrizdə mübadilə etmişdi.

1946-cı ildə ordu Azərbaycana daxil olduqdan sonra Cəlal Qarabağlı bir daha tutularaq edam edildi.[159]

## Təbrizdə edamlar

"Ettelaat" qəzeti Təbrizdəki edamlar haqqında aşağıdakı xəbəri nəşr etmişdi: "Təbriz, "Ettelaat" qəzeti- Təbriz tribunalında edama məhkum edilmiş qiyamçıların rəhbərlərindən Rəhim Əkbər oğlu ilə Allahverdi bu gün səhər edam edildilər."[160]

---

[158] Əhməd Səlimifərd. Şəbüstər, Təsuc və Sofiyanın tarixinə və coğrafiyasına bir baxış, səh. 208.
[159] Həmid Mollazadə. Möhürlənmiş sirlər (Azərbaycan hadisələri haqqında deyilməyənlər), səh. 11.
[160] "Ettelaat" qəzeti, 05.05.1947.

“Təbriz. Bu gün səhər düşənbə günü ordubeheşt ayının 14-də (bazar ertəsi, 5 may 1947) qiyamçıların mayoru Sadiq Ənsar, Marağa qiyamçılarının Azərbaycan məclisində nümayəndəsi Dadaş Tağızadə və Rizaiyyədən Hartun Harapetyan Təbriz hərbi tribunalının hökmü ilə dar ağacından asılmaqla edam olundular.”[161]

## Azərbaycan Milli Hökumətinin prokurorurun edam edilməsi

Həm yazıçı, həm də, Azərbaycan Milli Hökumətində prokuroru olmuş Firudin İbrahimi həbs edildikdən sonra bir neçə ay Təbriz həbsxanasında məhbus kimi saxlanılmışdı. O, açıq məhkəmədə Azərbaycan Milli Hökumətini müdafiə edərək demişdi ki, mən Azərbaycan Milli Hökumətinin əmrlərini yerinə yetirmişəm. O, “Azərbaycan danışır” adlı kitabında Azərbaycan xalqının tarixi və mədəniyyətini müdafiə etdiyi kimi, açıq məhkəmədə də, Azərbaycan xalqını və onun milli hökumətini müdafiə etmişdi. O, 1 Xordad 1326-ci ildə (23 may 1947-ci ildə) səhər saat 5-də Gülüstan bağının qarşısında üst cibinə qızıl gül taxmış halda edam edildi.

## Təbrizdə həbslər

“Ettelaat” qəzeti Təbrizdəki həbslər haqqında aşağıdakı xəbəri nəşr etmişdi. “Təbriz, Rəhim Furqandust xordad ayının 25-də (16 iyun 1947) hərbi komendantlığın məmuru Cahan Bəylərinin iştirakı ilə həbs edildi.”[162]

“Təbriz, pəncşənbə günü tir ayının 11-i (3 iyul). Bu gün səhər qiyamçıların hökumətində maliyyə nazirinin müavini olmuş Hə-

[161] “Ettelaat” qəzeti, 05.05.1947.
[162] “Ettelaat” qəzeti, 23.01.1947.

sənzadə hərbi hakimiyyət tərəfindən həbs edildi. Onu hərbi hakimiyyətin zabiti Cahan Bəyləri həbs etmişdi.

Təbriz Hərbi hakimiyyətinin fəaliyyəti hər cəhətdən təqdir olunmalıdır. Üç gün ərzində qiyamçıların 3 nəfər zabiti həbs edilmişdir. Bu üç nəfər ordunun fərari zabitlərindəndirlər."[163]

## Təbrizdə Azərbaycan mədəniyyət xadimlərinin öldürülməsi

Ordunun hücumundan və Azərbaycanda soyqırımı başlandıqdan sonra Təbrizin bir çox incəsənət nümayəndələri Tehran hakimiyyətinin havadarları tərəfindən faciəli şəkildə qətlə yetirildilər.

Bu məsələni aydınlaşdırmaq üçün bir neçə mətləbi açıqlamaq lazımdır.

Doktor Behzad kitabça halında çap edilmiş Tehrandakı azərbaycanlı tələbələrlə müsahibəsində Təbrizdə Həsən Zülfüqarzadənin qətlini aşağıdakı kimi şərh etmişdir:

"Burada Təbriz rəssamlarından biri olan Həsən Zülfüqarzadənin taleyinə bir daha qayıtmağı münasib bilirəm. O, 1297-ci ildə (1918) Təbrizdə anadan olmuşdur və uşaq evində böyümüşdür. O, rəssamlıq istedadına malik olub, ustadlardan dərs almışdı. O, 1946-cı ildə quldur və başkəsənlərin Behzad adına rəssamlıq muzeyinə hücumları zamanı onların qarşılarına çıxaraq əsərlərin məhv edilməsinə mane olmaq istəmişdi. O, bir nəfər tərəfindən döyülərək, həbs edilmişdi. Bir neçə gündən sonra isə qarlı Surxab dağlarının ətəyində edam edilmişdi.

Xanım Fəxur Gözəl bir cümlə ilə onun əziz xatirəsini belə yad etmişdir: "Beləliklə, Həsən Zülfüqarzadə Təbrizin buludlu səmasının altında qarlı-şaxtalı bir yerdə qarın üzərində öz qanı ilə axırıncı rəsmini çəkdi. O, öz sənətini qorumaq yolunda şəhid olmuş ilk rəssamdır. Ruhu şad olsun."

---

[163] "Ettelaat" qəzeti, 23.01.1947.

***Əli Fitrət:***

Azərbaycana aşiq olan bir şair idi. Şahın tərəfdarları tərəfindən öldürüldü. Əli Fitrət 1268-ci ildə (1889-cu ildə) anadan olmuş Təbrizin fəal şairlərindən idi. Azərbaycan işğal edildikdən sonra tutularaq, iki il Tehranda həbsdə qaldı. 1948-ci ildə zindandan azad edildikdən sonra rejimin adamları tərəfindən öldürüldü.

***Səid Yüzbəndi:***

O, 1279-cu ildə (1900-cu ildə) anadan olmuşdu. Şair və teatr artisti idi. Təbrizdə mərkəzi hökumət tərəfdarı olan silahlı adamlar tərəfindən tutularaq öldürüldü.

***Məhəmməd Bağır Niknam:***

1300-cü ildə (1921-ci ildə) Təbrizdə anadan olmuşdu. Şair idi və Təbriz kibrit fabrikasında işləyirdi. Təbrizdə “Şairlər məclisi”-nin fəallarından idi. Müstəmləkəçilərin tərəfdarları tərəfindən öldürüldü.

***Əli Cacizadə:***

Teatr artisti idi. Həbs edilərək Tehrana sürgün edilmişdi və orada vəfat etmişdi.

## Ticarət mərkəzlərində Azərbaycan dilindən istifadənin qadağan edilməsi

İran ordusu Təbrizdə yerləşdirildikdən sonra milli hökumətdən qalmış bütün plakat və şəkillər məhv edildi. Bunların yaxşı və ya pis olmaları ilə işləri yox idi. Hər şeyi Azərbaycan xalqının zehnindən silmək istəyirdilər. İstəmirdilər ki, Azərbaycan xalqının röyaları bir daha həmin şirin və unudulmaz günlərə qayıtsın. Hər şeyi xalqın yaddaşından silmək istəyirdilər. Bununla bağlı onlar bütün sahələrdə,

o cümlədən, ticarət və əmlak sənədlərində Azərbaycan dilindən istifadəni qadağan etdilər. Bu məqsədlə Azərbaycandakı ordu komandanlığı tərəfindən Təbrizdə aşağıdakı məzmunda bildiriş yayıldı: “Bəzi ticarət mərkəzlərində macəraçılardan qalmış və indiyə qədər istifadə edilən sənədlərin olduğunu nəzərə alaraq hamının diqqətinə çatdırılır ki, macəraçıların istifadə etdikləri bütün qanunlar və rüsumlar ləğv edilir. Yalnız İran milli məclis şurası tərəfindən təsdiq edilmiş və dövlət tərəfindən verilmiş qərar, qanun və sərəncamlar icra olunacaqdır. Mərkəzi hakimiyyətin qanun və qərarlarını pozanlar təqib edilərək, cəzalandırılacaqlar”.7[164]

## Ordunun yerləşməsindən sonra Təbrizin vəziyyəti

Ordunun daxil olub, Təbrizdə yerləşməsi ilə əhalinin vəziyyəti bütün cəhətlərdən pisləşdi. Ordunun zabitləri müxtəlif bəhanələrlə yazıq insanlardan pul və rüşvət yığırdılar.

Ordunun yerləşməsindən sonra Azərbaycana səfər etmiş İran Birlik Firqəsinin üzvü Əli Zərrinə 1325-ci ilin 15 isfənd ayının 8-də (1946-cı il mart ayının 1-də) firqənin həftəlik iclasındakı çıxışında Azərbaycana səfəri haqqında aşağıdakı hesabatı vermişdi: “Azərbaycanın vəziyyəti hər cəhətdən,xüsusən, dövlət adamlarının əhaliyə təzyiqi və rüşvət almaqları cəhətdən çox pisləşmişdir. Dövlət məmurları Azərbaycana daxil olduqdan sonra ilk növbədə demokrat firqəsi dövründə idarələrdə olan dövlət əmlakını qarət etdilər. Xüsusən, universitetdə və tibb universitetinin laboratoriyasında çoxlu qarətlər etdilər. Demokrat firqəsi son zamanlar laboratoriya üçün SSRİ-dən xeyli avadanlıq almışdı. Bu avadanlıqlar yox olmuş və bilinməyir ki, haradadır. Tələbələr açıq-aşkar deyirlər ki, dövlət işçiləri gəlməmişdən qabaq bütün laboratoriya

[164] “Ettelaat” qəzeti, 9.01.1947.

avadanlıqları yerində idi. Lakin,indi məlum deyildir ki, mədəniyyət idarəsinin rəhbərləri onları hara aparmışlar".

Bu adam davam edərək dövlət məmurlarının və jandarmların Təbriz camaatından bac yığmaları haqqında belə hesabat vermişdir: "Ordu zabitlərinin çoxu insanlardan çoxlu miqdarda pul yığmışlar. Məsələn, bizim qohumlarımızdan birini Azərbaycan Demokrat Firqəsinin üzvü adı ilə tutmuşdular. Yerli əncümən onu günahsız bilməsinə və azad edilməsinə baxmayaraq, ondan 500 riyal almışdılar. İndi də, rüşvətxorluq geniş yayılmışdır və bütün insanlar dövlət məmurlarından narazıdırlar."

## Xanların geri qayıtması və Azərbaycanda kəndlilərin bədbəxtliklərinin başlanması

Milli hökumətin qurulması ilə Azərbaycandan qaçmış zalım xanlar və onların tərəfdarları İran ordusu ilə Azərbaycana qayıtmış və kəndlilərdən intiqam almağa başlamışlar. Xanların çoxu və mübaşirləri ötən ilin əmlak gəlirini kəndlilərdən aldılar. Bununla əlaqədar Basmanc kəndliləri tərəfindən baş nazirə və qəzetlərə göndərilmiş teleqramın məzmunu aşağıda verilir: "Əlahəzrət şahənşah Təbrizə təşrif gətirdiyi zaman onu müşayiət etmək üçün şəhər meriyasına gəlmiş alim və ruhanilərin hüzurunda o, ciddiyyətlə buyurdu ki, Azərbaycanın kənd təsərrüfatı geri qalmışdır. Siz alimlər, mülkədar və kəndliləri kənd təsərrüfatı sahəsində islahatlar aparmağa çağırmalısınız. Lakin xanlar İran şahının dediklərinin əksi nə olaraq bütün gücləri ilə biz Basmanc kəndlilərinin əleyhinə silahlı təcavüz, hədə, zülm işlədərək, biz əkinçiləri öz pəncələri altında əzirlər. On iki il bundan əvvəl bir nəfər Seyid Məhəmməd Fərşi adında şəxs general-mayor Müqəddəmin nümayəndəsi kimi Basmanc kəndinə gəlmiş və vahid hökmranlığı ələ keçirmişdi. Yəni, general-mayorun nüfuz və məqamından istifadə edərək biz kəndlilərin boğazını zülm və sitəmlə sıxmış və həqiqi hüquqlarımızı tapdalamışdı. Bizə zülm edərək biz bədbəxt kəndlilərin ürəklərinin qanını içməklə özünə sərvət yığ-

mışdı. Bəli, bu zalım və qaniçən mülkədarın var-dövləti bizim kişilərin, qadınların və uşaqların ürək qanıdır. O, bu dağıdılmış kəndlə özü arasında bir bağlılıq əmələ gətirmişdir. Ötən il, qiyamçıların hakimiyyəti zamanı adı çəkilən mülkədarın əmlakı müsadirə edildi və onun əmlak vergisi 20%-lə kəndlilərdən tutuldu. Bu il Seyid Məhəmməd Fərşi qayıdaraq ötən ilin gəlirini həyasızcasına bizdən tələb etdi. O, rəhmsizcəsinə bir qaniçən kimi biz məzlumlarla müamilə edir, şahın fərmanını və onun buyurduqlarını beş min nəfərlik Basmanc əhalisinə qarşı bu tərzdə icra edir. Biz,əlləri hər yerdən üzülmüş məzlum kəndlilər şahənşahdan xahiş edirik ki, biz məzlum rəiyyətlərə diqqət yetirsin, bizim barəmizdə bir tədbir görsün və bu qaniçən mülkədardan canımızın xilas olması üçün ciddi bir əmr versin ki, asudəliklə yaşayıb, sevimli şahımıza dualar etməklə məşğul olaq. Əks halda, Seyid Məhəmməd Fərşinin əlindən xilas olmaq üçün məcbur olacağıq ki, əhli-əyalımızı götürüb əcdadlarımızın yaşayıb, zəhmət çəkdikləri kəndimizdən köçüb, başqa yerə gedək. Cavan şahımızın bizə lütfünü və əmrlərini gözləyirik. Basmanc kəndinin etimad göstərilmiş nümayəndələri və ağsaqqalları: Abbas Basmançı Məşıri, Məhəmməd ağa Basmanclı, Məşədu Qulu, Qulam, Hüseynəli, Abbasqulu, Məşədi Abbas, Məşədi Mehdi, Kərbəlayi Həbib, Məşədi Məhəmməd, Əkbər Basmanc, Haccı Tağı, Həsənəli, Məşədi Xəlil Rüstəmli, Məşədi Qulu, Məşədi Qulam Basmanclı, Əli Kərəm, Abasqulu Basmanclı”.[8165]

## Təbrizdə həbslər

Təbriz işğal edildikdən sonra Tehran hakimiyyətinin tərəfdarları xanların adamları və ordu ilə birlikdə məşhur adamları, demokrat firqəsinə bağlı olan sadə adamları həbs etməyə başladılar. Çoxlu sayda insanları zindanlara saldılar. Zindanlarda artıq yer yox idi.

[165] “Ayin-e islam” jurnalı, 4-cü il, No 11, 04.07. 1947, səh. 18
[166] “Atəş” qəzeti, 19.01.1947.

"Atəş" qəzeti cənab Rəfinin və doktor Ourənginin həbs edilməsi haqqında Təbrizdən mərkəzə göndərilmiş teleqramın mətnini dərc etmişdi: "Tehran – Dey ayının 26-ı (16 yanvar). Dünən Nizamüddövlə Rəfii və demokrat firqəsi hökumətində səhiyyə naziri olmuş Ourəngi hərbi hökumət tərəfindən həbs edilmişlər".[166]

## Təbrizin işğalından sonra azğınlığın çoxalması

İran ordusu Azərbaycanı işğal etdikdən sonra mərkəzi hakimiyyət məmurları Azərbaycanda azğınlığa başladılar. Bu azğınlıq hətta, demokrat firqəsini dinsizlikdə ittiham edənlərin təəccüb və heyrətinə səbəb oldu. Aşağıda demokrat firqəsi zamanı şah tərəfdarı olmuş bir dəstə Təbrizlinin bəyannaməsi verilir. Bu bəyannamədə rejim məmurlarının necə azğınlıq etmələri diqqətə çatdırılır. Firqənin dünənki əleyhdarlarının bu bəyannaməsində deyilir ki, Tehran Pişəvərinin sözləri ilə desək Azərbaycanı müstəmləkəyə çevirmişdir və onu kiçik Hindistan hesab edir. Bu bəyannamə şahı müdafiə edən "Ayine Eslam" (İslam ayini) jurnalında dərc edilmişdir:

"Pişəvəriyə yüz dəfə rəhmət olsun! Müsəlmanlar, Azərbaycanın əziz vətəndaşları! Neçə vaxtdır ki, biz – gələcəyin intizarında olanlar, xırmanbaşı vədlərinə, normalı çörəyə və Rza Fəhminin mədəniyyətinə dözənlər Azərbaycanda ticarətinin süqutuna, şəhərlərin dağıdılmasına, keçmiş məmurların oğurluq etməsinə və ifratçılığına, nəhayət qiyamçıların bir illik təzyiqlərinə dözərək, imkan düşən kimi öz qeyrətimizi, igidliyimizi, möhkəmliyimizi göstərmişik və canımızdan keçməklə, fədakarlıq göstərməklə qiyamçıların və onların tərəfdarlarının kökünü kəsməkdə ordu və hökumətlə əməkdaşlıq etmişik. Tacirlər, zadəganlar, sənətkarlar və başqa təbəqələrin nümayəndələri – uşaqdan böyüyə qədər əlinə silah götürüb ən təhlükəli anlarda ölkənin maraqlarını qorumuş, islahatların keçirilməsi və insanların maddi və mənəvi ehtiyaclarını ödəmək üçün əlverişli şərait yaratmışlar. Onlar gözləmişlər ki, dövlət

əlahəzrət şahənşahın və cənab baş nazirin qərarlarını və biz məzlumlar barəsində xoş məramlarını biz şahsevənlərin və vətənsevərlərin xidmətləri əvəzinə yerinə yetirəcəkdir. Lakin, təəssüflər olsun ki, bəzi buraya ezam olunmuş dövlət məmurları öz mövqelərindən sui-istifadə edərək mövqelərindən şəxsi arzularının və həvəslərinin yerinə yetirilməsi üçün istifadə edir, vaxtı çatmış islahatların yerinə yetirilməsi əvəzinə zəhərli təbliğatlar aparır, nifrət gətirən həyasız bəyanatlar verir, öz vaxtlarını fahişəxanaların yenidən işə düşməsinə, iffətsizliyin yayılmasına və dinsiz mərkəzlərin yaradılmasına sərf edirlər. Onlar insanların başını papaq və çadra məsələsi ilə məşğul etməklə açıq-aşkar millətə, dövlətə və vətənə xəyanət edirlər. Halbuki, azərbaycanlılar ən böyük meyl və diqqəti namusa və dindarlığa yönəldirlər.

Yəmin İsfəndiyari bu günlərdə Tehrandan iki-üç xanımla gəlmiş və ağaların başının sədəqəsini toplamışdır. Bu işdən onun başqa məqsədi vardır. Dünən şəhərdarlığın salonunda xeyli miqdar hörmətli adamların və dövlət rəhbərlərinin arasında özünün qotur qiyafəsi ilə otağın ortasında quyruq bulayan nökər kimi yıxılmışdı və ya özünün fikirləşdiyi kimi guya səcdə etmişdi. Niyə?! Azərbaycanın xilası üçünmü? Ayrılmaq təhlükəsinin aradan qaldırılması üçünmü? Xainlərin kökünü kəsmək üçünmü? Xeyir, bunlar üçün deyildi. Yəmin İsfəndiyarinin belə şeylərə əhəmiyyət verməsi məlum deyildir. Çünki, tam istirahət və keyf üçün Tehranda əylənmiş və bilmir ki, zülm çəkmiş əhali xainlərin çəkmələri altında nələr çəkmişdir?!. Bəs nə üçün səcdə etmişdir? Kişilərdən də daha açıq-saçıq olan bir neçə qadın üçün! Səcdədən sonra boş və mənasız sözlər söyləmiş və buyurmuşdur ki, Azərbaycan qadınları da, bu qadınlar kimi açıq-saçıq olmalıdırlar. Bəli, xain Pişəvəri bəzi düz sözlər söyləmişdir. O deyirdi ki, bəzi Tehran məmurları Təbrizi müstəmləkə və ya kiçik Hindistan hesab edirlər”.[167]

## Qorxu və dəhşət yaratmaq üçün şahın Azərbaycana səfəri

Azərbaycanın işğalından sonra ordu xalqın bütün var-yoxunu qarət etdi. Milli Hökumətin bir il ərzində yaratdığı bütün təməllər dağıdıldı və Azərbaycanda qan selləri axdı. Ordu və mərkəzi hakimiyyətin havadarları Azərbaycan xalqını elə sındırmaq istəyirdilər ki, bir daha öz başını dikəldə bilməsin və həmişəlik müstəmləkəçilərə boyun əysin. İran ordusu və mərkəzi dövlət tərəfdarları beş ay ərzində Azərbaycanın öz tarixində heç vaxt şahidi olmadığı cinayətləri etmişdilər.

Məhəmməd Rza şah Pəhləvi daha çox qorxu və dəhşət yaratmaq məqsədilə işğaldan altı ay sonra Azərbaycana səfər etdi və həmin vaxt Azərbaycan xalqının əfsanəvi qəhrəmanı Firudin İbrahimi Azərbaycanda qorxu və dəhşətin daimi qalması üçün edam olundu.

Bu səfərdə demokrat firqəsi zamanı şahları çox yerdə müşayiət etmiş şah tərəfdarları olan saray ruhaniləri şahı qarşılamaq üçün bütün şəhərlərə gedir və şaha dua və salavat deyirdilər. Dinlərini və dünyalarını riyakarlıq və firqə əleyhinə yalan danışmaqla satmış bu saray ruhaniləri bir daha müstəmləkəçilər tərəfindən taxta əyləşdirilmiş adamı qarşılamağa tələsirdilər.

Aşağıda “Ayin-e islam” (İslam ayini) jurnalında dərc edilmiş yazıda Təbrizin Talibiyyə mədrəsəsində şahın saray ruhaniləri və şah tərəfdarları tərəfindən qarşılanmasının gedişatı verilmişdir:

“Əlahəzrət şahənşahın Təbrizin böyük dini məktəblərindən olan “Talibiyyə” mədrəsəsinə gəlməsinin gedişi haqqında jurnalın müxbiri aşağıdakı məlumat verir –Xordad ayının 6-da (may ayının 27) çərşənbə günü axşam saat 6-da əlahəzrət şah dini təhsil alanların vəziyyəti ilə tanış olmaq üçün “Talibiyyə” mədrəsəsinə gəldi. Mədrəsənin qapı və divarlarını küçədən başlayaraq qiymətli xalçalarla bəzəmişdilər. Şahın mədrəsəyə bu diqqətindən hüccətül-islamlar, dini təhsil alanlar, dindarlar və maraqlananlar arasında təsəvvürə gətirilə bilməyən bir həyəcan və sevinc yaranmışdı. Şahın gəlişi zamanı bir neçə qoyun kəsildikdən sonra həzrət hüccətül-

islam Şəriətmədari və Ağa Seyid Həsən Xoyi, Hacı Mirzə Məhəmməd Əli Əngəci, Ağa Seyid Murtuza Ələm və Hacı Seyid Hadi Xosrovşahı küçənin əvvəlində sevimli şahənşahı qarşıladılar. Şah təşrif gətirdiyi zaman küçədə mədrəsənin və tələbələrin vəziyyəti ilə bağlı Hacı Seyid Murtuza Ələmə bir neçə sual verdi. Hacı Seyid Murtuza Ələm verilən suallara cavab verdi. Əlahəzrət şah mədrəsənin həyətinə daxil olan zaman oraya toplaşmış adamlar və tələbələr uca səslə və davamlı olaraq salavat söyləyir və şahın mübarək zatına dualar edirdilər. Mirzə Hüseyn Hüseynzadə Xoyi o zaman “Talibiyyə” mədrəsəsinin ciddi və fəal tələbələrindən idi. O, Quranın “Nur” surəsini uca və cəlbedici səslə oxuyurdu. Cənab Mənsur, şahı müşayiət edən şəxslər, general-polkovnik Şahbəxti, general-leytenant Zərzabi, general-mayor Danişvər, bir dəstə yüksək rütbəli və ali dərəcəli məmurlar bu tədbirdə iştirak edirdilər. Həzrət Ayətulla Şəriətmədari şahın mübarək hüzurunda ona “Xoş gəlmişsiniz” dedi və sonra aşağıdakıları bildirdi:- Alimlər, tələbələr, təbliğatçılar, dindarlar və bütün Azərbaycan əhalisi adından təşəkkürlərimizi bildirir, böyük Allahdan Sizə uzun ömür, şövkət və şanınızın çoxalmasını arzu edirəm. Əlahəzrət, qədim mədrəsələr İranın və islamın min illik tarixi boyu görkəmli xidmətlər göstərmişlər. Böyük din və dövlət adamlarına vətənə və müqəddəs islam dininə xidmət etmək üçün öz qucağında tərbiyə vermişlər. Əlahəzrətin və onun bəndələrinin yadında olduğu kimi böyük və adlı-sanlı adamlar dini məktəblərin şagirdləri olmuş, onların adı tarixin səhifələrinə yazılmışdır. Bu adamlar ölkəyə və din aləminə böyük tarixi xidmətlər göstərmiş, bütün dünyada elm və mərifətin məşəldarı olmuşlar. Lakin, təəssüflər olsun ki, bir müddətdir dini məktəblərə və dini təhsil alanlara layiqincə diqqət yetirilmir.

Əlahəzrət, silahlı ordu məmləkətə lazım olduğu kimi dini təhsil alan tələbələr də, ölkənin islah* olunmasının qoşunlarıdırlar. Onlar ölkənin və dinin xidmətçiləri olmaqla yanaşı ölkəni və onun şahını

* islah – dəyişmə.

sevəndirlər. Onlar ölkənin məvacib almayan qoşunlarıdırlar. Onlar az çörəyə qənaət edirlər. Tələbələrin təhsil aldıqları mədrəsələr və qaldıqları yerlər təmirsizdir və rahat deyildir. Bu cür dözülməz zəhmətlə yaşayırlar. Bununla belə, ölkəyə və dinə xidmət etməkdən yorulmurlar. Onlar nə pul, nə muzd və nə də, hədiyyə istəyirlər. Yalnız etdikləri xidmətlər müqabilində xahiş edirdilər ki, şah tələbələrin etdikləri xidmətlər qədər onlara diqqət yetirsin. Əlbəttə, əlahəzrətin “Talibiyyə” mədrəsəsinə gəlişi həqiqətən böyük təşəkkür və məmnuniyyətlə qarşılanmışdır. Şahın belə mərhəməti onu göstərir ki, ölkəyə xidmət edənlərin bu hissəsi də, gələcəkdə xüsusi diqqət mərkəzində olacaqdır.

Əlahəzrət şahdan xahiş edirik ki, dini təhsil alan tələbələrə, din təbliğatçılarına, qədim mədrəsələrə, bütün dini binalara və dini simvollara xüsusi əhəmiyyət və şah diqqəti yetirilsin. Burada iştirak edə bilməyən və bu əzəmətli görüşdən bəhrələnə bilməyən dini alimlər çox təəssüf edəcəklər. Çünki, əlahəzrətin bizim yanımıza gəlməsindən gec xəbər tutmuşuq, Buna görə də, şaha layiq olan qarşılanmanı təşkil edə bilmədiyimizə görə təəssüf edib xəcalət çəkirik. Din alimlərinə də gec xəbər çatmış və bu səbəbdən onlar burada iştirak edə bilmirlər”.

Əlahəzrət şahənşah “Talibiyyə” mədrəsəsində məktəblərin, tələbələrin və məscidlərin sayını soruşdu və ona müvafiq uyğun cavablar verildi. Sonra hüccətül-islam Şəriətmədarinin bütün dediklərini təsdiq etdi, onlara tezliklə köməklər göstəriləcəyini vəd etdi və buyurdu ki, doğrudan da hər bir tələbə öz növbəsində dinə və vətənə xidmət etməklə məşğul olan bir zabitdir. Bu təbəqədən olan insanlara dayaq olmalıyıq ki, dini elmlər daha da qüvvətlənsin. Şahın hüzuruna təşrif gətirmiş hüccətülislamlar öz şahlarının lütf və mərhəmətinə layiq görüldülər.

Saat 7-də əlahəzrət şah hüccətülislamların, dini təhsil alanların və bütün tamaşaçıların şah sevgisi ilə dolu hissləri altında mədrəsədən qayıtdı. Şah korteji hərəkət edən zaman başqa hüccətülislamlar

da,şahı görmək şərəfinə nail oldular. İnsanlar bir saata qədər öz hisslərini izhar edərək, şahın zatına dua edirdilər".9[168]

Abdulla Düyəçi – Təbriz

## *SƏRAB*

### Sərab istiqlaliyyət yollarında addımlayarkən

Sərab şəhəri şimali Azərbaycana yaxınlığına görə, Bakıda və Qafqazda yaşayıb təhsil almış savadlı adamlara malik olduğuna görə xanların və onların adamlarının, xaricilərdən asılı olan şahların zülmündən təngə gəlmişdi. Sərablılar Azərbaycanın azadlığı üçün Təbrizdə və Azərbaycanın başqa şəhərlərində yaşayan qardaş və bacıları ilə əl-ələ verərək və dəstə-dəstə demokrat firqəsinə qoşularaq xanların, jandarmların zülmünə qarşı mübarizəyə qalxdılar. Onlar müstəmləkə və istibdad zəncirlərini qırmaq üçün öz qardaşları ilə çiyin-çiyinə verib, mübarizəyə qalxdılar. Azadlıq yolunun ən çox şəhidini Azərbaycana sərablılar təqdim etdilər.

### Sərabda Demokrat Firqəsinin təşkili

Azərbaycanın taleyini təyin etmək və azadlığa yetişmək məqsədilə rəsmi olaraq Təbrizdə demokrat firqəsinin yaradılmasının elan edilməsindən sonra firqə rəhbərləri yerlərdə firqə təşkilatları yaratmaq məqsədilə öz nümayəndələrini Azərbaycanın başqa şəhərlərinə göndərirdilər. 23.06.1324-cü ildə (14.09.1945) Sərab şəhərinin torpaq sahiblərinin və əhalisinin xahişi ilə Sərabda Demokrat Firqəsi təşkilatı yaradıldı və aşağıdakı şəxslər firqə təşkilatı komitəsinin üzvləri kimi təklif edildilər:

1. Mehdi Haşimi (Seyid Mehdi Haşimi Azərbaycan işğal edildikdən sonra tutulmuş, Təbrizdə və Bəndər-Abbasda 20 il həbsdə yatdıqdan sonra 1345-ci ildə (1966-cı ildə) azad edilmişdir. O,

[168] "Ayin-e islam" jurnalı, 07.03.1947, səh. 10.

1379-1380-ci ildə (2000-2001) Tehranda vəfat etdi və Behişti-Zəhra qəbiristanlığında dəfn edilmişdir.

2. İsmayıl Qəzayi.
3. Əbülhəsən Vaqif.
4. İzzətəli Əsgəri.
5. Fəxrəddin Mühaciri.
6. Əşrəf Məali.
7. Rza Nüsrəti.[169]

## Sərab nümayəndələri Azərbaycan Milli Məclisində

Azərbaycan Milli Məclisində Sərabın nümayəndələri aşağıdakı şəxslər idi (Milli Məclisdə Sərabın payı 4 nəfər idi):

1) Qulamyəhya Daneşyan
2) Yusif Əzima
3) Əbülhəsən Vaqif
4) Mahmud Qəznəvi (Mirkuh Sultan kəndindən)

## Sərabın düşməndən azad edilməsi

Sərab şəhəri ciddi hərbi toqquşma olmadan azad edildi. Yalnız müstəmləkəçi Tehran hökumətinin tərəfdarları olan bir neçə jandarm postu təslim olmadılar. Jandarmlar fədailərin gücü ilə təslim edildilər və Sərab azər ayının 20-i 1324-cü ildə (11.12.1945) Milli Hökumətin əlinə keçdi. Rəhim Nikbəxt “Sərabda demokrat firqəsi” kitabında göstərdiyi kimi, Sərab azad edildikdən sonra Sərabda bütün işləri aşağıdakı 4 nəfər idarə edirdi: “Şəhər tutulduqdan sonra Kağızkonan əhalisindən olan Fazil Qəffari Sərabın qubernatoru oldu. Əli Mərdan oğlu Əbi şəhər polis idarəsinin rəisi, Məmi Sadiqi fədailərin komandiri, Mirqasım Çeşmazər (Mərkəzi Komitənin sədri) və Bilal Sumalizadə firqənin gənclər təşkilatının başçısı oldular. Xalqın razılığını əldə etmək üçün şəhər başçıları 2

169 Nikbəxt Rəhim. Sərabda demokrat firqəsi.

aydan sonra yeniləri ilə əvəz edilirlər və Zəncan əhalisindən olan Cavid Sərabın qubernatoru təyin edildi”.[170]

Sərab şəhərinin azad edilməsində firqə rəhbərləri Qulam Rza Cavidan və Əli Mərdan oğlu Əbi mühüm rol oynamışlar.

## Sərabda firqənin qadınlar komitəsi

Qadınlar öz təbii hüquqlarını əldə etmək üçün Azərbaycan Demokrat Firqəsi zamanı fəallıq göstərdilər və hər bir şəhərdə firqənin qadınlar komitəsi təşkil edildi. Sərabda da belə bir komitə yaradıldı. Firqə üzvlərindən olan Həbib Sudinin həyat yoldaşı Mehri qadınlar təşkilatı komitəsinin katibi seçildi və fədai komandirlərdən olan Məhbub Xoşkəlamın Əfruz adlı həyat yoldaşı Mehrinin müavini kimi fəaliyyətə başladı.

## Sərab qan və atəş içərisində

İran ordusu qədəmini qoyduğu hər bir şəhərdə,hətta ora daxil olmazdan əvvəl, xanlara və müstəmləkəçilərin tərəfdarlarına köməkliklər göstərmək üçün həmin şəhərlərdə fitnə atəşi yandırırdılar. Sərabda da belə etdilər. Müstəmləkəçilərdən asılı olan Tehran hakimiyyətinin tərəfdarları ordu daxil olmamışdan əvvəl şəhərdə qətl və qırğınlar törətməyə başlamışdılar. Ordu daxil olduqdan sonra bu qətl və qırğınlar sistematik xarakter aldı. Rəhim Nikbəxt “Sərabda demokrat firqəsi” adlı kitabında belə yazır: “Demokrat firqəsinin əsas üzvlərinin qaçması xəbərinin yayılması ilə bir dəstə adam onların şəhər və kəndlərdəki evlərinə soxuldular və ələ keçirdikləri hər şeyi apardılar. Bu iş Sərab camaatının tarixi yaddaşında yaxşı qalmışdır. Məhbubun evini qarət edən zaman hətta kömürləri də aparmışdılar. Deyildiyinə görə onun qızına və qadınına təcavüz də edilmişdi. Belə işlər kəndlərdə də baş vermişdi.”

[170] Yenə orada, səh.126.

## Sərab şəhərinin qatil və başkəsənləri

Ordunun əvvəlcədən hazırladığı plana əsasən Azərbaycan xalqının məhv edilməsi üçün əvvəl şəhərin qatil və başkəsənləri şəhəri ələ keçirdilər. “Sərabda demokrat firqəsi” kitabında belə oxuyuruq: “Ordunun Səraba daxil olması 2-3 gün gecikdi. Bu fasilədə Əsədulla Şaki, Yəhya Nəimi, Məni Zeynalzadə, Əkbər Şeydayi və Heydər Şəfidən ibarət şəhər şurası şəhəri idarə etməyə başladılar.”

## Sərab kəndlərində cinayətlər

Ordu Azərbaycanı işğal etdikdən sonra cinayətlər, qətl və qarətlər hər yeri bürüdü. Kəndlərdə də, bu iş davam edirdi və bu iş Sərabda daha geniş vüsət aldı. Fədailərdən olmuş Əli Müsəddiqi (Sərabda “Sarı qaya” kəndinin sakini olmuşdur.) öz xatirələrində belə yazır: “Firqənin dağılmasından 4-5 gün sonra şəhər baş kəsənləri kənddə peyda oldular. Onlar bədbəxt insanların canına düşdülər və firqə ilə əlaqəsi olmuş adamların evlərini qarət etməyə başladılar. Firqə üzvlərinə işgəncə verirdilər. Atımı qənimət olaraq əlimdən aldılar. Kəndə hücum edənlər Şahsevən elindən və Sarı Qaya kəndinin mülkədarı olan Məcid xanın adamları idilər. Mən gizləndim... Başqa kəndlərdə də bu qəbildən olan əməllər törədilirdi”.[171]

## Müharibə dövrü məhkəmələrinin təşkil edilməsi

Asayişi qorumaq üçün gəlmiş İran ordusu xalqın və onun övladlarının ən böyük düşməninə çevrildi. Hərbiçilər azadlıqsevənləri ələ keçirdikləri hər yerdə müharibə dövrü məhkəmələrində mühakimə edirdilər. Sərabda daha çox azadlıqsevən olduğuna görə

[171] Həmid Mollazadə. Möhürlənmiş sirlər (Azərbaycan hadisələri haqqında deyilməyənlər), səh. 95-96.

millətin balalarını dara çəkmək üçün belə bir məhkəmə təşkil olundu. Rəhim Nikbəxt bu barədə belə yazır: “Ordu Sərabda yerləşdikdən sonra gizlənmiş fədailərin və firqə üzvlərinin kütləvi həbsi başladı. Onların işinə baxmaq üçün şəhərdə müharibə dövrü məhkəməsi təşkil edildi”.[10172]

## Azadlıqsevərlərin evlərinin yandırılması

Tehran hakimiyyətinin tərəfdarları və yardımçıları ordunun və xanların himayəsi altında azadlıqsevənlərin evlərini yandırır və bu yolla insanlarda qorxu və dəhşət yaradırdılar. Bundan əlavə, onlar azadlıqsevənlərdən şiddətli intiqam almaq istəyirdilər. Belə ki, bu adamlar tərəfindən Məhbub Xoşkəlamın evi yandırıldı, həyat yoldaşına və qızlarına əzab-əziyyət verdilər. Rəhim Nikbəxt yazır: “Məhbub Xoşkəlamın Əsəfestan kəndindəki evi demokrat firqəsi məğlub olduqdan və o, öldürüldükdən sonra yandırıldı”.[173]

## Küçələrdə cənazələrin asılması

İran ordusu və onun himayəçilərinin törətdikləri ən dəhşətli cinayətlər Azərbaycanın tarixinin heç bir dövründə görünməmişdi. Hətta, rus işğalçıları zamanı belə cinayətlər olmamışdı. İslamdan danışanlar və demokrat firqəsini islama zidd kimi məhkum edənlər bu cinayətləri necə izah edə bilərlər? İnsanları din adı altında firqəyə qarşı yalana və riyakarlığa təhrik edənlər bu adamların cinayətlərinə şərikdirlər. Onların əlləri də qana bulaşmışdır. Onlar hansı libasda olurlarsa olsunlar tanınmalıdırlar.

Məhbub Xoşkəlam öz torpağının azadlığı uğrunda mübarizə aparırdı və bu yolda şəhid oldu. Lakin, onun xanların havadarlarının, şahpərəstlərin və müstəmləkəçilərdən asılı olan Tehran

[172] Rəhim Nikbəxt. Sərabda demokrat firqəsi, səh. 171.
[173] Rəhim Nikbəxt. Sərabda demokrat firqəsi, səh. 173.

hakimiyyətinə bağlı olan adamların əli ilə şəhid edilməsi doğrudan da dəhşətli olmuşdu.

Rəhim Nikbəxt Məhbub Xoşkəlamın şəhid edilməsi haqqında Sərab qocalarının dilindən belə yazır: "Demokrat firqəsinin yüksək vəzifəli rəhbərlərindən bəziləri Sərab şəhərində həbs olunduqları zaman günahsız adamlar da, hökumət tərəfindən döyülərək, işgəncələrə məruz qaldılar. Bu arada Əsəfistan kəndindəki evində gizlənmiş Xoşkəlam həbs edildi. Qubernatorluğun qarşısında toplaşmış və onu etdikləri cinayətlərə görə öldürmək istəyən xeyli adamın tələbi ilə o,onların əlinə verildi. Qəzəblənmiş insanlar çomaq və daşla onu o qədər döydülər ki, o, bihuş olaraq yıxıldı. Sonra onu kötəkləyə-kötəkləyə yerlə sürüdülər. Məhbub başdan ayağa qan içində idi. Ayağında çəkmə olan bir nəfər tez-tez onun qarnına təpik vururdu. Ayağından sürüdüklərinə görə paltarı yığıldı və lüt bədəni sürtülüb dərisi soyuldu. Çoxlu qan tökdü. Bir başqası yenə bir daş gətirib onun başına vurdu və başı xurd-xəşil oldu və öldü. Onu çəkə-çəkə şəhərin əsas dörd yol ayrıcısına gətirdilər və ayağından asdılar. Deyilənə görə onun cəsədi on gün asılmış vəziyyətdə qalmışdı.[174] Bunları danışan Musa Abdali o zaman uşaq idi. Əlavə edib deyir ki, mənim o qədər yaşım yox idi. Məhbub cənazəsinin faciəli vəziyyətini görüb üç-dörd gün evdən bayıra çıxmadım".[175]

### Sərabda kütləvi həbslər

Sərabda geniş həbslər ordunun şəhərə həm girməsindən əvvəl, həm də, sonra başlanmışdı. Dövlət sənədlərində 156 nəfərin həbs olunması göstərilsə də əslində daha çox adam həbs edilmişdi. Xanların bəziləri kəndlərdə günahsız adamları tutub şəhid etmişdilər. Ordunun himayəçiləri yalan və qərəzli şahidliklər əsasında çoxlu adamı tutub, edam etmişdilər. Bu arada sonradan altı nəfəri şəhid

[174] Yenə orada, səh. 172.
[175] Yenə orada, səh. 172.

edilən “Sənziq” kəndinin 8 nəfər fədaisi haqqında ordu havadarlarının yalan şahidlik etmələri, insanı düşündürür. Aydın olur ki, ordunun onların öldürülməsi üçün heç bir sənədi yox imiş və yalnız “Sənziq” əhalisindən bəzi adamların yalan şahidliklərinə əsasən onları edam etmişlər. “Demokrat firqəsi Sərabda” kitabında bu şahidliyin qərəzli olduğunu göstərən bir sənəd vardır. Bu sənəddə aşağıdakılar göstərilmişdir:

“Dövlət ordusunun hörmətli zabitlərinə! Hörmətlə bildiririk ki, “Sənziq” kəndindən səkkiz nəfər Şəhrivər hadisələrindən başlayaraq gecə və gündüz dövlət və vətən əleyhinə çalışırdılar. O zaman onlar Əsgərabad çəmənliyində (Qulam Yəhya Danışyanın doğulduğu və boya-başa çatdığı bu çəmənlik Sənziq kəndinin şərqində yerləşir) silahlanaraq Məhin kəndinə getdilər. Orada isə jandarmların, jandarm rəisinin və qarnizon rəisinin tərki-silah edilməsində iştirak etdilər. Onları Məhindən apardılar. Bu səkkiz nəfər jandarmların, qarnizon rəisinin öldürülməsində iştirak etdilər. Sonra Təbriz qiyamında (21 azər 1324/12 dekabr 1945) və Qaradağda qətl və qarətlərlə məşğul oldular. Zəncanda da, cinayətkarlıqla məşğul oldular. Onlar dövlət və vətən əleyhinə fəaliyyətlərdə iştirak etmişlər. Bu qiyamçılar Allahdan və peyğəmbərdən qorxmamışlar. Bu səkkiz nəfərin adı dərc edilir. 1. Mahmud İsmayıl, 2. Məhəmməd Həsən İsmayıl, 3. Mahmud Ağabəşir, 4. Əli Məhəmməd Xankişi, 5. İsmayıl Qələndər, 6. Əjdər Rəhman, 7. İsmayıl və 8. Mikayıl Yəhya. Bu iki nəfər fədaidirlər. Sənədi imza edənlərin adları: Mir Abbas Saedi, Əli Əkbər Musəvi, Ağa Muradi, Əli ağa Nayebi, Ələsgər Qərəşi, Xəlil Mirzayi, Bəşir Mirzayi, Müctəba Əhmədzadə, Nəcəf Natiqi, Oruc İslami, Məhbub Əzimi, Məhəmməd Seyidpur, Hacızadə.”

“Sənziq” kəndinin rəsmi kəndxudası Mirbəhlul Rəfii sənəddə göstərilənləri və imza edənləri təsdiq etmişdir”.[176]

---

[176] Rəhim Nikbəxt. Sərabda demokrat firqəsi, səh.175.

Sərabın müharibə dövrü məhkəməsinin adı çəkilən şəxslərlə bağlı hökmü aşağıdakı kimidir:

“Prokuror tərəfindən dövlət əsaslarını laxlatmaq ittihamı ilə 319-cu maddəyə əsasən və ordu cinayət məcəlləsi ilə ittiham olunan qeyd olunmuş altı nəfərin cinayət işinə məhkəmə heyəti tərəfindən baxıldı. Cinayət işinin səhifələrinin, mövcud sənəd və sübutlarının diqqətlə araşdırılıb öyrənilməsindən və şahidlərin açıqlamalarından sonra prokurorun aşağıdakı altı nəfər müttəhim – Şafei Əjdər Rəhman oğlu, Bəşiri Məhəmməd Bəşir oğlu, Mahmudi Mir İsmayıl Mirmahmud oğlu, İmrani İsmayıl Qələndər oğlu barəsindəki iddiası qəbul edilmişdir. Adı çəkilənlər məhkəmənin yekdil qərarı ilə mərkəzi dövlətin əsaslarını laxlatmaq məqsədi ilə silahlı qiyam təşkil etmək cinayəti ilə cinayət məcəlləsinin 317-319-cu maddələri ilə və ordunun cinayət məcəlləsinə əsasən edam cəzasına məhkum olunmuşlar.

Sərab müharibə dövrü məhkəməsinin rəisi polkovnik Əhməd Naxçıvani – imzası. Prokuror – polkovnik Əhməd Zahirniya – imzası. Polkovnik – Hüseynqulu Bozorg Ümid – imzası. Məhkəmə prokuroru – polkovnik Şərifəddin Qəhrəmani – imzası, məhkəmə vəkili kapitan Əbdüləli Təfrəşi – imzası. Tarix – 16.03.1326 (07.06.1947-ci il)”.[177]

Məhəmməd Rza şah Pəhləvinin birbaşa əmri ilə Azərbaycanın işğalından sonra edama məhkum edilmiş Demokrat firqəsi üzvlərinin apellyasiya hüquqları yox idi. Çünki, bu sənədin davamında belə göstərilmişdi: “Marağanın əvvəlki qüvvələrinin komandanlığının 849 saylı və 10.03.25 tarixli əmrinə, 3-cü Azərbaycan diviziyasının komandanlığının əmrinə və şahənşahın fərmanına əsasən bu növdən olan məhkəmələrdə belə müttəhimlərlə bağlı verilmiş hökmlərə yenidən baxılmır və hökm dərhal yerinə yetirilir. Sərabın hərbi tribunalının rəisi polkovnik Əhməd Naxçıvani – imzası. Məhkəmə prokuroru polkovnik Qəhrəmani – imzası”.

[177] Yenə orada, səh.176.

Üç il qubernator olmuş Əbülhəsən Vaqif tutulandan iki il sonra həbsdən azad edildi.

Sərabın sonrakı qubernatoru Mir Rəhim Noi həbs edildikdən sonra edam edildi.

## Sərabda edamlar

Ordu tərəfindən Sərab işğal edildikdən sonra hərbi tribunallar tərəfindən geniş edamlar başladı. Bu barədə Azərbaycanın o zamankı ostandarı işğaldan sonra 31.06.1326-cı il (23.09.1947) tarixində daxili işlər nazirliyinə yazdığı məxfi məktubunda belə göstərmişdi: “14.06.1326-cı il (06.09.1947) tarixli 2961M saylı məktuba və Sərab polis idarəsinin raportlarına əsasən Sərab general-qubernatorluğunun məktublarına istinad edərək müvafiq məhkəmələr 24 nəfər məhbusu qiyamçılarla əməkdaşlıqda ittiham edərək dar ağacından asmışdır. Bu adamların siyahısı sizə göndərilir.

Azərbaycan polis idarəsinin rəisi general-mayor Daneşvər.

Siyahının nüsxəsi 5.06.1326-cı il (28.08.1947) tarixli 589 saylı məktuba əsasən Daxili İşlər Nazirliyinə göndərilmişdir.

Azərbaycanın ostandarı – imzası.

Edam edilmiş 24 nəfər məhbusun siyahısı:

1. Şafei Əjdər Rəhman oğlu
2. Məhəmməd Bəşir Bəşiri
3. Mahmud İsmayıl Çəngi
4. Əli Məhəmməd Xankişi Dəstanuz
5. Mir Məhəmməd Hüseyn Mir İsmayıl Mahmudi
6. İsmayıl Qələmdər İmrani
7. İsmayıl Mahmud İbrahimi
8. Məhəmməd Kazım Dejneqah
9. Həzrətqulu Mehdi Cəlali
10. Məhəmməd Abdulla Tanuzi
11. Yəhya Məmi Sərabi
12. Məhərrəm Abı Səttari

13. Əli Xanəli Fədayi
14. Kərim Hüseyn Bəzəvi
15. Hilal Əbdülhüseyn Hilali
16. Mir Rəhim Mir Ələkbər Noi
17. Nurulla Həbib Həsəni
18. Səməd Məhəmməd Məhəmmədi
19. İsmayıl Cahandidə
20. Əvəz Hüseynpur
21. Seyid Həsən Cəlali
22. Hüseyn Safi
23. Məhəmməd Hüseyn Daruq Xəlil Daruq
24. Əli Səttar Cəddi”.[178]

“Ettelaat” qəzeti yazırdı:

Sərab – Mordad ayının 7-i (30 iyul)

Qiyamçıların 4 nəfəri – İsmayıl Fərəc oğlu Cahandidə, Eyvaz Hüseyn oğlu, Hüseynpur Həsən Əli oğlu Cəlali, Hüseyn Məhəmməd oğlu Ziyayi hərbi tribunalın hökmü ilə bu gün səhər saat 5-də Mordad ayının 7-də (30 iyul) edam olundular”.[179]

“Sərab – 22 mordad (14 avqust). Aşağıda adları göstərilən qiyamçılardan daha 4 nəfəri – Məhəmməd Hüseyn Mir İsmayıl oğlu Mahmudi, İsmayıl Qələndər oğlu İmrani, İsmayıl Mahmud oğlu İbrahimi Baftani, Məhəmməd Kazım oğlu Dejneqah Bixəndi hərbi tribunalın hökmü ilə mordad ayının 22-də səhər saat 5-də dar ağacından asıldılar”.[11180]

Sərab 26 mordad – (18 avqust). Qiyamçıların on nəfəri – Mir Rəhim Noi, Kərim Yəzdi, Sərabi, Əli Baftani, Mahmud Əbrəğani, Səməd Şeyx, Sərçini, Baxış Sərçini, Cəfərqulu Razlığı, Məhərrəm Söhrabi, Bilal Hilali Anaqızı və Ruhulla Sozkərizi mordad ayının

---

[178] Rəhim Nikbəxt. Sərabda demokrat firqəsi, səh. 180.
[179] “Ettelaat” qəzeti, 02.08.1947.
[180] “Ettelaat” qəzeti. 16.08.1947.

23-də(14,07) hərbi tribunalın hökmünə əsasən qanuni təşrifatla Sərabda dar ağacından asıldılar”.[12181]

“Sərab – şəhrivər ayının 2-i (25 avqust). Qiyamçıların dəstə başçısı Məhəmməd Həsən oğlu şəhrivər ayının 2-də səhər saat 5-də tribunalın hökmü ilə edam edildi”.[13182]

## Dəhşət yaratmaq məqsədilə göz qabağında edamlar

İran ordusu Sərab şəhərindəki edamları Azərbaycan xalqından intiqam almaq üçün bir vasitə etmişdi. Edamlardan, həmçinin, daha çox dəhşət yaratmaq və insanların ruhi sakitliyini pozmaq üçün istifadə edirdilər. Bu məqsədlə azadlıqsevənlərdən dörd nəfəri hər gün insanlarda qorxu yaratmaq üçün bir dörd yol ayırıcısının dörd istiqamətində asırdılar. Rəhim Nikbəxt bununla bağlı qocaların dilindən belə yazır: “Sərab ağsaqqallarının dediklərinə görə hər səhər tezdən məhkumlardan dörd nəfəri şəhərin əsas dördyol ayırıcısının müxtəlif istiqamətlərində dar ağacından asırdılar”.[183]

## Ramtin Marağada edam edildi

Sərabın Əbrəğan kəndində 1286-cı ildə (1907) anadan olmuş milli hökumətin mayoru Məhəmmədəli Ramtin Marağa hərbi tribunalında mühakimə edildikdən sonra 16.10.1325-ci ildə (06.01.1947) edam edildi.

## Sərabdakı dəhşətlərdən can qurtaranlar Şimali Azərbaycanda

Azərbaycan işğal edildikdən sonra demokrat firqəsinin xeyli üzvü Şimali Azərbaycana mühacirət etdilər və orada məskunlaşdılar. Bu

[181] “Ettelaat” qəzeti. 18.08.1947.
[182] “Ettelaat” qəzeti. 27.08.1947.
[183] Rəhim Nikbəxt. Sərabda demokrat firqəsi, səh. 180.

insanların çoxu Ağdam şəhərində yerləşdirildilər. SSRİ dağıldıqdan sonra bu adamların evləri erməni cinayətkarlarının əli ilə dağıdıldı və işğal olundu. Bu adamlara yenidən zülm olundu və sürgün edildilər. Onlar bir daha evsizliyin dadını gördülər. Rəhim Nikbəxt yazır: “Qarabağda yaşayış yerləri (o cümlədən, Ağdam şəhəri və onun ətrafındakı kəndlərdə Sərab qaçqınlarının evləri var idi) Ermənistan ordusu tərəfindən işğal olundu. Əldə edilmiş məlumata görə onların evləri buldozerlə dağıdılaraq məhv edilmişdir”.[184]

## *URMİYA*

### Urmiya azadlığa doğru gedir

“12 şəhrivər” bəyannaməsi Azərbaycan xalqının azadlıq ruhunu çox yüksəyə qaldırdı və bütün xalq birdəfəlik və həmişəlik müstəmləkə boyunduruğundan azad olmaq istədi. Urmiya camaatı da, müstəmləkə zəncirlərini qırmaq üçün Təbrizdəki və Azərbaycanın müxtəlif guşələrindəki qardaş və bacıları ilə əl-ələ vermişdi. Azərbaycan xalqının haqlı tələbləri Urmiya şəhərinin məhəllə və küçələrində dilə gətirilmişdi. Lakin, hərbi qarnizonun komandanlığı Zəngənə adlı bir şəxsin əlində olan bir şəhərdə azadlığa yetişmək asan olmadı. Buna görə də, Urmiyanın azadlığı Azərbaycanın başqa şəhərlərinə nisbətən bir qədər gecikdi və Urmiya azadlıq yolunda Azərbaycana daha çox şəhid təqdim etdi. Çünki, Urmiya qarnizonunun komandanı polkovnik Zəngənə Azərbaycan xalqının iradəsinə təslim olmaq istəmədi və Urmiya əhalisinə qarşı müharibəyə qalxdı. O, Urmiyanın və ətraf kəndlərin camaatının müqavimətini görüb Türkiyəyə qaçdı və Urmiya şəhəri azad oldu. Urmiya Azərbaycan Milli Hökuməti tərəfdarlarının sırasına qoşuldu.

“Keçmiş gələcək yolun çırağıdır” kitabında Urmiya əhalisinin Zəngənə ilə mübarizəsi barəsində belə oxuyuruq: “Təxminən, azər ayının 25-də (16 dekabr 1945) demokratlar tərəfindən Urmiyanın

[184] Yenə orada, səh. 183.

mühasirəsi başladı. Demokratlar şəhərdən çıxaraq şəhərin ətrafındakı fədailərə qoşuldular. Şəhər və onun ətrafı 1 km radiusa qədər Zəngənənin əlində idi. Zəngənə vəziyyəti çıxılmaz gördükdə ola bilsin ki, bəzi məqamların məsləhəti ilə camaatı qorxutmaq qərarına gəldi. Bu planı həyata keçirmək üçün “Çahar baş” və “Səngər” kəndlərinə tanklar göndərdi. Orada 9 nəfəri öldürüb, 11 nəfəri yaraladılar. Ölənlər arasında bir neçə nəfər körpə və kiçik qızlar var idi. Zəngənənin bu əməliyyatdan əldə etdiyi nəticə o oldu ki, beş kəndin əhalisi boşaldıldı.”[185]

Bunların davamı olaraq bu kitabda Urmiyanın ətraf kəndlərində jandarmların törətdikləri cinayətlər haqqında aşağıdakıları oxuyuruq:

“Torpaq qala” adlı yaşayış yerində jandarmlar çirkli və nifrət gətirən bir işə əl atdılar. Bu işin assuri qardaşlar arasında çox pis nəticəsi oldu. Bu mənada ki, polislər Torpaq qalada əksəriyyəti assuri millətinə mənsub olan fədailərin cəsədlərini faciəli şəkildə tikə-tikə doğradılar. Sonra bu əməlin assurilər arasında həyəcana səbəb olacağını hiss edib tikələri torpaq altında gizlətdilər.”[186]

## Urmiyada vilayət firqə komitəsinin yaradılması

Urmiya azad olduqdan sonra Zəncana sürgün edilmiş və Zəncan şəhərdarlığında (meriyasında) işləyən Məhəmməd Əmin Azadvətən Urmiyaya qayıtdı və Urmiya firqə təşkilatının rəhbəri seçildi. Urmiya camaatı demokrat partiyasının müdafiəsinə qalxaraq milli hökumətə ən böyük tərəfdarlığını bildirdi. Camaat xüsusi bir yekdilliklə Azərbaycan mübarizlərinin himayəsinə qalxdı. Urmiyanın xüsusi vəziyyəti milli hökumətin daha çox diqqət yetirməsinə sərf olunsa da, Urmiya əhalisi öz qardaşlarının müdafiə edilməsində bütün güc və bacarıqlarını göstərdi. Bundan əlavə, milli hökumət zamanında Urmiya Təbrizdən sonra Azərbaycanın ikinci mədəni

[185] Keçmiş gələcək yolun çırağıdır, səh. 314.
[186] Yenə orada, səh. 314.

mərkəzinə çevrildi. Azərbaycan dilində bir neçə qəzet çap olunmağa başladı və bu şəhərdə musiqi müəssisələri öz işlərini davam etdirirdilər.

## Qanlı çəkmələrin səsi

Urmiya və bu şəhərin sülhsevər əhalisi inkişaf etmiş Urmiyanın yuxuları ilə yatdıqları bir halda uzaqdan qanlı çəkmələrin səsləri eşidilməkdə idi. Bu adamlar xanların və şahpərəstlərin tərəfdarları ilə birlikdə yenidən bu şəhərə Tehran müstəmləkəçilərinin boyunduruğunu geyindirmək istəyirdilər.

Mərkəzi hakimiyyətin tərəfdarları Azərbaycanda qeyri-qanuni mənafelərə malik olmaları səbəbinə bütün şəhərlərdə mövcud idilər. Azərbaycan Milli Hökuməti iqtidarda olan zaman onlar öz yuvalarında gizlənmişdilər. Ordunun Azərbaycana hücum etməsi ilə onlar öz daxmalarından çıxdılar və qətl-qarətlərə başladılar. Əli Dehgan Urmiyanın qətliamı haqqında belə yazır: “Vətənpərvərlərin” (!!!) həyata keçirdikləri tədbirlərdən biri demokrat firqəsi başçılarını həbs etməkdən ibarət oldu. Onları evlərindən və ya gizləndikləri yerlərdən çıxarıb ostandarlıqda (qubernatorluqda) topladılar. Qubernatorluqda saxlanılan adamlar aşağıdakılar idilər: Rizaiyyə (Urmiya) partiya təşkilatının rəhbəri Azadvətən, onun müavini və müşaviri Məhəmmədəlixan Məyyədzadə, diş həkimi Bəhram Nayi, əvvəllər Məşrutə başçılarından olmuş azadlıq mübarizi Yekani, həmçinin doroşkəçi Cəbiyev və bir çox Urmiya firqə təşkilatının üzvləri dövlət qüvvələrinin yaxınlaşması məlum olduqda əhali tərəfindən həbs edildilər. Qərara alındı ki, Nüsrət Nizami Əhmədi, Hacı Qulam Fiqhi (Urmiya mülkədarı) həbs edilənlərin işlərinə baxsınlar və cəzalarını təyin etsinlər.

Həmin dövr hisslərin məntiqə qələbə çaldığı dövr olduğu üçün Hacı Nüsrət Nizam Əhmədi şifahi olaraq onların hökmünü elan etdi və 23-26 azər arasında (14-17 dekabr 1946) onlarla bağlı

hökm icra olundu. Əhmədinin onlarla bağlı “aparın onları rahat edin” ifadəsi məşhurdur.

Böyük mücahidlər Hüseyn Lütfüni, Rəşid Qaraları, Hüseyn Bərzgəri- onların hamısını gecə ikən faytona mindirib, şəhərin cənubunda Tutustan deyilən bir yerə gətirdilər. Bu yer ətraf yerlərə nisbətən çuxur yer olduğuna görə bura “Çuxur bağça”, yaxud Tutustan adı ilə məşhur idi. Onları həmin yerə aparıb, orada güllələdilər. Ertəsi gün ailəsi ilə birlikdə Bərzgərin evində gizlənmiş mədəniyyət idarəsinin rəisi Əyub Şəkibanı da, tutub həmin yerdə güllələdilər.[187]

Şahpərəstlər və xanların tərəfdarları tərəfindən Urmiyada aparılan qətl və qarətin sonu yox idi. Bu barədə Əhməd Kavyanpur özünün “Rizaiyyənin (Urmiyanın) tarixi” kitabında belə yazır: “Camaat (xanların adamları) bir neçə nəfərlik dəstələrlə demokratların evlərinə hücum edir, bir neçə dəqiqə ərzində onları tutur, divara söykəyir və bir neçə güllə ilə həyatlarına son qoyurdular. Başçılarını tutub həbs edirdilər və gecə dəstə-dəstə onları çıxarıb, şəhərin kənarında güllələyirdilər.”[188]

“Ettelaat” qəzeti Urmiyada mərkəzi hakimiyyət tərəfindən öldürülən adamların sayı haqqında belə yazırdı:

“21 azər günü (12.12.1945) firqə başçıları işlərinin xarab olduğunu başa düşdükləri və qaçmaq istədikləri bir vaxtda Rizaiyyə (Urmiya) cavanlarından iki nəfər fədainin silahını zorla əllərindən alırlar və həmin silahlarla demokratları tədricən tərkisilah etməyə müvəffəq olurlar. Nəticədə 89 nəfər firqə üzvünü həbs edib həmin günün səhəri şəhərin kənarında güllələyirlər.”[189]

Bundan əlavə, mərkəzi hakimiyyət tərəfdarları dövlət idarələrini işğal və qarət edirdilər. Bu barədə Kaviyanpur” özünün “Rizaiyyənin (Urmiyanın) tarixi kitabında belə yazır: “Dövlət idarələrinin

[187] Əli Dehqan. Zərdüşt ölkəsi, səh. 79.
[188] Əhməd Kaviyanpur. Rzaiyyənin tarixi, səh. 209.
[189] “Ettelaat” qəzeti, 18.01.1947.

binaları və əsgər kazarmaları mülki silahlıların qiyamı nəticəsində işğal olundu”.[190]

## Urmiyada həbslər

İran ordusu tərəfindən Azərbaycanın işğalından sonra ordunun Azərbaycandakı havadarları geniş həbslərə başladılar. Urmiyada mərkəzi hakimiyyətin məmurları azadlıqsevənlərin xeyli hissəsini həbs etdilər. “Ettelaat” qəzeti aparılan həbslər haqqında belə yazırdı:

“Rizaiyyə (Urmiya) dey ayının “22-də (12 yanvar) firqənin qaçmış komitə sədri və qiyamçıların başçısı olmuş Ziya təhlükəsizlik rəisi Tədəyyon tərəfindən həbs edildi və hazırda onun cinayət işi təkmilləşmək üzrədir. Cəbrayıl Babayanın mənzili cənab Tədəyyon, şəhər komissiyasının nümayəndəsi Əli Bəhrami və polis idarəsinin nümayəndəsi tərəfindən yoxlanıldı. Cəbrayıl və bir nömrəli qiyamçı olan oğlu Vartan həbs edildilər”.[191]

“Ettelaat” qəzeti Urmiyada həbs edilmiş aşağıdakı adamların adlarını qeyd edir. ”Bayram mühacir Hacı Əlibala oğlu, Əli Mühacir Heydər oğlu, Babacan Yadigar oğlu və fəal qiyamçılardan olmuş və gizlənmiş Hartun adında şəxs həbs edilmişlər”.

“Ettelaat” qəzeti həbslər haqqında davam edərək yazır: “Vəzifəsində səhlənkarlığa yol verdiyinə və qiyamçılarla əməkdaşlıq etdiyinə görə şəhər polis idarəsinin rəisi Daruqə hərbi tribunalda mühakimə edilərək iki il həbs cəzası aldı.”[192]

## Urmiyada araşdırma komissiyası

Bu komissiya Hacı Nüsrət Əhmədinin və Karməndinin sədrliyi ilə yaradılmışdı. Bu komissiyaya aşağıdakılar daxil idilər: Fiqhi, Məniçehri, Rəbani, Həmid Ağazadə, Mahmudzadə, doktor Əfşar

---

[190] Əhməd Kaviyanpur. Rzaiyyənin tarixi, səh. 209.
[191] “Ettelaat” qəzeti, 16.01.1947.
[192] “Ettelaat” qəzeti, 09.09.1947.

Türkmənyan, doktor Söhbəti, Rəhmətulla Dəbbağ, İsmayıl Fərbənd, Qasım İntizari, Babacan Mahmudi, Azər, Hacı Boyük Bərzgər və Hüseyn Əfşar...

Fədailərin öldürülməsi üçün komissiyanın aşağıda adı göstərilmiş məmurları təyin edilmişdilər: Böyük Bərzgər, Əli Bəhram, Xosrov Budaq Sultan, Mənuçöhr və Əhməd Turabi, Qulam İntizami, Hüseyn Lütfi, Baxşəli Fəthi, Cəmşid Mərzban, Qulam Qarabaği Hüseyn Bərzgər, Kamal Möləvi, Əli Teymuri, Əsəd Cəngəli, Vəhid Deyləmqaniayan, Rəşid Qaralar, Haşim Baranduz və Mahmud Kavə

Bu qrup sonra həbs edilmiş aşağıdakı şəxsləri edam etdi:

1.Şadəli Fəramərzi və Allahverdi Mühacir - firqənin təbliğat dəstələrinin üzvləri.

2. Azadvətən –Urmiya firqə təşkilatının rəhbəri

3. Heydəri- həmkarlar təşkilatının sədri

4. Abbas Fəthi –Urmiya firqə təşkilatının təbliğat komissiyasının sədri

5. Şəkiba- Urmiya mədəniyyət idarəsinin rəisi

6. Bəhram Nayi

7. Milli hökumət ordusunun zabiti Bəxtiyar oğlu ilə birlikdə küçənin ortasında xainlər tərəfindən tikə-tikə edildilər

8. Nurulla Yekani.[193]

Yuxarıda adı çəkilmiş şəhidlərdən başqa Tehran polis idarəsində Urmiyadan gəlmiş bir nəfərin dilindən yazdığı gizli bir raport vardır. Bu raportda Urmiyadan olan bir çox şəhidin adları göstərilmişdir. Bu raport 1325-ci il dey ayının 10-da (31 dekabr 1946-cı il) yazılmışdır. Bu raportda aşağıdakı Urmiya şəhidlərinin siyahısı verilmişdir.

1) Azadvətən; 2) Zeynəlabidin; 3) Fəthi; 4) Nikolay; 5) Vəlizadə; 6) Əli İslambul; 7) Məirzadə; 8) Məhəmməd Heydəri; 9) Mir Müslim; 10) Mirzəağa Bürhani; 11) Rəfail;. 12) İbrahim

---

[193] "Ettelaat" qəzeti, 02.03.1947.

Doroşkəçi; 13) Bəhram Babi İlişa; 14) Heydər Pasiban; 15) Hüseyn Bəxtiyari; 16) Petros; 17) Bəhlul Barbər; 18) Şad Əli Hərrazi; 19) Mirfəttah; 20) Bəbə Dəndansaz; 21) Mir Mustafa Bəzzaz; 22) Həsən Toyuqçu - mərkəzin 3 saylı rayon polis rəisi; 23) Babayev Tacir. [194]

### Azərbaycanın əfsanəvi mübarizi dar ağacında

Azərbaycanda əfsanəvi mübarizə çevrilmiş Mirzə Nurulla Yekani Azərbaycan işğal edildikdən sonra intiqam almaq məqsədlə işgəncələrə məruz qaldı. Onun dabanlarının altına mismar vurmuşdular. Azərbaycandan qaçmış bir neçə bədnam zabit şəhrivər ayının 3-də (26 avqust 1947) Mirzə Nurulla Yekanini səhra məhkəməsində mühakimə etdilər. O, açıq məhkəmədə görünməmiş bir şəkildə məhkəməni təhqir etdi. Açıq məhkəmə onu edama məhkum etdi. Aşağıda onun dar ağacına getməsini təsvir edən dostlarının dedikləri göstərilmişdir. "Bizim qəhrəmanımızın dar ağacına tərəf getməsi həm əfsanəvi idi, həm də alqışlanmalı. O, düz qaməti ilə, baş ucalığı ilə və ağır addımlarla dar ağacına tərəf gedirdi. Bu halda onun mismar çalınmış dabanlarından qan süzülürdü. Addımları soyuq torpağın üzərini qızardırdı, sanki onun qəhrəmanlığı vətən torpağı üzərində bu şəkildə yazılırdı. Bizim qəhrəman ağalarını və ölümü təhqir edərək azadlıqsevənlərin mübarizə cəbhələrində söylədikləri anda sadiq qalaraq "Yaşasın Azadlıq"- deyə-deyə iftixar gətirən bir ölümə doğru gedirdi." [195]

### İşğaldan sonra Urmiya ruhanilərinin şahı qarşılaması

Məhəmməd Rza Pəhləvi Azərbaycanın soyqırımı başa çatdıqdan sonra 1947-ci ilin iyun ayında Azərbaycanın bir çox şəhərləri-

---

[194] Təfreşi Məcid, Tahir Əhmədi Mahmud. Tehran polisinin gizli raportları (1945-1947).

[195] www/ yekansd bloqra/com

nə səfər etdi. Səfərdə məqsəd Azərbaycanın müstəmləkə edilməsi, tərəfdarlarının və ona soyqırımda köməklik etmiş adamların mükafatlandırılmasından ibarət idi. O, onları Azərbaycan xalqını daha çox əzməyə və istismar etməyə cürətləndirmək istəyirdi. Məhəmməd Rza Pəhləvinin daxil olduğu hər bir şəhərdə onu Azərbaycanın istismarçıları və saray ruhaniləri çox səmimi bir şəkildə qarşılayırdılar və bununla da, Azərbaycanın qanı axan yaralarına sanki duz səpirdilər.

Məhəmməd Rza Pəhləvi 1947-ci il iyul ayının 15-də Urmiyaya səfər etdi. O, saray ruhaniləri tərəfindən səmimi şəkildə qarşılandı. Əhməd Kaviyanpur bu qarşılanma haqqında belə yazır: “Şəhərin hörmətli adamları, ruhanilər, idarə rəisləri, böyük zabitlər iyul ayının 15-də bu yerdə (qarşılanma yeri) toplanmışdılar. Şəhərin müctəhidlərindən biri olan Üsuli ruhani alimlərini şaha təqdim edərkən gözlərində yaş görünürdü.”[196]

## *XALXAL*

### Xalxal Milli Hökuməti alqışladı

“Bura Azərbaycan Milli Hökumətinin ölkəsidir. Burada farsca danışmaq qadağandır.” Bauş Fuladi (Sədəqədarın ) xatirələrindən.

Xalxal şəhərinin Azərbaycanın tarixində, xüsusən, Azərbaycan Milli Hökumətinin yaradılmasında böyük rolu olmuşdur. Onun şimali Azərbaycana yaxınlığı və Gilan ostanı ilə qonşuluğu səbəbinə burada həmişə azadlıq hərəkatları baş vermişdir. Milli Hökumətin yaradılmasında da Xalxal daha çox səy göstərmişdir. Xalxaldan olan ziyalılarla yanaşı bu torpağın insanları milli hökumətlə birlikdə olmuş və bu hərəkatı sevinclə qarşılamışlar. Mərkəzi hakimiyyətin tərəfdarları Xalxal camaatının milli hökumətlə əməkdaşlıq etməsini nəzərə alaraq qaçmağı qərara aldılar. Onlar Tehran və

[196] Əhməd Kaviyanpur. Rzaiyyənin tarixi, səh. 217-218.

Gilana qaçdılar. Fədailər tərəfindən Təbrizin və digər Azərbaycan şəhərlərinin azad edilməsindən və milli hökumətin təşkil edilməsindən sonra yeni hökumətin nümayəndələri bu hökumətin bütün Azərbaycan xalqına aid olduğunu bildirmək üçün şəhərlərə ezam olundular. Xalxala da, 1324-cü ilin azər ayının 21-də (12.12.1945) Barış Fuladi bir dəstə silahlı adamla Miyana yolu ilə daxil oldu. Bu yerdə cənab Nəzminin "Azərbaycan Demokratik Firqəsinin Xalxal məntəqəsində rolu" adlı məqaləsində bir hissə diqqətə yetirilir: "Firqə nümayəndələrinin Xalxala daxil olmasından sonra Xalxal qubernatoru, polis rəisi və o zamankı jandarmların rəisi öz səlahiyyətlərini yerə qoymaqla Talışa tərəf qaçdılar və heç bir müqavimət olmadan şəhər milli hökumətin ixtiyarına keçdi. Həmin vaxt Xalxalın prokuroru olan Məhəmməd Sədəqədar bu barədə yazır: "Qəflətən 1324-cü il azər ayının 21 və ya 22-də (1945-ci il 12-13 dekabr) axşam çağı Təbrizdən bir qasid gəldi. Pişəvərinin qiyam etməsini, Təbrizin və Azərbaycanın başqa şəhərlərinin qiyamçıların əlinə keçməsini xəbər verdi."

Azərbaycan Milli Hökumətinin nümayəndələri bilavasitə Xalxalda vilayət firqə komitəsini yaratmağa başladılar. Xalxal vilayət komitəsi yaradıldıqdan sonra Mənzil Əmirəhmədi firqə komitəsinin katibi vəzifəsinə seçildi. Firqə komitəsinin qapısına "" lövhəsi azər ayının 22-i 1324-cü ildə (13 dekabr 1945-ci ildə) vuruldu. Sonra Xalxal camaatından tələb edildi ki, vilayət komitəsinə müraciət edib demokrat firqəsi üzvlüyü biletini alsınlar. Firqə komitəsi üzvləri aşağıdakı şəxslər idilər:

1) Haşim Muradi – Xalxal vilayət komitəsinin başçısı
2) Mircabbar Hüseyni – müavin
3) Əli Tağıxan Təvəkkülü – polis rəisi
4) Bilal Azad – Xalxalın qubernatoru
5) Barış Fuladi – Fədailərin komandiri
6) Mir Heydər Əzizi – Həşcin və Şahrud rayonlarının başçısı

## “21 Azər” hərəkatının və Azərbaycan Milli Hökumətinin rəhbəri

Pişəvərinin xüsusiyyətlərindən biri bu idi ki, o, demokratiyaya, azadlığa, insanların rəyinə və onların bərabərliyinə ürəkdən inanırdı. Firqənin fədailəri də çalışırdılar ki, öz rəhbərlərinin göstərişlərini ən yaxşı tərzdə yerinə yetirsinlər. Barış Fuladi vəzifəyə təyin olunduqdan sonra bütün məhbusları azad etdi və hətta şah dövrünün işçilərinə göstəriş verdi ki, əvvəlki yerlərində xidmətlərini davam etsinlər. Sədəqədar bu barədə belə yazır: “Üç gündən sonra hamını zindandan azad etdilər. Pişəvəri və Barış Fuladi bizə əmr etdilər ki, öz idari işlərimizlə məşğul olaq. Başqaları da gedib öz işlərini işləsinlər.”

Lakin təəssüflər olsun ki, məhbuslar azad edildikdən sonra yenə də, sui-qəsdlərə, firqə əleyhinə fəaliyyətlərə başladılar. Sədəqədarın özü bu barədə belə yazırdı:

“Həmin günlərin məhbusları olan biz özümüzü bir neçə dəstəyə böldük və üç-nəfərlik qruplar olaraq iclaslar keçirirdik. Aramızdan bir nəfəri rabitəçi seçmişdik. Bu adam baş verən hadisələri və qəbul edilmiş qərarları bir-birimizə çatdırmalı idi. Bu təşkilatları yaratmaqda məqsədimiz bizim tərəfdarımız olan adamları toplamaq, Kərim Soulətinin, Umidpurun, bir neçə nəfər vətənpərvər şahsevənin və “Tudə” firqəsinin məramına müxalif olan kəndlilərin silahlı olduqlarını nəzərə alaraq onlarla birlikdə Bayris Fuladi və Qızılbaş dəstələrinə qarşı vuruşmaqdan ibarət idi. Bununla da, Xalxal şəhərini qiyamçılardan azad etmək istəyirdik.”

Seyid Məsud Nəğib özünün “Xalxal və onun məşhur adamları” adlı kitabında atası Seyid Əli-ən-Nəği Nəğib-ol-Əşrafın dilindən belə yazır: “Hicri-qəməri tarixi ilə 1364-cü ildə (Şəmsi tarixi ilə 1324, Miladi tarixi ilə 1945) demokratlar zühur etdilər. Onlar

Azərbaycanın müxtəlif şəhərlərində nitq və məruzələr söyləyirdilər. Məhərrəm ayının əvvəllərində onların bir dəstəsi Haşım xanın başçılığı ilə Xalxal şəhristanının mərkəzi Hərəvabada daxil oldu. Bu zaman polkovnik Fərhəngiyan əsgərləri ilə birlikdə Hərəvabadda idi. Məhərrəm ayının axırlarında polkovnik Fərhəngiyan Xalxaldan getdi. Demokratlar tərəfindən Azad adında bir adam Xalxalın qubernatoru oldu. O, böyük, kiçik şuralar təşkil edib, məruzələr edirdi.”[197]

## Firqənin Xalxalda mədəniyyəti inkişaf tədbirləri

Milli hökumətin Azərbaycan xalqı üçün etdiyi ən əhəmiyyətli iş Azərbaycan dilinin dövlət idarələrində rəsmiləşdirilməsindən və məktəblərdə Azərbaycan dilinin sistematik şəkildə öyrənilməsindən ibarət oldu. Xalxalda Azərbaycan Demokrat Firqəsi “Nasiri” məktəbini yenidən açdı və şagirdlər bu məktəbdə ana dilində təhsil almağın ləzzətini gördülər. İkinci dəfə idi ki, bu məktəbdə Azərbaycan dili tədris edilirdi. Bu məktəbin təsis edilməsinin ilk ili 1906-cı ilə təsadüf edir və o zaman bu məktəbdə tədris Azərbaycan dilində aparılırdı.

## Xalxalda asayişi pozmaq üçün Tehran hökumətinin səyləri

Tehran hakimiyyəti və onun ordusu Xalxalda fədailər tərəfindən yaradılmış asayişi pozmağa çalışırdılar. Bunun üçün onlar yerli quldurlar və Ərdəbildən qaçmış tayfaların köməyi ilə Gilanda və Talışda demokrat firqəsi əleyhdarlarının bazasını yaratmaq istəyirdilər. Onlar ordunun və jandarmların fərari zabitləri vasitəsi ilə müxalifətçiləri öyrədir və onları Azərbaycan Milli Hökuməti ilə müharibəyə göndərirdilər. Bir il ərzində Xalxal və Gilan arasındakı dağlarda və sərhədlərdə dəfələrlə çoxlu sayda silahlı toqquşmalar baş vermişdi.

---

[197] Seyid Məsud Nəqib. Xalxal və onun məşhur adamları.

## Xalxalin İran ordusu və düşmənlər tərəfindən işğal edilməsi

Gilanda kapitan Əmir Fəthi Alarlı tərəfindən köçəri tayfalardan ibarət silahlı dəstələr yaradılaraq silahlandırılır və xalqla müharibəyə göndərilirdilər. Bu hərbi toqquşmalarda Azərbaycan Milli Hökuməti ilə müxalifətdə olan və Tehran hakimiyyətinə xidmət edən Şahsevən tayfaları birbaşa olaraq iştirak edirdilər. Ən çox qırğın, qətl və qarəti də onlar törətmişdilər. Polkovnik Seyid Əhməd Canpolad özünün “Bir zabitin sərgüzəştləri” adlı xatirələrində belə yazır:

“Əvvəllər öz vətənlərindən qaçaraq Tehrana gəlmiş Ərdəbilin yerli süvariləri və Şahsevənlər dövlət tərəfindən silahlandırılaraq Zəncan və Xalxal yolları ilə firqənin Ərdəbil və Xalxaldakı qüvvələrinə təzyiq göstərmək üçün göndərilmişdilər.

Həmçinin Ordunun qərargahı tərəfindən Rəşt briqadasına tapşırılmışdı ki, hərbi əməliyyat başlandıqda Xəzər sahili yol ilə Astaraya daxil olsunlar”.

İran ordusu ilə Xalxala və Ərdəbilə səfər etmiş Davud Əmini “Tehrane müsəvvər” (İllüstrasiyalı Tehran) jurnalında “Xalxalın bədbəxt camaatı ilə hansı müamiləni etdilər?” adlı məqaləsində belə yazırdı:

“Rəştdən və Talış dağlarından kapitan Qılıncxani və bir neçə gizirin rəhbərliyi ilə ayrı-ayrı adamlar və köçərilər Xalxala daxil oldular. Vəkilinin oğlanları da, bu dəstələrin içində idilər. Bu adamlar Ərdəbilə qədər yollarina çıxan bütün kəndləri talayıb, qarət etdilər. Bütün bu işlərdə Vəkilinin oğlanları xüsusilə canfəşanlıq göstərirdilər. Təəssüflər olsun ki, kapitan Qılıncxani və kapitan Əmir Fəthi Alarlı cinayətlərin qarşısını ya ala bilmədilər, ya da almaq istəmədilər.”[198]

---

[198] Davud Əmini. “Tehran-e mosəvvər”, 10.03.1947, No193, səh. 8.

## Daşbulaq kəndində qırğın

İran ordusu və Tehran hakimiyyətinin havadarları işğal etdikləri hər yerdə qətl, qarət və yanğınlar törədirdilər. Xalxalda da, İran ordusu günahsız insanları qətliam etmişdi. Mir Nəbi Əzizzadə özünün “Muğan çölünün tarixi” adlı kitabında bu barədə belə yazır:

“Kapitan Əmir Fəthi Alarlı tərəfindən Gilanda köçərilər təşkilatlandırıldıqdan sonra onlara bir neçə tüfəng və on iki min güllə verildi. Şahsevən süvarilərindən bir qrup adam Talışdan və Xalxaldan Daşbulaq kəndinə daxil oldular və orada fədailərlə vuruşdular. 27 nəfər fədaini həlak etdilər. Bir çoxlarını da əsir və tərki-silah etdilər”.[199]

Kərim Xan Souləti mərkəzi hakimiyyət adamlarının təhrikilə Xalxalda öz adamları ilə Milli Hökumətə qarşı vuruşurdu. O cümlədən, Xalxal firqə təşkilatının rəhbəri Haşımxan Murad və Xalxal qubernatoru Bilal Azada qarşı vuruşurdu. “Ettelaat” qəzeti bir sıra Şahsevən ellərinin milli hökumət ilə mübarizə aparmaları haqqında belə yazırdı:

“Şahsevən ellərinin sərdarları Əmiraslan, Nəsrullaxan Sərdar Nüsrət Pur, Yəhya Hatəm Kikəli, Alarlı Poladlı xanları, Kərəm xan Souləti və Vəkili xanədanı demokratlara təslim olmamış, onlarla Ərdəbil, Xalxal və Meskinşəhrdə son nəfəslərinə qədər qəhrəmanlıqla mübarizə aparmışdılar. Yaxşı olar ki, onların hamısı ordu qərargahı tərəfindən mükafatlandırılsınlar. Hal-hazırda Ərdəbil qarnizonunda Şahsevən tayfasından 700 nəfər general-mayor Bayandurun nəzarəti altında xidmət edirlər”.[200]

## İran ordusuna bağlı şəxslərin Xalxalda oğurluq etmələri

Xanların adamları və İran ordusuna bağlı olanlar şəhərlər işğal edildikdən sonra orada oğurluq və qarətlərlə məşğul olurdular. Xalxalda bu adamlar şəhər maliyyə idarəsinin pullarını oğurlamışdılar. “Ettelaat” qəzetinin müxbiri bununla bağlı belə yazırdı:

[199] Mirnəbi Əzizzadə. Muğan düzünün tarixi, səh. 366.
[200] “Ettelaat” qəzeti, 12.01.1947.

“Ərdəbildə ordu ilə əməkdaşlıq edən bəzi adamlar Xalxalın maliyyə idarəsinin 400 min riyal pulunu oğurlamışlar. Camaat danışır ki, Ərdəbil fəhlə həmkarlar təşkilatının kassasında olan pullar Nağı Vəkilidədir. Bunu isbat edən kifayət qədər sənəd və dəlillər buraya gəlmiş maliyyə nazirliyinin müfəttişlərinə verilmişdir ”.[201]

## Gilan quldurlarının Tehran hökumətini müdafiə etməsi

Xalxal diyarı Gilana yaxın olduğu üçün Ərdəbildən və Xalxaldan qaçmış firqə düşmənləri Gilani Azərbaycan Milli Hökumətinə qarşı mübarizə bazasına çevirmişlər. Onların ordu ilə əməkdaşlıq etmələri haqqında “Ettelaat” qəzeti belə yazırdı:

“Xalxalın Şahrud mahalının sakini İrəc Darayi bu diyar demokratlar tərəfindən tutulduqdan sonra onlara qarşı mübarizəyə başlamışdı. Dörd aylıq müqavimətdən sonra Gilan jandarmlarının köməyi ilə “Məmiş xan” adı ilə məşhur olan Məhəmməd Tağıya qarşı qiyam etmiş və böyük zəhmətlə onu qətlə yetirmişdi. Bu iş ordu qərargahının diqqətini cəlb etmiş və İrəc Darayi ordunun giziri dərəcəsinə layiq görülmüşdü.

Bu adam sonra qardaşı oğlu Firudin Darayini Gilan şahpərəstləri Hacı Kələntəri və Əli Derakiyə tapşırır ki, firqə tərəfdarı Ağacanın təqib edilməsində iştirak etsin.

İrəc Darayi demokratlara qarşı mübarizə üçün kifayət qədər qüvvəsi olmadığına görə çarəsiz qalıb Xalxalı tərk etmiş və öz adamları ilə Gilanda Talış yüksəkliklərinə qalxmışdı.

Azərbaycan Demokrat Firqəsi Xalxaldan 300 nəfər fədai ilə Haşim Muradini və 300 nəfər fədai ilə Mahmud Əzimini Zəncandan Bürhanus səltənənin süvarilərinə köməyə göndərmişdi. Onlara İrəc Darayini mühasirə etmək əmri verilmişdi.

1324-cü il 28 ordibeheşt tarixində (18 may 1945) Darayi ilə fədailər arasında baş vermiş döyüşdə bir neçə fadai öldürüldü və

[201] “Ettelaat” qəzeti, 12.01.1947.

Darayi fədailərin çox olduğunu görüb Gilana tərəf çəkildi. Darayi Rəştdə Hacı Kələntəri və general-mayor Pur ilə birləşib silah tədarükü görməyə başladı. Ordunun Azərbaycana axırıncı hücumu zamanı Darayi Xalxala həmlə etdi. Bir neçə şiddətli döyüşdən sonra fədailərin Xalxaldakı pusqu postlarını tərki-silah etdi. O, Xalxalda şahsevənlərlə əlaqə yaradıb demokratların tamamilə məhv edilməsində fəal iştirak edir. Xalxalda demokratlara qarşı döyüşlərdə Vətəndust, Nağı və Haşım Vəkililər xüsusi fədakarlıqlar göstərmişlər”.[202]

Bu cinayətkarlar milli hökumət tərəfdarı olan Ağacanı da qətlə yetirmişdilər.

### Xalxalda Baba Əzizinin edam edilməsi

“Ettelaat” qəzeti Xalxalda Baba Əzizinin edam edilməsi xəbərini aşağıdakı kimi dərc etmişdi:

“Xalxal, şəhrivər ayının 6-ı (28 avqust). Xalxalda qiyamçıların başçılarından biri olan Baba Əzizi srağa gün səhər dar ağacından asılmışdir”. [203]

## *MARAĞA*

### Marağa azadlığı qarşılamağa doğru gedir?

Marağa şəhərinin sol fikirli və azadlıqsevən ziyalılara malik olmaqla böyük təşkilatlanma təcrübəsi vardır. Belə adamlardan biri kimi Dadaş Tağızadəni göstərmək olar. O, uzun müddət Qəsr zindanında məhbus olmuşdu. Zindandan azad olduqdan sonra Tehranda və Marağada azadlıq uğrunda mübarizə aparmışdı. O, Marağa əhalisini öz milli və mədəni hüquqları ilə tanış edir, zalım xanlar müqabilində kəndlilərin və əkinçilərin hüquqlarını müdafiə

[202] “Ettelaat” qəzeti, 09.02.1947.
[203] “Ettelaat” qəzeti, 29.08.1947.

edir, kəndliləri öz hüquqlarını müdafiə etməyə çağırırdı. Onun bu səyləri axırda öz bəhrəsini verdi. Marağa əhalisi “12 şəhrivər” bəyannaməsinin nəşr olunması ilə bəyannamənin aydın demokratik məqsədlərinə cəzb olundular. Onlar 21 azər 1324-cü ildə (21 dekabr 1945-ci il) istismar və müstəmləkə boyunduruğundan azad oldular və başqa şəhərlərdəki öz bacı və qardaşları ilə birlikdə Azərbaycan Demokrat Firqəsinin vilayət komitələrini təşkil etdilər.

1324-cü il azər ayının 12-də (3.12.1945) bütün şəhərlərində Azərbaycan Milli Məclisinə seçkilər keçirildi. Başqa şəhərlərdə olduğu kimi Marağada da seçkilər baş tutdu və Dadaş Tağızadə Marağadan Azərbaycan Milli Məclisinə nümayəndə seçildi.

Həmçinin Marağanın vilayət firqə komitəsi Marağanın qədim və nüfuzlu ailələrindən biri olan və qədim mübarizə tarixçəsi olan “Ədləddövlə” ləqəbi ilə məşhur olan Rəbi Kəbirini Marağanın qubernatoru təyin etdi, (Sonralar o Milli Hökumətin nazirlərindən biri oldu).

“Kəbiridən başqa Vahan Xudiyan, Məhəmməd Mesdaği,” Xəlil Azərbadeqan, Lütfəli Əhməd, Seyfəli Vosuq (Vosuqəddövlə), polkovnik Qulamrza Cavidan, Firidunpər (İpəkçi) Azərbaycanda və Marağada demokratiyanın möhkəmlənib, inkişaf etməsində mühüm payları olmuşdur”.[204]

Cənab Cavidan sonralar Marağanın qubernatoru və polis rəisi oldu. Lütfəli Əhmədi Marağa firqə təşkilatının gənclər təşkilatının sədri idi.

## Marağanın “Qələbə tağı” Şimali və Cənubi Azərbaycan birliyinin xatirə abidəsidir

Milli hökumət tərəfdarları və Azərbaycanı sevənlər azad etdikləri hər bir şəhərdə mədəni və abadlıq işlərinə başlayırdılar. Məktəblər, musiqi salonları, teatr və yeni küçələrin salınması -

[204] Yunis Mirvarid. Marağa və ya “Əfrazrud” coğrafi, sosial, iqtisadi və tarixi vəziyyət baxımındam, səh. 874.

bunlar Marağa fəallarının həyata keçirdiyi işlər idi. Bu işlərdən əlavə, onlar xariqüladə bir iş edərək Şimali və Cənubi Azərbaycanın birlik rəmzi olan "Qələbə tağı"nı Marağada quraşdırdılar. Bu abidə mühəndis Mehdizadə tərəfindən layihələndirilib tikilmişdi. Bu tağın tikilməsində Kəbirinin səyləri xüsusilə qeyd olunmalıdır. Çünki bu abidə iki Azərbaycanın birlik rəmzi idi. Təəssüf olsun ki, bu abidə Azərbaycanın işğalından sonra iİran ordusu tərəfindən, şahın və xanların tərəfdarları tərəfindən, o cümlədən Mirzə Həbib Müctəhid, Hacı Məhəmməd Azəri, Hacı Mir Saleh Musəvi, Qulaməli Vəzir tərəfindən dağıdılıb viran edildi.

## Marağada firqənin əleyhdarları

Azərbaycan Milli Hökumətinin yaradılması və demokratiyanın inkişaf edib genişlənməsi ilə bəzi şəxslərin və ailələrin mənafeləri ziyana düşdü. Onlar və onların tərəfdarları milli hökumətə qarşı sui-qəsdlər törətməyə başladılar. O cümlədən, Seyid İsmayıl Peyman və Mirzə Həbibağa Müctəhid milli hökumətə qarşı mübarizə aparmaq üçün ağıla və dinə sığmayan fətva verirdilər. Onlarla müsahibə aparmış "Atəş" qəzetinin müxbiri onların fətvaları haqqında belə yazırdı: "Bir nəfər kəndli onlardan firqəyə daxil olmaq üçün icazə istədikdə Marağa əhalisinin iştirakı ilə ona dedilər ki, sənin firqəyə daxil olmağın öz qızınla Məkkə evində zina etməyinə oxşayacaqdır".

Belə qeyri-dini və qeyri-məntiqi fətvanı dindən və məzhəbdən sui-istifadə hesab etmək olar. Onlar din və məzhəbdən sui-istifadə etməklə öz düşmənləri ilə mübarizə aparırdılar. Halbuki, yadlar tərəfindən himayə edilən şah onlarda heç bir müxalifət hissi yaratmırdı. İndi isə onların "Atəş" qəzetinə verdikləri müsahibəni oxuyaq: "Sual:- Demokratlar necə adamdırlar? Cavab:- Bu adamlar bir ovuc rəzil və quldurdan, bir dəstə ac və işsizdən təşkil olunmuşlar. Bir dəstə də, şər və tamaşaçı adamlar onların ətrafına toplaşmışdılar. Onlar bütün bədbəxt ömürləri boyu heç bir faydalı iş görməmişlər.

Sual: - İslam dini ilə bağlı onların fikri nə idi?

Cavab: - Onların yeganə fikri və məqsədi islam dini ilə mübarizə aparmaq idi. Lakin açıq-aşkar öz nəzəriyyələrini bildirə bilmədiklərinə görə allahpərəstliyə və müqəddəs İslam dininə qarşı tədricən mübarizə aparmağa qərara almışdılar. Ümumiyyətlə, onlar Allahın varlığını inkar edirdilər”.[205]

Bu ruhaninin fətvası və Azərbaycanın azadlıq mübarizləri haqqında fikir söyləməyi oxucunun ixtiyarına buraxırıq. Lakin, kaş bu adamlar sağ olaydılar və görərdilər ki, dinə və islama qarşı olduğuna görə kim öz taxt-tacını əldən verdi.

## Ordunun Azərbaycana hücumu və Marağada qətliamin başlanması

İran ordusunun Azərbaycana hücum etməsilə Tehran hakimiyyəti tərəfdarlarının və ordunun Azərbaycanda qətl və qarətləri başladı və bir neçə ay davam etdi. Onlar azadlıq mübarizlərini harada görsəydilər edam edir, vətən aşıqlərini dar ağacından asırdılar. Onlar Marağada da, çoxlu sayda Azərbaycan aşiqlərini qətliam etdilər və tonqallarda yandırdılar. Əhməd Cudinin (Muin əl-İslam) “Marağa, Əfrazrud” kitabında getmiş xatirələrindən bir hissəsini oxucuların diqqətinəçatdırırıq. (Əhməd Cudi Marağada 21 azər cinayətlərinin şahidi olmuşdur):

“Cümə günü səhər evdə idim. Birdən gördüm ki, küçə və xiyabanlarda bir vurhavur başlamışdır. Əhali küçələrdə toplaşaraq firqənin binasına hücum edib onu sökməyə başladılar... Bir göz qırpımında firqənin avadanlığı dağıdılıb məhv edildi. Bu zaman Vasuqəddivan Məşədi Məhəmməd ağanın evində gizlənmişdi. Onu tutub sürüyə-sürüyə qubernatorluğa gətirdilər. Yol boyu adamlar onu söyür və kötəkləyirdilər. Firqənin mühüm adamlarından olan iqtisad idarəsinin rəisi Əbdi tutulub yaxşıca döyüldü. Firqə liderlə-

[205] “Atəş” qəzeti, 21.01.1946.

rindən və qəhrəmanlarından olan Hacı Qənbər Urmiyalının oğlunu Əsəd Yoldaş Həmid Mühacir adlı bir şəxslə bərabər güllə ilə küçədə öldürdülər. Cümə günü axşam dövlət qüvvələri Əşrəfinin komandanlığı ilə və 200 nəfər əsgərlə şəhərə daxil oldular. Camaat firqənin qaçmış rəhbərlərini tutub dövlət məsullarına təhvil verirdilər. Bazar günü Marağa şəhərinin ətrafında öldürülmüş və firqənin fəal üzvlərindən olmuş Elektrik stansiyasının müdiri Bərği Marağaya gətirildi. 16.10.1325-ci ildə (6 yanvar 1947-cı il) firqə rəhbərlərindən olan polkovnik Qulu Sübhi və onun müavini (onlar Miyanduabda qənd fabrikində işləyirdilər) və şənbə günü 17.10.1325-ci ildə (7.01.1947) Kəbiri Xan hamamı meydanında mühakimədən sonra dar ağacından asıldılar. Sonrakı günlər də firqə üzvlərini tutub mühakimə edirdilər”.[206]

## Xiyabanlarda cənazələr

Marağa İran ordusu tərəfindən işğal olunduqdan sonra polkovnik Əmir Ənsari Marağanın hərbi qubernatoru təyin edildi. İnsanların qətliamı davam etdirildi. İnsanların öldürülməsi elə dəhşətli hal almışdı ki, “Ettelaat” qəzeti küçələrdən meyitlərin yığılması haqqında belə yazırdı: “Bu gün ordu maşınları küçələrdə tökülüb qalmış meyidlərin yığılması ilə məşğul idi”.

## Marağada kütləvi həbslər

Marağa işğal edildikdən sonra milli hökumət fəallarının həbsi başladı və tam ciddiyyətlə davam etdirildi. “Ettelaat” qəzeti 1.10.1325-ci il (22.12.1946) tarixində belə yazırdı: “Azərbaycan qiyamçılarının hərəkatında 200 nəfərin komandanlığını öhdəsinə götürmüş Savalan və Mühacir Quluzadə həbs edilmişlər. Həmçinin Dadaş Tağızadə və Cavidan da həbs edilmişlər”.

---

[206] Yunis Mirvarid. Marağa və ya “Əfrazrud” coğrafi, sosial, iqtisadi və tarixi vəziyyət baxımındam, səh. 881-882.

Bundan əlavə 3.10.1325-ci ildə (24.12.1946) “Ettelaat” qəzeti xəbər verirdi ki, iki nəfər mühacir Abbasqulu və Həbib adlı ata və oğul şəhər bağlarında tutularaq məhkəməyə təslim edilmişlər. Kəbirinin qardaşı Cavad Kəbiri də həbs edilmişdir.

## Marağada edamlar

“Ettelaat” qəzeti 21.10.1325-ci il tarixində (11.01.1947) yazırdı: “1326-cı il dey ayının 16-da (06.01.1947) Qulu və Ramtin dar ağacından asıldılar”. Davam edərək yazırdı: “Xəlil adında bir nəfər hərbi tribunalda edama məhkum edildi və dar ağacından asıldı”. [207]

## Daha üç nəfər edam edildi

“Ettelaat” qəzeti bəhmən ayının 24-də (13 fevral 1947) Marağadan xəbər verirdi ki, “Mirzə Əli Qalaçayı, Mirzə Ələkbər Rövşəni və “bolşevik” ləqəbli Hüseyn (Qarağacın polis rəisi) – üç nəfər demokrat firqəsinin fəalı hərbi tribunal tərəfindən mühakimə edilərək bu gün səhər edam edildilər”.[208]

## Marağada yeddi nəfər edam edildi

Həftəlik “Tərəqqi” qəzeti 31.01.1326-cı ildə (21 aprel 1947) Marağada yeddi nəfərin edam olunması haqqında yazırdı: “Marağanın hərbi tribunalının hökmü ilə edama məhkum olunmuş aşağıdakı yeddi nəfər dar ağacından asıldılar:

1. Əsgər Nuriz. 2. Heydər Afaqi. 3. Süleyman Süleymani. 4. Mehdiqulu Touhidi. 5. Novruzəli Dövləti. 6. Seyfəli Kərimi. 7. Mahmud İbrahimi.

[207] “Ettelaat” qəzeti, 04.02.1947.
[208] “Ettelaat” qəzeti. 06.02.1947.

## *MƏRƏND*

### Mərənd azadlığa doğru gedir

Mərənd azadlıq mübarizləri Azərbaycanının azadlığı uğrunda həmişə mübarizə aparmışlar. Azadlığın əleyhinə olan qüvvələr bu şəhərdə fəal olsalar da Mərənd şəhər mübarizləri Təbrizlə yanaşı həmişə Azərbaycanın hamisi və dayağı olmuşlar. “12 şəhrivər” bəyannaməsinin elan olunması ilə bu şəhərin mübarizləri firqə sıralarına qoşuldular. Milli qüvvələr Azərbaycanın milli mənafelərinin mehvəri ətrafında təşkilatlanmağa başladılar.

Mərənd şəhəri 1324-cü il 21 azər (12 dekabr 1945-ci il) tarixində xalqın oğulları tərəfindən müstəmləkə qüvvələrinin əlindən xilas oldu və Mərənd Təbrizdəki milli hökumətə tabe oldu.

Mərənd kəndliləri xanların əlindən, onların mübaşirlərinin zülmündən xilas olmaq üçün azadlıq çağırışını eşidən kimi, silah götürərək əldə edilmiş azadlığı qorumaq üçün Azərbaycan fədailərinə qoşuldular.

Doktor Həsənzadə özünün “İslam inqilabı Mərənddə” adlı kitabında milli hökumət zamanı fədai dəstələrində pulemyotçu olmuş Heydər Mustafadan nə üçün fədai olduğunu soruşduqda o, belə cavab vermişdi: “Azadlıq istəyirik...” Yenidən soruşduqda: “Nədən azad olmaq istəyirdiniz. – Məgər siz azad deyildiniz?

Cavab verdi: “Ərbabların boyunduruğundan, ərbabların, ərbabzadələrin və onların nökərlərinin zülmündən, sitəmindən və namussuzluğundan azad olmaq istəyirdik”. O, əsəbiliklə mülkədar və ərbabları xatırlayırdı, onlara hücum edirdi, onları zorakılıqla, zülm və sitəmdə, ən mühümü isə kəndlinin hörmətini alçaldıb təhqir etməkdə ittiham edirdi. O, insanların namusuna təcavüz olunmasından, onların döyülməsindən, ərbabların öz kəndlilərindən və ətraf kəndlərdən həddindən artıq pul almalarından tarixləri göstərməklə çoxlu nümunələr gətirirdi”.[209]

---

[209] İsmayıl Həsənzadə. İslam inqilabı Mərənddə, I cild, səh.194-195.

Heydər Mustafanın dediyi kimi, mərkəzi hakimiyyət tərəfindən himayə edilən xanların zülmü Azərbaycan xalqını cana gətirmişdi. Bir iş görməli idilər. Yalnız milli hökumət xanların zülmündən azad olmaq üçün bu imkanı onlara verə bilərdi. Buna görə də, onlar milli hökumət tərəfinə keçdilər. 1324-cü il 21 azər (21 dekabr 1945-ci il) tarixindən sonra Mərənd mübarizləri tərəfindən vilayət firqə komitəsi yaradıldı və Şeyx Məhəmməd Hüseyn Bürhani vilayət komitəsinin rəhbəri seçildi. "İslam inqilabı Mərənddə" kitabının göstərdiyi kimi Dizəc Ülya əhalisindən olan Əli Sabir vilayət komitəsi rəhbərinin müavini seçildi.[210]

## Mərənd nümayəndələri Azərbaycan Milli Hökumətində

Mir Rəhim Vilayi və Cəfər Kaviyan Azərbaycan Milli Məclisində Mərəndin nümayəndələri idilər. Mir Rəhim Vilayi bir ruhani ailəsindən çıxmışdı və Lanur əhli idi. O, Bakıda böyümüş bir sənətkar idi. Milli hökumət süqut etdikdən sonra Azərbaycan mühacirləri idarəsində işləyirdi.

Cəfər Raviyan Məhəmməd Əli Kişi oğlu Səttarxanla birlikdə döyüşlərdə iştirak etmişdi və Mərəndin Qarağac kəndindən idi.

## Milli Hökumətin tərəfdarı və əleyhdarı olan ruhanilər

Mərənddə Nəcəfdə və Naxçıvan hövzəsində təhsil almış çoxlu sayda ruhani şəxslər var idi. Bu ruhanilər milli hökumət təşkil olunduqdan sonra iki dəstəyə bölündülər. Naxçıvan hövzəsində təhsil almış ruhanilərin çoxu demokrat firqəsinin tərəfdarları oldular. Bu ruhanilər rus dili ilə də tanış idilər.

Nəcəfdə və Qumda təhsil almış ruhahlnilər ar isə firqənin əleyhdarları oldular.

---

[210] Yenə orada, səh. 227.

Şeyx İsmayıl Mühəddis Şərq və Molla Səttar Natiq Mərənddə firqənin əsas üzvləri idilər.

Doktor Həsənzadə “İslam inqilabı Mərənddə” kitabında firqənin tərəfdarı olan ruhanilər haqqında belə yazır: “Mərəndə təsir edən hövzələrdən (ərazilərdən) biri Naxçıvan hövzəsi idi. Molla Səttar Natiq Mərəndi Məhəmmədəli xan oğlu, Şeyx Hüseyn Müqəddəs, Molla Bağır Qarağacı, Şeyx Məhəmməd Hüseyn Bürhani, Şeyx İsmayıl Mühəddis Şərq Mərənddə doğulmuş, lakin Naxçıvanda təhsil almış və rus dilini bilən ruhani alimlərdən idilər. Adı çəkilmiş beş alimdən üç nəfəri (Molla Səttar Natiq Mərəndi, Şeyx Bürhani və Şeyx İsmayıl) olduqca fəal idilər və firqə işlərində iştirak edirdilər. Bürhani firqənin “Ədalət” adlı sosial-demokrat qolunun əsasını qoymuş fəallarından idi. Şeyx İsmayıl və Natiq Mərəndi isə məşhur məşrutəçilər idilər və Azərbaycan Demokrat Firqəsi zamanında iş başına keçdilər.

Mərənddə Azərbaycan Milli Hökumətinin əleyhdarları olan ruhanilərdən Molla Abbas Qarağacinin, Ayətulla Mirzə Məhəmməd ağanın adlarını çəkmək olar Doktor Həsənzadə “İslam inqilabı Mərənddə” kitabında onlar haqqında belə yazır: “Ayətulla Mirzə Məhəmmədağa siyasi işlərə də qarışırdı. Xüsusilə, Azərbaycan Demokrat Firqəsi dövründə onların əməllərinə etiraz olaraq Ayətulla Mərəndi ilə birlikdə Quma getmişdilər”.[211]

Doktor Həsənzadə Molla Abbas Qarağacının milli hökumətlə bağlı işləri haqqında belə yazır: “Molla Abbas Qarağacı demokrat firqəsi hakimiyyətdə olanda onlara qarşı şiddətli mübarizə aparırdı. Firqə süqut etdikdən sonra o, həbs edilənləri istintaq edir və onlarla bağlı hökmlər verirdi”.[212]

---

[211] Yenə orada, səh. 50.
[212] İsmayıl Həsənzadə. İslam inqilabı Mərənddə, I cild, səh. 78.

## Mərənddə Milli Hökumətin əleyhdarları

Milli Hökumətin təşkil edilməsi ilə Mərənddə bəzi mülkədarların və nüfuzlu şəxslərin qeyri-qanuni yollarla qazandıqları şəxsi mənafeləri üçün təhlükə yarandı. Bu adamlar şəxsi mənafelərinə görə milli hökumətə qarşı müxalifətə keçdilər. Bunların arasında Əkbəri Əsbəğin ailəsini, Səmsamiləri, Əmir Əhmədini, Məhbubiləri, Kərbəlayi Bağır Livarini, Həvcəğani və onun yoldaşlarını göstərmək olar. Bu ailələrin üzvləri həm demokrat firqəsi zamanı, həm də, Azərbaycanın işğalından sonra Azərbaycanın milli mənafelərinə qarşı və milli hökumətə qarşı fəaliyyət göstərmişlər. Bunlardan biri olmuş İsmayıl Rəbiiyan "İran" qəzeti ilə müsahibəsində demişdi: "Tehranda Azərbaycanın müxtəlif şəhərlərindən gəlib toplaşmış başqa "qeyrətli" azərbaycanlılarla birlikdə mübarizəni davam etdirdik. Səfirliklər qarşısında toplaşmaq və Birləşmiş Millətlər təşkilatına şikayətlər göndərilməsi belə işlərdən idi".[213]

Bunlardan əlavə onlar ordunun Mərəndi işğal etməsindən sonra milli hökumətin fəaliyyətləri barəsində şikayətlər etdilər və çoxlu sayda adam onların qərəzli şikayətləri əsasında Təbriz tribunalı tərəfindən edama məhkum edildilər.

## Mərəndin işğalı və qətliamin başlanması

Milli Hökumət süqut etdikdən sonra İran ordusu Azərbaycanı və onun bütün şəhərlərini, o cümlədən Mərəndi işğal etdi. İşğaldan sonra Mərənddə qətliamlar və qırğınlar başladı. Mərəndin tarixində görünməmiş cinayətlər baş verdi. Küçələrdə insanların yandırılması və cənazələrin asılması belə cinayətlərdəndir. Doktor Həsənzadə ordunun və ordu hamilərinin Mərənddə törətdikləri cinayətlər haqqında belə yazır: "Mərənddə milli hökumət süqut etdikdən sonra müxalif qüvvələr tərəfindən həddindən çox vəhşiliklər törədildi.

[213] "İran" qəzeti, 23.01.1946.

Deyilənə görə milli hökumətə xidmət etmiş nəzmiyyələrdən (milis nəfəri) birinə müxalifçilər od vurub öldürmüşdülər”. [214]

## Məranddə edamlar

Mərəndin işğalından sonra Azərbaycan Milli Hökumətində nüfuzu olan adamlar şah və ordu tərəfdarları tərəfindən tutulub edama məhkum edilirdilər. Demokrat firqəsi rəhbərləri həbs edildikdən sonra onlar açıq məhkəmədə edama məhkum edildilər və küçədə edam edildilər. Bunların arasında Mir Kazım Ələmi Dizəc Olyayini (Qoşaçayın qubernatoru), Əli Sabiri, Mir Qulam Ələmi Dizəc Olyayini (Mir Kazımın qardaşı) göstərmək olar.

“İslam inqilabı Məranddə” adlı kitabda onların edam olunması haqqında aşağıdakıları oxuyuruq: “Firqənin bir qrup fədaisi, o cümlədən Mir Kazım Seyid Ələmi Dizəc Olyayi, Əli Sabir (Məranddə firqə təşkilatının müavini) Mir Qulam Seyid (Mir Kazımın qardaşı, Mərəndin iqtisadiyyat və ticarət idarəsinin rəisi) mərkəzi hakimiyyətə qarşı silahlı qətl və qiyamlar törətdiklərinə, insanlar arasında qorxu və dəhşət yaratdıqlarına görə edama məhkum olundular. Onlardan ən çox şikayəti dövlətlilər və ərbablar etmişdilər. Onların başında Əkbərilər, Səmsamilər, Əmir Əhmədilər, Məhbubilər, Kərbəlayi Bağır Livari və Həvcəganilər, Rəfiilər ailələri dururdular. Bu ailələr zərər çəkdiklərinə, ailə üzvlərini və əmlaklarını əldən verdiklərinə görə hərbi hökumətə şişirdilmiş şikayətlər təqdim etmişdilər. Təbriz hərbi tribunalı onları ölümə məhkum etdi”.[215]

## Azadlıq mübarizlərinin cəsədlərinin dar ağaclarında saxlanılması

İran ordusu Azərbaycanın şəhərlərində Azərbaycanın bütün tarixi boyu görünməmiş cinayətləri törətdi. Belə cinayətıərdən biri

[214] İsmayıl Həsənzadə. İslam inqilabı Məranddə, I cild, səh. 249.
[215] İsmayıl Həsənzadə. İslam inqilabı Məranddə, I cild, səh. 266-267.

bu idi ki, qorxu və dəhşət yaratmaq və Azərbaycan xalqından intiqam almaq məqsədilə onun oğullarının edam edilmiş cənazələrini günlərlə dar ağacında saxlayırdılar. İran ordusunun bu anti-humanist əməli Mərənd tarixində görünməmişdi.

Doktor Həsənzadə Mir Kazım Ələminin və Əli Sabirin edam edilməsini aşağıdakı kimi təsvir edir və yazır:

“Bəzi adamların xatirələrinə əsasən, cəsədlər bir neçə gün dar ağacından asılı vəziyyətdə qaldılar. Sonra onları düşürdüb dəfn etdilər”.[216]

## Firqə fəallarının küçələrdə yandırılması

Tehrandakı xaricilər tərəfindən idarə olunan hakimiyyətin anti-humanist cinayətlərindən biri də, milli hökumət tərəfdarlarının küçələrdə yandırılması idi. Bu cinayəti də ordu və onun hamiləri törətmişdilər. Qətiyyətlə demək olar ki, bu anti-humanist cinayət Mərəndin tarixində heç vaxt görünməmişdi. Doktor Həsənzadə kitabında bu cinayətlər haqqında belə yazır:

“Milli hökumətin süqutundan sonra faciəli şəkildə öldürülən adamlardan biri nəzmiyyə (milis) gözətçilərindən biri olan Məhəmməd Həsən Əllamə adında bir şəxs idi. O, mühakimə olunmadan adamlar tərəfindən şəhər meydanında qətlə yetirilmişdi. Çoxlu sayda rəvayətlərə görə onun cəsədi yandırılmışdı.[217]

## Mərənddə Milli Hökumət tərəfdarlarının həbs edilməsi

Mərənd ordu tərəfindən işğal edildikdən sonra milli Hökumət tərəfdarlarının və fədailərin həbsləri başladı. Xeyli adam tutulub edam edildi. Bir çoxları isə həbs edilib mühakimə edildikdən sonra araşdırma komissiyasının qərarı ilə sürgün edildilər.

---

[216] Yenə orada, səh. 267.
[217] Yenə orada, səh. 267.

Doktor Həsənzadə fədailərin həbs edilmələri haqqında belə yazır:

“Mərənddə firqəçilərin xeyli hissəsi həbs edilib mühakimə edildikdən sonra 3 aydan 2 ilə qədər zindana salındılar. Bu adamların əksəriyyəti firqənin fədailəri idilər. Onlar barəsində məhkəməyə çoxlu şikayətlər var idi”.[218]

## Mühacirlərn işlərini araşdıran komissiyalar

İran ordusu işğal etdiyi hər bir şəhərdə mərkəzi hakimiyyətə bağlı olan yerli adamlardan bir komissiya təşkil edirdi. Bu komissiyanın üzvləri həbs edilmiş və edama məhkum edilmiş adamlarla bağlı fikir söyləyirdilər. Şahpərəstlər və Tehran hakimiyyətinin tərəfdarları arasından seçilmiş belə bir komissiya Mərənddə də təşkil edildi. Doktor Həsənzadə bu komissiya haqqında belə yazır:

“Firqə süqut etdikdən sonra Azərbaycanın bütün şəhərlərində mühacirlərin işinə baxan komissiyalar meydana gəldi. Belə bir komissiyanın bir şöbəsi Mərənddə yaradılmışdı. Bu komissiyaya firqəyə müxalif olan şəhərin nüfuzlu adamları, mülkədarlar və tacirlər daxil idilər. Həmin komitə bu və ya başqa şəkildə firqənin işlərinə dəxalət etmiş və onun inkişafına kömək etmiş mühacirləri mərkəzi ostanlara, xüsusilə Fars, Kerman, Lorestan və Həmədana sürgün edirdi.”[219]

## Mərəndlilərin sürgündə acı günləri

Ordu Azərbaycanda hakimiyyəti ələ keçirdikdən sonra Azərbaycanda həbs edilmiş və zindanlara salınmış şəxsləri Azərbaycandan uzaqda yerləşən pis iqlimili yerlərə sürgün etməyi qərara aldı. Mərənd şəhərindən də milli fəallar və onların ailələri İranın cənubuna

[218] Yenə orada, səh. 236.
[219] İsmayıl Həsənzadə. İslam inqilabı Mərənddə, I cild, I cild, səh. 238.

sürgün edildilər. Onların sürgündə keçirdikləri günlər araşdırma komissiyalarına göndərdikləri məktublardan göründüyü kimi çox ağır və acı idi. "İslam inqilabı Mərənddə" kitabında bu barədə aşağıdakıları oxuyuruq: "Mühacirlərin Fars vilayətinin Neyriz şəhərindən Mərəndin şəhər başçısına yazdığı 1949-cu il tarixli bir məktubda on mühacir ailəsinin kasıblıq və fəlakət içərisində yaşadıqları bildirilir. Məktubun məzmunundan belə anlaşılır ki, onların hamısı Mərənd mühacirləri olmuşlar. Bu məktubda özlərinin kasıblığı və fəlakət içərisində olmaları, övladlarının xəstə olması və xəstəxanada onlara həkim xidməti göstərilməməsi qeyd olunur. Məktubu imzalayan özünü Tağı Mühacir kimi göstərmişdir. O, məktubunda firqənin işlərinə müdaxilə etməməsini göstərərək vətəninə qayıdıb orada yaşamağını xahiş edir.

Hüseyn Rəncbərin Mərənddən Bəndər Abbas zindanına köçürülməsi barədə "İslam inqilabı Mərənddə" kitabında belə oxuyuruq: "Mərəndin firqə fəallarından biri olan Rəncbər hərbi tribunal məhkəməsində əvvəlcə həmişəlik həbsə, sonra isə 15 il həbs cəzasına məhkum edilmişdi və Bəndər Abbas həbsxanasına köçürülmüşdü". [220]

Doktor Həsənzadə davam edərək yazır: "Mühacirlərin bir hissəsi də "Mühacirlərin işini araşdıran komissiya" tərəfindən İranın mərkəzi şəhərlərinə, o cümlədən Şircan, Kerman, Şiraz, Fəsa, və Neyriz şəhərlərinə sürgün edildilər. Mühacirlər bu dövrdə ağır məşəqqətlərə düçar oldular. Onların ən kiçik bir şikayəti neçə illik sürgünə məhkum olunmalarına səbəb olurdu. Sürgün edilmiş mühacir ailələrinin dəqiq sayı məlum olmasa da və bu barədə mötəbər sənədlərin nəşr olunmasına ehtiyac olsa da, əldə olan mövcud sənədlər əsasında (Təbriz Milli Sənədlər İdarəsinin Arxivi, Mərəndin qaydaya salınmamış arxiv sənədləri) demək olar ki, Kermanda və Farsda hər birində ən azı 10 mühacir ailəsi var idi. Fatimə adlı bir xanımın Fars vilayətinin Fasa şəhərindən "mühacirlərin işi üzrə

[220] Yenə orada, səh. 265.

komissiyaya” göndərdiyi 13.07.1327-ci il (05.10.1948) tarixli məktuba əsasən bu şəhərdə 10 mühacir ailəsinin olması göstərilir. O, məktubda özünün ataları müharibədə öldürülmüş yeddi yetimi himayə etdiyini bildirir. O, yeməyin və geyimin olmamasından, uşaqların xəstəliyindən, yerli camaatın yadlara qarşı sərt davranışlarından şikayət edir və komissiyadan mühacir olmaqdan başqa heç bir günahları olmayan uşaqlara rəhm olunmasını xahiş edir.

Əlimizdə bu məzmunda Kermandan gəlmiş bir məktub da vardır. Məktubun müəllifi özünü Əli Mühacir adlandırır. Bu adam köməksiz qalmış bir neçə ailənin dəhşətli vəziyyətindən komissiyaya şikayət edir. O həmçinin işlərinə yenidən baxılmasını və Mərəndə qaytarılmalarını xahiş edir”.[221]

## İşğaldan sonra fəalların ailələri ilə pis rəftar edilməsi

Mərənd işğal edildikdən sonra ordu mənsubları və şahpərəstlərin adamları milli fəalların ailələrinə şiddətli təzyiqlər göstərməyə başladılar. Onlar fəallara və onların ailələrinə qarşı heç bir təhqirdən və pis rəftardan çəkinmirdilər. O cümlədən, Şeyx Bürhaninin və Molla Səttar Natiq Mərəndinin ailələri daha çox təzyiqlərə məruz qaldılar. “İslam inqilabı Mərənddə” kitabında oxuyuruq:

“Atası bir müddət milli hökumətin qeydiyyat idarəsinin rəisi olmuş Molla Səttar Mərəndinin oğlu Bağır Natiq Mərəndi atasının zindanda olduğu müddətdə və onun ölümündən sonra camaatın onların ailələrinə qarşı pis rəftarından belə danışırdı: - Firqənin süqutundan sonra atam Mərəndə qaçmaq istəyirdi. Yolun ortasında fikirləşmişdi ki, ölürəmsə, qoy vətənimdə ölüm və geri qayıtmışdı. Culfa ruhanilərindən biri olan Zakirinin evinə getmişdi. Məmurlar onu tapıb Mərəndə gətirmişdilər. Yolda cibindəki 40 tümən pulu və saatını almışdılar, özünü də döymüşdülər. Atam milli hökumət dövründə əba və əmmamə geyinirdi, evdə isə başına bir kazak papağı qoyardu. Atamın həbsindən sonra adamların bizə qarşı

[221] Yenə orada, səh. 266.

rəftarı o qədər pisləşdi ki, bizə hətta kömür belə satmırdılar. Deyirdilər ki, Molla Səttar şahı təhqir etmiş və dindən çıxmışdır. O, Təbriz zindanında 1 il qaldıqdan sonra azad edildi və azad edildikdən 13 gün sonra vəfat etdi”.[222]

Doktor Həsənzadə davam edərək kitabında yazır: “Molla Səttarın ölüm zamanı 65 yaşı var idi. Firqə rəhbərlərindən Məhəmməd Hüseyn Bürhani, Şeyx İsmayıl Mühəddis Şərq elmi və dini şəxsiyyət olmaları səbəbinə edamdan qurtuldular və həbsə salındılar. Onlar zindanda olan zaman ərbablar və onların əlaltıları tərəfindən çoxlu hörmətsizliklər gördülər. Bürhani bir neçə illik həbs və sürgündən sonra Təbrizdə ərizə yazmaqla və kitabxanaçılıqla məşğul oldu və 1336-cı ildə (1957) vəfat etdi. Şeyx İsmayıl Mühəddis Şərq bir müddət zindanda qaldı və bir neçə ildən sonra vəfat etdi”.[223]

## Mərənddə siyasi məhbuslarla və onların ailələri ilə pis davranılması

Ordunun Mərəndi işğalından və milli fəalların həbs edilməsindən sonra zindan daxilində onlarla çox pis rəftar edirdilər. Zindana müraciət etdikdə ailələrinə də, çox pis münasibət bəsləyirdilər. Doktor Həsənzadə Təbrizin milli sənədlər mərkəzində saxlanılan hərbi qubernator polkovnik Etimad Müqəddəmin şəhər polis idarəsinin rəisi İbrahim Fərhəngiyə yazdığı 10.10.1325-ci il (31.12.1946) tarixli məktuba istinad edərək bu barədə belə yazır: “Bir neçə dəfə xatırlanmasına baxmayaraq dövlət məmurlarının əməllərinə, xüsusilə Azərbaycanda yenidən baxmaq lazımdır. Belə müşahidə olunur ki, siz hələ də bizə müraciət edənlərlə barbarlar dövründə olan kimi rəftar edirsiniz və ya bəzi hallarda sizin onlara qarşı yanlış nəzərləriniz vardır. Həmin idarədə apardığımız

222 İsmayıl Həsənzadə. İslam inqilabı Mərənddə, I cild, səh. 265.
223 Yenə orada, səh. 265

yoxlamadan məlum oldu ki, məhbuslara verilən 6 riyal pul onlara ödənilməmişdir. Halbuki, mən özüm şəxsən sizə bu barədə dəqiq göstərişlər vermişdim. Yuxarıdan sizə verilən əmrlərə xüsusilə ciddi yanaşmalısınız”.[224]

## Milli fəalların əmlakının qarət edilməsi

Mərənd işğal edildikdən sonra şahpərəstlər və onların tərəfdarları fədailərin və milli fəalların əmlaklarını qarət etməyə başladılar. Bu adamlar müxtəlif yerlərə məktublar göndərməklə özlərini “vətənpərvər” adlandırırdılar. “İslam inqilabı Mərənddə” kitabında Əkbəri Əsbəq ailəsinin baş nazirə göndərdikləri teleqramda onların Pəhləvi səltənətinə necə xidmət etmələri haqqında aşağıdakıları oxuyuruq: “Qondarma Azərbaycan hökumətindən zülm görmüş” bizim ailə şahənşah qüvvələrinin Azərbaycana gəlməsin bilən kimivə öz iranlı olmaq vəzifəmizi anlayaraq tam səmimiyyətlə 21 azər 1325-ci ildə (12 dekabr 1946-ci il) qiyamçılarına, vətən satqınlarına və vicdansızlara qarşı qiyam etdik. Əliyalın silahlarını əllərindən aldıq, əhəmiyyət kəsb edən şəxsiyyətlərini həbs edib təhvil verdik. Bunu ona görə etdik ki, dövlət qüvvələri gələnə kimi təhlükəsizlik yaransın. Biz son nəfəsimizə qədər hazırıq ki, daxili düşmənlərimizi təqib edək. İmza: Mahmud Əkbəri, Hüseyn Əkbəri və Əsədulla Əkbəri”.[225]

İndi isə, Mərənd şəhər polis idarəsinin rəisinin bu ailə haqqında Təbriz polis idarəsinin rəisinə yazdığı 23.11.1325-ci il (12.02.1947) tarixli məktubu “İslam inqilabı Mərənddə” kitabında oxuyaq: “Mərəndə daxil olduğu gündən bir neçə ailə, o cümlədən Əkbəri (Əsbəq) ailəsi məni evlərinə dəvət etdilər. Mən onların dəvətindən imtina etdiyimə görə əlbəttə ki, onların ailə vəziyyətin-

[224] Yenə orada, səh 278
[225] İsmayıl Həsənzadə. İslam inqilabı Mərənddə, I cild, səh.281

dən xəbərsiz idim. Lakin bir neçə günlük müşahidədən sonra hər şey aydın oldu. Belə ki, ailə üzvlərinin “vətənpərvərliyinə” söz yoxdur və ümumiyyətlə narahat ailədirlər. Yalnız onlardan iki nəfəri, 21 Azərdə Mərəndə gəlmiş ailə başçısı olan Hüseyn Əkbəri nisbətən anlayan adamdır. İkincisi isə silah toplamaqla köməklik göstərmiş Haşim Əkbəridir. O, 1324- 3-11-1325 saylı məktuba əsasən təşviq olunmasını xahiş etmişdir. Başqaları heç bir təşviqə layiq olan işlər görməmişlər. Əksinə, qaydanı pozmuş və qiyamçıların əmlakını qarət etməkdə iştirak etmişlər. Bu ailənin kağız yazmaqda yeganə məqsədləri oranı qarışdırmaqdan ibarətdir”.[226]

## Mərənddə öldürülənlərin sayı

İran ordusunun Azərbaycana hücumundan və Azərbaycan şəhərlərini işğal etməsindən sonra azadlıq mübarizlərinin çoxu həbs və edam edildilər. Mərənddə xeyli adam ordunun və Tehran hakimiyyətinin tərəfdarlarının əli ilə öldürüldülər. Burada öldürülənlərin sayı haqqında Mir Hidayət Seyid Mərəndi özünün “Mərəndin tarixi” kitabında belə yazır: ”İstər rəsmi, istərsə də, qeyri-rəsmi məlumatlara əsasən Mərənddə 62 nəfər edam edilmişdi. Öldürülənlərin biri erməni həkimi Simon idi. Onun Hacı Qurbanın qarajında (indiki ticarət bankının yeri) kabineti var idi. Onun Culfa xiyabanının axırında camaatın toplantı yeri olan bir bufeti də var idi. Onu Hacı Qafar bağında (Razi xəstəxanasının indiki ərizəsi) öldürdülər.”[227]

## Mərəndin və Azərbaycanın məşhur yazıçısı sürgündə

Gəncəli Sabahi həbs edilib Təbrizdə zindana salındıqdan sonra Bədrabad düşərgəsinə sürgün edildi. Bədrabad düşərgəsi İkinci Dünya müharibəsi zamanı Xürrəməbad şəhərinin bir neçə

[226] Yenə orada, səh. 280-281.
[227] Mir Hidayət Seyid Mərəndi. Mərəndin tarixi, səh. 284.

kilometrliyində, Əhvaz yolunda amerikalılar tərəfindən salınmışdı. Amerikalılar gedəndən sonra bura boş qalmışdı. Azərbaycandan sürgün olunanları bir müddət burada saxlamışlar. Sürgün olunanlar burada həyəcanlı və ağır günlər keçirmişlər. Bu düşərgənin rəisi polkovnik Vəzir idi. Gəncəli Səbahi özünün avtobioqrafik əsəri olan “Ötən günlərim” kitabında bu düşərgədə əsgərlərin və zabitlərin sürgün olunanlarla rəftarından belə yazır: “Bəzi günlərdə cavanları düşərgədən kənarda, boş bir yerdə düzüb silahlı adamların qarşısında saatlarla ayaq üstə saxlayırdılar. Sanki “Atəş” əmrini gözləyirdilər. Beləliklə, düşərgədə qorxu yaradırdılar, qadın və uşaqların rəngi qaçırdı. Bizi Bədrabad düşərgəsində dörd ay saxladılar. Sonra isə İranın cənub şəhərlərinə sürgün etdilər”.[228]

## “Aradəyirmanda” mühakiməsiz edamlar

Ordunun Azərbaycanı işğalından sonra qətliamlar Mərənddə və başqa şəhərlərdə geniş yayılmışdı. Bu qırğınlar heç bir mühakimə və sorğu-sual olunmadan kəndlərdə icra olunurdu. Mərənd belə bir hadisə Bengin və Həvcəğan kəndləri arasındakı “Aradəyirman” adlı yerdə baş vermişdi. Burada şahpərəst Nəsirxan Həvcəğaninin əmri ilə əmisinin intiqamını almaq məqsədilə yeddi nəfəri mühakiməsiz qətlə yetirmişdilər.

“Azərbaycan Demokrat Firqəsini yaranması” adlı kitabda bu barədə oxuyuruq: “Firqə məğlub olduqdan sonra xüsusi olaraq generalın qardaşı oğlanları Dövlətabad kəndinin ruhanisi Molla Rzanın işarəsi ilə generalın öldürülməsində əli olan yeddi nəfər dövlətabadlı saxlanılaraq indiki Əhməd xan bağının arxasında, “Aradəyirman” adlı yerdə öldürüldülər”.[229]

---

[228] Balaş Azəroğlunun xatirələri. səh. 88-89.
[229] Rəhim Nikbəxt, Sədri Mənijə. Azərbaycan Demokrat Firqəsinin yaranması, səh 73

## Darandaş kəndində bir fədainin mühakiməsiz qətlə yetirilməsi

Ordunun Azərbaycana hücumundan sonra ordunun havadarları şəhər və kəndlərdə ordunun və jandarmların köməyi ilə xeyli adamı özbaşına həbs etmiş, onlara işgəncələr vermiş, sonra isə edam etmişlər. Mərənddə də bu cür hadisələr baş vermişdir. Məsələn, Darandaş kəndində bir fədaini kəndin xanı həbs etmiş və qətlə yetirmişdi. “Eelaat” qəzeti bu mövzu ilə bağlı xəbərlərindən birində yazırdı: “Darandaş kəndinin demokrat fədailərindən bir nəfər Teymur adında şəxs hərbi qüvvələrin daxil olmasından sonra adı çəkilən kəndin xanları tərəfindən həbs edilmişdi. Son zamanlar xəbər yayılmışdı ki, adı çəkilən şəxs xanların zindanından qaçmışdır. Bu yaxınlarda onun cənazəsi bir dağın ətəyində tapılmışdır. Onun bədənində güllə izləri olmuşdur. Qətlə yetirilmişin adamları səlahiyyətli orqanlara şikayət etmişlər və cənazəni saxlamışlar”.[230]

## Mərəndin “Yamçı” deyilən yerində həbs

Yamçı kəndinin sakini Əli Əxbari qiyamçılarla əməkdaşlığına görə həbs edilmişdi. O, Mərəndin hərbi hakimiyyəti tərəfindən həbs edilmişdir. Onun cinayət işi təkmilləşdirilərək hərbi məhkəməyə təhvil verilmişdir.[231]

## Mərənddə şahpərəst “vətənpərvərlərə” medal verilməsi

Azərbaycanı işğal etdikdən sonra ordu Azərbaycanda mərkəzi hökumət tərəfdarlarını mükafatlandırmağa başladı və onların çoxuna medal verildi. Bu medal “Azərbadeqan” medalı adlanırdı.

[230] “Ehelaat” qəzeti, 22.04, 1947.
[231] “Ettelaat” qəzeti, 07.05, 1947.

Mərənddə də bu medallar paylandı. “Ettelaat” qəzeti medalların verilməsi haqqında yazırdı: “Tir ayının 15-də (7 iyul 1947) şəhər meriyasının ərazisində “vətənpərvərlərə” medal verilməsi ilə bağlı bayram keçirildi. General Zərrabi Azərbaycan vətənpərvərləri qarşısında qısa nitq söylədi. Sonra 40 nəfərə medal təqdim etdi. Bu qırx nəfərin hər biri and içirdilər ki, şaha, vətənə və üçrəngli İran bayrağına son nəfəsədək sadiq qalacaqlar”.[232]

## *XOY*

### Xoy azadlığa doğru gedir

1324-cü il 12 şəhrivər (3 sentyabr 1945-ci il) bəyanatından sonra və Azərbaycanın milli fəallarının təbliğatı ilə Azərbaycan xalqının böyük əksəriyyəti bəyannamədəki maddələrlə tanış olub onu layiqincə qarşıladılar. Əhali şəhər-şəhər, kənd-kənd demokrat firqəsinə qoşulmağa başladılar. Xoy şəhəri də, bu işdən istisna deyildi. Çoxlu sayda ziyalısı və Məşrutə dövründən qalmış milli mübarizi olan Xoy şəhərinin əhalisi milli tələblərlə öz razılıqlarını bildirdilər və dəstə-dəstə demokrat firqəsinə qoşuldular. Onlar Xoyda vilayət firqə komitəsini yaratdılar. Xoyda vilayət komitəsinin yaradılması haqqında “Azərbaycan Demokrat Firqəsinin yaradılması” kitabında aşağıdakıları oxuyuruq: “1324-cü ilə mehr ayının 8-də (30 sentyabr 1945-ci il) Xoyda demokrat firqəsi təşkil olundu. Həmid Haşimini katib, Yadulla Fəthi, Hüseyn Yəzdani, Əli Əkbər Səidi, Bayat Maku, Abbas Cəmçidi, Abbasəli Səbbağı komitə üzvləri seçildilər. Cəfərquluxanın mağazalarından biri firqə komitəsi üçün ayrıldı və üzərinə lövhə vuruldu”.[233]

Həmçinin bu kitabda Xoyda firqənin ilkin fəaliyyətləri və onun fəalları haqqında aşağıdakılar qeyd edilir. “Demokrat Firqəsinin ka-

[232] “Ettelaat” qəzeti, 14.07, 1947.
[233] Rəhim Nikbəxt, Sədri Mənijə. Azərbaycan Demokrat Firqəsinin yaranması, səh 172

tibliyi şəhərin mərkəzi yol ayırıcısında dəllal bazarının yanında yerləşirdi. İnsanlar qarşısında nitq və məruzələr söyləyən firqə rəhbərləri Mirzə Nurullaxan Yekani və İsmayıl Qafqazlı (dərzi) idilər.”[234]

## Xoyda xanların tərəfdarları və şahpərəstlər tərəfindən soyqırım törədilməsi

İran ordusunun Azərbaycanı işğal etməsindən sonra Xoyda qırğınlar başladı. Xoy şəhərinin sakini Heydər Qənbərli “İslam inqilabı Xoyda” kitabının müəllifilə müsahibəsində şahpərəstlərin firqə katibliyinə hücumunu belə şərh edir: “Firqənin mərkəzi komitəsinin rəhbərlərindən biri olan Yəzdani şəhərdə idi. O, mənzilinin eyvanına qalxmışdı və oradan, rejim tərəfdarlarına qarşı vuruşurdu. Onlar bir-birinə tərəf güllələr atırdılar. Yəzdani axırıncı nəfəsinə qədər müqavimət göstərdi. Onun gülləəri qurtardı. Adamların atdığı qüllədən yıxıldı. Adamlar onun evinə tökülüşdülər və onun cənazəsini sürüyə-sürüyə aparırdılar. Onun ayaqlarına ip bağlamışdılar, cənazəsinə kötək və təpik vururdular. Müqavimət göstərənlərdən biri də İsmayıl Qafqazlı idi. Onun peşəsi dərzilik idi və fəhlə idarəsinin rəisi idi. Onu da, müqavimət göstərən zaman həbs etmişdilər. Onu o qədər döydülər ki, canını tapşırdı.

Başqa birisi şəhər firqə rəhbərlərindən olan Dabbağ adında adam idi. O da, müqavimət göstərmişdi. Adamlar onun evinə hücum edəndə arxa qapıdan qaçmaq istəmişdi. Lakin adamlar zorla evinə girib qaçmazdan əvvəl onu tutdular. O, başına bir Quran qoyaraq ona and içirdi ki, onu öldürməsinlər. Deyirdi ki, qoy qoşunlar gəldikdən sonra onu mühakimə etsinlər. Camaat bunu qəbul etdi və onu sürüyə-sürüyə şəhərin mərkəzi yol ayrıcına gətirdilər. Təbriz küçəsində bir tanınmayan adam xəncərlə ona hücum etdi və onu yaraladı. Camaat da onun ardınca Dabbağı yumruq və təpik altına salıb öldürdülər.

[234] Yenə orada, səh.172.

Həmin gün çoxlu adam müqavimət göstərmişdi. Lakin, müqavimətlər təkbaşına olduğu üçün nəticəsiz qalırdı. Nəhayət, bütün müqavimət göstərənlər məğlub olub öldürüldülər. Cənazələrin bir hissəsini Şahpur küçəsinə aparırdılar. Orada məqbərədən yuxarıda qırx pilləsi olan bulaq var idi. Onun yanında meyidləri üst-üstə yığdılar. Cənazələrin xeyli hissəsini isə, Təzəkənd tərəfə apardılar.[235]

## Ordu maşınının qarşısında insanın qurban kəsilməsi

İran ordusunun Azərbaycana hücum etməsi Azərbaycanda dəhşətli cinayətlərin törədilməsinə səbəb oldu. Ordu zabitlərinin rəhmsizliyi sanki Tehran hökumətinin Azərbaycandakı tərəfdarlarına da sirayət etmişdi. Onlar ordunun rəhmsiz zabitlərinə baxıb Azərbaycanın tarixində görünməmiş cinayətlər edirdilər. Bu cinayətlərdən biri üç nəfər fədainin ordunun yük maşınının qarşısında qurban kəsilməsi oldu ki, belə hadisə Azərbaycan tarixində heç görünməmişdi. Ola bilsin ki, belə bir cinayəti ilk dəfə idi ki, Tehran hökumətinin havadarları törətmişdilər. Bu barədə Tehran Universitetinin professoru Əhməd Sai "Xoy nigar" adlı aylıq jurnala verdiyi müsahibədə belə söyləmişdir: "Bir neçə gündən sonra məktəb direktoru atəşli nitqindən sonra elan etdi ki, ordunu qarşılamaq üçün hazırlaşın. Ordu Xoy şəhərinə daxil olmamışdan əvvəl şəhərin mərkəzindəki binalardan birinin ikinci mərtəbəsində yerləşən demokrat firqəsinin katibliyi camaatın əlinə keçdi və bu zaman məruzə edən Əhmədinin əlindən səsgücləndirici qurğunu alaraq onu ikinci mərtəbədən aşağı atdılar. Yəzdaninin də necə öldürülməsini görmüşəm və hər şeyi xırdalıqlarına qədər xatırlayıram. Yadıma gəlir, ordunu qarşılayan gün cənab Fəthinin evinin qabağından keçən zaman mismarlanmış cənazələri gördüm. Saydım, 19 nəfər idilər. Təyyarə meydanı adlanan yerdə dayandıq. Gözləməyimiz çox çəkdi. Yorulmuşdum və anam üçün nigaran idim. Görəsən

[235] Dadrəsi Nağı. İslam inqilabı Xoyda, 2009

tək evə qayıda bilərəmmi?- deyə fikirləşirdim. Nəhayət, ordu maşınları görünməyə başladı. Gəlib dayanan birinci maşından bir zabit düşdü. Həmin anda camaatın arasında üç nəfər qolu bağlı adamın olduğunu başa düşmədim. Əlləri və ayaqları bağlı olan bu üç nəfəri yerə uzatdılar və başlarını kəsdilər. Qanların qanı paltarımın üstünə sıçradı. Qorxudan yaman titrədim. Bu titrəyişi indiyə qədər vücudumda hiss edirəm. Axşam bu hadisəni atama danışarkən o dedi ki, onlardan biri Dabbaq Allahverdi idi".[236]

Bu xatirəni Dabbağın öldürülməsi haqqında Dadrəsinin yazısı ilə müqayisə etdikdən sonra belə qənaətə gəlmək olur ki, onları ordu maşınının qarşısında qurbanlıq kəsmişlər. Onlara xəncərlə həmlə edilməsi barədə Nağı Dadrəsinin "Xoyda islam inqilabı" kitabında verdiyi məlumat isə düzgün deyildir.

## Xoyda kitabların yandırılması

İran ordusunun ayaq basdığı hər yeri qətl, qarət və ataş bürüyürdü. Onlar günahsız insanları öldürməkdən başqa Azərbaycan dilində olan kitabları da yandırırdılar. Xoyda kitabların yandırılması ordunun və Tehrandakı qondarma hakimiyyətin himayədarları tərəfindən həyata keçirilirdi. Doktor Əhməd Sai özünün "Xoynigar" jurnalına verdiyi müsahibəsində Xoyda kitabların yandırılması haqqında belə danışır: "İbtidai təhsilimə polis idarəsinin yerləşdiyi küçədəki üç siniflik məktəbdə başladım, amma küçənin adı yadımda deyildir. İbtidai məktəbin 1-ci sinfinə getdiyim il demokrat partiyası dövrünə təsadüf edirdi. Kitablarımız Azərbaycan dilində idi və müəllim diktəni Azərbaycan dilində deyirdi. Düşünürəm ki, 1945-ci ilin dekabr ayı idi. Bir gün məktəb müdiri cənab Mehdizadə bizə elan etdi ki, kitablarımızı məktəbə gətirək. Kitablardan böyük təpə əmələ gəldi. Sonra hamısını yandırdılar. Öz uşaq aləmi-

[236] Doktor Əhməd Sai ilə müsahibə. "Xoy nigar" jurnalı, 2013-cü il
[237] Yenə orada.

mizdə tonqal qalanmasına sevinirdik. Həm də fikirləşirdik ki, daha çalışma yazmayacağıq.[237]

## Xoyda geniş həbslər

*“Əbdülhüseyn ölər, azadlıq ölməz”*

Əbdülhüseyn Əhmədi Makuda anadan olmuşdu. Onun atası və əmisi Məşrutə müdafiəçiləri olduqlarına görə edam olunmuşdular. Əbdülhüseyn Rza xanın zindanlarında olmuş, demokrat firqəsinin mərkəzi komitəsinin üzvü, Azərbaycan Milli Məclisinin deputatı və nəhayət, Xoy şəhəri üzrə demokrat firqəsinin məsul nümayəndəsi idi. Onun atası da edam edilməmişdən əvvəl demişdi: “Şeyx Əhməd ölər, azadlıq ölməz”. O da, edam edilməmişdən əvvəl atasının dediklərini təkrar etmişdi: “Əbdülhüseyn ölər, azadlıq ölməz”. Şahpərəstlər onu öldürdükdən sonra meyidi eybəcər hala salmışdılar.

İsmayıl İqbal 1292-ci ildə (1913) Xoyda anadan olmuşdu. “21 Azər” medalı ilə təltif olunmuşdu. O, Xoyda çox faciəli şəkildə öldürüldü. Onu eybəcər hala salıb, arabaya qoydular və şəhər küçələrində gəzdirdilər”.[238]

Azərbaycanın işğalından sonra Tehran hakimiyyəti hər bir şəhərə bir nəfər hərbi qubernator təyin edirdi. Xoyda süvari polkovnik-leytenantı Əsəd Xəlili hərbi qubernator təyin edildi.

Qətliamlar Xoy şəhərində, kəndlərdə, Makuda və digər şəhərlərdə davam edirdi. “Ettelaat” qəzeti Azərbaycan Milli Hökuməti zamanı Maku şəhərinin polis rəisi ilə bağlı belə bir təskinlik yazmışdı: “Macəraçıların hakimiyyəti zamanı Makunun polis rəisi olmuş Novruzəli Dadaşzadə şahənşah ordusu Makuya daxil olan zaman qaçmışdı. Onu Makunun bir neçə kilometrliyində öldürmüşdülər. Bu gün onun cənazəsini Makuya gətirdilər”.[239]

---

[238] Azadlıq yolunun mübarizələri, səh. 157

[239] “Ettelaat” qəzeti,07.01.1947

## Həbs edilənlərin Salmasdan Təbrizə göndərilməsi

Xoy şəhərinin işğalından sonra ordu ətraf şəhərləri də işğal etdi. Bu şəhərlərdən biri Salmas şəhəri idi. Salmasın işğalı haqqında "Ettelaat" qəzeti belə yazırdı: "Çərşənbə günü azər ayının 27-də (18 dekabr) hərbi qüvvələr Şahpura (*Salmasa – tərcüməçi*) daxil oldular. Bu qüvvələrin komandiri leytenant Əşrəfəddini idi".[255]

Sonra qəzet davam edərək həbs edilənlərin Salmasdan Təbrizə göndərilmələri haqqında məlumat verir: "Dey ayının 4-də (25 dekabr) Xoy cinahının komandiri polkovnik-leytenant Məzahiri Şahpura daxil oldu. Həmçinin müttəhimlər - xəyanətkar firqəçilər Təbrizə yola salındılar".[240]

Qəzet həmçinin Salmasda həbs edilmiş demokratların cinayət işlərinin tamamlanması haqqında belə yazırdı: "Dey ayının 16-da Qaradağ mahalının silahlıları ilə bağlı işə baxılmış və həbs edilmiş məhbusların cinayət işləri tamamlanmışdır".[241]

## ABŞ hərbi məsləhətçiləri Azərbaycanın Xoy şəhərində

Azərbaycanın işğalı minlərlə ABŞ hərbi məsləhətçilərinin buraya ezam olunmalarına səbəb oldu. Bu Tehran hakimiyyətinin ABŞ-a layiqincə xidmət etdiyini göstərirdi. Azərbaycandan başqa minlərlə ABŞ hərbi məsləhətçisi İranın digər şəhərlərinə də ezam olunmuşdular. Bu məsləhətçilər İrana ABŞ-ın mənafeyini güdməyə gəlmişdilər. Aşağıdakı mətndə "Ettelaat" qəzeti ABŞ hərbi məsləhətçilərinin Xoy şəhərinə gəlmələrindən xəbər verir: "Xoy, fərvərdin ayının 27-i (18 aprel): dəmiryol mühəndisi Mister Pirsen və maliyyə nazirliyinin məsləhətçisi mister Road müşavirliyin müavini Hüseyn Mütəmmenin müşayiəti ilə lazımi araşdırmalar aparmaq üçün cari ayın 26-da Xoy şəhərinə gəlmişlər. Onlar Xoy şəhərinin hərbi qubernatoru polkovnik

[255] "Ettelaat" qəzeti, 20.01.1947
[240] "Ettelaat" qəzeti, 10.01.1947
[241] "Ettelaat" qəzeti, 11.01.1947

Əsədşah Xəlili ilə görüşmüş və lazım olan məlumatları aldıqdan sonra Rezaiyyə (Urmiya) şəhərinə yola düşmüşlər”.[242]

## Xoy mübarizlərinin həbs edilməsi

Xoy şəhərinin fəallarının həbs edilməsi başqa şəhərlərdə də davam edirdi. Milli fəallar Azərbaycanın bütün şəhərlərində və Azərbaycandan kənarda ordunun və Tehran hakimiyyətinin casusları və xəbərçiləri tərəfindən aşkarlanıb həbs edilirdilər. Aşağıda Xoydan olan bir mübarizin həbs olunması haqqında xəbəri “Ettelaat” qəzetindən oxuyuruq: “Mərənd-Xoy vilayətinin Siyahrud kəndində anadan olmuş Heydər Saleh oğlu adında bir nəfər Mərənd jandarmeriya rotasının məmurları tərəfindən həbs edilmiş, cinayət işi tamamlanaraq icra üçün təhvil verilmişdir. Adı çəkilən şəxs 1945-ci ildən əvvəl qiyamçılarla yaxından əməkdaşlıq etmiş və uzun müddət qaçaq idi”.[243]

## Maku şəhərində həbslər

İran ordusu hər şəhəri işğal etdikdən sonra Azərbaycan Milli Hökumətinin rəhbərlərini və onlara yaxın adamları həbs edib zindana salırdı. Ordu Maku şəhərini işğal etdikdən sonra xeyli adamı həbs etdi. “Ettelaat” qəzeti özünün 26 şəhrivər 1326-cı il tarixli nömrəsində (18.09.1947) Maku şəhərində 15 nəfərin həbs edilməsi haqqında məlumat vermişdi: “Maku, şəhrivər ayının 9-u (1 sentyabr): Son günlərdə Azərbaycan Demokrat Firqəsi ilə əlaqələri sübut edilmiş 15 nəfər qiyamçı şəhərin hərbi qubernatorluğu və polis idarəsi tərəfindən təqib edilərək həbs edilmişlər. Bu adamlar aşağıdakılardır: 1) Maku firqə təşkilatının sədri Camal Teymuri; 2) Makunun Azərbaycan Milli Məclisindəki nümayəndəsi Muradəli

[242] “Ettelaat” qəzeti, 19.04.1947.
[243] “Ettelaat” qəzeti, 04.08.1947.

Teymuri; 3). Maku Firqə Komitəsinin təftiş komissiyasının sədri Baleğ Teymuri; 4) Maku Firqə təşkilatının fəal üzvü Teyyub Fiyüzi; 5) Firqənin informasiya şöbəsinin rəisi Cəfər Bünyadi; 6) Demokrat firqəsinin rəhbərlərindən biri Mir Abbas Məhəmmədi; 7) Firqənin fəal üzvü Abbas Dadaşzadə; 8) Firqənin fəal üzvü Əli Ahəngəran; 9) Ustad Hüseyn Hələbi 10.) Mühacir Fərman Söhrabi; 11) Sadiq Bünyadi; 12) Burnakda firqənin təftiş komissiyasının sədri Mir Həsən Şücai; 13) Mir Əhməd Şücai; 14) Poldəşt firqə təşkilatının rəhbəri Əli Maqsudi; 15) Poldəst firqə təşkilatının üzvü Hüseyn Maqsudi.

## *MEŞKİNŞƏHR*

### Meşkinşəhr necə azad oldu

Azadlıq yolunun mübarizələrinin Azərbaycanda müstəmləkə boyunduruğunu qırmaq və qul olmaqdan azad olmaq yolundakı səyləri alqışlanmalıdır. Xiyav şəhərinin (Meşkinşəhrin) azadlıqsevərləri də istismar və müstəmləkə zəncirlərini qırmaq məqsədilə başqa şəhərlərdəki qardaş və bacıları ilə əl-ələ verərək Azərbaycan Milli Hökuməti rəhbərlərinin azadlıq çağırışına "ləbbeyk" (hazıram) dedilər və demokrat firqəsinə qoşuldular. "12 şəhrivər" Bəyannaməsindən sonra onlar Tehran hakimiyyətinə qarşı mübarizəyə qalxdılar və Xiyav şəhərini Tehran hakimiyyətinin əlindən aldılar. Xiyav şəhərinin necə azad olunduğu haqqında məlumatı "Ərdəbilin tarixi" bloqunda belə oxuyuruq:

"Fədailər əvvəllər kənddə jandarm rəisi olmuş Məhəmmədivəndin komandanlığı altında bir gecəlik döyüşdən sonra Meşkinşəhərdəki alay qarnizonunu tərkisilah etdilər və indiki "Ayət" küçəsinin yerindəki poçt və teleqraf idarəsinin həyatində (Şeyx Heydər məqbərəsinin arxasında) qərargah təşkil etdilər. Hüseyn Fəxrinin dediklərinə görə şəhərin böyükləri, o cümlədən Molla Haşım Meşkini,

Əbülfəz İskəndəri, Hacı Məhəmməd Sədr, Hacı Məcid Nasiri, Sərdar Nikbəxt, Həqiqət Möhsini, Kərbəlayi Əliqulu Hüseyn və Hüseyn Fəxri qərargahda məşvərət etdikdən sonra Məhəmmədivəndin yanına getdilər, itaət və əməkdaşlıq etmək istədiklərini ona elan etdilər. Onların bu əməli komandanlıq tərəfindən razılıqla qarşılandı.”[244]

## Jandarmların sui-qəsdi

Meskinşəhr qarnizonu fədailər tərəfindən tutulduqdan və şəhərin tanınmış adamları fədailərin tərəfinə keçdikdən sonra qərara alındı ki, jandarmlar öz silahlarını təhvil versinlər və hara istəyirlərsə sağ-salamat getsinlər və məsələ qan tökülmədən həll edilsin. Lakin, jandarmlar sui-qəsd planı hazırlamışdılar. Məqsəd fədailərə müqavimət göstərməkdən ibarət idi. “Ərdəbilin tarixi” bloqunda bu barədə aşağıdakıları oxuyuruq: “1945-ci il dekabr ayının 13-də səhər qərara alındı ki, Mustafa Fuladinin vasitəçiliyi ilə indiki imam Xomeyni küçəsində yerləşən jandarm binasında mövqe tutmuş jandarmlar silahlarını təhvil versinlər. Lakin, jandarm idarəsindən köhnə bazarın qarşısında dayanmış iki nəfər fədai atəşə tutulur və onların biri öldürülür, digəri isə yaralanır. Jandarm Qüdrət Abdinzadə də fədailərə güllə atanlardan idi. Nəticədə jandarmların bir neçəsi öldürüldü. Qalan jandarmlar, o cümlədən Yusif Əmiri, Əbülfəz Rəcai, Pur Kərim və başqaları Tehrana qaçdılar”.[245]

## Firqə əleyhdarları Meşkinşəhrdə

Meşkinşəhrdə demokrat firqəsinin vilayət komitəsi yaradıldıqdan sonra bəzi xanların və saray ruhanilərinin şəxsi və qeyri-qanuni mənafeləri təhlükə ilə üzləşdi. Azərbaycan xalqının hüquqlarını müdafiə etmək əvəzinə onlar Azərbaycan xalqı ilə düşmənçilik, Tehran

---

[244] “Ərdəbil tarixi” bloqu
[245] “Ərdəbil tarixi” bloqu

hakimiyyətinə isə nökərçilik etməyə başladılar. Bu adamların içərisində Hatəm xan Gillini və Əmir Aslan İsalını göstərmək olar. Hatəm xan "Qaşqa meşə" yaylağında və Əmir Aslan "Al qayası Ərşəqdə" bir il Azərbaycan xalqının seçdiyi Milli Hökumətə qarşı vuruşdular və xalqın düşmənlərinə öz nökərçiliklərini təsdiq etdilər. Bu adamlar Azərbaycanın işğalından sonra Tehran hakimiyyətinə xidmətlərinə görə regionda fövqəladə bir gücə malik oldular.

## Milli Hökumətin Meşkinşəhrdə islahatları və xidmətləri

Milli Hökumət mədəniyyət və incəsənət hamisi və xalqa xidmət göstərən bir hökumət idi. Milli fəallar Azərbaycanın azad olmuş bütün şəhərlərində qollarını çırmayaraq abadlıq işləri ilə məşğul idilər. Onlar bir illik hakimiyyətləri dövründə xalqa layiqli və diqqəti cəlb edən xidmət göstərdilər. Firqənin islahatları və xidmətləri barəsində "Ərdəbilin tarixi" bloqunda aşağıdakıları oxuyuruq: "Demokratların həyata keçirdikləri işlər torpaqların torpaqsız kəndlilərə verilməsindən, teatr və incəsənət işləri üçün binanın tikilməsindən (bu bina 1991-ci ilə qədər səhiyyə idarəsinin binası idi), Hüseyniyə məhəlləsində gənclər və qadınlar üçün mərkəzin yaradılmasından ibarət idi. Bu mərkəzləri idarə edənlər savadlı insanlar idilər".

## Meskinşəhrin işğalı və şəhərdə qırğınların başlanması

İran ordusunun Azərbaycana hücumundan sonra əvvəllər firqə ilə əməkdaşlıq etmiş bəzi riyakar insanlar yaranmış şəraitdən istifadə edərək firqə üzvlərinin evlərinə hücumlar edib onları həbs etməyə başladılar. Əmir Aslan İsalının və Hətəm xan Gikəlinin adamları şəhərə hücum etdilər. Əmir Aslan İsalının adamları şəhəri işğal etdilər. Onlar xeyli adamları həbs etdilər. 29 nəfər fəalı və günahlarl olmayan şəhər əhalisini bu adamlar şəhid etdilər.

Tehran hakimiyyəti Azərbaycan Milli Hökumətinin bir illik hakimiyyəti ərzində xeyli adamları gücləndirdi. Bu adamların bir hissəsi

xanlar, o biri hissəsi isə şahsevən tayfaları idilər. Əmir Aslan İsalı bunlardan biri idi. O, firqənin ciddi düşməni və Tehran hakimiyyətinin nökəri idi. "Ettelaat" qəzeti 13.2.1326-cı il tarixli nömrəsində Əmir Aslan İsalının fədailərin üzlərinə hücumu haqqında belə yazırdı:

"Azər ayının ortalarında dövlətin qərarı haqqında xəbər tutduqdan sonra Əmir Aslan döyüşə hazırlaşdı və "Ərşəq" dağının ətrafını tutmuş və onu mühasirə etmiş qiyamçıların üzərinə hücum etdi. Bir çox qiyamçı yaralandı, bir hissəsi qətlə yetirildi və qalanları isə tərki-silah edildilər. Əmir Aslan İsalı bu döyüşdə əldə etdiyi silahlarla şahsevənləri silahlandırdı və Meşkinşəhrə hücum edib şəhəri işğal etdi".

## İşğalçıların və satqın insanların şurası

Tehran hakimiyyətinin tərəfdarları vasitəsilə Meşkinşəhr işğal edildikdən sonra Hatəm xan, Rüstəm xan (Əmir Aslanın qardaşı və əvvəllər firqə ilə əməkdaşlıq etmiş adam), Molla Haşım Meşkini, Həqiqət Möhsüni, Məcid Nasiri, Əli Qəhrəmani, Mənafi, Zərqam Yəzdani və mayor Qəhrəman xan kimi adamlardan ibarət bir şura təşkil edildi. Bu adamlar şəhərdəki vəziyyətlə və həbs edilmişlərlə bağlı qərarlar qəbul edirdilər

.

## Meşkinşəhrdə firqənin əleyhdarları olan şahpərəst ruhanilər

Təəssüflər olsun ki, bəzi saray ruhaniləri xanlarla və Tehrandakı hakimiyyətlə müştərək mənafelərə malik olduqlarına görə Azərbaycanda və Meşkinşəhrdə milli fəalların azadlıq fikirlərinə qarşı çıxdılar. Belə ruhanilərdən Meşkinşəhrdə bir neçə nəfər var idi. "Ettelaat" qəzeti 10.11.1325-ci il tarixli nömrəsində onların bəzilərinin adlarını göstərərək yazırdı: "Burada iki nəfər ruhaninin ehtiramla adını çəkmək olar: bunlar Şeyx Qasım Pərixani və Molla Məciddir. Bu iki nəfər kifayət qədər ciddiyyətlə demokratlara qarşı mübarizə aparmışlar".

## Meşkinşəhrdə həbs edilmiş firqəçilər

Şəhərin işğalından sonra xain və Tehran hakimiyyətinə bağlı olan adamlar tərəfindən fədailərdən xeyli adam həbs edildi. “Ettelaat” qəzeti 30.01.1947-ci il tarixli nömrəsində bu barədə yazırdı: “İndi Meşkinşəhrin zindanında tezliklə mühakimə olunası və cəzalandırılası çoxlu fədailər vardır. Onların arasında demokratlar zamanında şəhər meri olmuş 70 yaşlı bir axund da vardır”.[246]

## İşğaldan sonra Meşkinşəhrin ümumi vəziyyəti

İran ordusu və xain insanlar tərəfindən şəhər işğal olunduqdan sonra Meşkinşəhrin ümumi vəziyyəti olduqca faciəli idi. Dövlət qəzeti olan “Ettelaat” 16.04.1947-ci ildə şəhərin acınacaqlı vəziyyəti haqqında aşağıdakıları çap etmişdi: “Meşkinşəhrdə ümumi vəziyyət qənaətbəxş deyildir. Səhiyyə sisteminin nə həkimi və nə də dərmanı vardır. Bir nəfər xəstələnərsə, öz taleyini qəzavü-qədərin əlinə tapşırmalıdır. Şəhərin elektrik stansiyası belə yoxdur. Gecələr şəhər qaranlığa qərq olur.

Bütün başqa xidmət və ehtiyaclar ya naqis vəziyyətdədir, ya da heç yoxdur. Yaxşı olardı ki, müvafiq adamlar buraya diqqət yetirsinlər”.[247]

# *ASTARA*

## Astara azadlığa doğru gedir

Astaranın Şimali Azərbaycanla həmsərhəd olması və burada mübariz ziyalıların yaşaması onun siyasi hərəkatlarda Azərbaycanın mühüm şəhərlərindən birinə çevrilməsinə səbəb olmuşdu. Azərbaycan Demokrat Firqəsinin yaranmasından sonra Astaranın

[246] “Ettelaat” qəzeti, 30.01.1947.
[247] “Ettelaat” qəzeti, 16.04.1947.

milli və siyasi fəalları ona qoşuldular. Azərbaycanın başqa şəhərlərinin Tehran hakimiyyətinin ordu və jandarmlarından azad olması ilə yanaşı, Astara da 21 azər 1324-cü ildə (12 dekabr 1945-ci il) Azərbaycan fədailərinin əli ilə azad olundu. Astaranın sərhəd qoşunlarının komandiri polkovnik Zəhirniya təslim olmayıb müqavimət göstərdiyinə görə öldürüldü.

Astara fədailərinin komandiri Sadiq Ləmani adında bir şəxs idi. O, Rza şah zamanı bir müddət Tehranda zindanda olmuşdu. Bir müddət də Abadanda sürgün həyatı yaşamışdı. Sadiq Zamani qardaşı Xudadad Zamani ilə birlikdə Astaranın azad edilməsində böyük rol oynamışdılar.

## Astarada firqənin əleyhdarları

Azərbaycanın azad edilməsi ilə bağlı insanların keçirdiyi sevinc və həyəcanlar, Azərbaycanda türk kimliyinin yenidən dirçəlməsi bir çox adamların qeyri-qanuni maraqlarını təhlükəyə saldı. Astara şəhərində də milli fəalların hakimiyyətə gəlməlsi ilə bəzi xanlar və Azərbaycan xalqının qanı ilə qidalanan, sələmçi xanzadələr öz mənafeləri üçün təhlükəni hiss etdilər. Onlar qeyri-qanuni maraqlarının itirilməsini gördükdə, Milli Hökumətə və onun tələblərinə qarşı çıxmağa başladılar. “Astara tarixin keçidində” adlı kitabda bu şəxslər barədə belə oxuyuruq:

“Demokrat firqəsinin hakimiyyətə gəlməsinin ilk dövrlərində Astara “vətənpərvərlərinin” bir hissəsi firqəçilər tərəfindən öldürüldükdən sonra bu “vətənpərvərlərin” bir neçəsi gizli şəkildə evlərini və yaşayışlarını tərk edərək Tehrana qaçdılar. Bu dəstədən olan adamlar ordu tərəfindən təşkilatlandılar, döyüş və partizan təlimi gördükdən sonra silah alıb tək-tək Talışa gəldilər və Talış meşələrində firqənin silahlı fədailərinə qarşı partizan döyüşləri aparmağa başladılar. Bir neçə dəfə Bağro dağlarında onlarla döyüşmüş və onlara tələfat yetirmişdilər. Bu qrupdan olan adamlar Astaraya

göndərilmiş hərbi qüvvələrlə birlikdə Astaraya qayıtdılar. Bu qrupun adamları üç günlük döyüş zamanı dövlət qüvvələrinə bələdçilik etdilər. Bu qrupa aşağıdakı şəxslər daxil idilər: Əli bəy Hüseyni Hüseynəli xan oğlu - dəstənin başçısı, Əzizağa Hüseyni Əlibəy oğlu, Xanlar Əşcəi (Əli bəyin qardaşı), Müzəffər Hidayətipur (Əli bəyin adamı) Əziz Həyadoxt (Əli bəyin adamlarından), Novruzəli Muradəlipur ("vətənpərvər" döyüş komandiri), Hüsaməddin Məcidi (Viznə xanı)"[248]

## Ordunun Astaraya hücumu

İran silahlı qüvvələri general-mayor Moğbelinin komandanlığı altında Astaradan qaçmış nüfuzlu şəxslər və xanlarla birlikdə Rəşt və Gilan istiqamətindən Astaraya hücum etdilər. Onlar Astarada fədailərin müqaviməti ilə üzləşdilər. Astara fədailəri üç gün balıqçılıq vətəgəsində İran qoşunları və onların havadarları ilə vuruşdular. Lakin qaçmış xanların adamlarının bələdçiliyi nəticəsində fədailər məğlub oldular. "Ettelaat" qəzetinin 19.01.1947-ci il tarixdə verdiyi məlumata əsasən, Astara balıq vətəgəsindəki döyüşdə 35 nəfər fədai və firqəçi məhv edildi. Sonra qəzet davam edərək Astaraya hücum zamanı ordu ilə birlikdə olan şəxslərin adlarını qeyd edir: "Ordu ilə əməkdaşlıq edənlərdən 30 nəfəri Əsəd Mir Məsudinin süvariləri, 40 nəfəri Həjbərinin süvariləri, 100 nəfəri isə Yunis Ağacaninin süvariləri idilər. Bu adamların ordu ilə əməkdaşlığı və fədakarlıqları hər cəhətdən alqışlanmalıdır və yaxşı olar ki, onlar ordu qərargahının diqqətində olsunlar".[249]

Qeyd olunmalıdır ki, bu adamların əksəriyyəti Tehrana qaçmış xanlarla birlikdə Astaraya hücum etmiş Gilan şahpərəstləri idilər. İran ordusu Astaranı işğal etdikdən sonra kapitan Xətib Şəhidini Astaranın hərbi komendantı təyin etdi. Təyin edildikdən sonra ona

[248] Əşrəfağa Həriri. Astara tarixin keçidində, 2006, səh.185
[249] "Ettelaat" qəzeti, 19.01.1947

mayor rütbəsi verildi.

## Astaraya hücumda fərqlənmiş İran ordusunun zabit və gizirlərinin təltif olunması

Astaranın işğalı zamanı törədilmiş qətl, qarət və qırğınlarda iştirak etmiş adamlara çoxlu sayda adam öldürdüklərinə görə İran ordusu tərəfindən medallar verildi və rütbələri yüksəldildi. “Ettelaat” qəzeti 26.12.1946-cı il tarixli sayında bu adamlar haqqında belə yazırdı:

“Astarada döyüşlər zamanı “ləyaqət və fədakarlıq” göstərmiş, medal və yüksək rütbə almış şəxslər bunlardır: piyada qoşunları kapitanı Qəviruh və piyada qoşunları kapitanı Həmzə Bağırnejad mayor rütbəsinə, piyada qoşunları baş leytenantı mühəndis Məhəmməd Tağı Hədvənd, piyada qoşunları baş leytenantı Mehdi Səduği, artilleriya baş leytenantı Tacbəxş kapitan rütbəsinə yüksəldilər.

Həmçinin piyada qoşunları kapitanı Möhsün İlqəmi, piyada qoşunları baş leytenantı Tac Xəlili, piyada qoşunları baş leytenantı Fərrux Kiş 3-cü dərəcəli “Sepah” medalına, jandarm mayoru Qulamhüseyn Biqdili 3-cü dərəcəli “Sepah” medalına, piyada qoşunları kapitanı Tağı Həşməti, piyada qoşunları kapitanı Yusif Qanei, piyada qoşunları baş leytenantı Əkbər Məskuki, piyada qoşunları leytenantı Teymur İrannejad, piyada qoşunları leytenantı Əzizulla Baxşəli, baş leytenant Cəmşid Muxtariyan, baş leytenant Cəmşid İsfəndiyari, baş leytenant Hüseyn, leytenant Həsən Xəmiri, baş leytenant İbrahim Ətai, baş leytenant Mehdi Paknejad, qərargah mayoru Tağı Sadeqiyan 3-cü dərəcəli fərqlənmə nişanlarına layiq görüldülər”.

## Astarada edamlar

Astara şəhərini işğal etdikdən sonra İran ordusu milli fəalları və Milli Hökumət tərəfdarlarını həbs edib, edam etməyə başladı. “Ettelaat” qəzeti 27.02.1325-ci il (17.05.1946) tarixli nömrəsində aşağıdakı xəbəri verirdi:

"Astarada həbs edilmiş demokratlardan Şir Əmin və Əmir Xəşirai edama məhkum edildilər".

Qəzet 12.12.1325-ci (03.03.1947) tarixli sayında davam edərək xəbər verirdi ki, Əmir Xəşirai Astarada edam edildi.

Həmçinin "Astara tarixin keçidində" kitabında oxuyuruq ki, Məhəmmədağa Çardolu ordunun hücumundan sonra Hüsaməddin xan tərəfindən öldürüldü.

## Qoşaçay (Miyandoab) necə azad edildi

Qaşaçayın fədailəri və milli mübarizləri Azərbaycanın başqa şəhərlərindəki mübarizlər kimi, əllərinə silah alaraq Qoşaçayı xarici müstəmləkəçilərin əlaltısı olan Tehran hakimiyyətinin şərindən xilas etdilər. Onlar Qoşaçaydakı hərbi qarnizonu mühasirə etdikdən sonra oradakı zabitləri təslim olmağa məcbur etdilər. "Miyandoabın, Tikabın və Şahındejin tarix və coğrafiyasına bir baxış" kitabında aşağıdakıları oxuyuruq: "Deyilənə görə, Qoşaçay qarnizonu demokrat məmurlarına təhvil verildikdən sonra zabit və gizirlərin sağlamlığına demokrat firqəsi rəhbərləri tərəfindən zəmanət verildi. Belə ki, onları sağ-salamat evlərinə yola saldılar".[250]

## Qoşaçayda Demokrat Firqəsinin islahatları

Mədəniyyət və incəsənət hökumətinin və onun fəallarının Azərbaycana rəhbərlik etdikləri bir il ərzində özlərindən sonra çoxlu sayda yadigarlar qoymuşlar. Onların ən böyük və ən mühüm yadigarı Azərbaycan dilinin rəsmiləşdirilməsi oldu. Bu dövrdə məktəblilər ana dilində təhsil almağın şirinliyini dada bildilər. "Miyandoabın tarixi və coğrafiyasına bir baxış" kitabında Azərbaycan

---

[250] Cəmşid Məhbubi. Miyandoab, Tikab və Şahindejin tarix və çoğrafiyasına bir baxış, səh. 194.

Milli Hökumətinin Qosaçaydakı islahatları haqqında oxuyuruq: “Deyilənə görə, bütün ostanda ibtidai və orta təhsil verilməyə başlandı. Dövlət idarələrinin rəsmi dili və məktəblərdəki tədris dili Azərbaycan dili oldu. Təbii ki, Miyandoab şəhərində də məktəblərdəki tədris dili və idarələrdəki yazışmalar Azərbaycan dilində aparılmağa başlandı.

Bir illik Pişəvəri hökuməti zamanı indiki İmam Xomeyni küçəsində (keçmiş Pəhləvi küçəsi) 1325-ci ildə (1946) şəhər hamamı tikildi. Həmin dövrdə qənd zavodu ilə üzbəüz texniki fənlər üzrə orta məktəbin binasının tikintisi başa çatdırıldı. Torpaq islahatı planı yerinə yetirilməyə başlandı. Böyük mülkədarlar və torpaq sahibləri Tehrana və ölkənin başqa şəhərlərinə qaçdılar.”[251]

## Qoşaçayın işğalı, qətl və qarətlərin başlanması

Azərbaycanın işğalından sonra İran ordusunun havadarları tərəfindən bütün Azərbaycanda qətl və qarətlər başladı. Qoşaçayda da çoxlu qətl və qarətlər baş verdi. Cəmşid Məhbubi özünün “Miyandoabın tarix və coğrafiyasına bir baxış” kitabında Milli Hökumətin Qoşaçay rayon başçısının edam edilməsi haqqında belə yazır: “Demokratlar qaçdıqdan sonra demokrat hökumətinin Miyandoab üzrə icra başçısı Əli Müt’i Mahmudcuq kəndinin mülkədarı Əlinağı Əmir Cəfərinin birbaşa təhriki və şikayəti ilə Miyandoabda dar ağacından asıldı”.[252]

Qoşaçayın qubernatoru olmuş mərəndli Mirkazım Ələmi də həbs edildikdən sonra edam edildi.

1907-ci ildə anadan olmuş Miyandoab zavodunun fəhləsi və firqənin mərkəzi komitəsinin üzvü Qulu Sübhi 1325-ci ilin (1946) azər ayında Qorqanda tutuldu. O, qəhrəmancasına şəhid oldu.

[251] Yenə orada, səh.194.
[252] Yenə orada, səh.187.

## *ƏHƏR*

Əhər o şəhərlərdəndir ki, onun milli fəalları qədim zamanlardan, Məşrutə dövründən xanlara və onların adamlarına qarşı mübarizə aparmışlar. Milli Hökumət zamanında bu şəhərin fəalları Milli Hökumətin xidmətində durdular və Milli Hökumət ilə yaxından əməkdaşlıq etməyə başladılar. Təəssüflər olsun ki, İran ordusunun Azərbaycana hücumundan sonra bu şəhərdə hərc-mərclik başladı. Yerli xanların adamları və mərkəzi hakimiyyət qüvvələri bu şəhərdə çoxlu sayda cinayətlər törətdilər. Hüseyn Bayburdi özünün “Ərəsbaranın tarixi” adlı kitabında ordunun Əhərə hücumu haqqında belə yazır:

“Ordunun hücumundan sonra Qulaməli Neməti və İmaməli Həmkari adında şəxslər Təbrizdən bir dəstə adamla Əhərə gəldilər. Bu adamlar firqə üzvlərini və onların tərəfdarlarını istər yerli olsun, istər yad, harada görürdülərsə öldürürdülər. Onlar bir dəstə adamı həbs edib, silahlarını yığdılar. Mərhum Seyfül Əmma onların bəzilərinin cəsədlərini yığaraq kəfənə büküb dəfn etdi. Yerlərdəki hərbi əməliyyatlardan sonra jandarm zabiti kapitan Hacı Güldərkəninin komandanlığı altınd hərbi qüvvələrin ilk korpusu Əhərə daxil oldu. 1946-cı ilin dekabr ayından başlayaraq, Əhərin hərbi qubernatoru polkovnik İzədpənah və Müntəsərülmülk Xəlilpur olmuşlar.”[253]

## Əhərin milli fəallarının İranın cənubuna sürgün edilməsi

Əhər ordu tərəfindən işğal edildikdən sonra milli fəalların xeyli hissəsi həbs edilib İranın cənubuna sürgün edildilər. Aşağıdakı cümlələr onların İranın cənubuna sürgün edilmələri haqqındadır:

“Pişəvəri süqut etdikdən sonra dövlət qüvvələri Əhərə daxil oldu və onun tərəfdarlarını həbs edib, mühakimə üçün Təbrizə göndərdilər. Onların bir hissəsi Şiraza və başqa yerlərə sürgün edildilər.”

---

[253] Hüseyn Bayburdi. Ərəsbaranın tarixi, səh. 98.

**Əhərdə azadlıq mübarizlərinin yandırılması (ata və oğul)**

Ən iyrənc və ən dəhşətli cinayətləri İran ordusu və onun havadarları Azərbaycanda törətmişlər. Tük ürpədən belə cinayətlərdən biri Azərbaycan mübarizlərinin diri-diri yandırılması idi. Bu cinayətin əsas törədicisi sonralar heç bir təqibə məruz qalmadan Kəleybərin nümayəndəsi kimi parlamentə yol tapmışdı.

Azadlıqsevənlərin yandırılması haqqında “Ərdəbilin müasir tarixi” bloqunda aşağıdakıları oxuyuruq: “Azərbaycan Demokrat Firqəsinin bir illik hakimiyyətindən sonra hər ailədən bir neçə nəfər öldürülmüşdü. Bunlardan biri Qaradağın Muğan ərazisindəki Gərmaduz mahalının Motallıq kəndindən olan İbrahim Əli oğlu idi. 1896-cı il təvəllüdlü İbrahimin oğlu Məşədi Məşrutə inqilabında Səttar xanın süvarilərindən biri olmuşdur. O, həmçinin Xiyabaninin milli qvardiyasının tərkibində də döyüşlərdə iştirak etmişdi. İbrahim öz oğlundan başqa digər cavanlara da ziyalılıq dərsi, feodallara və jandarmlara qarşı mübarizə dərsi öyrətmişdi. Məşədi bir neçə dəfə jandarmlar tərəfindən həbs edilmişdi. 1941-ci ildən sonra İbrahim və Məşədi hər ikisi firqə üzvlüyünə daxil oldular. Məşədi Motallıq və Abış Əhməddə demokrat firqəsinin şöbələrini təşkil etdi və region üzrə rəhbər oldu. Bu ata və oğul xalqı demokrat firqəsi ilə əməkdaşlığa çağırırdılar. Onlar firqəyə və milli hökumətə sədaqətlərinə görə Azərbaycan Milli Məclisi tərəfindən “21 Azər” medalı ilə təltif edilmişdilər. Onlar Məhəmməd Agəhinin köməkliyi ilə Abdulla xanın silahlı dəstələrinə qarşı vuruşmuşdular. 1946-cı ildən sonra Məşədi şah zamanında Kəleybərdən İran parlamentinə deputat seçilmiş Abdulla xanın oğlu Əsədulla xan tərəfindən yaralanıb, əsir edildi. Əsədulla ata və oğulun üzərinə neft töküb yandırdı. Feodalların əleyhinə olan ata və oğul beləcə külə çevrildilər”.[254]

[254] “Ərdəbilin müasir tarixi” bloqu

Başqa bir rəvayətdə belə danışılır ki, bu mübariz ata və oğul mərkəzi hakimiyyətin tərəfdarları və cəlladlar tərəfindən ağaca bağlanmış, üstlərinə neft töküldükdən sonra yandırılmışlar.

## Əhər kəndlərində fədailərin doğranaraq öldürülməsi

Azərbaycanda mərkəzi hökumət tərəfdarlarının törətdikləri cinayətlərdən biri də fədailərin küçə və xiyabanlarda açıq-aşkar şəkildə doğranaraq öldürülməsi oldu. Əhər kəndlilərindən olan Suren Harunyan adlı bir nəfər fədaini xanların adamları tikə-tikə doğramışdılar.

## *V Fəsil*

# “21 AZƏR” HADİSƏLƏRİNDƏ ŞAHPƏRƏST RUHANİLƏRİN ROLU

### “21 Azər” hadisələrində şahpərəst ruhanilərin rolu

“Problemlərdən biri də bu idi ki, yalnız qədim kitabların giriş hissələrini oxumuş bir nadan başına əmmamə qoyaraq Quran adından və aləmlərin rəhməti adlandırılan Peyğəmbər səlavatullah adından insanların malına, canına və hətta namusuna dəxalət etmək hüququnu özünə aid edir. Bu adamlar islamda mühakimə etməyin ən incə və ən çətin bir iş olmasından, hökm verən adamın müəyyən edilmiş şərtlərə malik olmaqdan əlavə, elmi cəhətdən də müctəhid olmasından xəbərsiz olaraq belə şeyləri etməkdə özlərini haqlı bilirlər”.[255]

Azərbaycanda Milli Hökumətin təşkili və qurulması Azərbaycandakı ruhaniləri iki dəstəyə böldü. Onların bir dəstəsi milli tələblərin tərəfdarı və onun himayəçisi oldular. Onlar bu yolda şəhid oldular və zindanlara salındılar. Bunların arasında biz xanların və mərkəzi hökumətin adamları tərəfindən Zəncanda şəhid edilmiş Şeyx Məhəmməd Al İshaq Xoyini göstərə bilərik. Mərənd ruhanilərindən bir neçə nəfəri, o cümlədən Molla Səttar Natiq Mərəndi və Məhdəs Şərq milli tələblər yolunda həbs edilmişdilər.

Lakin ruhanilərin bir dəstəsi var idi ki, ya sükut etdilər, ya da Tehran hakimiyyətinin tərəfinə keçdilər və Milli Hökumətə qarşı mübarizəyə başladılar. Bu adamlar Pəhləvi şahına salam və salavat

---

[255] Baba Səfəri. Ərdəbil tarixin keçidində, III cild, səh.102.

[256] Yervand Abrahamian. İran iki inqilab arasında, səh. 125.

deməklə Milli Hökumətə qarşı təbliğat işində, orduya kömək etməkdə və hətta Milli Hökumət tərəfdarlarının məhv edilməsində belə iştirak etmişdilər.

Tehranda və Qumdakı ali məqamlı ruhanilər isə xaricilərin əlilə qurulmuş Tehran hökumətini qeyd-şərtsiz bir şəkildə dəstəkləməklə Azərbaycan Milli Hökuməti ilə mərkəzi hökumət arasındakı siyasi və iqtisadi məsələni dini məsələyə bağladılar və din silahı ilə Azərbaycan xalqının milli və siyasi tələblərinə qarşı mübarizəyə qalxdılar.

Onların bəziləri fətva vermək hüququnda olmasalar da, fətvaya əl atdılar. Öz ruhani libaslarından istifadə edərək, Azərbaycan xalqının dini hisslərindən Tehran hakimiyyətinin xeyrinə sui-istifadə etdilər. Əslində, fətvanın müşriklər və qeyri-müsəlmanlara qarşı verilməsinə baxmayaraq, bu ruhanilər fətvanı Azərbaycan xalqının övladlarına qarşı verdilər. Onlar Milli Hökumət tərəfdarlarının canını və malını halal elan etməklə orduya və ordu tərəfdarlarına soyqırım törətmək üçün mənəvi dəstək verdilər. Halbuki, əcnəbi dövlətlərə bağlı Tehran hökuməti birbaşa olaraq xaricilər tərəfindən himayə edilirdi. Lakin, onlar bir dəfə də olsun, şaha və onun xaricilərdən asılı olan hökumətinə qarşı söz deməmişdilər. Onlar Azərbaycan dilinə və müstəmləkəçilərin boyunduruğuna girmək istəməyən azadlıqsevən Azərbaycan xalqına bəslədikləri kin və nifrət üzündən milli fəalları “yolunu azmış” və “dinsiz” adlandırırdılar. Onlar xurafat içində olan insanların dini hisslərini coşdurmaqla məşğul idilər. Mərkəzi hökumətə bağlı olan saray ruhaniləri Azərbaycan xalqını Tehran müstəmləkəçilərinin əsarəti altında saxlamaq istəyirdilər və azərbaycanlıların müqavimətini qırmaq üçün hətta, cihad fətvası elan etmişdilər.

Azərbaycanda azadlıq tərəfdarlarının məhv edilməsi üçün dindən sui-istifadə edilməsinin qədim tarixi vardır.

Məşrutə inqilabı dövründə istibdad tərəfdarı olan ruhanilər Təbrizdəki azadlıq mübarizlərini “dinsiz”, yaxud “mürtəd” adlandı-

rırdılar. “İran iki inqilab arasında” adlı kitabda bu barədə belə yazılır: “Ruhanilər Məşrutə mübarizlərini mürtəd və dinsiz babilər adlandırırdılar”.[256]

İran ordusu və Tehran hökuməti Azərbaycan Demokrat Firqəsini məhv etmək üçün bütün yollardan istifadə edirdi. Elə bu səbəbdən də kifayət qədər savadı olmayan adamlara ruhani paltarı geyindirib demokrat firqəsi ilə mübarizəyə göndərirdilər.

“Molla Puqas” ləqəbi ilə məşhur olan Seyid Əhməd Mir Xas da Azərbaycan xalqı ilə mübarizəyə göndərilmişdi. Baba Səfəri özünün “Ərdəbil tarixin keçidində” kitabında yazır: “Azərbaycan Demokrat Firqəsinin yarandığı ilk vaxtlarda mərkəzi hökumət bu yeni yaranmış hərəkatın zəiflədilməsi və ya aradan götürülməsi üçün bütün imkanlardan istifadə edirdi. Bu səbəbdən Mir Xası həmin libas və görkəmdə mücahid alim şəklinə salıb, bütün imkanları ilə onu qüvvətləndirməyə başladı. İran ordusunun o zamankı baş qərargah rəisi Azərbaycandakı 2-ci diviziyanın rəhbərliyinə tövsiyə etmişdi ki, demokratlara qarşı təbliğatda onun şəxsiyyətindən istifadə etsinlər. Sədrüləşrəf* hökuməti şəhrivər ayının 21-də keçirilmiş iclasın 1324/24-11624 saylı qərarına əsasən, ayda 3 min riyal ödəmək şərtilə 5 ay müddətində Seyid Əhməd Mir Xas Ərdəbili üçün 1324-cü ilin (1945) büdcəsindən 15 min riyal pul ayrılmasını nəzərdə tutmuşdu”. [257]

Molla Puqas demokrat firqəsinə qarşı zəhərli təbiğlat aparmaqdan əlavə, cihad da elan etmişdi.

General-leytenant Ərfə Molla Puqasa maddi köməklik etməkdən əlavə, ona Azərbaycan Demokrat Firqəsi ilə mübarizə aparmaq üçün silah da göndərirdi. O, Mir Xasa silah verirdi ki, Azərbaycan Milli Hökumətinə qarşı müharibəyə getsin. “Keçmiş gələcəyə aparan yolun çırağıdır” kitabında oxuyuruq: “...o, sonralar general Aryana

* Qəvvam nəzərdə tutulur (tərcüməçi).
[257] Baba Səfəri. Ərdəbil tarixin keçidində, III cild, səh. 102-103

olmuş polkovnik Mənuçehriyə tapşırmışdı ki, Ərdəbil xanlarından birinin baş xidmətçisini Tehrana gətirsin. Tehranda baş xidmətçi general-leytenant Ərfədən pul və silah aldıqdan sonra ona tapşırıldı ki, bütün gücü ilə Seyid Əhməd Mir Xasın köməyinə tələssin".[258]

Cənab Mir Xas Ərdəbili ordu və onun yerli havadarları tərəfindən Azərbaycanda soyqırım icra olunduqdan sonra şah tərəfindən qəbul edildi və şah ona xidmətləri müqabilində brilyant üzük bağışladı. "Ettelaat" qəzeti bu hadisə haqqında belə xəbər verirdi:

"Ərdəbildə qiyamçılar və demokratlara qarşı mübarizədə layiqli xidmətləri olmuş cənab Mir Xas Ərdəbili bu gün səhər saat 10-da şah tərəfindən qəbul edilmiş və ona brilyant üzük bağışlanmışdır".[259]

Ordu Azərbaycana hücum etməmişdən əvvəl dindən sui-istifadə edərək cihad hökmü yazılmış vərəqələri göydən Azərbaycan şəhərlərinə tökürdü. Bu vərəqələrdə yüksək dərəcəli ruhanilərin imzası olmasa da, onlar bu məsələyə razılıq vermiş və öz sükutları ilə onu təsdiq etmişdilər.

Xanbaba Bəyani özünün "Azərbaycan qiyamı" adlı kitabında bu vərəqələri göstərərək yazır: "İmzasız müqəddəs cihad əmri! Bütün şiə alimləri və mərcəi təqlid olanlar onların əleyhinə cihad əmri vermişdilər. Bu böyük Allahın əmridir, cihaddır və peyğəmbəri-əkrəmin canişinləri siz şərafətli müsəlman kişiləri cihada çağırırlar ki, öz vətənimizi dinsizlikdən və küfrdən xilas edəsiniz".[260]

Azadlıqsevən mübarizlərin məhv edilməsi məqsədilə dindən və insanların dini hisslərindən diktator hökmdarlar tərəfindən istifadə edilməsi tarixdə həmişə mövcud olmuşdur. Lakin Milli Hökumətin hakimiyyəti dövründə əcnəbilərin əlaltısı olan hökumət bu silahdan riyakarcasına Azərbaycan xalqına qarşı istifadə etdi və buna nail oldu. Çünki, saray tərəfdarı olan, öz həyat və varlıqlarını zalım

---

[258] Keçmiş gələcək yolun çırağıdır, səh .250.
[259] "Ettelaat" qəzeti, 10.03.1947.
[260] Xanbaba Bəyani. Azərbaycan qiyamı, səh. 470.

xanların və yadlara mənsub olan şahın həyatı ilə birləşdirənlər və sarayın tərəfdarı olan ruhanilər Tehran hökumətinin köməyinə qalxmışdılar. Onlar yadelli müstəmləkəçilərdən asılı olan bu hökumətə kömək etdilər. Hətta, "İslam ayini" jurnalı Azərbaycanda soyqırım əmrini vermiş cinayətkar şahı "şiələrin sultanı" adlandırmışdı. Halbuki, bu şahın ordusu minlərlə insanı işgəncələr altında edam etdi. Minlərlə insanı İranın iqlimi pis olan yerlərinə, o cümlədən Neyriz, Kerman, Bəndər-Abbas və Cəhrəmə sürgün etdi və bu insanlar bu yerlərdə ağır və acı günlər yaşadılar.

Ruhanilər arasında bəzi yerli Azərbaycan ruhaniləri də var idi ki, Tehrandakı və Qumdakı ruhanilərlə səs-səsə verərək Milli Hökumətə qarşı fəaliyyət göstərirdilər. Onlar hətta, özlərindən fətvalar da uydururdular. Məsələn, Marağada müctəhid hacı Həbib şiəlik və islam tarixində görünməmiş bir fətva vermişdi. Tehranın və Qum şəhərinin yüksək dərəcəli ruhaniləri də bu fətvaya etiraz etməmişdilər. "Atəş" qəzeti və Xanbaba Tehrani "Azərbaycan qiyamı" kitabında onun fitvasını qeyd etmişdilər. "Atəş" qəzeti özünün 1 bəhmən 1325-ci il tarixli (22.01.1946) 83-cü sayında bu barədə belə yazırdı: "Bir kəndli ondan demokrat firqəsinə daxil olmaq icazəsi istəyərkən o, Marağa əhalisinin qarşısında demişdi: əgər sən firqəyə daxil olsan, bu ona oxşayacaq ki, Kəbə evində öz qızınla zina etmiş olasan".

## Kütləvi qırğın fərmanının verilməsi

Xurafatçı və mürtəce insanların həyata keçirdikləri qeyri-qanuni və qeyri-insani işlərdən biri də "qətl" fərmanının verilməsi oldu. Cəmiyyətin tör-töküntüsü olan quldur və başkəsənlər bu fərmana əsaslanaraq Ərdəbildə və başqa yerlərdə gördükləri hər bir azadllqsevəri öldürürdülər. Hətta, bir başqası ilə düşmənçiliyi olan şəxslər bu fərmandan istifadə edərək öz düşmənlərini öldürürdülər.

Bu fərmandan birinci olaraq Ərdəbildə istifadə olundu. Xanların adamları bu fərmana əsaslanaraq yüzlərlə adamı öldürdülər.

Mərhum Baba Səfəri öz kitabında Ərdəbildəki qətllər haqqında belə yazır: “Həmin günlərdə və ondan sonra başkəsənlərin şüarı “intiqam” və ya “qətl” idi. Əgər onlardan biri yoldan keçən tanımadıqları bir adama bu sözləri aid etsəydi, qısa zamanda başqaları tanınmadan və bilmədən onun üstünə tökülüşürdülər. Hücumlarını dayandırdıqdan sonra yazıq insanın cansız bədəni qarın üzərinə düşmüş olardı. Öldürülmüş adamın kimliyi tanındığı zaman belə, qatillər az da olsa, təəssüflənmirdilər”.[261]

## Qadınların səsvermə hüquqlarına qarşı müxalifət

Azərbaycan Milli Hökuməti cəmiyyətin bütün üzvlərinin qanuni və bəşəri hüquqlarından bəhrələnmələri məqsədilə qadınların səsvermə hüquqlarını rəsmi olaraq tanımışdı. Lakin ruhanilər milli hökumətin bu humanist qərarına qarşı çıxdılar.

## Demokratların dinsiz olmaları haqqında fətvanın verilməsi

Saray ruhanilərinin Tehranın xaricilərdən asılı hakimiyyətini himayə edən fəaliyyətlərindən biri də demokratların “dinsiz” elan edilməsi barədə fərman vermələri olmuşdur. Bu barədə danışırdılar ki, bu fərmanı ayətullah-üzma Seyid Yunis Ərdəbili fətva şəklində vermişdi. Bu fərmanın verilməsi ilə demokratların və Azərbaycan aşiqlərinin canları və malları halal elan edilmişdi.

Bu fətva bir çox sui-istifadəçilərin Azərbaycan azadlıqsevərlərinin canına və malına hücum etmələri üçün əl-qollarını açırdı. Ayətulla Seyid Yunis Ərdəbilinin fəaliyyəti haqqında “Muğan düzünün tarixi” kitabında aşağıdakıları oxuyuruq: “O, Ərdəbilin Azərbaycanın ruslar tərəfindən və separatçı demokrat firqəsinin üzvləri tərəfindən işğalı zamanı onlarla müxalifətə və mübarizəyə qalxdı. O, “Tudə” partiyasının şöbələrinin yaradılması zamanı

[261] Baba Səfəri. Ərdəbil tarixin keçidində.

kommunistlərin boykot edilməsi və dinsiz elan olunmaları haqqında fətva verdi.”

Bundan əlavə panfarsist Tehran hakimiyyətinə bağlı olan ünsürlər onun fətvasını əldə əsas tutaraq demokrat firqəsi üzvlərinə, firqə təşkilatlarının binalarına qarşı hücumlara başladılar. Bu barədə “Muğan düzünün tarixi” adlı kitabda aşağıdakıları oxuyuruq:

“Bu ali dərəcəli şiə ruhani başçısının və “mərcəi-təqlid”in fətvasından ilham alan Ərdəbil və Muğan düzü ruhaniləri Azərbaycan Demokrat Firqəsinə və “Tudə” partiyasına qarşı mübarizəyə qalxdılar. Belə ki, Ərdəbildəki “Tudə” partiyasının binaları Cənubi Azərbaycan sovet qoşunları tərəfindən işğal edildiyi zaman Seyid Bexas Ucarudi və Muğan düzü tayfalarının süvariləri tərəfindən yandırıldı”.[262]

## Şahpərəst ruhanilərin Demokrat Firqəsinə qarşı təbliğatı

Azərbaycan Milli Hökuməti qurulduqdan sonra bütün dinlər azad elan edildi. Hətta, Rza xan zamanında çadraları zorla başından götürülmüş qadınlara istədikləri kimi geyinməyə icazə verildi. Bu barədə doktor Turac Atabəyi özünün “Müasir İranda Azərbaycan” adlı kitabında milli hökumət zamanında dini azadlıq haqqında belə yazır:

“Demokratların din adamlarının himayəsini əldə etmək üçün həyata keçirdikləri tədbirlərdən biri də, müəyyən dini fəaliyyətlər qarşısında qoyulmuş qadağaların aradan qaldırılması oldu. Bu qadağalar Rza şahın hakimiyyətə gəlməsinin ilk illərində qoyulmuşdu. Bu fəaliyyətlər məhərrəm ayında sinəyə zəncir və xəncər vurmaq kimi mərasimlərdən ibarət idi. Bundan əlavə, Rza şahın 1930-cu ildə qeyri-qanuni elan etdiyi qadınların çadra örtmək hüquqları onlara qaytarıldı. Bu zaman Təbrizdə olmuş ABŞ mətbuatının nümayəndələrindən biri öz hesabatlarının birində xatırladır ki, qeyd

---

[262] Mirnəbi Əzizzadə. Muğan düzünün tarixi.
[263] Mirzə Abdulla Müctəhidinin xatirələri, səh. 173.

olunması faydasız deyildir ki, demokratlar dini adət və ənənələrin qaytarılmasını azad şəkildə təsdiq edirlər və hal-hazırda onlar məhərrəm ayının mərasimlərində iştirak edirlər. Həmçinin, özü ruhani olan Rəsul Cəfəriyan “Azərbaycan böhranı” adlı kitabının müqəddiməsində ayətullah Mirzə Abdulla Müctəhidinin xatirələrini vermişdir. Bu xatirələrdə deyilir ki, təbiətən, din və məzhəb işlərində heç bir mənfi iş etməmişlər. Hətta, yüksək dərəcəli ruhani alimi Mirzə Xəlil Müctəhidi xəstələndikdə yüksək firqə və dövlət adamları ona baş çəkməyə getdilər. Pişəvəri özü bir dəfə din alimlərini qəbul edib, onlarla söhbət etmişdi. Ruhanilər də qarşılıqlı şəkildə onunla görüşürdülər”.[263]

Lakin bunların əksinə olaraq, firqəyə müxalif olan iki ruhanidən eşidirik ki, Milli Hökumət guya dinin əleyhinə olmuşdur. Ayətulla Mələkuti bu barədə öz xatirələrində yazır: “Demokrat firqəsi dinə, mədəniyyətə, insanların adət və ənənələrinə qarşı geniş hücuma keçdi. Onlar kommunist ideyalarını yaymağa başladılar. Buna qarşı regionun ruhaniləri və dindar adamları fəaliyyətsiz oturmadılar. Xüsusilə mərkəzdəki ruhanilər susmadılar. Onlar minbərlərdə, dərnəklərdə, xüsusi və ümumi məclislərdə islam dinini və şiəliyi müdafiə etməyə başladılar. Bizim kəndimizdə mərhum Ağa Mirzə Abdulla Həqqi onların əleyhinə fəaliyyət göstərirdi. O, minbərə qalxanda bir an belə susmurdu”.[264]

Bundan əlavə, Mirzə Həbib Müctəhid “Atəş” qəzetinə verdiyi müsahibədə müxbirin “Firqənin islam dini ilə bağlı fəaliyyəti nə idi?” - sualına cavab olaraq belə demişdi: “Onların yeganə fikir və məqsədləri islam dini ilə mübarizə aparmaqdan ibarət idi. Lakin açıq şəkildə fikirlərini yaya bilmədiklərinə görə qərara almışdılar ki, Allaha etiqadla və islam dininə qarşı tədricən mübarizə aparsınlar. Onlar, əsasən, Allahın mövcudluğunu inkar edirdilər”.[265]

---

[264] Ayətulla Mələkutinin  xatirələri, İslam inqilabı sənədləri mərkəzi, səh. 81
[265] “Atəş” qəzeti, No 83, 22.12.1946.

## Milli Hökuməti məğlub etmək üçün şahpərəst ruhanilərin Tehran ordusu ilə əməkdaşlığı

Milli Hökumətin qurulması ilə xarici dövlətlərin dəstəyi ilə iş başına gəlmiş Tehran hökuməti hakimiyyətin əllərindən çıxmasından ehtiyat etməyə başladı.

Tehran hökuməti Azərbaycanda öz müstəmləkə hakimiyyətini qoruyub saxlamaq istəyirdi. Bununla bağlı şəhid Pişəvərinin olduqca dəqiq siyasi bir cümləsi vardır. O demişdi: “Onlar Azərbaycanı kiçik Hindistan fərz edirdilər”. Çünki Tehranın xaricilərdən asılı hakimiyyəti Azərbaycanı azad görmək istəmirdi və Milli Hökuməti məğlub etmək üçün xarici dövlətlərdən kömək almaqla yanaşı, xalq içində olan ruhanilərdən sui-istifadə edilirdi. Bundan başqa, saray ruhanilərinin zalım xanlar ilə çox yaxın münasibətləri var idi. Hətta, saray ruhanilərinin bəziləri özləri kiçik mülk sahibi və feodal idilər. Onlar Milli Hökumətin müasir və mütərəqqi ideyalarının onların mənafeləri ilə təzad təşkil etməsini görürdülər. Bu səbəbdən onlar ilə Tehran hökuməti, xanlar və ordu arasında yaxşı əməkdaşlıq yaranmışdı.

İran ordusu Azərbaycanda Demokrat Firqəsi təsis olunduqdan sonra qarşısına yalnız bir məqsəd qoymuşdu. Bu məqsəd Milli Hökuməti və onun fəallarını məhv etməkdən ibarət idi. Onlar Azərbaycandakı Milli Hökumət müxalifətçilərini himayə edirdilər. Bunların arasında Ərdəbil, Miyana, Urmiya, Sərab, Mərənd və başqa yerlərin ruhaniləri var idi. Ordu firqənin əleyhdarı olan ruhaniləri hər cəhətdən himayə edirdi.

## Azərbaycan Milli Hökumətinin məğlub edilməsi yolunda “mərcəi-təqlid”lərin İran hökuməti ilə əməkdaşlığı

Tehranın xaricilərdən asılı olan, xarici dövlətlərdən köməklər alan və xaricilər tərəfindən himayə edilən hökumət rəhbərləri Azərbaycan hökumətini məhv etmək və Azərbaycanda soyqırım hə-

yata keçirmək üçün “mərcəi-təqlidlərin” nüfuzundan istifadə etdilər. Ruhanilər və “mərcəi-təqlidlər” Azərbaycan xalqını əzmək üçün cani-dildən Tehran hakimiyyəti ilə əməkdaşlıq etdilər ki, ordu Azərbaycanda soyqırımı həyata keçirə bilsin. Bu barədə Məhəmməd Tahir Xosrovşahi “Müasir İranın siyasi fikir və tarixi” adlı aylıq jurnalda ayətullah Burucerdinin Azərbaycan xalqını məhv etmək üçün xaricilərə bağlı Tehran hökuməti ilə əməkdaşlıq etməsi haqqında aşağıdakıları oxuyuruq: “Bir neçə vaxt bundan əvvəl nəşr edilmiş “Doktor Mehdi Haeri Yəzdinin xatirələri” kitabında göstərilir ki, Azərbaycan məsələsində Qəvvamüssəltənə ona (ayətullah Burucerdiyə) xəbər göndərdi ki, hal-hazırda Azərbaycandakı seçkilərlə bağlı məsələ gündəmdə olduğundan, əlavə olaraq Rusiya ilə şimal nefti haqqında müqavilə bağlandığından və müqavilə XV məclisdə təsdiq edilməli olduğundan Azərbaycanın iştirakı olmadan İranın başqa ostanlarında seçkilər keçirilə bilməz. Buna ehtiyac yaranmışdır ki, siz (Ayətulla Burucerdi) seçkiləri boykot edəsiniz.

Ayətullah Burucerdi öz növbəsində bütün İran şəhərlərinə seçkilərin boykot edilməsi fətvasını elan etmək üçün nümayəndələr göndərdi. Adı çəkilən nümayəndələr bu vəzifəni yerinə yetirməkdən əlavə müxtəlif şəhərlərin əhalisi ilə görüşləri zamanı əhalini Azərbaycan məsələsinin əhəmiyyəti ilə tanış edirdilər. Bu tədbirlə bütün ölkəni Azərbaycan Demokrat Firqəsinin pəncəsindən xilas etmək üçün vahid bir cəbhə yaradıldı”.[266]

## Saray ruhanilərinin səyi ilə Tehranda “Azərbaycanın xilası cəmiyyəti”nin yaradılması

Azərbaycanda Milli Hökumət təşkil edildikdən sonra Tehran hökumətinə xidmət etməyə başlamış saray ruhaniləri və qaçmış xanlar İranda İngiltərə casuslarından biri olan Seyid Ziyaəddin

[266] Tahiri Xosrovşahi. “Müasir İranın siyasi fikir və tarixi” aylıq jurnal, 2005, No 37, səh. 34.

Təbatəbainin himayəsi ilə “Azərbaycanın xilası cəmiyyətini” yaratdılar. Bu işdə Azərbaycandan Tehrana qaçmış ruhanilər mühüm rol oynadılar. Bunlar Məhəmməd Sadiq Müctəhidi, Azərbaycandan Tehrana qaçmış və Milli Hökumətə qarşı mənfi təbliğat aparan Mirzə Hüseyn Vaiz və başqaları idilər.

Məhəmməd Müctəhidi özünün “Məşrutə dövründə Azərbaycanın məşhur adamları” kitabında Mirzə Hüseyn Vaiz haqqında yazır: “Mirzə Hüseyn Vaiz Tehrana getdi və “Azərbaycanın xilası cəmiyyəti”nin sədri oldu. O, Qaflankuhun süqutu günü bir dəstə azərbaycanlı ilə birlikdə Məhəmmədrza şahın hüzuruna getdi və onu təbrik etdi”.[267]

## Şahpərəst ruhanilərin Azərbaycanda tədrisin Azərbaycan dilində olmasına qarşı çıxması

Bütün dillərin və xalqların islam dini tərəfindən rəsmi olaraq tanınmasına baxmayaraq, Nəcəf və Qum dini hövzələrində təhsil almış olan müqəddəs islam dininin təbliğatçıları Azərbaycan dilinin öyrənilməsinə qarşı çıxdılar və bu işdə öndə gedənlərdən oldular. Onlar Azərbaycanda ana dilinin kökünü kəsmək üçün təkliflər verirdilər. Mirzə Hüseyn Vaiz Azərbaycan dilinin məhv edilməsi üçün təklif vermiş ruhanilərdən biri idi. O təklif edirdi ki, fars dilinin tədrisi üçün çoxlu müəllimlər göndərməklə Azərbaycan dilini məhv etmək olar. Şah ilə birlikdə Azərbaycana səfər etmiş “Ettelaat” qəzetinin baş redaktoru Məhəmməd Əli Məsudi özünün “Azərbaycana səfərlə bağlı qeydlər”ində bu ruhani haqqında yazırdı: “Cənab Mirzə Hüseyn Vaiz şahın hüzuruna ərz etdi ki, Azərbaycanın çoxlu sayda xahişləri vardır, lakin bunlardan ən mühümü və öncəsi fars dilinin yayılmasıdır. Biz dövlətdən xahiş edirik ki, uşaqları ilk dövrlərdən fars dilinin şirinliyi ilə tanış edə biləcək kifayət qədər müəllim və ədəbiyyatçını Azərbaycana

[267] Müctəhidi. Məşrutə dövründə Azərbaycanın məşhur adamları.

göndərsin. Bu adamlar Azərbaycanın uşaq və yeniyetmələrini həyatlarının ilk illərindən ürəkaçan fars təranələri ilə tanış edərək yerli ləhcənin təsirini tamamilə məhv etsinlər.”[268]

## Şahpərəst ruhanilərin xarici ölkələrin xarici işlər nazirlərinə məktubla müraciətləri

Azərbaycan Milli Hökuməti bir çox xanların və panfarsist sistemin nümayəndələrinin mənafelərini elə təhlükəyə salmışdı ki, İran cəmiyyətinin bütün təbəqələri Azərbaycan xalqına qarşı sui-qəsd vəziyyətinə gəlmişdi. O cümlədən, ruhanilər də bu məsələdə çox fəallaşmışdılar. Onlar din və məzhəblə heç bir əlaqəsi olmayan siyasi bir məsələyə din və məzhəb libası geyindirmişdilər. Onlar din və məzhəb adı ilə Azərbaycan xalqına qarşı müharibəyə qalxmışdılar. Azərbaycan xalqının istək və tələbləri dini deyil, hüquqi və siyasi bir məsələ idi. Lakin saray ruhaniləri Tehrandakı xaricilərin əlaltısı olan bir hökumətlə əl-ələ verərək riyakarcasına siyasi bir məsələni dini məsələlərə qatmışdılar. İslam dinində xalqların müstəqilliyinə qarşı heç vaxt müxalifət bildirilməmişdir. Əgər islam dini bu məsələyə qarşı olsaydı, indi dünyada məzhəbi sünni olan 20 ərəb dövləti olmazdı. Halbuki, ərəblərin əksəriyyəti sünni müsəlmanlardır və müxtəlif ölkələrdə yaşayırlar. Lakin şahı “şiələrin sultanı” adlandırmış saray ruhaniləri Azərbaycan xalqının azadlıq səsini boğmaq üçün hətta, xarici ölkələrə yalvarmağa başladılar. Onlar xaricilərin köməyi ilə Azərbaycan xalqının azadlıq səsini boğmaq istəyirdilər. Bu barədə ayətulla Mir Seyid Məhəmməd Behbəhani və Tehranın imam cüməsi SSRİ-nin və İngiltərənin İrandakı səfirlərinə məktublar yazmışdılar. Bu məktublar aşağıdakı mövzuda idi: “Ölkənin ruhani cəmiyyəti İran xalqı

[268] Məhəmmədəli Məsudi. Azərbaycana səfər haqqında qeydlər, “Ettelaat” qəzeti, 18.06.1947.

adından Azərbaycandakı gözlənilməz hadisələri və ölkənin bu hissəsindəki həyəcanlı səs-küyü təəccüblə izləyir”.[269]

Bu müraciəti oxuyandan sonra istər-istəməz adamın ağlına belə bir sual gəlir: İran xalqı siz ruhaniləri nə vaxt və necə özünün nümayəndələri seçmişdir ki, onun adından xarici ölkələrin səfirlərinə məktub yazırsınız? Onların məktubunun maddələrini oxuduqdan sonra belə nəticə alınır ki, onların yeganə dərdi Azərbaycan xalqının öz taleyini öz əlinə almasından qorxmaqdır və onlar Məhəmmədrza Pəhləviyə himayə və kömək məqsədilə xarici ölkə səfirlərinə məktub yazmışlar.

## Tehranda Seyid Ziyanın iştirakı ilə nümayişlər

Azərbaycan Milli Hökumətinin qurulması ilə mənafeləri zərər görmüş saraya bağlı ruhanilər xarici ölkələrin əlaltısı olan Tehran hökumətinin qucağına sığınmışdılar və bunlardan daha pisi isə, İngiltərənin İrandakı casusu olan Seyid Ziya ilə əməkdaşlığa başlamışdılar. Onlar ordunun təşkilatçılığı ilə Azərbaycan xalqının milli tələblərinə qarşı nümayişə çıxdılar. Cəmil Həsənli “İran Azərbaycanı - soyuq müharibənin başlandığı yer” kitabında yazır: “1945-ci il noyabr ayının 20-də Seyid Ziyaəddin və Azərbaycandan qovulmuş Mirzə Hüseyn Vaizin təşkilatçılığı ilə bir dəstə azərbaycanlı Məclisin qarşısında toplaşdılar və nümayişə başladılar. Vaiz və başqa bir neçə nəfər Məclis nümayəndələri və azərbaycanlılar qarşısında çıxış etdilər”. [270]

## Azərbaycanda qondarma partiyaların yaradılmasına kömək

Saray ruhaniləri Azərbaycanda Milli Hökumətin qurulmasının və möhkəmlənməsinin qarşısını almaq üçün heç bir səylərini əsirgəmirdilər. Onlar demokrat firqəsi rəhbərləri və ideoloqlarına

---

[269] Xanbaba Bəyani. Azərbaycan qiyamı, səh. 247-248

[270] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması, səh. 165.

qarşı mənfi təbliğatdan tutmuş, Azərbaycan Demokrat Firqəsinin genişlənməsinin qarşısını almaq üçün qondarma partiyaların yaradılmasına qədər tədbirlər həyata keçirirdilər. Hətta, müstəmləkəçilərdən asılı olan xanlarla belə Milli Hökuməti yıxmaq üçün əməkdaşlıq edirdilər. Cəmil Həsənli yazır: "1945-ci ilin payızında ingilislərin tərəfdarı olan onlarla mürtəce ruhani demokrat firqəsinin qrupları arasında təfriqə və yeni firqələr yaratmaq məqsədilə İranın cənubundan İranın şimalına ezam olundular. Məsələn, Zəncanda böyük tacir və ingilislərin tərəfdarı olan Zülfüqari "Zəncan Demokrat Firqəsi" yaratmağa təşəbbüs göstərmişdi. Bu firqə Azərbaycanın muxtariyyətinə, məktəblərdə və idarələrdə Azərbaycan dilinin işlənməsinə qarşı idi. O, torpaqların kəndlilər arasında bölünməsinin də əleyhinə idi".[271]

## Soyqırım münasibəti ilə ruhanilərin şahı təbrik etmələri

Azərbaycanın İran ordusu tərəfindən işğalından, soyqırımın həyata keçirilməsindən, qətl və qarətlərin törədilməsindən sonra saray ruhaniləri xaricilərə bağlı olan şaha çoxlu təbriklər göndərdilər və bu təbriklərdə Azərbaycanda soyqırım törətdiyinə görə ona öz sevinclərini bildirirdilər. Halbuki, həmin anlarda Azərbaycan odun-alovun içində yanırdı, minlərlə adam zindanlarda və sürgünlərdə öldürülürdü. Ali rütbəli ruhanilər sevincdən öz dərilərinə sığmırdılar. Aşağıda ruhanilərin təbriklərindən bəzi nümunələr göstərilir:

"Əlahəzrət Şahın hüzuruna!

Sevimli və böyük şahənşahın müqəddəs fikir və tədbiri ilə şahənşahın şəhamətli ordusunun Azərbaycan qiyamına son qoyduğu bu bayram və ümumi sevinc anında Sepəhsalar ali ruhani mədrəsəsinin alim və müəllimləri tərəfindən şahın müqəddəs zatına hörmət bəsləyən tələbələr adından səmimanə təbriklərimizi təqdim edir,

[271] Cəmil Həsənli. İran Azərbaycanı: soyuq müharibənin başlanması, səh .165.

şahənşahın əzəmətinin və İranın istiqlalının artması üçün böyük Allahdan və imami-əsrin hüzurundan dua və xahiş edirik.

Zəhir ül-islam

## Tehran ruhaniləri və üləmalarının şaha təşəkkür bildirmələri

Azərbaycanda həyəcanların bitməsi münasibəti ilə bütün Tehran üləmaları əlahəzrət şahın hüzuruna təşəkkür məktubu yazmışdılar. Bu məktubun məzmunu aşağıdakı kimidir:

“Bismillahir rəhmanir rəhim vəlєdül həmd! Bu anlarda şahənşah ordusunun Azərbaycanı fəth edib, qələbə çalması xəbərini eşitdiyimiz zamanda bütün dua edənlər və bütün müsəlmanlar öz səmimi təşəkkürlərini şahın hüzuruna təqdim edir, islamın və onun əhalisinin rifahının, şahənşahın və şahənşah dövlətinin səadət və əzəmətinin yüksəlməsini uca Allahdan istəyirik. İmza edənlər: Mir Seyid Məhəmməd Bağır Behbehani, Ayətullazadə Şirazi, Hacı Mirzə Abdulla Tehrani, Şeyxəli Mədədi Müəyyeri, Tehran imam cüməsi, Ayətullazadə İsfahani, Ayətullazadə Mazandarani, Şeyx Bəhaəddin Nuri Nəbəvi, Şeyx Məhəmməd Əli Ləvəsani, Şeyx Cəfər Şəriətmədari, Hacı Seyid Məhəmməd Hüseyn Ləvəsani, Şeyx Əliağa Sulqani, Elmülhüda Şirazi, Hacı Seyid Nəsrulla Şüştəri, Hacı Ağa Əhməd Kermanşahı, Şeyx Əhməd Nəcəfi, Hacı Şeyx Məhəmməd Nəhavəndi, Bəzzazlar məscidinin imamı Mirzə Musa, Seyid Əliəsgər Cəzairi, Hacı Şeyxülirageyn Bayat, Hacı Seyid Əbülqasım Amoli, Əhvaz imamı Seyid Heybətulla, Hacı Şeyx Mehdi Nəcmabadi, Şeyx Bəhaəddin Səduqi Həmədani, Seyidəli Əsgər Xoyi, Zəhirülislam, Mehdi Nəcmabadi, Hacı Ağa Nurəddin Rəşti, Seyid Mehdi Kumari, Şeyx Hidayətulla Mələki, Mirzə Əbdülhüseyn Şirazi, Şeyx Bağır Rəsuli, Hacı Ağahüseyn Nəcmabadi, Seyid Məhəmməd Həsən Əngəci, Seyid Məhəmməd Əli Əngəci, Hacı Seyid Əhməd Ləvəsani, Hacı Seyid Məhəmmədrza Zəncani, Seyid Cəlaləddin Böyükağa.

## Tehran ruhanilərinin Azərbaycan ruhanilərinə göndərdikləri təbrik

Azərbaycandakı soyqırımdan sonra Tehran ruhaniləri şaha və ordu zabitlərinə sədaqətlərini bildirmək məqsədi ilə Azərbaycan ruhanilərinə və soyqırımın icraçılarına, o cümlədən, Azərbaycana hücum etmiş mərkəzi hərbi korpusun komandirinə təbrik teleqramı göndərdilər. “Ettelaat” qəzeti teleqramı dərc etmişdi: “Hüccətül-islamların Azərbaycan üləmalarına teleqramı:

Təbriz: Hüccətülislam Hacı Mirzə Xəlilağa Müctəhidi, Süq-qətülislam, Şəhidi, Şəriətmədari cənablarlarının və başqa hüccətül-islamların xidmətinə. Zalım qiyamçıların aradan götürülmələri, iftixarlı Azərbaycan əhalisinin asayişinin təmin olunması və ölkənin istiqlalının möhkəmlənməsi münasibəti ilə sizi təbrik edirik. Xahiş edirik, dua edənlərin təbriklərini və dualarını general-mayor Zərzabi, general mayor Haşimi cənablarına da çatdırın. Bu böyük bir uğurdur və yalnız şahənşahın fədakar ordusunun fədakarlığı və zabitlərin qəhrəmanlığı nəticəsində ölkəyə nəsib olmuşdur. Ağaların bu böyük xidməti islamın və İranın tarixində həmişə qalacaq və xalqın hafizəsindən silinməyəcəkdir.

İmzalar: Məhəmməd Musa əl-Behbahani, Məhəmməd Əmin əl-Xoyi, Abdulla əl-Tehrani, Ayətullazadə İsfahani, Əhməd əl-Kermanşahi, Seyid Məhməd Bağır Əhməd Nəcəfi, Zəhirül-islam, Əbdülhəsən Şərif, Nəsrulla Bayat və başqaları.

## Saray ruhaniləri tərəfindən istintaq aparılması və hökm oxunması

Bəzi ruhanilər Azərbaycanda malik olduqları mənafeləri əldən verdiklərinə görə Azərbaycan Milli Hökumətini düşmən hesab edirdilər. Bu səbəbdən Milli Hökumətə qarşı müxalifətə və mübarizəyə başlamışdılar. Onlar Tehrandakı xaricilərin əlaltısı

olan hakimiyyətin birbaşa və ya dolayısı ilə məmuruna və icraçılarına çevrilmişdilər. Onların bəziləri hətta, Azərbaycanın işğalından sonra azadlıqsevərlərin həbsi, istintaqı və onlara hökm oxunması ilə məşğul oldular. Doktor Həsənzadə özünün “İslam inqilabı Mərənddə” adlı kitabında bu barədə yazır: “Molla Abbas Qarağaci demokrat firqəsinin hakimiyyəti dövründə firqəçilər əleyhinə ciddi mübarizə aparırdı. Demokrat firqəsi süqut etdikdən sonra o, həbs edilənlərin müstəntiqlərindən biri idi və hökm elan edirdi.”[272]

## Ruhanilərin Azərbaycanda şahı qarşılamaları

Şah Azərbaycandakı soyqırımdan sonra öz mövqeyini möhkəmlətmək və ordunu, onun Azərbaycanı yanmış torpağa çevirmiş komandirlərini, hərəsi bir şəhərin qubernatoru olmuş mayor və polkovnikləri ruhlandırmaq üçün 1326-cı ilin xordad ayında (1947-ci ilin iyununda) Azərbaycana səfər etdi. O, Azərbaycanın əksər şəhərlərinə baş çəkdi. Şəhərlərdəki bütün görüşlərdə şahı birinci qarşılayan və ona itaətlərini bildirən şəxslər saray ruhaniləri idilər. Qəzetlərdə onlar üləma kimi göstərilirdilər.

Azərbaycanın işğalından sonra İran ordusu bir neçə ay ərzində Azərbaycanın bütün var-yoxunu qarət etdi və Milli Hökumətin bir il ərzində yaratdığı infrastrukturanı məhv etdi. Azərbaycanda qanlar axıtdı. Onlar Azərbaycan xalqını elə sındırmaq istəyirdilər ki, heç vaxt qəddini düzəldə bilməsin və həmişəlik Tehranın istismarçıları qarşısında boyun əysin. Onlar Azərbaycanda beş ay ərzində elə cinayətlər törətdilər ki, Azərbaycan tarixində heç vaxt görünməmişdi.

Əcnəbilərə bağlı şah Azərbaycanda daha çox qorxu və dəhşət yaratmaq məqsədilə işğaldan altı ay sonra Azərbaycana səfər etdi. O, Azərbaycan xalqının əfsanəvi qəhrəmanı Firidun İbrahimini Azərbaycanda daha çox qorxu yaratmaq üçün dar ağacından asdı.

---

[272] İsmayıl Həsənzadə. İslam inqilabı Mərənddə, 2-ci cild, səh. 78.

Bu səfər zamanı Azərbaycandakı soyqırımın təşkilatçısı və icraçısı olan şahı qarşılamaq üçün bütün şəhərlərə ruhanilər gedirdilər. Onlar dua və salavatlarla onu müşayiət edirdilər. Öz dinlərini və dünyalarını Azərbaycan Milli Hökumətilə bağlı yalan və riyakarlıqların yayılmasına satmış bu saray ruhaniləri əcnəbi dövlətlərin əlaltısı və casusu olan şahı qarşılamaqda öndə gedirdilər.

Üləmaların Azərbaycanın müxtəlif şəhərlərində şaha itaət göstərmələri aşağıdakı nümunələrdə qeyd olunur.

## Urmiya

Əhməd Kavyanpur özünün “Rzaiyyənin (Urmiyanın) tarixi” kitabında şahın səfəri zamanı ruhanilərin itaət etmələri haqqında belə yazır: “Şəhərin böyük müctəhidlərindən biri olan ağayi Üsuli ruhaniləri şaha təqdim edərkən gözləri yaşla dolmuşdu.”[273]

## Ərdəbil

Məhrum Baba Səfəri “Ərdəbil tarixin keçidində” kitabında şahın Ərdəbilə səfəri haqqında yazır: “Şah 15.03.1325-ci il (5.06.1946) cümə axşamı günü Ərdəbilə gəldi və cümə günü 6.06.1946-cı ildə əhalinin müxtəlif təbəqələri şahın görüşünə getdi. Əvvəlcə üləmalar, sonra idarə rəisləri, sonra isə tacir və əsnaf təbəqələri, Ərdəbil və Xalxalın mülkədar və xanları şahla görüşdülər.”[274]

## Təbriz

“Ayin-e İslami” (İslam ayini) jurnalı Məhəmməd Rza Pəhləvinin Təbrizin “Talibiyyə” mədrəsəsinə gəlməsi haqqında belə hesabat verirdi: “Əlahəzrət şahənşahın Təbrizin dini elmlər üzrə ən

[273] Əhməd Kavyanpur. Rzaiyyənin tarixi, səh. 218.
[274] Baba Səfəri. Ərdəbil tarixin keçidində, səh. 127.

böyük mədrəsələrindən olan “Talibiyyə” mədrəsəsinə gəlişini jurnalın müxbiri aşağıdakı kimi şərh edir: Çərşənbə günü xordad ayının 6-da (28 may) axşam saat 6-da İranın sevimli şahənşahı dini təhsil alanların vəziyyətini yoxlamaq üçün “Talibiyyə” mədrəsəsinə təşrif gətirdi. Mədrəsənin divarlarını küçənin başından başlayaraq qiymətli xalçalarla bəzəmişdilər. Hüccətül- islamlar, dini təhsil alan tələbələr, dindarlar və islam dini ilə əlaqəsi olan adamlar arasında şahın onlara diqqətinə görə bir həyəcan və sevinc yaranmışdı. Şah təşrif gətirən zaman bir neçə qoyun qurbanlıq ediləndən sonra hüccətülislam həzrət Şəriətmədari, Seyid Həsən Xoyi, Hacı Mirzə Məhəmməd Əli Əngəci, Hacı Seyid Murtuza Ələm və Hacı Seyid Hadi Xosrovşahi küçənin başında sevimli şahənşahı qarşıladılar. Əlahəzrət şah küçəyə təşrif gətirən zaman mədrəsələrin və tələbələrin vəziyyəti haqqında Hacı Seyid Murtuza Ələmə bir neçə sual verdi və Hacı Seyid Murtuza Ələm onun suallarına cavab verdi. Şah mədrəsənin həyətinə daxil olan zaman adamlar və tələbələr uca və davamlı səslə salavat göndərir və şahın mübarək zatına dua edirdilər. Mədrəsənin çalışqan və fəal tələbələrindən olan Mirzə Hüseyn Hüseynzadə Xoyi “Nur” ayəsini maraqlı və uca səslə oxudu. Cənab Mənsur və şahı müşayiət edən adamlar, generallar – general-polkovnik Şahbəxti, general-leytenant Zərrabi və general-mayor Danişvər, bir qrup yüksək dərəcəli zabitlər və ali dərəcəli məmurlar burada idilər. Həzrət Ayətulla Şəriətmədarı şaha “xoş gəlmişsiniz”deyərək aşağıdakı sözləri şahın hüzurunda ərz etdi: “Üləmalar, tələbələr, dini təbliğatçılar, dindarlar və Azərbaycanın bütün əhalisi adından sizə təşəkkürlərimizi bildiririk. Və uca Allahdan sizə uzun ömür, şövkət və izzət arzulayırıq. Əlahəzrət, bu qədim mədrəsənin İranın və islamın minillik tarixində görkəmli xidmətləri vardır. Ölkəyə və müqəddəs islam dininə xidmət etmək üçün qucağında görkəmli din və dövlət adamlarını yetişdirmişdir. Əlahəzrət şahənşahın xatirinə gəlirsə, böyük və adlı-sanlı adamlar bu dini mədrəsələrin şagirdləri olmuşlar. Bu

adamların adları tarix səhifələrində qeyd olunmuşdur. Onlar ölkəyə, din aləminə böyük və tarixi xidmətlər göstərmişlər, bütün dünyada elm və mərifətin məşəlini daşıyan olmuşlar. Lakin, təəssüflər olsun ki, son vaxtlar bu mədrəsələrə və onun tələbələrinə lazım olan diqqət yetirilmir.

Əlahəzrət! Ölkəyə silahlı qüvvələr lazım olduğu kimi islah və tərbiyə edən qüvvələr də lazımdır. Dini təhsil alan tələbələr ölkənin islah və tərbiyə edən qoşunudur. Bunlar din və dövlət xadimləri olmaqla yanaşı, həm şahı və vətənlərini sevən insanlardırlar. Bunlar ölkənin məvacib almayan qoşunlarıdırlar, az miqdarda çörəklə kifayətlənirlər. Tələbələrin təhsil aldıqları yerlər abad və təmir olunmuş deyildir. Böyük zəhmətləri müqabilində çətinliklə dolanırlar. Lakin, ölkəyə və dinə xidmət etməkdə heç nəyi əsirgəmirlər. Əvəzində muzd və hədiyyə istəmirlər. Yalnız onu xahiş edirlər ki, bu xidmətlərinə görə şah tərəfindən onlara diqqət yetirilsin. Əlahəzrət şahın “Talibiyyə” mədrəsələrinə təşrif gətirməsi, həqiqətən məmnuniyyətlə qarşılanır. Şahın təşrif gətirməsi onu sübut edir ki, məmləkətin bu xidmətçiləri də şahın diqqətində qərar tutacaqlar. Əlahəzrət şahdan xahiş edirik ki, tüllabları (din təhsili alan tələbələri), dini təbliğatçıları, qədim mədrəsələri, məmnuniyyətlə, bütün dini binaları və simvolları, alimləri şahın xüsusi əhəmiyyəti və diqqəti altına alsınlar. Bu da aydındır ki, şahın hüzuruna gələ bilməyən və bu görüşdən bəhrələnə bilməyən üləmalar olduqca təəssüflənəcəklər. Səbəbi odur ki, əlahəzrətin buraya gəlişindən gec xəbər tutmuşuq və şaha layiq olan qədər hazırlaşa bilməmişik. Buna görə olduqca təəssüflənir və xəcalət çəkirik”.

Sonra əlahəzrət şah mədrəsələrin, tələbələrin, məscidlərin sayı haqqında və “Talibiyyə” mədrəsəsi haqqında suallar verdi və lazım olan cavabları aldı. O, hüccətülislam Şəriətmədarinin bütün dediklərini təsdiq edərək söz verdi ki, ən qısa vaxtda hər cür kömək və yardımlar ediləcəkdir. O, buyurdu ki, doğrudan da, hər bir tələbə öz növbəsində dinin və ölkənin xidmətində durmuş əsgərlərdir. Bu

təbəqədən olan insanlara kömək edilməlidir və dini elmlər daha çox qüvvətləndirilməlidir. Burada iştirak edə bilməyən şəxslər də şahın mərhəmət və lütfünə layiqdirlər.

Saat 7-də əlahəzrət hüccətülislamların, dini tələbələrin və tamaşaçıların şahı mədh edən sədaları altında mədrəsədən geri döndü. Şahın korteji hərəkət edən zaman başqa hüccətülislamlar da şahın diqqət və mərhəmətinə nail oldular.

Camaat bir saata qədər sevincini bildirmiş və şahın mübarək zatına dua etmişdi.

## Ordunun cinayətlərinin hüccəttülislam Taleqani tərəfindən təmizə çıxarılması

İran ordusu tərəfindən Azərbaycanın işğalından sonra ruhanilər ordunun əhval-ruhiyyəsini qaldırmaq məqsədilə Azərbaycana səfər etdilər. Belə ruhanilərdən biri də sonralar ayətullah dərəcəsinə qalxmlş cənab Taleqani idi. O, Zəncana səfər etmişdi. O, ordunun və Zülfüqarinin silahlı dəstələrinin cinayət və qarətlərini pisləmək əvəzinə onlarla birləşdi. Bu səfər haqqında yazdığı hesabatda o, ordunun cinayətlərini təmizə çıxarmağa çalışmışdı.

Axırda belə nəticəyə gəlmək olur ki, 1946-cı ilin dekabrın 12-də (21 azərdə) həyata keçirilmiş Azərbaycan xalqının soyqırımının ruhanilər tərəfindən himayə edilməsi inkaredilməzdir. Onlar İran ordusu ilə birlikdə ona əhvali-ruhiyyə və fətvalar verməklə bu soyqırımda böyük rol oynamışlar.

*VI Fəsil*

# “21 AZƏR” HADİSƏLƏRİNDƏ DAXİLİ VƏ XARİCİ QÜVVƏLƏRİN ROLU

## 1. “21 Azər” soyqırımında ordunun rolu. “Arxalı köpək qurd basar”

Rza xan tərəfindən xaricilərin köməyi ilə yaradılmış yeni İran ordusu öz əsas vəzifəsini İran ərazisində yaşayan xalqları və tayfaları əzmək kimi müəyyənləşdirmişdi. Yeni ordunun başqa bir vəzifəsi isə qeyri-fars xalq və tayfaların mədəniyyətlərini və dillərini məhv etməkdən ibarət idi. Ordu bu yolda müəyyən qədər uğur qazanmışdı. Çünki, bütün bu mədəni və dil dəyişiklikləri, onların məhv edilməsi ilk növbədə ideoloji cəhətdən aryapərəstlərin və keçmişə pərəstiş edənlərin tərəfdarı olan ordu tərəfindən həyata keçirilirdi. Coğrafi adların bütünlüklə dəyişdirilməsi fars dilini başqa dillərdən (türk və ərəb) alınmış sözlərdən təmizləmək üçün qondarma söz və ifadələr işlədilməsi ilk dəfə İran ordusundan başladı. Bu ordunun vəzifəsi ölkəni xarici təcavüzkarlardan qorumaq deyildi, əksinə daxildəki müxalifətçiləri aradan götürmək, köçəriləri zorla oturaq həyata keçirmək, mərkəzi hakimiyyətə müxalif olan tayfa və xalqları yaşadıqları yerlərdən başqa yerlərə köçürmək və s. bu kimi işlərdən ibarət idi.

İranın yeni ordusu Tehran hakimiyyətinin əzən qolu kimi hərəkət edirdi və yalançı aryapərəst ideoloqların nəzəriyyələrini və əcnəbi dövlətlərin əlaltısı olan diktatorun əmrlərini yerinə yetirirdi. Bu ordu milli və etnik təmizləməni, İrandakı millət və xalqları, onların milli mədəniyyətlərinin məhv etməyi öz fəaliyyətinin əsas sərlövhəsi elan etmişdi. “Yerli xalqları susduran” bu ordunun sərhədləri qorumaq və xarici düşməndən müdafiə etmək işində heç bir səriştəsi və eləcə də xarici ölkə orduları qarşısında dayanmaq

gücü və cəsarəti yox idi. Bu fikir 1320-ci ilin şəhrivər ayında (1941-ci ilin avqust ayı) hamıya aydın oldu. Bu ordunun zabit və əsgərləri silahlarını atıb və paltarlarını soyunaraq arxalarını xarici orduya çevirib qaçdılar.

Bu ordunun güc göstərməsi yalnız hakimiyyətin daxili müxalifətçilərinə qarşı idi. Onlar xarici qoşunlar qarşısında siçan kimi idilər. Lakin daxildəki xalq və tayfalara qarşı şir və pələng kimi hərəkət edirdilər. Onlar Azərbaycanda, Ərəbistanda (Xüzistan), Luristanda, Kürdüstanda, Xorasanda, həmçinin Türkmən Səhrada heç bir xarici qoşunun İran xalqlarına və millətlərinə qarşı törətmədikləri vəhşi qırğınları həyta keçirdilər.

Doktor Kiyaniş Kiyani “Süqut” adlı həftəlik məqalələr toplusunda getmiş “Pəhləvi hakimiyyəti və tayfalar” adlı yazısında köçəri tayfaların tərk-silah edilib, oturaq həyata keçirilməsində Rza şahın və ordunun məqsədləri haqqında belə yazır: “Rza xanın hakimiyyətə gəlməsilə xarici ölkələrin, xüsusən ölkənin neftini qarət etmək üçün gəlmiş İngiltərə vətəndaşlarının fəhlükəsizliyini təmin etmək üçün köçəri tayfalara qarşı ən rəhmsiz və ən xəyanətkar suiqəsdlər və qırğınlar həyata keçirildi. Rza xan köçərilərə qarşı iki siyasəti - onların oturaq həyata keçirilməsi və tərk-silah edilməsi siyasətlərini seçib icra etdi. O, öz ordusunun ən rəhmsiz və zalım zabitlərini köçəri tayfaları “tərk-silah edilmək və onları oturaq həyata keçirmək” üçün seçdi. Rza xan ordusunun köçəri tayfalara qarşı qeyri-insani rəftarının və köçəri tayfaların öldürülmələrinin hekayəsi çox acı və dərdlidir. Təkcə onu bilmək kifayətdir ki, general-polkovnik Əmir Əhməd “Luristan qəssabı”, general-polkovnik Can Məhəmməd xan “Türkmən Səhra qəssabı” və general –polkovnik Şeybani “Buyer Əhməd qəssabı” ləqəblərini almışdılar. Ordunun başqa zabitləri də ölkənin başqa yerlərində “qəssab” ləqəbinə layiq görülmüşdülər”.[275]

[275] “Rza şah zamanında türkmənlərin həyatı və ictimai mövqeləri” mövzusunda konfransda Məhəmməd Xıdırinin məruzəsi / www.magtymquly.ir/

“Vahid millət və vahid dil” ideologiyası rəsmi olaraq yeni ordunun ideologiyası kimi seçildi. Başqa dillərin və xalqların susdurulması bu ordunun vəzifələrindən biri elan edildi və ordu bu işi icra etdi. Bu ordu köçəri tayfalara qarşı aşağıdakı əməliyyatları həyata keçirmişdir:

1. 1922-ci ildə Simitkoya və Ərdəbildəki şahsevənlərə qarşı hərbi əməliyyatlar;
2. 1923–cü ildə şahsevənlərə qarşı Azərbaycanda və Luristanda hərbi əməliyyatlar;
3. 1924-cü il də Bəluçistan sərhəddində, Luristanda, Şeyx Xəzələ və türkmənlərə qarşı hərbi əməliyyatlar;
4. 1925-ci ildə Xusiztanda yaşayan ərəblərə qarşı əməliyyat, türkmənlərə qarşı əməliyyat və Luristanda Poştkuh valisinə qarşı əməliyyat;
5. 1926-cı ildə Luristanda və Kürdüstanda hərbi əməliyyatlar.

## Tehran qoşununun türkmənlərə qarşı soyqırmı

Köçəri tayfaların qətl və qarət edilməsi yeni İran ordusu tərəfindən sistemli bir şəkildə davam etmişdir. Ordu köçəri tayfaları tərksilah etmək və onları oturaq həyata keçirmək yolunda vəhşi hərəkətlər etmişdir. Qətliamdan tutmuş təcavüzə qədər hər şeydən istifadə edilirdi. Ordu tərəfindən türkmənlərin soyqırım edilməsi haqqında aşağıdakıları oxuyuruq: “Türkmənlərə qarşı əməliyyat 1925-ci ildə başladı. Əldə edilmiş məlumatlara əsasən general-mayor Can Məhəmməd xan Dollu böyük bir qüvvə ilə Türkmən çölündə irəliləyərək böyük vəhşiliklər etmişdir. Hər bir kənddə bir neçə kişini dar ağacından asmışdılar. Onların mülkiyyəti qarət edilmişdi. Hər bir zabit türkmən qəbilələrindən etdikləri qarətlərlə evlərinə əlidolu qayıtmışdılar. General-mayor Dollu şəxsən özü türkmənləri güllələyirdi. Bu səfərdən çoxlu miqdarda sərvət toplanmışdı. Bütün bunlar ona görə baş vermişdi ki, türkmənlər

Rza xanın silahların dərhal verilməsi və mərkəzi hakimiyyətə tabe olmaları haqqındakı əmrinə boyun əyməmişdilər”.[276]

## Ordu tərəfindən lurların soyqırım edilməsi

Lurların öldürülməsi “Luristan qəssabı” ləqəbi ilə məşhur olan Əmir Əhmədi tərəfindən həyata keçirildi. Buradakı soyqırım hiylə ilə həyata keçirilmişdi. Belə ki, Luristanın xanları və başçıları Borucerddə bir ziyafətə dəvət edilmiş və orada edam edilmişdilər. Baxmayaraq ki, onlar mərkəzi hakimiyyətə öz sədaqətlərini elan etmişdilər. Bu barədə polkovnik Əhməd Canpolad öz xatirələrində aşağıdakıları yazır: “1922-1923-cü illərdə Luristan tayfalarını tərk-silah edib, onları tabe etmək məqsədilə general-leytenant Əhməd-ağa xan Əhmədinin komandanlığı altında ordu lurların yaşadıqları ərazilərə yürüş etdi. Şiddətli döyüşlərdən sonra hər iki tərəf çoxlu tələfat verdi. Döyüş Luristanın köçəri tayfalarının məğlub edilməsi ilə başa çatdı. Bu zaman dövlət qüvvələri tərəfindən bəzi tayfalarda, o cümlədən Həsənvənd tayfasında çoxlu qətl və qarətlər həyata keçirilmişdi. Həmin dövrdə dağlarda və çöllərdə yaşayan Piranvənd tayfasından başqa Luristanın köçəri tayfaları bütünlüklə tərk-silah edilmişdilər və zahirən asayiş müəyyən qədər təmin edilmişdi. Lakin, təəssüflər olsun ki, general-leytenant Hüseynağa xan Xəzainin komandanlığı zamanı Luristan ordusunun komandirləri tayfa başçılarını Borucerddə təşkil edilmiş bir qonaqlıqda dar ağacından asdılar. Bu hadisə tayfalar arasında qorxu və təşvişin yaranmasına səbəb oldu. Nəticədə, tayfalar ilə mərkəzi ordu arasında bir-birinə qarşı kin yarandı”.[277]

---

276 “Rza şah zamanında türkmənlərin həyatı və ictimai mövqeləri” mövzusunda konfrans. Hacı Məhəmməd Xıdırinin hesabatı /www.magtymquly.ir/ saytından götürülmüşdür

277 Seyyid Əhməd Canpolad. Bir İran zabitinin sərgüzəştləri, səh. 49.

Canpolad Əhməd davam edərək mərkəzi hökumət tərəfindən “Luristan qəssabına” mükafat verilməsi haqqında yazır: “General–leytenant Əmir Əhmədi Luristan iğtişaşlarının yatırılmasındakı fəaliyyətlərinə görə general–polkovnik dərəcəsinə yüksəldi”.[278]

Yeni İran ordusu Luristan tayfalarının müqavimətini tamamilə qırmaq üçün qətl və qarət etməkdən savayı, onların çoxunu başqa yerlərə köçürdü və milli bir təmizləmə həyata keçirdi. Onlar Xorasan, Tehran və Xuzistan kimi şəhərlərə köçürüldülər.

Vilyam Duqlas Luristanda baş vermiş dəhşətli cinayətlərdən biri kimi başsız cəsədlər üzərindən qaçaraq kimin daha uzaq məsafə qət edə bilməsi barədə şərt bağlanmasına işarə edir?

Bundan əlavə, Luristan xalqının mədəni cəhətdən əzilməsi tayfalar üçün məktəblərin təsis edilməsi və mərkəzdə təhsil almaq adı altında tayfa başçılarının övladlarının girov götürülməsi şəklində həyata keçirilirdi.

Uşaqlar ona görə girov götürülürdülər ki, tayfa başçısı mərkəzi hökumətə qarşı qiyam qaldıra bilməsin.

İranın yeni ordusu Xüzistanda ərəblərə, buyer əhmədlilərə, Qaşqay türklərinə, kürdlərə və bəluclara qarşı da soyqırımı aktlarını icra etmişdir. Lakin, İran ordusunun “21 Azər”də həyata keçirdiyi soyqırımı başqa bir soyqırımı idi və digər soyqırımlardan çox fərqlənirdi. Çünki, ordu Azərbaycan dilini və mədəniyyətini məhv etmək, Azərbaycan xalqını qırmaq və Azərbaycan dilində olan kitabları yandırmaq üçün xarici ağalarının əmri ilə Azərbaycana gəlmişdi. Bu soyqırım böyük bir dövlətçilik təcrübəsi olan, böyük sərkərdələri və öz dövrlərinin böyük alimi və ziyalıları olan bir xalqa qarşı edilmişdi.

Ordu xanların və saray ruhanilərinin köməyi ilə “21 Azər” soyqırımında əsas rolu oynadı. Azərbaycanın işğalından sonra ordunun kobud və zalım polkovnikləri bütün Azərbaycan şəhərlərinə hərbi qubernator təyin edildilər. Onlar xalqın bütün var-yoxunu

[277] Yenə orada, səh. 56.

qarət etdilər və hakimiyyətdə olduqları müddətdə çoxlu qətllər həyata keçirdilər. Ordu, həmçinin, Tehrana qaçmış fərarilərə himayəçilik etmiş və onlar isə Azərbaycana gələrək onun xalqının soyqırımında iştirak etmişdilər.

Ordunun Azərbaycandakı “21 Azər” soyqırımında rolu xülasə olaraq aşağıdakı kimi bəyan edilə bilər:

1. Xaricilərin əlaltısı olan şahın əmri ilə Azərbaycana hücumu;

2. Azərbaycanın müxtəlif şəhərlərində ordunun tərəfdarları vasitəsilə minlərlə adamın tutulub edam edilməsi;

3. Ordu tərəfindən işğal olunmuş şəhərlərdə hərbi qubernatorların təyin edilməsi: elə hallar olurdu ki, hərbi qubernatorlar şəhərlərin bütün işlərini öz əllərinə alıb, hərbi vəziyyət elan edirdilər və onlar tərəfindən qətllər, həbslər icra edilirdi;

4. Hərbi tribunalların təşkili: bu məhkəmələrin hakimi və prokuroru hərbiçi idilər və hərbi komandanlıq tərəfindən təyin edilirdilər. Onların hökmlərinə etiraz edilə bilməzdi və çıxardıqları hökmlər dərhal icra edilirdi;

5. Şəhərin quldur və başkəsənlərinin fəaliyyətlərinə göz yummaq və onlarla əməkdaşlıq etmək: ordu hər bir şəhəri işğal etdikdən sonra quldur və başkəsənlərə imkan verirdi ki, qətl və qırğınları davam etdirsinlər;

6.Tehrana qaçmış xanları himayə etmək və onlara təlim vermək: Azərbaycanın coğrafiyası və yerli şəraiti ilə tanış olan bu adamlar soyqırımı törətməkdə orduya kömək edirdilər;

7. Azərbaycan dilində olan kitabların yandırılması: Azərbaycan dilində olan kitabların yığılıb yandırılmasında ordu iştirak və ona nəzarət edirdi;

8. Minlərlə azərbaycanlının İranın cənubuna sürgün edilməsi: fəal ziyalıların və onların ailələrinin İranın cənubuna sürgün edilməsi ordu vasitəsi ilə və ya onun köməyi ilə həyata keçirilmişdir. Pis iqlimi olan bu yerlərə sürgün olanların həyatı çox ağır və acı keçmişdir.

## Azərbaycanda soyqırımın nəticələri

Ordunun Azərbaycanı işğal etməsinin nəticələri xarabalıqlardan, qətl və qırğınlardan, sürgünlərdən və saysız-hesabsız edamlardan ibarət olmuşdur. Bütün bunlar haqqında müxtəlif rəqəmlər mövcuddur. Məsud Behnudun “Seyid Ziyadan başlamış Bəxtiyara qədər olan İran hökumətləri” adlı kitabında bütün edamları və sürgünləri Azərbaycanın işğal edilməsinin nəticələri adlandırmaq əvəzinə, bunları demokrat firqəsinin fəaliyyətinin nəticələri kimi qələmə vermişdir: “Demokrat firqəsinin fəaliyyətinin nəticəsi olaraq 2500 edam, 7 min ölü, 8 min məhbus, 36 min sürgün edilən və 70 min nəfər SSRİ-yə mühacirət edənlər olmuşdur”.[278]

## 2. Soyqırımıda ABŞ-ın rolu

Amerika Birləşmiş Ştatlarının “21 Azər” soyqırımında iştirakı və Azərbaycanda soyqırımı törətməkdə İranın mərkəzi hökumətini və İran ordusunu himayə etməsi ABŞ-ın xarici siyasət tarixində ən qaranlıq nöqtə və ən qara ləkədir. Təəssüflər olsun ki, indiyə qədər ABŞ siyasətçilərindən soruşulmamışdır ki, nə üçün İran ordusunun və İran hökumətinin Cənubi Azərbaycanda törətdikləri soyqırımı müdafiə etmişlər və mübariz, azadlıqsevər azərbaycanlıları və onların ailələrini kütləvi surətdə qətlə yetirməkdə və minlərlə mülki adamların pis iqlimi olan İranın cənubuna sürgün edilməsində onlara hərbi və siyasi köməklər etmişlər? Həmçinin nəyə görə Amerika dövləti və onun siyasətçiləri Azərbaycanın militaristcəsinə idarə olunmasını, minlərlə günahsız adamın rejimin zindanlarında olmasını bilə-bilə İran hökumətinə etirazlarını bildirməmişlər? Təəssüflər olsun ki, bu suallar onlara indiyə qədər verilməmiş və onları suallara cavab verməyə məcbur etməmişlər.

[278] Behnud Məsud. Seyyid Ziyadan Bəxtiyara qədər, Cavidan, 1987

ABŞ-ın Tehran hökumətini himayə etməsi sırasında günahsız insanları öldürmək, insanların hüquqlarına təcavüz etmək, bəşəriyyət əleyhinə cinayətlər törətmək və Azərbaycan xalqının qətliam edilməsi işində İran hakimiyyətinə köməkliklər göstərmək dayanır. ABŞ-ın həmin dövrdəki hökuməti özünün qeyri-qanuni mənafelərinə yetişmək üçün anti-demokratik və anti-humanist bir dövləti himayə etmiş və bəşər əleyhinə yönəlmiş tədbirlərə əl atmışdı. İran dövləti tərəfindən Azərbaycan xalqının qətliam edilməsindən xəbəri olsa da, bu soyqırımı dayandırmaq üçün heç bir iş görməmiş və indiyə qədər özünün bu səhvini etiraf etməmişdir.

ABŞ hökuməti Azərbaycanda milli hərəkatın başlanması və demokrat firqəsinin yaradılması anından Tehran hökumətinin yanında olmuşdur və bu xaricilərin əlaltısı olan hökuməti ən yaxşı tərzdə müdafiə etmişdir. Hətta, Azərbaycana hücum zamanı qanadlarına İran bayrağının şəkli yapışdırılmış Amerika təyyarələri Azərbaycana hücumda iştirak etmişlər. Yerdə də general Norman Şvartskopun rəhbərliyi altında ABŞ qüvvələri Azərbaycana hücumda iştirak etmişlər.

ABŞ-ın “21 Azər” soyqırımındakı iştirakı iki hissədən ibarətdir: birincisi, beynəlxalq siyasi işlərdə himayə, ikincisi, hərbi köməklərdir.

## ABŞ-ın Tehran hakimiyyətini siyasi cəhətdən himayə etməsi

ABŞ-ın öz əlaltısı olan Tehran hökumətinə olan siyasi köməklərinin həddi-hüdudu yox idi. Bütün yolları və siyasi texnologiyaları Azərbaycan xalqının qanuni tələblərinə qarşı mübarizə aparmaq üçün himayə etdiyi hakimiyyətə öyrədirdilər. O cümlədən, Təhlükəsizlik Şurası və İran məsələsinin Təhlükəsizlik Şurasına çıxarılması ABŞ dövlətinin təkifi idi. “İran nefti, soyuq müharibə və Azərbaycan böhranı” kitabında ABŞ dövlətinin İranı Təhlükəsizlik Şurasına müraciət etməyə təşviq etməsi haqqında aşağıdakıları oxuyuruq: “1945-ci ilin noyabr ayının 19-dan, yəni Azərbaycanda

çevriliş baş verdiyi gündən 1946-cı il may ayının 5-ə qədər, yəni sovet qoşunlarının İranı tərk etdiyi günə kimi ABŞ-ın fəaliyyət istiqaməti BMT-nin Təhlükəsizlik Şurasına yönəlmişdi. Amerika Birləşmiş Ştatlarının Tehrandakı səfirliyi və Xarici İşlər Nazirliyi isə Vaşinqtonda İranı təşviq edirdilər ki, öz problemini Təhlükəsizlik Şurasına çıxarsın. Bu məqsədlə onlar İranın BMT-dəki daimi nümayəndəsi Hüseyn Əlaya hərtərəfli və fəal köməklik göstərirdilər. Bu dəyişikliklərdən bir çox illər sonra sabiq ABŞ prezidenti Trümen xatırlayırdı ki, ABŞ öz iradəsinin ciddiyyətini göstərmək üçün Sovet İttifaqına xəbərdarlıq etdi ki, öz hərbi dəniz eskadrilyasını Fars körfəzinə göndərəcəkdir”.[279]

Hətta, ABŞ Xarici İşlər naziri Ceymz Berns Azərbaycan xalqını və Milli Hökumətini məğlub etmək üçün analoqu olmayan bir fikir söyləmişdi: “Şəxsən özüm İran probleminin himayə edilməsi məsələsini Təhlükəsizlik Şurasında müzakirəyə çıxaracağam.”[280]

Həmçinin Azərbaycan xalqının hüquqlarını tapdalamaq və məhv etmək üçün ABŞ-ın cəhdləri həddindən çox artmışdı. Bu barədə Cəmil Həsənli yazır: “Vaşinqtonda da 1946-cı il 29 mart tarixindən başlayaraq sovet qoşunlarının İrandan çıxarılması və Azərbaycan məsələsi nəzərə çarpacaq dərəcədə həyəcan yaratmışdı.” Rosso sonralar daha realistcəsinə yazmışdı ki, ABŞ Xarici İşlər naziri Bernsin rəhbərliyi ilə amerikalılar iranlılardan daha çox İranın mənafeyinin qorunması üçün canfəşanlıq edirdilər.

## Şahın ABŞ-a arxalanması

Azərbaycan xalqı özünün qanuni və insani tələblərini irəli çəkməklə və öz işlərini idarə etməyə başlamaqla xarici və daxili müstəmləkəçilərin canına üşütmə salmışdı. Onlar Azərbaycan xalqının öz qanuni və insani tələblərinə qovuşmasını istəmirdilər. Bunun üçün

[279] R.Kottam, N.Yeqorova, D.Robertson. Tehran nefti, soyuq müharibə və Azərbaycan böhranı. səh.32.
[280] Yenə orada, səh. 151

xaricilərdən asılı olan Tehran hökuməti ABŞ və İngiltərə ilə əməkdaşlıq nəticəsində "21 Azər" soyqırımını həyata keçirdi.

ABŞ-ın hərbi və iqtisadi qüdrəti o dövrdə xarici dövlətlərdən asılı olan şahın bu qüdrətdən qorxmasına səbəb oldu və bu qorxuya görə ABŞ və İngiltərənin diktə etdikləri hər bir şey şah və onun irqçi və farsçı tərəfdarları tərəfindən icra olunurdu.

Fərdust öz xatirələrində şahın bütün işlərdə ABŞ-a xilasedici kimi baxması haqqında yazırdı: "Azərbaycan məsələsi həm Qızıl Ordunun İranı tərk etməsindən və həm də Pişəvəri hökumətinin süqutundan sonra Məhəmməd Rzanın daha çox ABŞ-a bağlanmasına səbəb oldu. O, bir dəfə belə demişdi: "Bu Amerika əcəb güclüdür və həqiqətən, ona arxalanmağımız Azərbaycanın sovetlərin əlindən xilas olmasına səbəb oldu."

Əslində, Məhəmməd Rza ingilisləri özünün taxt-taca sahib olmasının səbəbkarı hesab etsə də, amerikalıları Azərbaycanın xilaskarı sayırdı. Buna görə də, Azərbaycan məsələsindəki köməyə görə təşəkkür etmək üçün o, 1949-cu ildə ABŞ-a rəsmi səfərə getdi.[281]

Şah məhz ABŞ-a arxalanmaqla Azərbaycana hücum etmək qərarına gəldi. Bu hücumla Azərbaycan atəşə və qana büründü. Şah bu qərarı ilə Azərbaycanda fiziki və mədəni soyqırım törətdi. Fərdust öz xatirələrinə davam edərək belə yazır: "Bütün hallarda ABŞ-ın planı əsasında qərara alındı ki, Məhəmməd Rza öz ordusu ilə Azərbaycana hücum etsin".[282]

## İran dövlətini himayə etmək məqsədilə ABŞ-ın SSRİ-ni atom bombası ilə hədələməsi

ABŞ dövləti İran dövlətini siyasi cəhətdən himayə etməyi davam etdirmək və Tehran hökumətinin Azərbaycana müdaxilə etməsini təmin etmək üçün ilk öncə sovet qoşunları Azərbay-

[281] Ordu generalı Fərdustun xatirələrisəh . 149.
[282] Yenə orada. səh. 150.

candan çıxarılmalı idi. Bu məqsədlə ABŞ məsələni Təhlükəsizlik Şurasına çıxarmaqla yanaşı, atom bombası hədəsi ilə SSRİ-ni Azərbaycan Milli Hökumətinə mənəvi dəstək verməkdən çəkindirdi. Atom hədəsi ilə bağlı müxtəlif fikirlər vardır. Lakin, əksər fikir sahibləri hədənin sovet tərəfinə şifahi verilməsi mövzusunda yekdildirlər. Firudin Keşavərz ABŞ-ın atom hədəsi haqqında belə yazır: “Tehran atom bombası ilə atom bombası olmayan SSRİ və dünya xalqları qarşısında qürrələnirdi”.[283]

Bundan əlavə, “İran Azərbaycanını: Soyuq müharibənin başlanmasaı” kitabında Cəmil Həsənli Azərbaycan Milli Hökumətinə mənəvi dəstək göstərən Sovet İttifaqına ABŞ-ın nüvə təhdidləri haqqında yazır: “1946-cı il dekabrın 6-da ABŞ Xarici İşlər nazirinin müavini cənab Açeson Rusiyaya xəbərdarlıq etdi ki, İrana qarşı heç bir tədbir görülməməlidir. ABŞ prezidenti Trümen Xarici İşlər Nazirliyinə göstəriş vermişdi ki, ABŞ hökuməti Azərbaycanla bağlı hər hansı bir müdaxiləyə qarşı sakit oturmayacağını Sovetlər tərəfinə bildirsin”.[284]

Cəmil Həsənli davam edərək yazır: “Mart ayının 8-də ABŞ Xarici İşlər Nazirliyində Açesonun sədrliyi ilə İran məsələsinin müzakirəsi davam etdirildi. Müzakirələr prosesində SSRİ üzrə mütəxəssis Çarlz Oflen dedi ki, ABŞ-ın İranda Sovet qoşunları ilə üzləşməyə imkanı olmamasını fərz etsək, düşməni qorxutmaqdan başqa heç bir çarəmiz qalmır. Onun fikri bu idi ki, ABŞ-ın İranda Sovet İttifaqına qarşı cəbhə açmaq imkanı yoxdur. Buna görə düşməni qorxuya salmaqdan başqa ayrı bir yolla özünü müdafiə edə bilməz. Oflenin fikrini Ağ Evin analitikləri təsdiq etdilər”.[285]

283 Firidun Keşavərz. Mən Tudə partiyasının Mərkəzi komitəsini ittiham edirəm. səh. 67.
284 Cəmil Həsənli. İran Azərbaycanı: Soyuq müharibənin başlanması, səh. 516.
285 Yenə orada, səh 327.

## Azərbaycanda soyqırım törətmək üçün ABŞ-ın İran hökumətinə hərbi yardımı

Amerika Birləşmiş Ştatları dövləti SSRİ-yə qoşunlarını İrandan çıxarmaq üçün Təhlükəsizlik Şurası və atom bombası hədəsi ilə təzyiq göstərsə də, özünün İranda hərbi qüvvələri var idi və Tehrandakı əlaltısı olan hakimiyyətə bütün gücü ilə kömək edirdi. ABŞ siyasi himayə ilə yanaşı, Tehran hökumətinə hərbi köməklər də edirdi. Bu iş üçün general Norman Şvartskop ABŞ dövləti tərəfindən jandarm qüvvələrinə təlim vermək və onlara nəzarət etmək üçün seçilmişdi. O və onun komandanlığı altında olan qüvvələr Azərbaycana hücumda əhəmiyyətli rol oynamışdılar.

Jandarma rəhbərlik vəzifəsini əlində saxlayan bir nümayəndəliyin başçısı olan Norman Şverskopdan başqa İran ordusunda başqa bir nəfər də xidmət edirdi. Bu adam general Klarens C.Ridali idi. Norman Şvartskopun başçılığı ilə nümayəndə heyəti ABŞ tərəfindən İrana bir neçə günlüyə göndərilməsinə baxmayaraq, Azərbaycan xalqının qiyamını və Azərbaycanda Milli Hökumətin qurulmasını görən ABŞ dövləti Azərbaycan xalqının bəşəri və qanuni istəklərinə qarşı mübarizə aparmaqda İran hökumətinə köməklik göstərmək məqsədilə nümayəndə heyətinin İranda qalmasını qeyri-müəyyən müddətə uzatdı. Bu barədə “İran nefti, soyuq müharibə və Azərbaycan böhranı” kitabında aşağıdakıları oxuyuruq: “ABŞ Konqresi tərəfindən təsdiq olunmuş II Dünya müharibəsi layihəsindən (1942) iqtibas edilmiş maddələr əsasında qərara alınmışdı ki, Şvartskopun başçılığı ilə nümayəndə heyətinin xidmət müddəti əsas qüvvələrin təslim olmasından sonra başa çatdırılsın. Bu layihənin bir hissəsi ABŞ Xarici İşlər nazirliyinə ixtiyar verirdi ki, dost dövlətlərin xahişi əsasında həmin ölkələrə hərbi müşavirlər göndərsin. Bu barədə ali məhkəmənin sədri olan Berns yazmışdı. Lakin 1945-ci ilin payızında Berns Xarici İşlər naziri təyin olunduqda, ABŞ-ın müdafiə naziri Robert Petersona

yazdığı məktubda məsləhət görmüşdü ki, Şvartskopun İranda ezamiyyət müddəti qeyri-müəyyən vaxta qədər uzadılsın. Həmçinin məsləhət görmüşdü ki, müdafiə nazirliyi İran ordusunda xidmət etmək üçün başqa bir heyətin xərclərini də qəbul etsin”.[286]

## İran hökumətinin ABŞ dövlətini təbrik etməsi

ABŞ dövlətinin Tehran hökumətinə siyasi himayəsi ona səbəb oldu ki, nazir və deputat qismində seçilmiş Tehran siyasətbazları Azərbaycanı işğal etdikdən və Azərbaycan xalqını qırdıqdan sonra ABŞ səfirliyinə getdilər və Azərbaycan xalqını qırmaqda onlara kömək etmiş ABŞ dövlətinə təşəkkür etdilər. Cəmil Həsənli bu barədə yazır: “Azərbaycandakı qələbədən sonra Tehran hökumətinin nazirlət kabinetinin əksər üzvləri və başqa dövlət adamları, o cümlədən, hərbi nazir, maliyyə naziri, mərkəzi bankın direktoru, keçmiş parlament sədri və b. ABŞ səfirliyinə getdilər və Azərbaycanı İrana qaytardığına görə ABŞ dövlətinə təşəkkür etdilər. Şah da dekabrın 16-da qeyri-rəsmi bir yığıncaqda Amerikanın böyük köməyini xatırlamışdı”.[287]

## 3. “21 Azər” soyqırımında İngiltərənin rolu

İngiltərə hökuməti İranda anti-humanizm, panfarsizm və arxaizm ideologiyasının himayəçilərindən biri olmuşdur. Bu ideologiya İranda irqçi bir fars dövlətinin yaradılmasına yönəlmişdi. İngiltərə dövlətinin birbaşa himayəsi ilə taxt-tac sahibi edilmiş Rza xanın dövründə bu anti-humanist ideologiya mədəni mərkəzlərdən dövlət mərkəzlərinə ötürüldü, siyasi və hərbi güc vasitəsilə bu ideolo-

[286] R.Kottam, N.Yeqorova, D.Robertson. Tehran nefti, soyuq müharibə və Azərbaycan böhranı. səh. 136

[287] Cəmil Həsənli. İran Azərbaycanı: Soyuq müharibənin başlanması, səh. 531.

giyanın kobud və anti-humanist cərəyanları İranda yayılmağa başladı.

Tarixi saxtalaşdıran və yalançı mədəniyyət yaradan bu qeyri-insani və qondarma ideologiya Qərbdəki müəyyən mərkəzlər tərəfindən idarə olunmaqla İrandakı başqa xalqların dilini və mədəniyyətini məhv etmək və İranda yalnız bir dili - fars dilini inkişaf etdirmək istəyirdi. Bu iş ordunun və rəsmi təhsil sisteminin yaradılması ilə başqa xalqların dillə bağlı istəkləri nəzərə alınmadan panfarsizmin inkişafı ilə zorla həyata keçirildi.

## Panfarsizm İranda Qərbin bir müstəmləkəçilik layihəsidir

Panfarsizm ideologiyası, əslində, Qərbin bir müstəmləkəçilik layihəsi idi və İranda qeyri-fars xalqların istismarı üçün nəzərdə tutulmuşdu. Ayrı-seçkilik və faşist əxlaqına arxalanan, guya tarixi haqsızlıqlardan əziyyət çəkmiş panfarsistlər özlərinə yalançı tarixi bir kimlik yaratmaqla qeyri-fars xalqları öz itaətləri altına almaq və İrandakı qeyri-fars xalqların bütün maddi və mənəvi sərvətlərini qarət etmək istəyirdilər.

İranın mason mərkəzləri ilə əlaqəsi olan qərəzli şərqşünaslar bu mərkəzlərin üzvü olan irqçi aryapərəst səxslərə ideoloji kömək göstərməklə onları yeni yaratdıqları kimliklə heyran edib, həyəcanlandırırdılar. Öz irqçi röyalarında tarixçi, arxeoloq, İran ədəbiyyatının aşiqi və s. kimi zühur etmiş qərəzli İran şərqşünasları və alimləri bütün bunları reallaşdırırdılar.

Bu qərəzli şərqşünaslar və onların İrandakı hamiləri ən çox türk (Azərbaycan), ərəb dillərinə və türk şəxsiyyətinə nifrət edib, onlara kin bəsləyirdilər. Onlar qondarma bir tarix yazmağa başlayaraq türk imperatorluqlarına, türk sultanlarına, İrandakı ərəb xalqına və onun kimliyinə qarşı zəhər səpməyə başladılar və öz tarixi nifrətlərini üzə çıxardılar. Onlar, hətta, türkə və ərəbə qarşı olan nifrətlərini rəsmi şəkildə təhsil mərkəzlərində və tədris siniflərində

də yayırdılar. Sülh və dostluğu öyrətməli olan bu mərkəzlər əslində türk və ərəb xalqlarına qarşı nifrət və ayrı-seçkiliyi təbliğ edən mərkəzlərə çevrildilər. Türk (Azərbaycan) dilinin, türk və ərəb kimliyinin təhqir edilməsi sistematik şəkil aldı.

Yeni İran ordusu qeyri–fars xalqların mədəniyyətlərini məhv etmək məsuliyyətini öhdəsinə götürmüşdü və bu yolda əzici alət kimi fəaliyyət göstərirdi. Onların həyata keçirdiyi birinci iş fars dilini türk və ərəb sözlərindən təmizləməkdən ibarət oldu. Bütün türk və ərəb mənşəli terminlər İran ordusunun lüğətindən çıxarıldı, aryapərəst və arxaizm tərəfdarı olan şəxslər bu terminləri süni yaradılmış fars sözləri ilə əvəz etdilər.

Bütün bu anti-humanist işlərin arxasında İngiltərə dövləti dururdu və İngiltərə dövlətinin mədəniyyət mərkəzləri rəsmi şəkildə bu proqramı müdafiə edirdilər. Çünki, bu anti-humanist (panfarsist) layihə İranda İngiltərənin mənafeyini qoruyurdu. Hətta, Britaniya Muzeyi Kuruş haqqında əsərin çap olunmasına farslardan daha çox maya qoymuşdu ki, bu əsəri bütün dünyaya yaysınlar. Onlar özlərinin bu qondarma kimlik yaratma işləri ilə İrandakı arxaizm tərəfdarlarını və aryapərəst insanları heyran edib, həyəcanlandırmaq istəyirdilər. Onlar bu adamları yalançı iftixarlarla, o cümlədən Kuruşa aid olan deklarasiya ilə tanış etməklə qeyri-fars xalqlara qarşı müharibəyə göndərirdilər. İngiltərə dövləti bu işdə məharətlə hərəkət edirdi və şovinist insanları İrandakı qeyri-fars xalqlara qarşı müharibələrə göndərməklə, bu xalqların dil və mədəniyyətini məhv etməklə İngiltərə dövlətinin mənafeyini daha çox qoruyurdular. Lakin, İngiltərə dövlətinin İrandakı bu röyaları 1941-ci ildə Azərbaycan xalqının milli hərəkatının yaranması ilə bir qədər pərişan hala düşdü.

İngiltərə dövləti İranda farslaşdırma və şovinizm siyasətinin ən böyük intellektual hamisi və maddi-texniki cəhətdən dəstək verəni idi. İngiltərə dövlətinin röyalarından biri bu idi ki, İranda aryapərəst təfəkkürü gücləndirsin və bu irqçi, anti-humanist və ayrı-

seçkilik ideyası İranda qeyri-fars xalqların dillərinin və mədəniyyətlərinin məhv olmasına səbəb olsun. Onlar bu ideyanın İranın qonşu ölkələri olan Əfqanıstan və Tacikistanda da yayılmasını istəyirdilər. Hal-hazırda bu vəzifəni BBC kanalı həyata keçirməkdədir.

Bu ideologiyanın və müstəmləkəçilik layihəsinin əsasını qoyanlar İngiltərə dövləti və Qacarlar hakimiyyətinin son dövrlərində Tehranda fəallaşan mason qrupları idilər. Bu qruplar Məşrutə dövründə uğurlu bir mədəni qüvvəyə çevrildi və pəhləvilərin hakimiyyətə gəlməsində əsas rol oynadı.

Farslar üçün yalançı tarixin yaradılması və mədəniyyətin saxtalaşdırılması mason qruplarının əsas vəzifələrindən biri idi. Onlar İran üçün yalançı xalq yaradılmasının əsasını qoydular. Çünki mason qrupları anti-türk və anti-ərəb təfəkkürün sahibləri idilər.

İranda və regionda İngiltərənin mənafeyinin himayəçisi olan qrupların gücləndirilməsi və onların hakimiyyətə gətirilməsi İngiltərə dövlətinin İrandakı arzularından biri idi.

## İngiltərənin İrandakı planlarının boşa çıxması

Azərbaycanda milli təfəkkürün yaranması və milli hökumətin qurulması İngiltərə dövlətinin və bu dövlətin İrandakı tərəfdarlarının planlarına vurulmuş ən böyük zərbə idi. Bu zərbə onların xoş yuxularını qarışdırırdı və İngiltərə bu yuxulara son qoymaq fikrinə düşdü.

Azərbaycanı "kiçik Hindistan" hesab edən ingilislər yalan tarix yaratmaqla və Azərbaycan dilini məhv etməklə İranda Qərbin müstəmləkəçilik və aryapərəst layihəsini həyata keçirib, təkmilləşdirmək istəyirdilər. Onlar Azərbaycan Milli Hökumətini öz layihələrinin həyata keçirilməsində ən böyük maneə hesab edirdilər. Milli Hökumət onların planlarını pozdu və yuxularına haram qatdı.

Bunun nəticəsi kimi İngiltərə dövləti Azərbaycanda hərəkatın başlanması ilə hərəkatın işində pozuntular yaratmağa başladı. Bu

dövlət bütün vasitələrlə bu hərəkatı məhv etmək istəyirdi. Milli Hökumət qurulduqdan sonra ingilislər bu hökumətin yoluna daşlar qoymaqla məşğul oldu. İngiltərə dövləti bu işdə yerli xanlardan, ruhanilərdən və mədəniyyət muzdurlarından çox istifadə etdi. Çünki, İngiltərə dövlətinin bu qruplarla əvvəlcədən yaxşı əlaqələri var idi.

İngilislərin ən məşhur tərəfdarı olan Seyid Ziyaəddin Təbatəbai Azərbaycandan Tehrana qaçmış bəzi yerli xanların və ruhanilərin iştirakı ilə "Azərbaycanın nicatı cəmiyyəti"ni təşkil etdi. Bu cəmiyyət Milli Hökumətə qarşı çoxlu əks təbliğat aparırdı. "İran nefti, soyuq müharibə və Azərbaycan böhranı" kitabında İngiltərənin İrandakı nüfuzu haqqında aşağıdakıları oxuyuruq: "İngiltərənin tərəfdarı olmaqla şöhrət tapmış İran siyasətçiləri mason təşkilatlarına bağlı olan şəxslər idi. Belə deyilir ki, ingilislər köçəri tayfa başçıları ilə də əlaqələr qurmuşdular".[288]

Bu kitabda daha sonra oxuyuruq: "İngilislər özlərinin təbii tərəfdarları vasitəsi ilə, yəni masonlarla əlaqələri olan iri mülkədarlar, əyalət başçıları, mühafizəkar ruhanilər, muzdur dəstə başçıları, küçə quldurları vasitəsi ilə fəaliyyət göstərirdilər. Seyid Ziya bu iqtidar şəbəkəsinin ən görkəmli nümayəndəsi idi. Onların əsas gücü şahın və onun ətrafındakıların vücudunda gizlənmişdi".[289]

İrandakı ingilis casusları İngiltərənin mənafeyini təmin edən müxtəlif şayiələrin yayılmasında xüsusi bir erudisiya nümayiş etdirirdilər. Çünki, onlar Tehran hökumətinin bütün hissələrinə nüfuz etmişdilər. O cümlədən, qəzetlərin çoxu İngiltərənin tərəfdarı idilər. Cəmil Həsənli bu barədə yazır: "İngilis casusları belə bir şayiə yaymışdılar ki, Sovet İttifaqı tərəfindən neft imtiyazlarının əldə edilməsi İranın şimalını ayırmaq üçün bir bəhanədir və tövsiyə edilirdi ki, neft imtiyazı xarici dövlətlərə verilməməlidir, əksinə, bu imtiyaz daxildəki şirkətlərə (məsələn, ABŞ və ya

[288] Cəmil Həsənli. İran Azərbaycanı: Soyuq müharibənin başlanması, səh. 22
[289] Yenə orada, səh. 39.

İngiltərə şirkətlərinə) verilməlidir. SSRİ-nin xüsusi məmurlarının verdikləri məlumata görə, 112 nəfər parlament üzvündən 90 nəfəri və 11 nazirdən 9-u İngiltərə tərəfdarı idilər. O da aşkarlanmışdı ki, İngiltərə səfirliyinin mətbuat üzrə məsul şəxsi olmuş Lambton Tehranda bəzi qəzetlərin baş redaktorlarını dəvət edərək, onlara lazım olan təlimatları vermişdi”.[290]

Bunlara əlavə olaraq Cəmil Həsənli İngiltərə dövlətinin Azərbaycan Milli Hökumətinin qurulması ilə bağlı nigarançılığı haqqında İngiltərənin Təbrizdəki baş konsulunun məlumatı əsasında belə yazır: “Azərbaycan Demokrat Firqəsinin yaradılması haqqında məlumat ingilis və İran dövlət adamlarının şiddətli nigarançılığına səbəb oldu. İngiltərənin Təbrizdəki baş konsulu Azərbaycan Demokrat Firqəsi haqqında belə məlumat verirdi: “Bu firqə “Tudə” partiyasından dəfələrlə təhlükəlidir. Çünki, hamı bilir ki, “Tudə” partiyası Sovet İttifaqının tərəfdarıdır və bu partiyada görkəmli adamlar yoxdur. Bu səbəbdən varlı və ziyalı təbəqələrə arxalana bilmir. Lakin, Demokrat Firqəsində kütlələrə təsir edə bilən adamlar çoxdur, onun proqramı dəqiq və ciddi şəkildə hazırlanmışdır. Elə tələbləri vardır ki, əleyhinə heç bir söz demək olmur. Bu firqə öz şüarlarını reallaşdıra bilsə, Azərbaycan xalqı onu müdafiə edəcəkdir və firqə öz məqsədlərində daha irəli gedəcəkdir. Pişəvəri sentyabrın əvvəllərində Britaniyanın əleyhinə yönəlmiş bir iş görmüşdür. Onun fikrincə, İran irticaçıları və Seyid Ziyaəddin İngiltərənin keçmiş Xarici İşlər naziri Ernest Bevinin və indiki Xarici İşlər naziri Antoni Edenin sözlərini təkrar edirlər. Pişəvəri yazmışdı: “İranın bütün irticaçıları bir çeşmədən su içirlər. Onlar İranda irticaçı bir hökuməti qurmaq və onun cilovunu isə London siyasətçilərinin əlinə vermək istəyirlər. Onlar belədirlər”.[291]

Mürtəce ruhanilər arasında İngiltərənin nüfuzunun çox olması ingilis dövlətinin bu nüfuzdan Milli Hökumətin dağıdılmasında

[290] Cəmil Həsənli. İran Azərbaycanı: Soyuq müharibənin başlanması, səh. 79-80
[291] Yenə orada, səh. 124-125

onlardan istifadə etməsinə səbəb oldu. İngilislər ruhaniləri Azərbaycana göndərməklə Azərbaycan Milli Hərəkatının tərəfdarları arasında təfriqə yaratmaq istəyirdilər. Cəmil Həsənli bununla bağlı yazır: “1945-ci ilin payızında İranın cənubundan İngiltərənin tərəfdarı olan onlarla irticaçı ruhani İranın şimalına göndərildilər. Onların əsas məqsədi demokrat firqəsinin qrupları arasında təfriqə yaratmaqdan və bununla yanaşı yeni partiyaların yaradılmasından ibarət idi. Məsələn, Zəncanda İngiltərənin tərəfdarı olan iri tacir Zülfiqari “Zəncan Demokrat Firqəsi” adında bir təşkilat yaratmağa təşəbbüs göstərmişdi. Bu firqə ciddi şəkildə Azərbaycanın muxtariyyətinin, məktəblərdə Azərbaycan dilinin tədrisinin və dövlət idarələrində bu dildən istifadə edilməsinin əleyhinə idi. Bu partiya həm də torpaqların kəndlilər arasında bölünməsinə qarşı çıxırdı”.[292]

İngiltərənin tərəfdarı olan sağ yönümlü qəzetlərdə Milli Hökumətə qarşı təbliğat xeyli gücləndirilmişdi.

Azərbaycan xalqının bəşəri, qanuni və hüquqi tələblərinə və Azərbaycan Demokrat Firqəsi rəhbərlərinə qarşı şiddətli hücumların əsas məqsədi ictimaiyyət arasında onlara olan etibarın azaldılmasından və gələcəkdə Azərbaycanda keçiriləcək soyqırıma şərait yaratmaqdan ibarət idi.

Onlar öz riyakar təbliğatları ilə dünya və İran əhalisinin zehnini ona görə zəhərləyirdilər ki, qətl və qırğınlar zamanı dünyanın azadlıqsevər mütərəqqi insanları bu soyqırıma reaksiya verib, Azərbaycan xalqı ilə həmrəy olduqlarını bildirməsinlər. Onlar mövcud reallıqları saxtalaşdırmaqla öz məqsədlərinə çatdılar və bu soyqırıma qarşı dünyanın azadlıqsevər qüvvələrinin heç bir reaksiyası olmadan dünyanın gözü qarşısında Azərbaycan xalqını qətlə yetirib, qırdılar.

Azərbaycan xalqının məhv edilməsi və sürgünlərə göndərilməsi aktı bu adamların yalan təbliğatları ilə üstüörtülü qaldı və hətta, öncə Azərbaycana hücumu müdafiə etmiş adamlar bir neçə aydan

---

[292] Yenə orada, səh.133

sonra Azərbaycana səfər etdikdən sonra cinayətlərin dərinliyini və İran ordusunun vəhşiliklərini etiraf etmişdilər. Məsələn, ABŞ-ın Daqlas şəhərindən gəlmiş bir hakim Azərbaycana səfər etdikdən sonra etiraf etmişdi ki, İran ordusunun Azərbaycana hücumu xarici bir ordunun hücumundan daha vəhşicəsinə olmuşdur.

Azərbaycan reallıqlarının görünməz hala salınması sağ yönümlü qəzetlərin və ingilislərin Tehrandakı mason tərəfdarlarının təbliğatlarının nəticəsi idi. Onlar dünyanı Azərbaycandakı hadisələrdən xəbərsiz saxlamışdılar, Azərbaycan xalqı səs-küysüz və öz tənhalığında qətliam edildi və İranın iqlimi pis olan yerlərinə sürgün edildi.

Hətta, Luis Faust özünün “Azərbaycan böhranı” adlı kitabında etiraf edir ki, mərkəzi hökumət Azərbaycanda möhkəmləndikdən sonra Azərbaycan xalqının vəziyyətini yaxşılaşdırmadı, əksinə, qətl və qarətlər daha da çoxaldı.

İngiltərə dövləti və onun İrandakı tərəfdarlarının fəaliyyətləri Azərbaycanda soyqırımına səbəb oldu. Bu soyqırımı haqqında indiyə qədər heç bir araşdırma aparılmamışdır. Bu soyqırımı haqqında hələ çoxlu deyilməmiş sözlər qalmışdır.

İngiltərə dövləti soyqırıma köməklik göstərdiyinə və anti-humanist əməllərinə görə cavab verməli, dünya ictimaiyyəti tərəfindən mühakimə edilməlidir. Azərbaycanın milli fəalları bu məsələni beynəlxalq məhkəməyə çıxarmalıdırlar. Gələcəkdə belə cinayətlərin törədilməməsi üçün İngiltərə və ABŞ dövlətləri beynəlxalq məhkəmədə mühakimə edilməlidirlər.

## 4. “21 Azər” soyqırımında Sovet ittifaqının rolu

SSRİ Tehran hökuməti ilə müzakirə apardığına və Azərbaycan xalqını İran ordusu qarşısında tək qoyduğuna görə minlərlə adamın ölümünə, minlərlə adamın isə sürgünə göndərilməsinə səbəb olmuş və beləliklə də, bu soyqırımda onun böyük payı vardır.

Sovet dövləti Amerika tərəfindən Təhlükəsizlik Şurası vasitəsilə beynəlxalq təzyiq altına alınsa da, əslində ABŞ-ın nüvə silahı təhdidi onun rəhbərlərinin canına bərk qorxu salmışdı. Nəticədə onlar ABŞ ilə qarşıdurma imkanını əldən verdilər, Azərbaycan xalqını İran ordusu qarşısında tək qoydular, xarici ölkələrin silahları ilə silahlanmış cəlladlar Azərbaycan xalqının canına qəsd etdilər, Azərbaycanı talan edib, yanmış torpağa çevirdilər.

SSRİ dövlətinin İranın baş naziri Qəvvamüssəltənə ilə Moskvadakı müzakirələri, xüsusilə Sadçikovun Qəvvam ilə Tehrandakı müzakirələri Azərbaycan xalqının kürəyinə sancılmış bir xəncər oldu. Sadçikovun Qəvvam ilə Tehrandakı müzakirələrindən sonra onların demokrat firqəsi rəhbərlərinə təzyiqi artmağa başladı. Onlar Azərbaycan rəhbərlərinə tövsiyə edirdilər ki, Tehran hökuməti ilə müzakirələrə başlasınlar. Bu müzakirələr Milli Hökumət üzvləri arasında ixtilafa səbəb oldu. Müzakirələrdən və Tehran hökuməti ilə müqavilə imzaladıqdan sonra firqə Tehran hökuməti tərəfindən hücumlara məruz qaldı və İran ordusu Azərbaycanı işğal etdi. Bu müzakirələr Milli Hökumət tərəfdarlarının əhvali-ruhiyyəsinə böyük bir zərbə vurdu. Bir daha qeyd edilməlidir ki, müqavilənin imzalanmasına nail olmaq üçün bu müzakirələrdə Sovet İttifaqının Milli Hökumət rəhbərlərinə təzyiqi inkaredilməzdir.

Sovet rəhbərlərinin Azərbaycan rəhbərlərini İranda qardaş qırğınına yol verməmək üçün İran ordusuna müqavimət göstərməməyə çağırmasının mühüm rolu olmuşdur. Onlar daim münaqişənin olmamasından danışırdılar ki, Azərbaycan rəhbərləri İran ordusu ilə qarşıdurma qərarına gəlməsinlər. Ola bilsin ki, onlar İran ordusunun bu qədər vəhşicəsinə hərəkət edəcəyindən və Azərbaycan xalqını bu şəkildə qətliam edəcəyindən xəbərsiz idilər. Çünki onlar fikirləşirdilər ki, İran ordusu Azərbaycanı işğal edib mülki şəxsləri öldürə biləcək xarici bir ordu deyildir. Sovet ordusunun özü Azərbaycanı işğal edən zaman bir nəfər də olsun azərbaycanlının burnu belə qanamadı və Azərbaycana heç bir ciddi ziyan dəymədi.

## 5. Yerli xanların və şahsevən ellərinin “21 Azər” soyqırımında rolu

Bir Azərbaycan insanını qul dərəcəsinə qədər aşağılayan qeyri-insani kəndli və ərbab münasibətləri Azərbaycan insanının fikrini istibdadın çomaq və şallaq gücü ilə nökərçiliyə tərəf sövq edilməsinə səbəb olmuşdu. Kəndlilər və rəiyyətlər bu fikirlə elə yüklənmişdilər ki, ərbaba qul və nökər olmağı özlərinə fəxr sayırdılar. Qul və nökər olmaq üçün müsabiqə təşkil edilirdi. Bəzi nökərlər fəxr edirdilər ki, filan qüdrətli quldur ərbabın nökəridirlər. Məsələn, Zəncanda rəiyyətlərin bəziləri fəxr edirdilər ki, Zülfüqarilərin nökəridirlər. Onlar ailələrinin əziyyətlə qazandıqlarını xana təqdim edir və onun əlini öpürdülər. Saray ruhanilərinin “şiələrin sultanı” saydıqları şahın əlini öpdükləri kimi, bu qul təfəkkürü Azərbaycanda xanlar və onların adamları tərəfindən yayılmışdı. Kəndlilər bunu öz talelərinin tərkib hissəsi hesab edirdilər və ondan azad olmaq haqqında heç fikirləşmirdilər. Bu zülmlərdən qaçmaq təşəbbüsləri Azərbaycanda ayrı-ayrı hallarda baş versə də (Qaçaq Nəbi, Koroğlu hərəkatlarında olduğu kimi), bir mübarizə və təşkilatçılıq sistemi olmadığından bu hərəkatlar bir müddətdən sonra aradan getmişlər.

Din təbliğatçılarının kəndlilərin şüurunu dondurmaqda böyük rolları var idi. Saray ruhaniləri xanlar ilə müştərək mənafelərə malik olduqlarına görə Azərbaycanda xalqı xanların əleyhinə qaldırıb xilas olmaları üçün heç bir cəhd göstərmirdilər. Əksinə, onların fikirləri insanların varlığını bərbad etmiş, onları insanlıqdan uzaqlaşdırmış, bu qeyri-insani münasibətlərin davam etdirilməsinə yönəlmişdi. Maraqlısı budur ki, bu ruhanilər ərbabların törətdikləri zülmlərə qarşı heç bir fətva vermirdilər və onların zülmünə heç bir etiraz etmirdilər.

Milli Hökuməti tənqid edənlərin bəziləri fəxrlə söyləyirdilər ki, din və məzhəb səbəbinə Zəncanda xanın anbarından əhaliyə

paylanmış buğdanı əhali gecə yenidən xanın anbarına qaytarmışdı. Bu fəxr ediləsi məsələ deyildi. Əksinə, üzərində düşünüləsi bir məsələdir. Bu adamlardan soruşmaq lazımdır ki, bir insanı öz insanlığından necə uzaqlaşdırmaq olar ki, o, öz əlləri ilə və öz istəyi ilə əlinin zəhmətini zalım xana təqdim etsin və bir nəfər onun azadlığı uğrunda meydana atılanda isə o, qoyun kimi öz sahibinin arxasınca getsin? Belə olmuşsa, bu adamların halına ağlamaq lazımdır, fəxr etmək yox! Çünki, bunun islam və məzhəb ilə heç bir əlaqəsi yoxdur. İslama görə hər kəs öz əlinin qazancının sahibidir və buğdanın kəndlilər tərəfindən xanın anbarına qaytarılması bəzi Azərbaycan kəndlilərində fikri, əməli və dini istibdadın əlaməti idi. Belə bir fikir xanlar və saray ruhaniləri tərəfindən onların şüurlarına, qəlblərinə yeridilmişdi və onları insan olmaqdan uzaqlaşdırmışdı. Çünki, həqiqi bir insan heç vaxt əlinin zəhmətini könüllü olaraq quldurların əlinə verməz, nə din adı ilə, nə də məzhəb adı ilə!

Xanlar bəzi kəndlərdə, hətta kəndlilərin namusuna əl uzadırdılar. Onlar böyük qüdrətə sahib olduqlarına görə istədikləri işi edirdilər. Bu barədə çoxlu dastanlar və hekayələr danışılmışdır. Xanlar ailələrin gəlinlərini ilk gecə zorla öz evlərinə aparırdılar. Bu barədə Səfər xanın xatirələrini göstərmək olar. Hətta, doktor Həsən Qazinin kitabında bu barədə Ruhulla və Əli adlı iki fədainin dilindən maraqlı və ibrətamiz hekayə danışılmışdır. Onlar öz namuslarını Əfşar xanlarından (Məhəmməd Hüseyn xan və Məhəmməd Həsən xandan) qorumaq üçün fərari olmuş və Azərbaycandakı milli hərəkatdan sonra fədailərin sıralarına daxil olmuşdular.

## Şahsevənlərin rolu

Milli Hökumətə münasibətlə bağlı şahsevənlər iki dəstəyə bölünmüşdülər. Onların bir dəstəsi öz xalqının milli və insanı tələblərinin müdafiəsinə qalxıb, başı uca oldular. İkinci qrup isə öz xalqının kürəyinə arxadan xəncər vurdu. Azərbaycan tarixinin bu dövründə

öz xalqına arxa çevirənlərin rolu qorxulu və dəhşətlidir. Şahsevənlər Rza xan dövründə əzab və əziyyətlərə məruz qalsalar da, onlara şiddətli təzyiqlər göstərilsə də, Milli Hökumət dövründə onlar Azərbaycan xalqının mənafeyinə qarşı arxa çevirdilər və müstəmləkəçilər tərəfindən birbaşa hakimiyyətə gətirilmiş Məhəmməd Rza Pəhləviyə kömək etməyə tələsdilər. Şahın xaricilərə mənsub olduğunu və İranda müstəmləkəçilərin tərəfdarı olduğunu bilə-bilə Şahsevən xanlarının bir dəstəsi onun əlini öpməyə getdilər və Azərbaycan azadlıqsevərlərinin ölümünə bais olan xaricilərə bağlı şahın nökərçiliyini qəbul etdilər. Bu dövr Şahsevən türk elinin tarixində ən qara səhifələrdən biridir. Onlar Azərbaycanı öz əlləri ilə müstəmləkəçilərin nökərinə təqdim etdilər. Onların bir dəstəsinin Meşkinşəhrdə, Xalxalda, Ərdəbildə, Nəmində, Nirdə, Sərabda və s. yerlərdə azərbaycanlıların öldürülməsində əli var idi və işğalçılara kömək edirdilər. Onların bəziləri Tehrana gedib lazım olan təlimi gördükdən sonra Azərbaycanı işğal etməkdə orduya kömək etdilər. Bu xanların sırasında Meşkinşəhrdən olan Əmir Aslan xan İsalının, kapitan Əmir Fəthi Alarlanın (o, ordu və başqa quldurlarla birlikdə Xalxala hücum etmişdi), Şeyx Həsən Bərzəndinin (o, Qocabəyli tayfaları arasında firqəyə qarşı təbliğat aparırdı) adlarını çəkmək olar.

Şahsevən tayfalarının bir hissəsi Ərdəbildə və onun ətrafında minlərlə adamı öldürmüş və evlərini qarət etmişdilər. Onlar İran ordusunun köməyinə qalxdılar, pul və maddi nemətlər müqabilində Azərbaycanı və Azərbaycan xalqını satdılar və öz xalqına xəyanət etdilər.

## Daşbulaq kəndində qırğın

İran ordusu və Tehran hökumətinin tərəfdarları işğal etdikləri hər yerdə qətl, qarət və yanğın törədirdilər. Onlar Xalxal məntəqəsində də günahsız insanları qətliam etdilər. Mir Nəbi Əzizzadə özünün “Muğan düzünün tarixi” kitabında bu barədə yazır: “Kapitan Əmir Fəthi Alarlı tərəfindən Gilanda köçəri tayfalar təşkilatlandıqdan son-

ra onlara bir neçə tüfəng və 12 min güllə verilmişdi. Şahsevənlərin bir qrupu Talışdan və Xalxaldan Daşbulaq kəndinə daxil oldular və orada fədailərə qarşı vuruşdular. Fədailərdən 27 nəfər həlak oldu və xeyli adam əsir götürülərək tərk-silah edildilər".[293]

Kərim xan Souləti mərkəzi hökumətin nümayəndələrinin təhriki ilə öz adamları ilə demokratlara qarşı, o cümlədən Xalxalın demokrat firqə təşkilatının sədri olan Haşim xana və Xalxalın qubernatoru Bilal Azada qarşı vuruşdu. "Ettelaat" qəzeti Şahsevən qoşun başçılarının demokratlara qarşı mübarizələri haqqında belə yazırdı: "Şahsevən qoşun başçılarından Əmir Aslan İsalı, Nəsrullaxan Sərdad Nüsrətpur, Yəhya Hatəm Kikəli, Alarlı və Poladlı xanları, Kərimxan Souləti və Kikəli xanədanları qəhrəmanlıq və cəsarət göstərərək demokratlara təslim olmadılar və son nəfəslərinə qədər Ərdəbil, Xalxal və Meşkinşəhrdə onlarla vuruşdular. Yaxşı olar ki, onların hamısı ordunun baş qərargahı tərəfindən mükafatlandırılsın. Hal-hazırda Ərdəbil və Xalxal bölgəsindəki şahsevən tayfasından olan 700 nəfər Ərdəbil qarnizonunda general-mayor Bayandurun nəzarəti altında hərbi xidmət keçirlər."[294]

Bəzi Şahsevən xanları öz xalqına xəyanət etdiklərinə və müstəmləkəçilər tərəfindən taxta əyləşdirilmiş Məhəmməd Rza Pəhləviyə xidmətlərinə görə onun əlindən medal aldılar, həmçinin İran ordusu tərəfindən mükafatlandırıldılar. Onların bəziləri Ərdəbildə qala bilmədiklərindən iğtişaş törədə bilmədilər və Tehrana getdilər, İran ordusunun köməyi ilə yenidən ordunun qabağına düşərək Ərdəbilə hücum etdilər. Bu adamlar Ərdəbildə çox cinayət törətdilər."

Hətta Azərbaycanın işğalından sonra bəzi şahsevən başçıları şahın əlini öpmək üçün Tehrana getmişdilər. "Ettelaat" qəzeti bu barədə yazırdı: "Bu gün şahsevənlərin böyük tayfa başçılarından olan Əmir Aslan, Hatəm bəy və Fəzlulla bəy Təbrizə tərəf hərəkət

---

[293] Mirnəbi Əzizzadə. Muğan düzünün tarixi, səh. 266.
[294] "Ettelaat" qəzeti, 12.01.1947.

etdilər. Bəyli kəndində şahsevənlərin tayfa başçısı olan Əliqoşad isə Məşhəd ziyarəti ilə şərəfləndilər”. [295]

## Orduya kömək etmiş şahsevənlərə ordu rəhbərliyi tərəfindən təşəkkür elan edilməsi

İran ordusunun qərargahı şahsevənlərlə bağlı aşağıdakı bəyanatı yaymışdı:

“Bir il yarım müddətində hücumlara, həmlələrə və məhrumiyyətlərə dözmüş şahsevən tayfalarının fədakarlığı, qəhrəmanlığı və heyrətamiz əməliyyatları başqa köçəri tayfalarla qarışdırılmamalıdır. Bu rəşadətli və azad insanlar canlarından keçərək istər yayda, istərsə də qışda ölkənin istiqlaliyyətinə təcavüz etmiş alçaq avantüristlərlə vuruşdular, müqavimət göstərdilər və çoxlu tələfat verdilər. Onların əməlləri və işləri qızıl hərflərlə ölkənin istiqlal tarixində qeyd edilməlidir. Hörmət və sitayiş gözü ilə orduya baxdığımız, ordunun əməl və xidmətlərinə sitayiş etdiyimiz bu günlərdə rəşadətli və qəhrəman şahsevən tayfaları da nəzərdən kənarda qalmamalıdır. Onlar ordu ilə çiyin-çiyinə verərək bütün məhrumiyyətlərə dözmüş və heç bir hadisə bu tayfanın fikir, nəzər və iradəsində şübhə, tərəddüd yaratmamışdır. Bu rəşadətli və qəhrəman tayfa, şübhəsiz ki, bütün xalq və ölkə əhalisi tərəfindən mükafatlandırılmalı və alqışlanmalıdır. Yaşasın şahsevən tayfalarının qəhrəman insanları”.[296]

## Milli Hökumətin tərəfdarı olan şahsevənlər

Şahsevənlərin bir hissəsinin Azərbaycan xalqı əleyhinə vuruşan ordu və Tehran hökuməti ilə əməkdaşlıq etmələrinə baxmayaraq, bir qrup şahsevən xanları öz xalqının milli tələblərinə hay verdilər

---

[295] “Ettelaat” qəzeti, 22.02.1947.
[296] “Ettelaat” qəzeti, 14.12.1946.

və bu yolda mübarizə etdilər, hətta həbs olundular. Məsələn, Milli Hökumətə xidmət etmiş Nüsrət bəy Şahiın Əcirli Biləsuvar və Muğan camaatı tərəfindən Azərbaycan Milli Məclisinə nümayəndə seçilmişdi. O, Milli Hökumətdə şahsevən tayfalarının işi üzrə məsul şəxs idi. Azərbaycan işğal olunduqdan sonra o, tutularaq, zindana salındı və iki il həbsdə qaldı. Azad olunduqdan sonra 1950-ci ildə vəfat etdi. Deyilənə görə, onun ölümünə səbəb məruz qaldığı ruhi və cismani təzyiqlər olmuşdur.

## Xanların Milli Hökumətə qarşı müxalifətlərinin səbəbləri

1941-ci ilin şəhrivər (avqust-sentyabr) ayından başlayaraq Azərbaycanda nisbi azadlıq yarandıqdan sonra qeyri-insani ərbab-rəiyyət münasibətlərinə qarşı mübarizə başlandı. Bir çox əkinçilər və kəndlilər öz insani hüquqları ilə tanış oldular və xanlara, onların adamlarına qarşı mübarizəyə başladılar. Qısa bir müddət ərzində kəndlilərin bir çoxu mübarizlərin cərgəsinə qoşuldular və xanlardan, onların adamlarından öz hüquqlarını tələb etdilər. Bu yolda, hətta, bir neçə kəndli şəhid oldu.

Lakin, şəhid Pişəvərinin rəhbərliyi ilə Azərbaycan Milli Hərəkatının yaranmasından, onun hədəflərindən biri olan torpaq islahatının aparılmasına başlamasından və ərbabla rəiyyət arasındakı qəddar münasibətin aradan qaldırılmasından sonra xanlar gördülər ki, onların mənafeləri təhlükəyə düşmüşdür. Buna görə də onlar Milli Hökumətə qarşı sui-qəsdlərə başladılar, öz məqsədlərinə çatmaq üçün himayəçiləri olan Tehran hökumətinin ağuşuna sığındılar, orada da fitnə-fəsadları davam etdirdilər, İran ordusu vasitəsilə təlim gördülər və lazım olan sursatla təchiz edildikdən sonra ordu ilə birlikdə Azərbaycana hücum etdilər. Onlar tərəfindən Azərbaycanda çoxlu sayda qırğınlar törədildi. Bütün bu qırğınlarda ordu onların həm himayəçisi, həm də dayağı idi.

## Soyqırımda iştirak etmiş xanlar

Burada qeyd edilməlidir ki, Azərbaycan mülkədarlarının və xanlarının bəziləri fitrətlərində olan azadlıq ruhuna görə Milli Hökumətin sıralarına qoşuldular. Onlar mallarını və hətta, canlarını Azərbaycana fəda etdilər. Onların sırasında Zəncanda Bürhanüs-səltənəni və Vəzirilər ailəsini, Marağada general Kəbirini, Makuda Bayat ailəsini və s. göstərmək olar. Başqa şəhərlərdə də canlarını və mallarını Azərbaycana və onun xalqına fəda etmiş xanlar var idi. Bu adamlar öz xalqına xidmət edirdilər. Lakin, xanların bir dəstəsi də var idi ki, güc və maddi nemətlər əldə etmək xatirinə öz xalqına xəyanət edib onu qırmağa getdilər. Onlar bu yolda xaricilərin əlaltısı olan şaha nökərçilik etməyi qəbul etdilər. Onların bir çoxu Azərbaycanda soyqırımı törədildikdən sonra yüksək vəzifələrə çatdılar və əcnəbilər vasitəsilə təyin edilmiş şahın əlindən medal və dərəcələr aldılar. Aşağıda qısa şəkildə “Adinə” jurnalının 1372-ci il bəhmən (fevral 1994) ayında çıxmış 88-ci sayında nəşr olunmuş Səfər xanın “Xatirələr” kitabında bu qrupdan olan xanların tarixi və ailəsi haqqında yazılar təqdim olunur:

### 1. Zülfiqarilər ailəsi

Bu ailə Zəncanın böyük mülkədar ailəsidir. Bunlar Zəncanın nəsillikcə hakimi olmuş Əsədüddövlə Hüseynqulu xan Zülfiqarinin övladları olmuşlar. O, Məşrutədən əvvəl Zəncan hökumətinin başçısı və ya müavini olmuş şəxslərdən idi. Məhəmmədəli Şah Qacar Milli Şura Məclisinin binasını topa tutduğu günlərdə Əsədüddövləyə və Əfşar tayfasının əmiri Cahanşaha Zəncanın məşrutə tərəfdarlarını məhv etmək tapşırılmışdı.

Əsədüddövlənin çoxlu sayda mülkləri Taromun Sirdan məntəqəsindən başlayaraq Miyana sərhədlərinə qədər uzanırdı. O, Rza xanın cəngəlilərə qarşı yürüşündə iştirak etmişdi. Azərbaycan Milli Hökumətinin qurulduğu ildə onun və onun ailəsinin əmlakının bir hissəsi müsadirə olundu. Onun övladları sarayın və ordunun himayəsi ilə öz

tərəfdarlarını silahlandırmağa başladılar və demokrat firqəsinə qarşı mübarizəyə qalxdılar. Bu ailənin ən məşhur adamı Sultan Mahmud xan Zülfiqari idi. O, Məhəmməd Rza Şah Azərbaycana gəldikdən sonra öz silahlı adamları ilə birlikdə şahın qarşısından hərbi parad ilə keçmiş və şahın əlindən ordunun fəxri polkovniki dərəcəsini almışdı.

**2. Bigdelilər ailəsi**

Xəmsə (Zəncan) və Həmədanın böyük mülkədar ailəsidir. Bu ailənin ən məşhur üzvü öz silahlıları ilə demokrat firqəsinə qarşı mübarizəyə qalxmış Yədulla xan Əsləhedarbaşi olmuşdur. O, Rza xanın şahlığı dövründə onun xüsusi silahdaşıyanı idi və bu şərəfli saray vəzifəsi Məhəmməd Rza şah dövründə də ona tapşırılmışdı. Demokrat firqəsi süqut etdikdən sonra müsadirə olmuş mal və mülklərini geri aldı və çoxlu sayda medal, fərman, tərifnamə və imtiyazlarla mükafatlandırıldı.

**3. Əmir Əfşar**

Bu ailə Xəmsənin (Zəncanın) və Bicarın böyük mülkədar ailəsi idi. Bunlar Nasiri və onun canişinləri dövrünün məşhur və tanınmış feodallarından olan Cahanşah xan Əmir Əfşarın övladlarından idilər. Onun qüdrəti və etibarı Zülfiqarilər nəslinin nüfuzundan dəfələrlə üstün idi. Əmir Əfşarın və onun övladlarının malları və əraziləri demokrat firqəsi tərəfindən müsadirə edilmişdi. Əmir Əfşarın övladı Məhəmməd Həsən xan Əfşar ordunun və Zülfiqari ailəsinin himayəsi ilə demokrat firqəsinə qarşı mübarizəyə başladı. Demokrat firqəsi süqut etdikdən sonra o, şah tərəfindən İran ordusunun fəxri mayoru adına layiq görüldü.

**4. Yəmini Əfşar**

Miyandoab və Şahindejin ən böyük mülkədar ailəsidir. Nasirəddin şah zamanından başlayaraq Miyandoabda hakimiyyət bu ailənin əlində olmuşdur. Bu ailənin ulu babası Məhəmməd Həsən xan Sərhəng Əfşar adında bir şəxs olmuşdur. Bu ailənin üzvləri çar

Rusiyası ordusunun Azərbaycanda hakimiyyətdə olduğu zaman və Sücaüddövlə Hacı Məhəmməd Marağayinin hakimiyyəti dövründə doğulmuşdular. Bu ailənin ən məşhur üzvü Yəmin Ləşgər Əlinağı xan Əfşar olmuşdur və demokrat firqəsinin hakimiyyəti dövründə yaşamışdır. Onun və ailəsinin geniş mülkləri demokrat firqəsi tərəfindən müsadirə edildi. Bu ailəyə bağlı olanların bir hissəsi həbs edildilər. Buna görə də o, ordunun himayəsi altında öz tərəfdarlarını silahlandırmağa başladı və demokrat firqəsinə qarşı mübarizəyə qalxdı. Hulasu kəndində "Yəmini Ləşgər" adında xüsusi bir qala-qəsr tikmişdi. Bu qala indiyədək qalmaqdadır.

**5. İsgəndəri**

Sərab və Təbrizin böyük mülkədar ailəsidir. Bunlar Məhəmmədəli şah Qacarın mühafizə dəstəsinin başçısı Fəthüssultan İsgəndərxanın övladlarıdırlar. Bu ailənin ən məşhur üzvü "Əmir Nüsrət" ləqəbli Nəsrulla xan İsgəndəri olmuşdur. O, altıncı çağırışdan on yeddinci çağırışa qədər İran Milli Məclisinin deputatı olmuşdur. Əmir Nəsrulla xan demokrat firqəsinin ən ciddi müxaliflərindən və demokrat firqəsinə qarşı silahlı mübarizənin himayəçilərindən biri idi. Onun ən böyük xidmətlərindən biri Tehranda yaşayan minlərlə azərbaycanlı həmvətəninin oradan qovulmasını təşkil etmək olmuşdur. Onun tövsiyəsi ilə 1949-cu ildə əsas hissəsi firqənin məğlubiyyətindən sonra Tehrana qaçmış olan xeyli azərbaycanlı aşkar edilib, ordunun yük maşınları ilə Tehran və Kərəc şəhərlərinin cənubundakı çöllüklərə sürgün olundular.

**6. Şəqqaqi və Gərmrud xanları**

Bu xanlar Sultan Mahmud xan Zülfiqari ilə əlbir idilər. Miyananın böyük xanlarından olan Ərşədməmalik Rəncbərin övladlarından biri Demokrat Firqəsinə qarşı döyüşlərdəki iştirakına görə ordunun fəxri baş leytenantı dərəcəsinə yüksəldi. O, sonralar 28 mordad (18 avqust) çevrilişində fəal rol oynadığına görə İran ordusunun fəxri mayoru dərəcəsinə layiq görüldü.

**7. Xalxal xanları**

Bu xanlar Şatranlı, Poladlı və Xamislər tayfalarının başçıları idilər. İran köçəri tayfa başçılarının 1948-ci ildə keçirilmiş yığıncağında iştirak etmiş Kərim xan Soulətı, Cəmşid Əmir Pur və Qulamrza Əmir İsgəndəri o şəxslər idilər ki, öz silahlı dəstələri ilə demokrat firqəsi ilə mübarizə aparırdılar.

**8. Nəmin və Talış xanları**

İrsi olaraq Nəmin və Astaranın hakimiyyəti əllərində olmuş Seyfülməmalik övladları bir tərəfdən və “Kərqanrud”un zalım hakimi Nəsrulla xan Sərdar Əmcəd övladları digər tərəfdən demokrat firqəsinin əleyhinə idilər. Bunlar mərkəzi hökumətin dəstəyi və Rəştin bəzi aristokratları, eləcə də Milli Şura Məclisinin müxtəlif çağırışlarında masonların nümayəndəsi olmuş Cahangir xan Sərtippurun təşkilatçılığı ilə demokrat firqəsinə qarşı mübarizəyə qalxdılar.

Məhəmməd Hüseyn xan Salar Əsədin övladı və keçmiş Milli Şura Məclisinin bir neçə çağrışında zahirən talış xalqının nümayəndəsi olmuş və bu gün də Pəhləvilərin dəftərxana rəisi olan Sərdar Əmcədin nəvəsi Hülakü Rambod da həmin xanlardan biri olmuşdur.

**9. Məlik Qasimi**

Marağa və Miyandoabın böyük mülkədar ailəsidir. Bunlar Fətəli şah Qacarın 24-cü oğlu Məlik Qasimi Mirzənin nəslindən idilər. Məlik Qasimi uzun illər Azərbaycanın müxtəlif əyalətlərində hakim olmuşdur. Nəsrəddin şahın dövründə o, hətta bütün Azərbaycanın hakimi olmuşdur. O, Marağada və Miyandoabda çoxlu sayda kəndlərin sahibi idi. Onun Rzaqulu Mirzə və İmamqulu Mirzə adlı iki oğlu öz atalarının sağlığında Azərbaycanın böyük mülkədarlarından hesab edilirdilər. Bu ailənin əmlakı demokrat firqəsi tərəfindən kəndlilər arasında paylandıqdan sonra bu ailənin üzvləri demokrat firqəsinə qarşı silahlı mübarizəyə başladılar.

Firqənin süqutundan sonra bunlar bütün mal və mülklərini özlərinə qaytardılar. Bu tanınmış müxalifətçilər “başkəsən Rəzzaq”, Əziz Möhsini, Sultanəli Şəqqaqi, Hacı Əbülqasim Cavan, Seyfulla Bağmeşəli, Fərrux Heydər, “qarnıyırtıq Kazım”, Təbrizin yeddinci məhəlləsinin bıçaq itiləyənləri və onlarla bu kimi digər pis ünsürlərlə əl-ələ verib 1946-cı ilin dekabr ayının 12-də (21 Azərdə) insanlara hücum etdilər və bir həftədən az müddətdə bizim minlərlə azərbaycanlı həmvətənimizi qətlə yetirdilər.

İnanmaq lazımdır ki, Azərbaycanda və Xəmsədə (Zəncanda) demokratları qıranlar əhali deyildi. Əksinə, bu adamlar ordunun və quldurların təzyiqindən bezmiş və cana doymuş adamlar idilər. Ona da inanmaq lazımdır ki, firqənin düşmənlərinin çoxu Məşrutə inqilabına, Cəngəllilər və Xiyabanı hərəkatlarına qarşı çıxmış adamlar idilər. Bunlar o adamlar idilər ki, Rza xanın və onun oğlunun hakimiyyətə gəlməsini asanlaşdırmışdılar”.[297]

[297] Ə.Kamyarvənd. Tənqid adı altında tarixin təhrif edilməsi, “Adine” jurnalı, No 88, yanvar-fevral 1994

## *VII Fəsil*

# SÜRGÜNLƏR

### Azərbaycan türklərinin İranın cənubuna və başqa yerlərə sürgün edilməsi

İran ordusunun Azərbaycanı işğalından sonra minlərlə adam Azərbaycandan İranın cənubuna və başqa yerlərinə məcburi olaraq sürgün edildilər. Bu işdə ordunun, hərbi qubernatorların və araşdırma komissiyalarının rolu çox mühüm olmuşdur. Ordu Azərbaycan xalqının çoxlu sayda oğullarını həbs edib, zindanlara saldıqdan sonra onları qatarlar və yük maşınları ilə İranın cənubunun iqlimi pis olan yerlərinə sürgün etdilər. Xeyli adam başqa şəhərlərə sürgün edildi.

Bundan əlavə, Cənubi Azərbaycanın minlərlə məzlum insanı Şimali Azərbaycanda sığınacaq tapdılar. Orada onların çox ağır həyatları oldu. Demokrat firqəsinin çoxlu sayda üzvü də Azərbaycanın işğalından sonra Şimali Azərbaycana getdilər və orada məskunlaşdılar. Bu adamların çoxu Ağdam şəhərində məskunlaşdılar.

Təəssüflər olsun ki, SSRİ dağıldıqdan sonra onların evləri yenidən təcavüzə məruz qaldı və işğal olundu. Onlara yenidən zülm olundu və köçkünə çevrildilər. Bu barədə Rəhim Nikbəxt belə yazır: “Qarabağ müharibəsində İran mühacirlərinin yaşadığı yerlər (o cümlədən Sərab şəhərindən olan mühacirlərin əsas yaşayış yeri olan Ağdam şəhəri və onun ətrafındakı kəndlər) erməni işğalçıları tərəfindən işğal olundu və əldə edilmiş məlumatlara görə onların evlərini buldozerlər dağıdıb, yerlə yeksan etmişdilər”.[298]

---

[298] Rəhim Nikbəxt, səh 183.

Azərbaycanın məzlum və heç bir hamisi olmayan xalqı həmin illərdə bir qul kimi cinayətkarlar tərəfindən ən pis və qeyri-insani rəftarlara məruz qaldılar. “Adine” jurnalında Sərabın böyük mülkədarı Əmir Nüsrət İsgəndərinin Tehranda Azərbaycandan olan sürgünlərlə rəftarı haqqında aşağıdakıları oxuyuruq: “Demokrat firqəsinin ən ciddi və tanınmış müxalifətçisi Əmir Nüsrət İsgəndəri firqə üzvlərinə qarşı silahlı mübarizənin tərəfdarlarından biri idi. Onun gördüyü ən böyük işlərdən biri Tehranda yaşayan azərbaycanlıların sürgün edilməsini təşkil etməkdən ibarət idi. Onun tövsiyəsi ilə 1949-cu ildə, əsas etibarı ilə firqənin məğlubiyyətindən sonra Tehrana qaçmış azərbaycanlılar aşkarlandı və ordunun yük maşınları ilə Kərəcin və Tehranın cənubundakı biyabanlara sürgün edildilər”[299]

## Zəncan əhalisinin sürgündə və mühacirətdə acı həyatı

Demokrat firqəsinin tərəfdarı olan zəncanlıların bir çoxu işğaldan sonra Tehrana və başqa şəhərlərə sürgün və mühacirətə məcbur edildilər. Onlar həm Azərbaycan xalqının düşmənləri tərəfindən əziyyətlərə məruz qalırdılar, həm də Tehran hökumətinin yaltaqları şəxsi düşmənçiliklərinə görə və özlərini şirin salmaq üçün onları Tehranda hökumət məmurlarına satırdılar. Tehran polisinin 1945-1947-ci illərdəki gizli raportlarında bir qrup cahil və Azərbaycanın düşməni olan adamların xəyanətkarlıqları haqqında maraqlı məlumatlar vardır. Məsələn, bu məlumatlarda aşağıdakılar göstərilir:

“23 ordibeheşt 1326-cı il (14 may 1947-ci il). Stomatoloji fakültənin tələbəsi Nikxah iddia edir ki, Cəfər Turabinejad Azərbaycan Demokrat Firqəsinin hakimiyyəti dövründə Zəncan iqtisadiyyat idarəsinin rəisi olmuş və səlahiyyətində olan mülkiyyəti mənimsə-

[299]“Adine” jurnalı, No 88

mişdir. Adı çəkilən Cəfər 1 saylı rayonun polis idarəsinə çağırılmış və o bəyan etmişdir ki, Zəncanda cəmi üç ay müddətində iqtisadiyyat idarəsinin rəisi olmuş və bir müddət də Təbrizdə həbsdə qalmışdır. Mənim işimə baxılmış və azad olmuşam, 25 gündür ki, Tehrana gəlmişəm. Adı çəkilən şəxs öz cinayət işi ilə birlikdə məlumat idarəsinə təhvil verilmişdir".[300]

14 eşfənd 1325-ci il (5 mart 1947-ci il). Peşəsi əttar (əczaçı) olan azərbaycanlı Yusif Əlioğlu 8 saylı rayonun polis idarəsinə müraciət edərək xəbər vermişdir ki, Süleyman xanın sarayında tacir şagirdi işləyən Rza Məhəmməd Əli oğlu Azərbaycan Demokrat Firqəsinin üzvü olmuş və demokratlar hakimiyyətdə olan zaman Zəncan telefonxanasını məndən təhvil almışdır. Polisdən bir nəfər məmur göndərilmiş və adı çəkilən şəxs tutularaq məlumat idarəsinə göndərilmişdir".[301]

## İki nəfər Tehrana sürgün edildi

İki nəfər, yəni Əhməd Azəri və Əsədulla Kamran ordu şəhərə daxil olduqdan sonra Zəncan əhalisinin şikayəti əsasında işdən kənar edilərək, Tehrana sürgün edilmişlər.[302]

## Mərəndin və Azərbaycanın məşhur yazıçısı sürgündə

Gəncəli Səbahi Təbrizdə həbs edildikdən sonra "Bədrabad" düşərgəsinə sürgün edildi. "Bədrabad" Xürrəmabad şəhərinin bir neçə kilometrliyində Əhvaz yolunun üstündə II Dünya müharibəsi zamanı amerikalılar tərəfindən tikilmişdi və onlar oranı tərk etdikdən sonra boş qalmışdı. Polkovnik Vəzir adında bir adam bu düşərgənin rəisi idi.

---

[300] Ərdəbil tarixin keçidində, səh. 325.
[301] Təfrişi Məcid, Tahir Əhmədi Mahmud. Polisin gizli məlumatları, 1945-1947-ci illər, I cild, səh. 261.
[302] "Ettelaat" qəzeti, 11.01.1947

Gəncəli Səbahi özünün avtobioqrafik əsəri olan “Ötən günlərim” adlı kitabında İran ordusunun əsgər və zabitlərinin bu düşərgədə sürgün olunanlarla davranışları haqqında belə yazır: “Bəzi günlərdə cavanları düşərgədən kənar boş yerlərdə sıraya düzürdülər. Onları silahlı adamların qarşısında saatlarla bu vəziyyətdə saxlayırdılar. Elə bil ki, atəş əmrini gözləyirdilər. Düşərgəyə qorxu salırdılar, qadın və uşaqların rəngi ağarırdı. Sürgün olunanları dörd ay Bədrabad düşərgəsində saxladılar və sonra hamını İranın cənubundakı şəhərlərə sürgün etdilər”.[303]

## Mərəndlilərin sürgündə acı günləri

İran ordusu Azərbaycanda bütün işləri əlinə aldıqdan sonra qərara gəldi ki, həbs edib zindanlara saldığı bir çox adamları Azərbaycandan uzaqda olan pis iqlimli ərazilərə sürgün etsin. Mərənd şəhərindən çoxlu sayda milli fəal ailələri ilə birlikdə İranın cənubuna sürgün edildilər. Doktor Həsənzadə özünün “Mərənddə islam inqilabı” kitabında bu barədə aşağıdakıları yazır: “Mühacirlərin bir qrupu da “Mühacirlərin işi üzrə komissiyalar” tərəfindən demokrat firqəsi süqut etdikdən sonra İranın Sircan, Kerman, Şiraz, Fəsa və Neyriz kimi şəhərlərinə sürgün edildilər. Mühacirlər bu dövrdə çoxlu sayda çətinliklərlə üzləşdilər. Demokrat firqəsi üzvlərinin maddi və mənəvi köməkliklər göstərilməsi barədə ən kiçik şikayətləri onların bir neçə illiyə sürgünə göndərilmələri ilə nəticələnirdi. Sürgün edilmiş mühacir ailələrinin sayı dəqiq şəkildə müəyyən edilməyib və bu barədə etibarlı sənədlərin nəşr edilməsinə ehtiyac vardır. Bununla belə, qeyd etmək lazımdır ki, mövcud sənədlərə əsasən ən azı 10 ailə Kermana və 10 ailə Fars əyalətinə sürgün edilmişdi. 13.7.1327-ci il (4 oktyabr 1948-ci il) tarixində Fatimə adında bir xanımın “Mühacirlərin işi üzrə komissiyaya” göndərdiyi məktubundan məlum olur ki, Şiraz əyalətinin Fəsa yaşayış

[303] Ötən günlərim, səh. 88-89.

məntəqəsində 10 mühacir ailəsi yaşamışdır. Bu qadın məktubunda özünü yeddi nəfər zülm görmüş və kimsəsiz yetimin himayəçisi kimi təqdim edərək yazır ki, onların atası müharibədə öldürülmüşdür Qadın məktubda yeməyin və geyimin olmamasından, uşaqların xəstəliyindən, yerli adamların mühacirlərə qarşı sərt davranışından şikayət edir və komissiyadan xahiş edir ki, heç bir günahı olmayan yetimlərinə kömək göstərilsin".

Bu məzmunda Kermandan daxil olmuş başqa bir məktub da vardır. Məktubun müəllifi özünü "Mühacir Əli" kimi təqdim edir. O, məktubda özünün və bir neçə ailənin acınacaqlı vəziyyətindən komissiyaya şikayət edir və özünün işinə yenidən baxılmasını və Mərəndə geri qaytarılmasını xahiş edir".[304]

Sürgün olunanların "Araşdırma komissiyalarına" yazdıqları məktublardan aydın olur ki, onların həyatı çox ağır və acı olmuşdur. "Mərənddə islam inqilabı" adlı kitabda bu barədə aşağıdakıları oxuyuruq: "Fars əyalətinin Neyriz şəhərindən 1327 (1948)-ci ildə göndərilmiş və rayon başçısına ünvanlanmış məktublardan birində 10 mühacir ailəsinin yoxsulluğundan və çox ağır həyatından bəhs edilir. Məktubda bu ailələrin vətənlərinin adı çəkilməsə də, məktubun məzmunundan onların hamısının Mərəndli olduğu anlaşılır. Bu məktubda onlar özlərinin yoxsulluq içində olmalarından, övladlarının xəstə olmasından və xəstəxanalarda onlara tibbi xidmət göstərilməməsindən bəhs edilir. Məktubun müəllifi özünü "Tağı Mühacir" adlandırır. O, firqənin işlərinə müdaxilə etmədiyini bildirərək vətənə qaytarılmasını və orada yaşamağa davam etməsini xahiş edir".[305]

Mərəndin Hüseyn Rəncbər adlı bir firqə fəalı hərbi tribunalda əvvəlcə ömürlük həbsə, sonra isə 15 il həbs cəzasına məhkum edilərək Bəndər-Abbas zindanına göndərilmişdi.[306]

[304] Təbriz Milli sənədlər arxivi, Mərəndin qaydaya salınmamış sənədləri. I cild, səh. 266.
[305] Yenə orada, səh. 238
[306] Müasir tarixin araşdırılması üzrə mərkəzi arxivdən, sənəd No 4-395-36, səh.265

## Əhər mübarizlərinin Şiraza sürgün edilməsi

Pişəvərinin süqutundan sonra dövlət qoşunları Əhərə daxil oldular və hökumət tərəfdarları həbs edilərək, mühakimə üçün Təbrizə göndərildilər və bir qrup isə Şiraza və başqa yerlərə sürgün edildilər.[307]

## Azərbaycandan sürgün edilənlərin acı həyatı haqqında Əbdüləli Dəstqeybin hesabatı

Şirazın məşhur yazıçılarından biri olan Əbdüləli Dəstqeyb "Fars" informasiya agentliyinə verdiyi müsahibəsində özünün yazıçılığa başlaması haqqında belə deyir: "Mənim yazdığım və böyük səs-küyə səbəb olan ilk ciddi yazım Azərbaycandan sürgün olunanlar barəsində idi və bu yazı doktor Ənvər Xameyinin nəşr etdiyi "Həcar" qəzetində çap olunmuşdu. Ən maraqlısı o idi ki, bu məqalə qəzetin baş məqaləsi oldu. 1947-ci ildə hakimiyyət Azərbaycan hadisələri ilə əlaqədar olaraq 26 min nəfəri İranın pis iqlimi olan yerlərinə sürgün etmişdi. O zaman təxminən 300-400 nəfər azərbaycanlı həmvətənimi Cəhrəmə, bir xeylisini Lura və başqa bir hissəsini də Bəndər-Abbasa apardılar. Cəhrəmə gətirilənlərin ittihamı bir qədər yüngül idi. Çünki, Cəhrəmin havası Lur və Bəndər-Abbasın havasına nisbətən mülayimdir. Qadın və uşaqlar kasıblıq və çətinliklər içində yaşayırdılar. Onları gördükdən sonra çox təsirlənmişdim.

Onların acınacaqlı vəziyyəti haqqında məqalə yazıb, qəzetə göndərdim və doktor Ənvər Xameyi onu "Həcar" qəzetində çap etdi".[308]

---

[307] Hüseyn Dusti. Ərəsbaranın tarixi və coğrafiyası. səh. 138 (sitat İsa Qəribi Kəleybərin "Anamızsan, Qaradağ" kitabından götürülmüşdür).
[308] "Fars" informasiya agentliyi, iyul-avqust 2007.

## Azərbaycandan sürgün olunanlar Bərazcan qalası zindanında

Azərbaycanın işğalından sonra çoxlu sayda məhbus İranın pis iqlimli cənub şəhərlərinə sürgün edildilər. Onların bəziləri Tehranın və mərkəzi şəhərlərin zindanlarına sürgün edildilər. Lakin, Bərazcana sürgün edilənlərin taleyi başqa məhbusların taleyindən fərqlənirdi. Çünki, Bərazcan qalasının zindanı İranın ən pis zindanı idi. Azərbaycan milli müqavimətinin simvolları olan Səfər xan Qəhrəmani Sərabdan olan Seyid Mehdi Haşimi ilə birlikdə (27 il şah zindanında qalmışdır) uzun illər bu qalada məhbus həyatı keçirmişdilər. Onlar öz xatirələrində bu zindandakı ağır şərait haqqında geniş açıqlamalar vermişlər.

Səfərxan Qəhrəmanidən savayı başqa adamlar da, o cümlədən Azərbaycan Milli Ordusunun zabitləri də bu zindana sürgün edilmişdilər. Səfərxan öz xatirələrində yazırdı: “Mənimlə “Bərazcana sürgün edilən firqə fədailəri bu adamlar idilər: 1-“Peyğəmbər” ləqəbli Söhrab; 2-İsmayıl; 3-Xidmətəli Cavan; 4-Muradəli Qəribi; 5-İman; 6-Dədə Ocaqlı; 7-firqə hökuməti zamanı Azərbaycanın nümayəndəsi olmuş Əhməd Bəradəran... Seyid Mehdi Haşimi Sərab mülkədarlarından idi. Milli Hökumət zamanı xalqın sıralarına qoşulmuşdu və çoxlu fədakarlıqlar etmişdi. O, 27 il zindanda qaldı və sonra azad edildi”.[309]

[309] Səfərxanın xatirələri, səh 134

*VIII Fəsil*

# MƏDƏNİ SOYQIRIM

Azərbaycanda mədəni soyqırım Azərbaycan xalqının “21 Azər”dəki fiziki soyqırımından bir qədər əvvəl başlamışdı. Bu dövrdə Azərbaycan dili təhqir edilir, onun Tehran hökuməti və mason mərkəzlərinə bağlı olan və adlarını ziyalı qoymuş fars şovinistləri vasitəsi ilə məhv edilməsi yolunda ciddi səylər göstərilirdi. Onlar Azərbaycan dilini məhv etməklə Azərbaycan xalqının tarixi yaddaşını silmək istəyirdilər. Beləliklə də, Azərbaycan xalqının bütün milli varlığını və kimliyini yox etmək istəyirdilər. Bu səylər İranın müttəfiq dövlətlərlər tərəfindən işğalına qədər davam etdi. Qeyd etmək lazımdır ki, İran xalqları bu işğal zamanı azadlığın dadını hiss etdilər. Siyasi partiyalar və qəzetlər fəaliyyətə başladılar. İranda siyasi və ictimai mühit dəyişdi.

Milli hüquqlar uğrunda Azərbaycan hərəkatının başlanması ilə eyni vaxtda farspərəst yalançı ziyalıların Azərbaycan dilinin və azərbaycanlıların türk kimliyinin inkar edilməsi yolunda səyləri çoxaldı. Onlar həyasızcasına bizim milli dilimizə və türklüyümüzə hücumlar edirdilər. Onlar bizə yalançı bir kimlik aşılamaq istəyirdilər. Şəhid Pişəvəri “Azərbaycan” qəzetində Azərbaycan dilinin düşmənlərini “bizim qatı düşmənlərimiz” adlandırmışdı.

Azərbaycan Milli Hökumətinin bir illik ömrü bir çoxlarını məyus etdi. Biz açıq gözlə Azərbaycan xalqının qatı düşmənlərini tanıya bildik. Hətta, özlərini siyasətin və demokratiyanın alimi və ziyalısı hesab edənlər iç üzlərini göstərdilər.

Bunlardan biri Azərbaycan dilinin dünya ədəbiyyatında yerini danan Məliküşşüəra Bahar idi. O, Azərbaycan dilinin kökünü kəsmək üçün bir müraciət hazırlamışdı və bu müraciəti tədrisin

Azərbaycan dilində aparılmasına qarşı olan qadağanın aradan götürülməsi kimi təbii istəyini ortaya qoymuş Azərbaycan xalqına da etmişdi. Baharın ya Azərbaycan ədəbiyyatından xəbəri yox idi, ya da qəsdən unutqanlıq edirdi. Çünki, təkcə “Kitabi lüğət-üt türk” kifayətdir ki, Bahar öz sözlərini geri götürsün. İndi Baharın sözügedən müraciətinin bir parçasına diqqət yetirək: “İndi də keçək yerli ləhcələrə və türk dilinin tədrisinə. Deyirlər ki, ibtidai tədrisin üç ilində rəsmi dil Azərbaycan dili olsun. Kaş ki, Azərbaycan əhalisi heç olmasa, Qafqaz tatarlarının dilini və ya Azərbaycandakı fars ləhcələrindən birini özlərinə milli dil seçəydilər və biz də razılaşardıq ki, qədim ləhcələrdən biri olan “Azəri” dili yenidən xalqın övladları tərəfindən dirildilmişdir. Amma necə razı ola bilərik ki, cənablar tatar fatehlərinin dilini öz əcdadlarının dilindən üstün tuturlar?

Heç fikirləşmişsinizmi ki, dünyaya sanballı ədəbi əsərlər, faydalı kitablar və tarixi şəxsiyyətlər bəxş etmiş fars dilinin sərhədləri nə qədər genişdir. Sizin həmvətənləriniz indi də İranın hər yerində və elə Azərbaycanın özündə də bu dildə danışır və qeyri-adi istedada malik insanlar bu dildə əsərlər yaradırlar. Yaxşı olardı ki, dünya miqyaslı ədəbiyyatı olmayan, elmdə və ədəbiyyatda böyük adamlar yetirməmiş və indi də yetirməyən bir dilin arxasınca getməyəydiniz!

Əgər sizə dünyada yalnız bir dili seçmək təklifi edilsəydi, yaxşı olmazdımı ki, həmin dil fars dili olsun? Bu dil dünyanın böyük bir mədəniyyətinin dilidir və bu dildə çoxlu sayda kitablar yazılmışdır. Siz bu dili bilməklə öz iranlı qardaşlarınızla birlikdə bu ölkənin nemət və sərvətlərindən faydalana bilərsiniz”.[310]

Təəssüflər olsun ki, Tehran ziyalıları və şairləri Azərbaycan xalqının dili və milli kimliyi məsələsinə Azərbaycan dilini açıq şəkildə təhqir etməklə yanaşırdılar. Halbuki, Mirzə Həsən

[310] Hüseyn Təqəvi. İranda sosial hərəkatlar, səh.92.

Rüşdiyyə Nəsrəddin şah zamanında Azərbaycan dilini Azərbaycanda tərtib etdiyi “Vətən dili” kitabı vasitəsilə tədris edirdi. Bu adamlar türk (Azərbaycan) dilində tədrisin tarixini görməməzliyə vuraraq, Azərbaycan xalqının ən ibtidai tələblərinə münasibətdə belə ən pis təhqirlərə yol verirdilər. Onlar Mahmud Əfşarın, Abbas İqbal Aştiyaninin və Arif Qəzvininin anti-humanist ideyalarını reallaşdırırdılar. Arif Qəzvini belə demişdi:

*Zəban-e tork əz bəraye əz qəfa keşidən əst,*
*Səlah pa-ye in zəban ze məmləkət boridən əst.*
*(Türk [Azərbaycan] dili mərsiyə demək üçündür,*
*Məsləhətdir ki, bu dilin ayağını ölkədən kəssinlər.)*

Təəssüf olsun ki, bu anti-humanist təfəkkür mərkəzin əksər ziyalıları, onların hamiləri və Azərbaycandakı ucuz ardıcılları tərəfindən Azərbaycan Milli Hökuməti zamanında da qəribə şəkildə təbliğ olunmağa başladı. Onlar qələmlərinin gücünü Azərbaycan xalqının türk kimliyinin və dilinin təhqir edilməsinə sərf edirdilər. Onlar Azərbaycan xalqının qatı düşmənlərinin sırasında yer aldılar. Farspərəst qondarma ziyalılar Azərbaycanın işğalından sonra da Azərbaycan dilindən əl çəkmədilər, Azərbaycan dilinə və kimliyinə öz namərd hücumlarını davam etdirdilər. Onlar, hətta belə bir xəbis təklif də etmişdilər ki, Azərbaycan xalqı öz ana və milli dili əvəzinə fars dilini öyrənməlidir. Bununla bağlı Saridən İran parlamentinə deputat seçilmiş Yəmin İsfəndiyari “Ettelaat” qəzetinə verdiyi müsahibəsində Azərbaycanda Azərbaycan dilinin ləğv edilməsini istəmişdi. Həmin müsahibədən aşağıdakı parçalar təqdim edilir:

“Azərbaycanın xilasına şükür edib, orada fars dilini inkişaf etdirməliyik. Dil məsələsini başlı-başına və sadə hesab etmək olmaz. Bu cəhətdən bizə dəyəcək zərər kiçik deyil. Biz özümüzü aldatmamalıyıq. Azərbayca dilini yerli bir ləhcə hesab edib, təhlükənin özəyini saxlaya bilmərik. Elə bir iş görməliyik ki, bir iranlı belə bu dildə danışmasın və şirin fars dili bütün İrana yayılsın.

Mənim fikrimcə, bu iş üçün hərtərəfli və dəqiq bir plan hazırlanmalı, tam bir ciddiyət və diqqətlə icra edilməlidir. Məsələn, bir həftəni kitabları toplamaq üçün ayıraq və bütün xalqlarda qəbul olunduğu kimi, biz də həmin həftəni fars dilinin təbliğ və təşviqinə sərf edək.

On və yüz minlərlə kitab toplayıb bütün Azərbaycanda yayaq. Büdcəyə milyonlarla rial pul əlavə etmək və ya borc almaq yolu ilə də olsa, həmin ostanda yüzlərlə ibtidai və orta məktəblər yaratmağa başlayaq. Çoxlu sayda fars çapxanaları yaradaq ki, mətbuatı ucuz qiymətə hazırlayıb xalqa təqdim etsinlər. Azərbaycanın bütün savadlı adamlarını məcbur etməliyik ki, hər yerdə, istər evdə, istərsə də evdən kənarda aydın və bəlağətli fars dilində danışsın. Mülkədarlara, zavod sahiblərinə, kəndxudalara, dövlət idarələrinə və milli fondların rəhbərlərinə tapşırmalıyıq ki, tabeçiliklərində olan insanlara fars dilini öyrətsinlər. İkinci dərəcəli əhəmiyyət daşısa da, aşağıdakı maddələri də plana əlavə edək:

1. Azərbaycan dilində yazılmış bütün məktubları fars dilinə çevirək.

2. Hörmətli İran ailələrini bundan sonra türk adlarından istifadə etməməyə dəvət edək.

3. İnsanlara fars dilində danışmağı tövsiyə edən yüz minlərlə plakat hazırlayaq. Bu plakatlarda ecazkar ifadələr olsun və hər yerdə, o cümlədən yollarda, avtomobillərdə və digər yerlərdə quraşdırılsın.

4. Hələlik şəxsi məclislərdə Azərbaycan dilində danışan adamlara tövsiyə edək ki, birdəfəlik bu dildən əl çəksinlər və mənəvi bir öhdəlik götürsünlər ki, bir daha Azərbaycan dilində danışmayacaqlar. Onlara deyək ki, öz məclislərində belə azərbaycanca danışmaları bizim milli birliyimizi baltalayır və İranın bütövlüyünü zədələyir.

Siyasətin sirlərinə bələd olanlar bilirlər ki, dil məsələsini başlı-başına buraxmaq olmaz və yad bir dilin ölkədə yayılmasına icazə vermək olmaz. Gəlin, Azərbaycanın xilasına şükür edərək, and içək ki, var gücümüzlə fars dilinin yayılmasına və yad bir dilin qadağan olunmasına çalışacağıq. Arzu edək, bir gün yetişsin ki, bütün İranda şirin və ürəyə yatan fars dilindən başqa heç bir dil işlənməsin".[311]

## Saray ruhanilərinin tədrisin Azərbaycan dilində aparılmasına qarşı çıxmaları

İslam dininin bütün dilləri və xalqları rəsmi şəkildə tanımasına baxmayaraq, Nəcəfdə dini təhsil almış müqəddəs islam dininin təbliğatçıları Azərbaycan dilinin öyrənilməsinə qarşı çıxdılar. Onlar bu yolda hamıdan irəlidə gedirdilər və Azərbaycanda ana dilinin kökünü kəsmək üçün təkliflər verirdilər. Bu ruhanilərdən biri Mirzə Hüseyn Vaiz idi. O, Azərbaycan dilini məhv etmək üçün şaha təklif edirdi ki, Azərbaycana çoxlu sayda müəllimlər göndərməklə və fars dilini öyrətməklə Azərbaycan dilini məhv etsinlər. Şah ilə birlikdə Azərbaycana səfər etmiş "Ettelaat" qəzetinin baş redaktoru Məhəmməd Həsən Məsudi "Azərbaycana səfər xatirələri" adlı yazısında bu ruhani haqqında yazırdı:

"Cənab Mirzə Hüseyn Vaiz şahın mübarək hüzurunda ərz etdi ki, azərbaycanlıların şahdan çoxlu xahişləri vardır. Lakin, bu xahişlərin ən birincisi fars dilinin inkişaf etdirilməsidir. Biz dövlətdən xahiş edirik ki, uşaqları erkən yaşlarından fars dilinin şirinliyi və təbiəti ilə tanış edə biləcək kifayət qədər müəllim və tərbiyəçiləri Azərbaycana göndərsinlər. Onlar Azərbaycan uşaqlarını xoş fars təranələri ilə tanış etməlidirlər ki, tədricən yerli ləhcənin son təsirləri də məhv olsun".

---

[311] Məhəmmədəli Məsudi. Azərbaycana səfər xatirələrindən, "Ettelaat" qəzeti, 18.06.1947

## Təbrizdə və Azərbaycanın başqa şəhərlərində kitabların yandırılması

Tehran hökumətinin Azərbaycan Milli Hökumətinə bəslədiyi kin və nifrətin səbəblərindən biri Azərbaycan dilinin rəsmiləşdirilməsi, digəri isə Azərbaycanın muxtariyyətinin elan edilməsi idi. Bu iki məsələni bütün şahpərəstlər və Azərbaycan xalqının düşmənləri özlərinin bütün söhbət və məruzələrində dilə gətirirdilər. Onlar Azərbaycan dili və mədəniyyətinə bəslədikləri nifrətə görə bu mədəniyyətin köklərini və Milli Hökumət tərəfindən yaradılmış bütün mədəniyyət mərkəzlərini məhv etmək istəyirdilər. Beləliklə də, birdəfəlik Azərbaycan dilindən canlarını qurtarmaq istəyirdilər. Onların bu anti-bəşəri və anti-humanist ideologiyaları Azərbaycan dilinin mövcudluğuna dözə bilmirdi və onlar Azərbaycan dilinin kökünü kəsmək üçün anti-humanist və vəhşi bir əmələ əl atdılar. Onlar Azərbaycan xalqını və Təbrizin azadlıq sevərlərini qırmaqla yanaşı, Azərbaycan dilində olan kitabları da yandırmağa başladılar. Cənab Mehran Baharlı özünün "İfrat fars millətçiliyi və kitabyandırma mərasimi" adlı məqaləsində Təbrizdə və başqa şəhərlərdə Azərbaycan dilində olan kitabların yandırılması haqqında yazırdı: "Kitabların yandırılması qara "21 Azər" qırğınından sonra başladı. 1325-ci il azər ayının 26-da (17 dekabr 1946-cı il) İran şahənşah ordusu tərəfindən Azərbaycan işğal olunduqdan və dövlət xadimi Pişəvərinin başçılıq etdiyi Azərbaycan Milli Hökuməti süqut etdikdən sonra bütün kitablar, nəşrlər və başqa yazılar yığıldı və Təbrizin bir neçə nöqtəsində, həmçinin Azərbaycanın başqa şəhərlərində təşkil edilən mərasimlərdə Azərbaycan dilində yazılmaları bəhanəsi ilə yandırıldı. Bu kitabların yandırılmasının təşkilatçıları və icraçıları İran hökumətinin məmurları və qalib işğalçı ordunun nümayəndələri idilər. Həmin bu "təşkilatçılar" beş gün əvvəl Tehranın əmri ilə Azərbaycanın Milli Hökumətini yıxdıqdan sonra bir günün içində 12 min türkü qətliam etmişdilər və Azərbaycan şəhərlərində sel kimi qanlar axıtmışdılar. Bu cinayətlərin icra olunması əmri birbaşa İran dövləti tərəfindən və Tehrandan verilmişdi.

Kitabların yandırılması Təbrizlə eyni vaxtda Azərbaycanın başqa şəhərlərində də baş vermişdi. Təbrizdə kitabların yandırılması bir neçə məhəllədə, o cümlədən “Saat meydanı”nda, Təbriz meriyası qarşısındakı meydanda, pedaqoji məktəbinin qarşısında və bir çox məktəblərdə həyata keçirilmişdi. Hələ də sağ olan canlı şahidlərin dediklərinə görə, şagirdləri və ibtidai məktəb uşaqlarını sıraya düzdülər. Sonra onları məcbur etdilər ki, məktəbdə təhsillərini davam etdirməyə icazə almaq məqsədilə bir ucu atəşin şölələrində bitən sıralar təşkil edib, öz Azərbaycan dilində olan kitablarını, xüsusən “Ana dili” kitablarını “Yaşasın şah” deyə-deyə öz əlləri ilə tonqalın içinə atsınlar. Kitablarını oda atmaqdan imtina edən uşaqları bərk döydülər, ya da ovuclarına od basdılar.

Kitabların bu cür yandırılması elə geniş miqyasda icra olundu ki, Azərbaycan dilində olan kitabların və yazıların yanmasından qalxan qatı tüstü sütunları saatlarla şəhərin hər yerindən görünməkdə idi. Həmin gün Təbriz pedaqoji məktəbinin meydanında bir neçə azərbaycanlı cavan dar ağacından asılmışdı. Bəzi iddialara əsasən, bir neçə müəllim diri-diri odun içinə atılmışdı. Təbriz, Urmiya, Zəncan, Ərdəbil və s. şəhərlərdə bir çox mübariz ziyalıların evləri Azərbaycan dilində olan kitabların yandırılmasına qarşı çıxdıqlarına görə öz ailələri ilə birlikdə yandırıldı. Təbrizdə kitabyandırma faciəsi ilə eyni vaxtda yeni təsis edilmiş Azərbaycan Universiteti işğalçı qüvvələr tərəfindən dağıdıldı”.

Anti-türk qəzeti olan “Ettelaat” bu barədə xəbəri aşağıdakı titrlə nəşr etmişdi:

“Azərbaycan dilində olan kitablar yandırıldı!

Dünən Firdovsi adına orta məktəbdə şagirdlər və Təbriz əhalisii Rzaiyyə qəhrəmanı polkovnik Zəngənəyə təşəkkürlərini və sevinc dolu hisslərini bildirdilər. Dünən şəhər meriyasının qarşısında adamlar Azərbaycan dilində olan kitabları yandırdılar”.[312]

[312] “Ettelaat” qəzeti, 18.12.1946

Bu anti-humanist və anti–bəşəri cinayətlər dünyada yalnız türk millətinin düşmənləri tərəfindən törədilmişdir. Başqa yerlərdə bu cür cinayətlər nadir hallarda müşahidə edilir. Mədəniyyət və sivilizasiya iddiaları edən bu adamlar başqa xalqların mədəniyyətini və dilini məhv etmək üçün onların kitablarını yandırırlar ki, onları istismar etsinlər. Onlar başqa xalqların milli və tarixi yaddaşını məhv etmək istəyirlər.

Cəmil Həsənli ordu nümayəndələri tərəfindən kitabların yandırılması və Azərbaycanın mədəniyyət mərkəzlərinin məhv edilməsi haqqında belə yazır: "Bu hadisələrdən sonra Azərbaycan dilində nəşr edilmiş kitablar yandırıldı. Azərbaycan dilinin öyrədilməsi qadağan edildi. Universitet, milli teatr, filarmoniya və muzey bağlandı. Milli Hökumətin hakimiyyəti zamanı ucaldılmış Səttar xanın, Bağır xanın, Xiyabaninin heykəlləri götürüldü".[313]

Lakin, xaricilərə bağlı şahın tərəfdarı olan "Atəş" qəzetində Təbrizdə kitab yandırılması haqqında aşağıdakı məlumatı oxuyuruq: "Bu gün saat 11:30-da Təbrizin tələbə və şagirdləri tərəfindən şəhər meriyası qarşısındakı meydanda bir çox şəhər əhalisinin, mərkəzi mətbuat müxbirlərinin, ordu zabitlərinin və dövlət məmurlarının iştirakı ilə bayram şənliyi təşkil edildi. Əvvəlcədən meydanda böyük bir tonqal qalanmışdı və mənfur demokrat firqəsinin çap etdirdiyi və zorla uşaqlara tədris etmək istədikləri, klassik türk yazıçılarının çoxlu sayda kitabları iştirakçıların alqış və "ura" səsləri altında və "Yaşasın şahımız", "Yaşasın cənab Qəvvamüssəltənə", "Məhv olsun Azərbaycanın düşmənləri" və "Məhv olsun İrana xəyanət edənlər" şüarlarının müşayiəti ilə tonqala atıldı. [314]

"Atəş" qəzetinin məlumatından aydın olur ki, Azərbaycan dilində olan kitablar müxbirlərin iştirakı ilə yandırılmış və onlar da "ura" qışqırmışdılar. Yəqin ki, bu ilk kitab yandırma mərasimi idi

[313] Cəmil Həsənli. İran Azərbaycanı: Soyuq müharibənin başlanması, səh. 528-530.
[314] "Atəş" qəzeti, 18.12.1946

ki, özlərini qələm əhli hesab edən və həqiqətləri yazacaqlarını öhdələrinə götürmüş jurnalistlərin gözü qarşısında baş vermişdir.

Bu kitabyandırılma əməliyyatı o qədər çirkin və iyrənc bir iş idi ki, bir çox dünya azadlıqsevərləri buna inana bilmirdilər və elə fikirləşirdilər ki, bu, Azərbaycan Milli Hökuməti tərəfdarlarının bir təbliğat işidir. Çünki, jurnalistlərin iştirakı ilə ordunun bu çirkin işi törətməsi və jurnalistlərin bu əməli məhkum etməməsi heç bir ağıla sığmır. “Ettelaat” qəzeti 13.11.1325-ci il (02.02.1947) tarixli sayındakı baş məqaləsində hadisə ilə bağlı Türkiyənin “Cümhuriyyət” qəzetinin jurnalistinə bir cavab yazmışdı. Bu məqalə üzərində bir qədər düşünməyə dəyər. Türk jurnalisti kitabların yandırılmasına və küçələrin öldürülmüş adamların cəsədləri ilə dolmasına inanmamışdı. İndi həmin məqaləni olduğu kimi təqdim edirik. İlk öncə “Cümhuriyyət” qəzetinin “Ettelaat” qəzetində çap olunmuş məqaləsinin tərcüməsi verilir:

“Cümhuriyyət” qəzetinin bədbəxt Azərbaycan türklərinə ürəyi yanır. Bu gün Azərbaycan demokratları ruslara sığınıblar və Tehranın silahlı qüvvələri Təbrizə daxil olmuşdur. Təbriz küçələrinin Azərbaycanın muxtariyyəti tərəfdarlarının cəsədləri ilə dolu olmasını şayiə və kitabların yandırılmasını təbliğatın təsiri adlandırıb bir kənara qoysaq belə, iki həqiqi mövzunu diqqətdən kənarda qoymaq olmaz: biri budur ki, hərbi tribunallar çox məşğuldurlar və edam hökmləri elan etməklə başları qarışıqdır, ikincisi isə budur ki, Azərbaycanın muxtariyyət tərəfdarı olan Təbriz radiosu artıq Azərbaycan dilində danışmır. Bunların ardınca daha hansı xəbərlər yetişəcəkdir? Azərbaycan dili məktəblərdən, məhkəmələrdən və dövlət idarələrindən qovulacaqmı? Deyilənə görə, guya sayı 20 mindən çox olan və Azərbaycan dilində tədris edən müəllimlər hərbi məhkəmələrə çağırılmışlar? Tədrisin farslaşması, çapxanaların və Azərbaycan dilində olan qəzetlərin bağlanması doğrudurmu? Tirajları milyona çatan Azərbaycan dilindəki qəzetlərin nəşrinə icazə veriləcəkmi? Milli Hhökumətin bütün sosial-iqtisadi islahat-

larına bolşevik damğası vurulmuşdur. Bolşeviklərin kolxozlarından o qədər də fərqlənməyən xan hakimiyyəti yenidən bərpa edilir. Türkün bədxahlarına və düşmənlərinə meydan verilmişdir və Azərbaycanı azərbaycanlılardan boşaltmaq üçün onları karvanlarla İranın cənubuna köçürəcəklər. Yəni ərəb işğallarından sonra məhv edilmiş İranı dövlət şəklinə salmış və əsrlərlə onu idarə etmiş bədbəxt Azərbaycan türklərini qırmızı bəladan xilas olduqdan sonra öz hökumətləri fəlakətə doğru aparacaqdır...

Bütün bunları çatdıra biləcək bir xəbərin əldə edilməsi təsəvvür edilmir”.[315]

“Ettelaat” qəzetinin baş məqalə yazarının “Cümhuriyyət” qəzeti yazarına cavabına diqqət edək:

“Cümhuriyyət” qəzeti yazarının türk (Azəraycan) dilində olan kitabların yandırılması məsələsini bu şəkildə təhrif edib bəyan etməsi əslində Azərbaycan xalqının fars dilini sevməsinin bariz nümunəsidir. Çünki məktəblilər və türk yazarın qeyd etdiyi həmin müəllimlər bu işi öz əlləri ilə, hətta İran qoşunları Azərbaycan şəhərlərinə gəlməmişdən əvvəl etmişdilər. Ona görə ki, nə müəllimlər, nə də məktəblilər Pişəvəri tərəfindən onlara təhmil edilən Azərbaycan dilində tədrisə razı deyildilər. Yazarın qeyd etdiyi həmin 2 min nəfər müəllim isə uzun illər fars dilində dərs demiş müəllimlərdir. Onlar, ümumiyyətlə, fars dilini Azərbaycanın başqa ziyalı adamları kimi Azərbaycan dilindən daha yaxşı bilirlər. Buna görə də, Azərbaycanın savadlı adamları Azərbaycan dilində olan qəzetlərə nisbətən fars dilində olan qəzetlərdən daha yaxşı istifadə edirlər. Azərbaycanda ana dilində bir neçə qəzet nəşr olunsa da, bu qəzetlərin Azərbaycan xalqının istəkləri ilə heç bir əlaqəsi yoxdur və olmamışdır”.

Baş məqalə müəllifinin cavabı haqqında fikir yürütməyi oxucuların ixtiyarına buraxırıq. Çünki, bu gün kitabların toplanılması və

[315] “Ettelaat” qəzeti, 02.02.1947

onların yandırılmasında ordunun yaxından iştirak etməsi haqqında etibarlı və inkaredilməz faktlar mövcuddur.

Heç bir siyasi təşkilat bu dəhşətli cinayətlərə etiraz etmədi. Yalnız bizim Şimali Azərbaycandakı qardaş və bacılarımız, həmişə olduğu kimi, bizim əlimizdən tutdular və bizə kömək etdilər. Onlar uca bir səslə bu təcavüz və ədalətsizliyə etiraz etdilər. Onlar bəşəriyyətə bu cinayətlər haqqında məlumatlar verdilər. Parisdə Ümumdünya Sülh Konfransında iştirak edən Səməd Vurğun “Yandırılan kitablar” adlı şerilə Azərbaycan xalqının etirazını dünya ictimaiyyətinə çatdırdı.

## Ərdəbildə “Cövdət” mətbəəsinin yandırılması

O dövr üçün müasir çap maşınlarına malik Ərdəbildəki Cövdət mətbəəsi orduya bağlı olan adamlar tərəfindən qarət edilib, yandırıldı.

## Təbrizdə Azərbaycan incəsənət xadimlərinin öldürülməsi

İran ordusunun Azərbaycana hücumu və Azərbaycanda soyqırımın başlanması ilə Təbrizin bir çox incəsənət xadimləri Tehran hökumətinin himayədarları tərəfindən faciəli şəkildə öldürüldülər.

Bu mövzunu işıqlandırmaq üçün onlardan bir neçəsinə işarə edirik.

Doktor Behzad Behzadi azərbaycanlı tələbələrlə kitabça şəklində çap edilmiş müsahibəsində Həsən Zülfiqarzadənin Təbrizdə qətl edilməsini belə şərh edir:

“Burada Təbriz rəssamı Həsən Zülfüqarzadənin başına gələnlər haqqında danışmağı münasib hesab edirəm. O, 1297-ci ildə (1918) Təbrizdə dünyaya göz açmış və kimsəsiz uşaqlar evində boya başa çatmışdı. Müəllimlərin təlim-tərbiyəsi altında onun rəssamlıq sahəsində parlaq istedadı üzə çıxdı. 1946-cı ilin ortalarında o, cani və

quldurların Behzad rəssamlıq muzeyinə hücumları zamanı sənət əsərlərinin məhv edilib dağıdılmasına qarşı çıxdı. O, başkəsənlər tərəfindən yaralandıqdan sonra həbs edildi və bir neçə gündən sonra Surxab dağının qarlı ətəklərində edam edildi. Fəkur adında xanım aşağıdakı bu gözəl cümlə ilə onun əziz xatirəsini yad etmişdi:

“Beləliklə, Həsən Zülfiqarzadə Təbrizin buludlu səması altında, qar və buz ilə örtülmüş bir yerdə öz qanı ilə qarın üzərində axırıncı rəsm əsərini yaratdı. O, öz sənətinin müdafiəsinə qalxmış ilk rəssam idi. Xatirəsi əziz olsun!”

Azərbaycanın vurğunu olan şair Əli Fitrət şah tərəfdarlarının əlilə öldürüldü. Əli Fitrət 1268-ci ildə (1890) anadan olmuşdu. Təbrizdə şeir fəallarından idi. Azərbaycanın işğalından sonra həbs edildi və iki il Tehranda həbsxanada qaldı. 1948-ci ildə həbsdən azad edildi və sonra irticaçılar tərəfindən öldürüldü.

Səid Yüzbəndi: 1279 (1900)-cu ildə anadan olmuşdur. O həm şair idi, həm də Təbriz teatrında aktyorluq edirdi. Mərkəzi hökumətə bağlı silahlı adamlar tərəfindən Təbrizdə öldürüldü.

Məhəmməd Bağır Niknam: şəmsi tarixi ilə 1300-cü ildə (1921) Təbrizdə anadan olmuşdur. O, həm Təbriz kibrit zavodunda işləyirdi, həm də şair idi. Təbriz “Şairlər məclisi”nin üzvü idi. Müstəmləkəçilərin əli ilə öldürüldü.

Əli Hacizadə: teatr aktyoru idi. Həbs edildikdən sonra Tehrana sürgün edildi və sürgündə vəfat etdi.

## Ticarət mərkəzlərində Azərbaycan dilində yazıların qadağan edilməsi

İran ordusu Təbrizdə yerləşdikdən sonra Milli Hökumətdən qalmış bütün plakat və nişanları onların yaxşı və ya pis olmasından asılı olmayaraq məhv etməyə başladı. Hər şeyi Azərbaycan xalqının yaddaşından silmək istəyirdilər ki, yuxularında belə həmin günlərə qayıtmaq istəməsinlər. Bu səbəbdən onlar bütün sahələrdə, o

cümlədən ticarət və mülkiyyət sənədlərində Azərbaycan dilindən istifadə edilməsini qadağan etdilər. Bununla bağlı Azərbaycandakı qoşunların komandanlığı tərəfindən "Ettelaat" qəzetinin 09.01.1947-ci il tarixli sayında aşağıdakı elan nəşr edilərək Təbrizdə yayıldı: "Bəzi ticarət müəssisələrində avantüristlər dövründən qalmış və indiyə qədər istifadə edilən sənədlər vardır. Bunu nəzərə alaraq, hamının nəzərinə çatdırılır ki, avantüristlərin müəyyən etdiyi bütün qaydalar və rüsumlar ləğv edilir. Yalnız İran Milli Məclisinin və İran hökumətinin təsdiq etdiyi sənədlər icra və istifadə olunacaqdır.

Mərkəzi dövlətin qanun və qaydalarına riayət etməyən şəxslər təqib edilib, cəzalandırılacaqlar."

## "Danışır Təbriz" radiosunun tutulması və dilinin dəyişdirilməsi

Təbriz radiosu 26.01.1325-ci il (15.04.1946-cı il) tarixindən sınaq müddətində olmaq şərtilə və 6.02.1325-ci il (26.04.1946-cı il) tarixindən isə Azərbaycanda rəsmi şəkildə işə başladı. "Danışır Təbriz" radiosu səsini ucaltdığı aylar ərzində Azərbaycan xalqına çoxlu məlumatlar çatdırırdı. Cənab Məhərrəmli özünün "Təbrizin səsi" adlı kitabında belə yazır: "Milli Hökumətin baş nazirinin müavini cənab Mirqasım Çeşmazər radionun rəisi təyin edildi. Aprel ayının 7-dən başlayaraq Təbriz radiosu davamlı şəkildə proqramlarını yaymağa başladı. Bu hadisə Azərbaycan xalqının azadlıq hərəkatında unudulmaz bir hadisə sayılır.

Azadlığın ləzzətini dadmış olan Azərbaycanın qeyrətli xalqı hər gün saat 15-dən sonra Təbriz radiosuna qulaq asardılar. İlk günlərdə bu radio öz proqramlarını 310 metr uzun dalğada 2,5 saat yayardı. Həmin günlərdə radio aparatlarının qıtlığı və maddi imkanların azlığı üzündən hər evdə radio yox idi. Bu nöqsanın aradan qaldırılması üçün Təbriz küçələrinin ayrı-ayrı yerlərində səsucaldan qurğular quraşdırılırdı. Radionun proqramları başlayan zaman əhali

dəstə-dəstə bu səsucaldanların ətrafına toplaşırdılar və Təbriz radiosuna qulaq asırdılar. O günlərdə Təbriz Tehrandan sonra radio ötürücüsü olan ikinci böyük şəhər idi. Təbriz radiosunun gücü Tehran radiosunun gücündən 6 dəfə çox idi. Tehran radiosundan fərqli olaraq, Təbriz radiosu həm də qısa dalğalar üzərində tənzim edilmişdi.

Təbriz radiosunun proqramlarının yayılmağa başlaması fövqəladə bir hadisəyə çevrildi, insanlar bu tarixi hadisəni sevinclə qarşıladılar. Həmin gün hər bir azərbaycanlının həyatında unudulmaz bir gün kimi həkk olundu”.[317]

Təbriz radiosu informasiya yayımını genişləndirmək üçün Azərbaycan dilindən başqa, digər dillərdə də xəbərlər yayırdı. Cənab Məhərrəmli “Təbrizin səsi” kitabında bu barədə belə yazır: “Təbriz radiosu Azərbaycan dilindən başqa fars, rus, fransız və ərəb dillərində də xəbərlər yayırdı”.[318]

Qaniçən və viranedici şahənşah ordusu tərəfindən Azərbaycan işğal edildikdən sonra bu radionun səsi də söndürüldü və dili dəyişdirildi. Cənab Məhərrəmli bu barədə yazır: “Xalqın bu aydın və bəlağətli səsi, yəni Təbriz radiosu da İranın qarətçi hərbi qüvvələrinin işğalına tuş gəldi. İndi bu radio artıq başqa dildə və başqa üsulla danışırdı”.[319]

“Atəş” qəzeti işğaldan sonra Təbriz radiosunun idarə edilməsi h aqqında yazırdı:“Dünəndən başlayaraq təbliğat idarəsi və Təbriz radiosu Mənuçehr İrani, polkovnik-leytenant Kuşan və Kənaninin nəzarəti altında təşkil edilmiş komissiya tərəfindən idarə olunur.”[320]

---

[317] Məhərrəmli, Təbrizin səsi, tərcüməçi B.Təbrizli, səh. 26.
[318] Yenə orada, səh. 28.
[319] Məhərrəmli, Təbrizin səsi, tərcüməçi B.Təbrizli, səh. 45.
[320] “Atəş” qəzeti, No 57.

## Musiqi və incəsənət mərkəzlərinin, kitabxana və teatrların bağlanması

Milli Hökuməti qətiyyətlə incəsənət, ədəbiyyat və musiqi hökuməti adlandırmaq olar. Çünki, hökumət getdiyi hər yerdə bir mədəniyyət və incəsənət mərkəzi açırdı ki, insanlar öz zəngin mədəniyyətlərindən xəbərdar olsunlar. Onlar Azərbaycanın əsl mədəniyyətini və incəsənətini insanlara tanıtdırmaq istəyirdilər.

Teatr sənəti Milli Hökumət zamanında çox inkişaf etdi. Çünki, Təbrizdə teatrın qədim tarixi var idi. Çoxlu sayda teatr sənətkarları Şimali Azərbaycanda və Qafqazda təhsil almış və Təbrizə gəlmişdilər. Məsələn, Hacızadə Tiflisdə teatr sahəsində təhsil almış və səhnə sənətini öyrənmişdi. O, Milli Hökumət qurulduqdan sonra görkəmli bir sənətkara çevrildi. Hacızadə satirik komediyalarda iştirak edərək, Azərbaycan xalqının şüurunu təmizləyirdi.

Bu dövrdə milli musiqinin inkişaf etməsi inkaredilməzdir. Təbrizdə ilk dəfə milli musiqi orkestri fəaliyyət göstərməyə başladı. Həmçinin, bütün şəhərlərdə yerli mahnı və rəqs ansamblları təşkil edildi.

Milli Hökumət mədəniyyət və incəsənət mərkəzlərinin tikilməsini öz vəzifələrindən biri hesab edirdi. Hökumət qərara almışdı ki, bütün şəhərlərdə kino-teatrlar açılsın. Təəssüflər olsun ki, İran ordusunun hücumu və Azərbaycan xalqının qırılması nəticəsində bu mədəniyyət mərkəzlərinin açılışı yarımçıq qaldı.

İşğalçılar həmçinin filarmoniyanı, Milli Məclis kitabxanasını, teatr mərkəzini və Təbriz milli orkestrinin işlədiyi binanı yandırdılar.

## Təbriz Universitetinin zəbt və qarət edilməsi

22 xordad 1325-ci ildə (12 iyun 1946) Təbrizdə ilk universitet təsis edildi. Universitet üç ixtisas - tibb, kənd təsərrüfatı və pedaqoji ixtisaslar üzrə tələbə qəbul etdi. Universitetin laboratoriyası və

kitabxanası var idi. Ordunun hücumundan sonra hər ikisi qarət edildi.

Polis idarəsinin gizli raportlarında bu barədə deyilirdi: “18 esfənd 1325-ci il (9 mart 1947) tarixində 18:30-da İranın “Birlik” partiyasının təxminən 250 nəfər üzvü partiyanın keçmiş “Qrand otel”dəki iclas zalında həftəlik hesabata qulaq asmaq üçün toplaşmışdılar. Zərrinəbaf özünün Azərbaycana səfəri haqqında hesabat verdi. O dedi: “Azərbaycanın vəziyyəti dövlət məmurlarının təzyiqi və rüşvətxorluğu baxımından çox pisləşmişdir. Dövlət məmurları Azərbaycana daxil olduqları ilk andan Milli Hökumət zamanında idarələrdə olan dövlət avadanlıqlarını qarət etmişlər. Xüsusilə, son zamanlar Milli Hökumətin tibb fakültəsi üçün SSRİ-dən aldığı laboratoriya avadanlıqları tamamilə məhv edilmişdir və harada olduğu məlum deyildir. Tələbələr açıq şəkildə bildirmişlər ki, dövlət məmurları gəlməmişdən öncə laboratoriyanın bütün avadanlığı yerində idi. Lakin indi məlum deyildir ki, mədəniyyət idarəsinin başçıları onları hara aparmışıar”.[321]

## Azərbaycan dilində olan qəzetlərin bağlanması

Milli Hökumətin hakimiyyətə gəlməsindən sonra qəzetlərin və mətbuat vasitələrinin nəşri genişləndi. Azad mətbuatın nəşrinə 1941-ci ilin avqustundan başlansa da, Milli Hökumətin hakimiyyəti dövrü Azərbaycan mətbuatı üçün bahar fəsli oldu.

Bu dövrdəki mətbuatın əsas xüsusiyyəti ondan ibarət idi ki, mətbuat orqanlarının əksəriyyəti Azərbaycan dilində nəşr edilirdi. Azərbaycan dilində nəşr edilən qəzetlər aşağıdakılar idi:

- “Azərbaycan”
- “Şəfəq”

[321] Məcid Təfreşi, Mahmud Tahir Əhmədinin tərtibatında. Polis idarəsinin gizli raportları (1945-1947), I cild, səh. 259-260.

- “Günəş”
- “Mədəniyyət”
- “Yumruq”
- “Demokrat”
- “Yeni Şərq”

## Zəncan mədəniyyət mərkəzlərinin bağlanması

İran ordusu Zəncana daxil olduqdan sonra demokrat firqəsinin hakimiyyəti dövründə həyata keçirilmiş bütün mədəni tədbirləri ləğv etdi. “Keçmiş gələcək yolun çırağıdır” kitabında bu barədə aşağıdakıları oxuyuruq: “Jandarmlar, Tehrandan göndərilmiş başkəsənlər və quldurlar qətl, qarət və təcavüz üçün hərbi komandanlıqdan aldıqları “xüsusi icazə” əsasında təkcə insanların asayiş və rahatlıqlarını əllərindən almadılar, onlar şəhərin gözəllik və abadlığına da zərər vurmuşdular. Məsələn, Milli Hökumət zamanında tikilmiş “Azər” kino-teatrı dağıdıldı. Hətta, Milli Hökumət tərəfindən Zəncanın bəzi küçələrinə döşənmiş asfalt söküldü”.[322]

## Müəllimlərin həbs edilib, sürgünə göndərilməsi

Azərbaycanın işğalından və Azərbaycan dilində olan kitabların yandırılmasından sonra Azərbaycan dili müəllimləri də həbs edilib zindana salındılar. Bu müəllimlərin arasında ən məşhuru həbsdən sonra İranın cənubuna sürgün edilmiş Gəncəli Səbahi idi. Ərdəbilli Seyid Əli Qərəşizadə sürgündə şəhid oldu. Azərbaycanın başqa şəhərlərində də Azərbaycan dili müəllimləri həbs edilib, zindanlara atılırdılar. Məsələn, Mərənddə Azərbaycan dili müəllimləri həbs edilib, zindanlara salınmışdılar.

[322] Keçmiş gələcək yolun çırağıdır, səh. 410.

## Bizim həmişəki dəstəkçilərimiz, Şimali Azərbaycandakı qardaş və bacılarımız

Bu soyqırımda Cənubi azərbaycanlıların dərdinə və yarasına yeganə məlhəm qoyanlar Şimali Azərbaycandakı qardaş və bacılarımız oldular. Onlar həmişə olduğu kimi, qucaqlarını bizim üzümüzə açdılar, göz yaşlarımızı sildilər, çörəklərini qardaş və bacıları ilə bölüşdülər və nəhayət, panfarsistlərin zülmündən, qırğınından qaçmış qardaş və bacılarının üzünə evlərini açdılar. Halbuki, Tehranda Azərbaycan xalqının qətliam edilməsini bayram edirdilər.

Şimali Azərbaycandakı qardaş və bacılarımız cənubdan olan Azərbaycan balalarının yaralarını bağladılar və soyqırımından canını qurtarmış gənclərə su və çörək verdilər.

İranın cənubundakı yerli əhali Azərbaycandan sürgün edilənlərlə pis davranıb, onlara düşmən gözü ilə baxdıqları halda, Şimali Azərbaycandakı qardaş və bacılarımız soyqırımdan qaçanlara ev verib, onları ev sahibləri etdilər. Kimlərin bizə qardaş, kimlərin isə bizə düşmən olduğu belə aydın oldu.

Şimali Azərbaycandakı qardaşlarımız bu soyqırımla bağlı açıq şəkildə etiraz səslərini qaldıran yeganə insanlar idilər. Onlar Azərbaycandakı mədəni soyqırımı və kitabların yandırılması xəbərlərini bütün dünyaya yaydılar.

Bu işlər bu günlərdə də təsdiq olunmaqdadır. Şimali Azərbaycandakı qardaş və bacılarımız heç bir qarşılıq istəmədən bizim bəşəri hüquqlarımızı müdafiə edirlər. Onlar həmişə, bütün hallarda bizim daimi köməkçilərimizdirlər.

# *Fəsil IX*

# "21 AZƏR" ŞƏHİDLƏRİ

## Zəncan şəhidləri

1.Şeyx Məhəmməd Əli Al İshaq (ruhani)
2. Yunis Əlizadə
3. İsmayıl Heydəri
4. Həmzə Quliyev
5. Qurban Mühacir
6. Zülfəli Məhəmmədəlizadə
7. Həsən Əfşari
8. Heydər Şəddadiyan
9. Qulam Paşa
10. Möhsün Vəziri
11. Əsədulla Zari. Bu şəxs 1275-ci (1896) ildə Zəncanın ətraf kəndlərinin birində anadan olmuşdu. Təlim və tərbiyə idarəsində işə girmişdi. Mahmud Zülfiqarinin adamları tərəfindən Zəncanda şəhid edildi.

## Astara şəhidləri

1. Əmir Xəşirayi
2. Şir Əmin
3. Məhəmməd Çardolu. Bu adam Hüsaməddin xan Məcidi tərəfindən şəhid edilmişdir.
4. Şəhid Firudin İbrahimi. 1279-cu ilin aban ayının 29-da (20 noyabr 1900-cu il) Astara şəhərində anadan olmuşdu. Firidunun

atası Mirzə Qəni də siyasi bir adam olmuşdur. Rza xan zamanında siyasi məhbus kimi həbsdə olmuşdur. Firudin Tehranda hüquq ixtisası almışdı. O, "Ajir" qəzetində şəhid Pişəvəri ilə əməkdaşlıq edirdi. Milli Hökumət qurulduqdan sonra o, Təbrizə gəldi və Azərbaycanın baş prokuroru təyin edildi. Onun Tehranın panfarsistləri ilə çoxlu yazılı mübahisələri olmuş və Azərbaycanın hüquqlarının müdafiəsində "Azərbaycan söhbət edir" adlı bir kitabça yazıb, çap etdirmişdi. Azərbaycanın işğalından sonra o, axırıncı gülləsinədək müqavimət göstərmişdi. Həbs edildikdən sonra Tehrana aparıldı və Azərbaycanın "ariyalı" cəlladı Təbrizə səfər edərkən onu təyyarə ilə Tehrandan Təbrizə gətirdilər. Firidun İbrahimi 1 xordad 1326-cı il (23 may 1947) tarixində Gülüstan bağının qarşısında şəhid edildi.

5. Mir Əyyub Şəkiba 1282-ci (1903) ildə Astarada anadan olmuşdu. Cəngəlilər hərəkatında iştirak etmişdi və Rza xanın zindanlarında olmuşdu. Demokrat firqəsi mərkəzi komitəsinin üzvü idi. Urmiya mədəniyyət idarəsinə başçılıq edirdi və orada da şəhid oldu.

## Miyana şəhidləri

1. Məhəmməd Şikari Qızılüzən çayının sahilində Zülfiqarilərin başkəsənləri tərəfindən şəhid edilmişdir.

2. Kapitan Qulam Hüseyn Nasiri piyada qoşunları kapitanı, 1285-ci ildə (1906) Miyanada anadan olmuşdu. Demokrat firqəsinə qoşulduqdan sonra mayor dərəcəsi aldı. Təbrizdə milli ordunun başqa zabitləri ilə birlikdə şəhid edildi.

3. Teymur Mədədi Gərmrud çayının ətrafındakı kəndlərin birində 1280-ci ildə (1901) anadan olmuşdur. Milli ordunun kapitanı idi və "21 Azər" medalı ilə təltif olunmuşdu.

4. Doktor Nüsrət Bağıri 1283-cü ildə (1904) Qaraçəmən adlanan yerdə doğulmuşdu. "21 Azər" medalı ilə təltif edilmişdi. Təbrizdə mərkəzi hökumətin başkəsənləri tərəfindən şəhid edilmişdir. Onu

evindən çıxarmış və öz övladlarının gözü qarşısında güllələmişdilər. Sonra isə onun cansız bədənini küçələrdə gəzdirmişdilər.

5. İsrafil Qadiri 1295-ci ildə (1916) Xoşginabda anadan olmuşdu. “21 Azər” medalı ilə təltif edilmişdi.

## Ərdəbil şəhidləri

1. Sarı İsmayıl adı ilə məşhur olan İsmayıl Həkkak 1267-ci ildə (1888) Ərdəbilin Ağabağır kəndində anadan olmuşdu. Ərdəbil bələdiyyəsinin müavini idi. İran ordusu tərəfdarları onu şəhid etdikdən sonra cəsədini balta ilə doğramışdılar. Cansız meyidini küçələrdə gəzdirmişdilər.

2. Sərdar Xorşa 1280-cı ildə (1901) Ərbədilin Yurdçu və ya Muğanlı kəndində anadan olmuşdu. “21 Azər” medalı ilə təltif edilmişdi.

3. Ustad Vəli Salmani

4. Şükrulla xan

5. Vəli Goruslu

6. Məhəmmədağa Məzlumi (Məşrutə hərəkatının iştirakçılarından olmuşdur).

7. Hüseyn Cəlayi

8.Yəhya Şeyxi, leytenant, 1300-cü ildə (1921) Ərdəbildə doğulmuşdu. “21 Azər” medalı ilə təltif edilmişdi. Xalxal fədailərinin komandiri idi. 1946-cı ildə həmin şəhərdə şəhid edildi.

9. Şahmar Səmədi 1265-ci ildə (1886) Ərdəbil kəndlərinin birində anadan olmuşdu. Məşrutə hərəkatında və Şeyx Məhəmməd Xiyabanı qiyamında iştirak etmişdi. Demokrat firqəsinin üzvü idi. Meşkinşəhrdə şəhid olmuşdur.

10. İmanəli Ağaəli oğlu 1266-cı ildə (1887) Ərdəbilin Ağabağır kəndində anadan olmuşdu. Ənənəvi həkim idi. “21 Azər” medalı ilə təltif edilmişdi.

11. Əjdər Kərimi 22 yaşında

12. İmran Kərimi 18 yaşında və nişanlı

13. Əmin Kərimi 13 yaşında

14.Babək Kərimi Şirxar oğlu (Ərdəbilin ətraf xanları Darbəy Arallının və yalandan ruhani libası geyinmiş Əhmədinin bu dörd qardaşın şəhadətə yetirilməsində əlləri olmuşdur. Bu dörd qardaşın anaları uzun müddət onların qana bulaşmış köynəklərini saxlamış və səbəbkarlardan Tehrana şikayətlər göndərmişdi. Ancaq şikayətlərə qulaq asan olmamışdı).

15. Seyid Əli Qərəşizadə sürgündə şəhid olmuş müəllim

16. Quru qoşunları kiçik leytenantı İbrahim Söhrabi

17. Leytenant Bəhmən Danişvər

18. Piyada qoşunları leytenantı Yəhya Şeyx

19.Ağadadaş Dorostkar, 1299-cu ildə (1920) Ərdəbildə doğulmuşdu. Demokrat firqəsinin Van rayonu üzrə məsul üzvü idi.

20. Əkbər Bənayi

21. Rəhim Səməd oğlu

22. Hüseyn Təraşi

23. Nəbi Qənbəri (Ərdəbil kəndlərinin birində şəhid olmuşdur).

24. Məhərrəm İnşai, 1288-ci ildə (1909) Ərdəbilin Zirehnas deyilən yerində anadan olmuşdu. Neft mühəndisi idi. Ərdəbil firqə təşkilatının şöbə rəisi idi. “12 Şəhrivər” iclasında qanunvericilik komissiyasının üzvü olmuşdur. Sonralar firqə tərəfindən Urmiya siyasi idarəsinin rəisi təyin edilmişdi. Urmiyada hərbi məhkəmədən sonra şəhid edildi.

25. Əli Süleymanpur.

26. Səadət xan Süleymanpur

Aşağıdakı adamlar Ərdəbilin Səmrin kəndində qətliam edildilər.

1. Həmdulla Əziz oğlu
2. Fərzad Muradəli oğlu
3. Mir Ələkbər Seyidəli oğlu
4. Qulamrza Rüstəm oğlu
5. Mir İsmayıl Seyid Hüseyn oğlu

6. Mənsur Rüstəm oğlu
7. Kərim Əbülfəzl oğlu
8. Möhsün Cahangir oğlu
9. Ağaoğlan Abbasqulu
10. Rza Qurbanəli oğlu
11. Feyzulla Qurban oğlu
12. Cəbrayıl Vahab oğlu
13. Çilovxan Əbdülmənaf oğlu
14. Plovxan Əbdülmənaf oğlu
15. Yusif Qara Əbdülmənaf oğlu
16.Sürəyya xanım Bayramqulu qızı. İgid Şahsevənli qızı. Beş günlük müqavimətdən sonra vədlər verilməsi ilə səngəri tərk etdi və namərdcəsinə şəhid edildi. Güllələndiyi vaxt o demişdi: “Bu sizin üçün qələbə və zəfər deyildir. Tarix əhd-peymanı pozan adamları nifrətlə xatırlayacaqdır. Qatillər və xainlər bu müamilədən xeyir götürməyəcəklər. Azərbaycan oğulları mənim intiqamımı alacaqlar. Azadlıq ağacı qanla sulandığı üçün daha çox meyvə verəcəkdir”.
17. Soltan Baba Nəsir oğlu

## Təbriz şəhidləri

1. Əli Qəhrəmani Basmıncda şəhid oldu.
2. Calal Qarabaği
3. Rəhim Əkbər oğlu
4. Allahverdi
5. Mayor Sadıq Ənsari
6. Əli Hacızadə, aktyor, Tehranda sürgündə şəhid oldu.
7. Əli Fitrət (şair) 1268-ci ildə (1889) anadan olmuşdur. Təbrizin fəal şairlərindən olmuşdur. Azərbaycanın işğalından sonra həbs edilmiş və iki il müddətində Tehranda zindanda qalmışdır. Zindanda aldığı işgəncələr nəticəsində şəhid olmuşdur. “Bayquş və bülbül”, “Fitrətin divanı” əsərləri ondan yadigar qalmışdır.

8. Həsən Zülfiqarzadə Ərjəngi (rəssam) 1297-ci ildə (1918-ci ildə) Təbrizdə anadan olmuşdur. Mirzağa Mömini, Ərjəngi, Mir Məsumi kimi nəqqaşların hüzurunda təhsil aldıqdan sonra özü mahir rəssam olmuş və “Əyirici”, “Boyaq dəyirmani”, “Qala üstündə” “Şəhidlər məzarı üstə”, “Məşrutə şəhidləri”, “Fədailər” və s. kimi mühüm rəsm əsərləri yaratmışdır. 1946-cı ildə şəhid oldu və bir müddət cənazəsini dəfn etməyə icazə vermədilər.

9. Abbas Qəhrəmani, 1283-cü ildə (1904) Təbrizdə anadan olmuşdur. Lahutinin qiyamında iştirak etmişdi. Milli Hökumət zamanı nəqliyyat idarəsinin rəisi işləmişdir. Ərdəbilin Hacı Mahmud kəndində həbs edilmiş və Ərdəbilin Qala meydanında şəhid olmuşdur.

